# Mehriban Əliyeva

TƏRƏQQİ VƏ YÜKSƏLİŞ YOLLARI İLƏ

*(2 cilddə)*

BAKI – 2014

Elmi redaktor və ideya müəllifi:
**Aqiyə Həbib qızı NAXÇIVANLI,**
*siyasi elmlər doktoru, professor*

Elmi məsləhətçi:
**Kamilə Ramiz qızı ƏLİYEVA,**
*psixologiya elmləri doktoru, professor*

**"Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə"** *(2 cilddə).* **II cild.** 388 səh.
*(Azərbaycan dilində).*

***Kitabda YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Azərbaycan təhsilinin və mədəniyyətinin inkişafı sahəsində gördüyü işlər, ölkəmizi beynəlxalq aləmdə yüksək səviyyədə təmsil etməsi və xeyriyyəçilik fəaliyyəti ilə bağlı materiallar toplanmışdır.***

***Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab Mehriban xanım Əliyevanın nəcib və xeyirxah əməlləri, onun Azərbaycanın dünyada tanınmasında, tərəqqisi və çiçəklənməsində müstəsna rolu ilə daha yaxından tanış olmaq baxımından mühüm əhəmiyyət kəsb edir.***

ISBN 978-9952-435-38-2
ISBN 978-9952-435-39-9



*· VI fəsil ·*

# Azərbaycan qadınının diplomatik fəaliyyətinin bəzi cizgiləri



## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN TEHRANDA GÖRÜŞLƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin yanvarın 24-də Tehranda İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəminin xanımı Zəhra Sadeqi Xatəmi ilə görüşmüşdür.

Xanım Zəhra Sadeqi Mehriban xanım Əliyevanı böyük hörmətlə və ehtiramla qarşılayaraq, Azərbaycanın birinci xanımının İrana səfərə gəlməsindən məmnunluğunu bildirmişdir.

Mehriban xanım Əliyeva Tehranda səmimiyyətlə qarşılandığına, burada ona xoş münasibət göstərildiyinə görə təşəkkür etmişdir.

Yanvarın 24-də YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva İran Mərkəzi Bankı nəzdindəki Ləl-cəvahirat muzeyi ilə tanış olmuş, zəngin və çox gözəl olan muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.

Azərbaycan Prezidentinin xanımı Tehrandakı xalça muzeyində də olmuşdur. Mehriban xanım Əliyevaya məlumat verilmişdir ki, burada İranın qədim və zəngin xalçaçılıq sənətinə aid minlərlə əl işi saxlanılır. Xalçalar arasında Təbriz xalçaçılıq məktəbinin nümunələri diqqəti daha çox cəlb edir. Ümumiyyətlə, İranın dekorativ-tətbiqi sənətində toxuculuq və xalçaçılıq mühüm yer tutur və onun əsas mərkəzləri Təbriz, Kaşan, Kirman, İsfahan və Yəzd şəhərləridir.





Mehriban xanım Əliyeva burada xalçanın toxunma prosesini izləmiş, miniatür sənətindən ibarət sərgiyə və muzeydə nümayiş etdirilən digər dəyərli eksponatlara, əl işlərinə də baxmışdır.

İranın qədim tarixinə, etnoqrafiyasına aid eksponatlar, o cümlədən müxtəlif dövrləri əks etdirən məişət əşyaları, incəsənət nümunələri hörmətli qonaqda böyük maraq doğurmuşdur.

Yanvarın 25-də YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva İranın sabiq prezidenti, Dövlət Məsləhət Şurasının sədri Əli Əkbər Haşemi Rəfsəncaninin qızı Fatimə Rəfsəncanini onun xahişi ilə qəbul etmişdir.

Görüş zamanı Fatimə Rəfsəncani rəhbərlik etdiyi Xeyriyyə Fondunun fəaliyyəti və həmin Fondun bilavasitə yardımı ilə təşkil olunan Xüsusi Xəstəliklər Mərkəzinin talassemiya, hemofiliya, şəkərli diabet və böyrək xəstəlikləri olan insanlara tibbi yardım sahəsində gördüyü işlər barədə qonağa ətraflı məlumat vermişdir.

Mehriban xanım Əliyeva Tehranda İranın sonuncu şahı Məhəmməd Rza Pəhləvinin sarayını ziyarət etmişdir. Hörmətli qonağa məlumat verilmişdir ki, 73 il əvvəl tikilmiş sarayda 1970-ci illərin axırlarında əsaslı bərpa işləri aparılmışdır. Şahın evindəki əksər əşyalar vaxtilə Fransadan gətirilmişdir. Bəzək işlərinin əksəriyyəti qızıldandır. Saraydakı yundan toxunmuş 121 kvadratmetrlik xalça diqqəti daha çox cəlb edir.

Azərbaycan Prezidentinin xanımı sarayın ayrı-ayrı otaqlarını gəzmiş, məişət və bəzək əşyalarına baxmışdır.

Elə həmin gün xanım Mehriban Əliyeva Xüsusi Xəstəliklər Mərkəzi ilə də yaxından tanış olmuş, buradakı şəraitlə maraqlanmışdır.

Xanım Mehriban Əliyeva rəhbərlik etdiyi Heydər Əliyev Fondunun şəkərli diabet xəstəliyinə tutulan uşaqlara yardım proqramı barədə məlumat verərək, hazırda talassemiyalı uşaqlara yardım proqramı üzərində iş getdiyini söyləmişdir. Bu sahədə İran tərəfinin əldə etdiyi təcrübənin onlar üçün faydalı olacağına inandığını bildirmişdir.

Xanım Fatimə Rəfsəncani rəhbərlik etdiyi Fondun bu sahədə Heydər Əliyev Fondu ilə yaxından əməkdaşlıq etməyə hazır olduğunu söyləmişdir.

Mehriban xanım Əliyeva Mərkəzlə tanışlıqdan məmnun qaldığını bildirmiş, xeyirxah və nəcib işlərinə görə bu səhiyyə ocağının kollektivinə uğurlar arzulamışdır.

*"Azərbaycan" qəzeti,*
*29 yanvar 2005-ci il*

## İTALİYA PREZİDENTİNİN SARAYINDA TƏNTƏNƏLİ QARŞILANMA MƏRASİMİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2005-ci ilin fevralın 24-də İtaliya Respublikası Prezidentinin "Quirinale" sarayına gəlmişdir.

Üzərində Azərbaycanın və İtaliyanın dövlət bayraqları dalğalanan sarayın qarşısında Azərbaycan dövləti başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın önündə İtaliya Respublikasının Prezidenti Adzelyo Çampi və xanımı böyük hörmətlə və mehribanlıqla qarşıladılar.

*"Azərbaycan" qəzeti,*
*25 fevral 2005-ci il*







## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN ROMADA GÖRÜŞLƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına və Vatikan Dövlətinə rəsmi səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva üçün də ayrıca xüsusi səfər proqramı tərtib olunmuşdu.

Mehriban Əliyeva vaxtilə İtaliya krallarının və hazırda isə dövlət başçısının iqamətgahı olan, möhtəşəm tarixi abidə kimi öz füsunkar gözəlliyi ilə seçilən Prezident sarayı ilə tanış oldu. Azərbaycan Prezidentinin xanımına məlumat verildi ki, sarayın Klyurunale salonu imperator Napoleonun Romada qarşılanması üçün hazırlanmışdı. Təxminən 1800-cü illərdən bu sarayda yer alan valehedici incəsənət nümunələri öz orijinallığı və gözəlliyi ilə göz oxşayır. 1870-ci illərdən başlayaraq bu saray Roma krallarının iqamətgahı idi.

Mehriban xanım Əliyeva təxminən iki əsrlik tarixi olan saraydakı mərasim otaqlarına, güzgülü salona, təbii yolla daim təmiz hava ilə təchiz edilən otaqların layihələşdirilməsi qaydalarına, divarlarda, tavanda, hətta döşəmələrdə yüksək peşəkarlıqla təsvir olunan və İtaliya mədəniyyətinin zənginliyinin əyani göstəricisi kimi diqqəti cəlb edən nadir incəsənət əsərlərinə, qədim və zəngin İtaliya mədəniyyətinin digər nümunələrinə baxdı.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Romadakı uşaq xəstəxanasına da baş çəkdi. Kənar şəxslər üçün qapalı olan və videoçəkiliş üçün icazə verilməyən bu tibb ocağının müalicə və fəaliyyət prinsipləri ilə yaxından tanış oldu.

Mehriban xanım Əliyeva Romadakı nadir incəsənət muzeyləri ilə də maraqlandı. Bergeze qalereyasında 17-18-ci əsrlərə aid təsviri sənət əsərlərindəki real məişət lövhələri, mənzərələrdəki təbiilik, romantika, təbiətin canlı boyaları, zahiri təmtəraq və təntənə ruhunun üstünlük təşkil etdiyi realizm elementləri istər-istəməz insanlarda xoş ovqat yaradır.

Məşhur İtaliya memarı və heykəltəraşı Berinin heykəllərində, monumental kompozisiyalarda güclü dinamika elə ilk baxışdan diqqəti cəlb edir. İtaliyada həssaslıqla qorunan və böyük səxavətlə qonaqlara nümayiş etdirilən hər bir mədəniyyət abidəsi, incəsənət nümunəsi istər-istəməz onu müşahidə edənlərdə bu ölkəyə rəğbət, xoş duyğular oyadır.

Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva tanışlıqdan məmnun qaldığını bildirmişdir.

*"Azərbaycan" qəzeti,*
*1 mart 2005-ci il*





## POLŞA PREZİDENTİNİN SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

2005-ci ilin martın 30-da Polşa Respublikası Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur. Üzərində Azərbaycanın və Polşanın dövlət bayraqları dalğalanan sarayın qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın önündə Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevski və xanımı İolanta Kvasnevska böyük hörmətlə və mehribanlıqla qarşıladılar.

Sonra Prezidentlər və onların xanımları xarici ölkələrin Polşada akkreditə olunmuş səfirliklərinin rəhbərləri və nümayəndələri ilə görüşdülər.

Həmin gün Polşa Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevski və xanımı İolanta Kvasnevska arasında qısa görüş oldu.

*"Azərbaycan" qəzeti,*
*31 mart 2005-ci il*

## DÜNYA ŞÖHRƏTLİ ALİM-HƏKİM İHSAN DOĞRAMACI 10 İL ƏRZİNDƏ HEYDƏR ƏLİYEV FONDUNA HƏR İL 100 MİN DOLLAR KÖÇÜRƏCƏKDİR

İhsan Doğramacı və onu müşayiət edən şəxslər 2005-ci ilin aprelin 29-da Heydər Əliyev Fondunda olmuşlar.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva qonaqlara ümummilli liderimizin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan Fond və onun məqsədləri barədə məlumat verdi.

İhsan Doğramacı və onunla birlikdə gələn şəxslər ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlarla, o cümlədən Heydər Əliyevin həyatının müxtəlif anlarını canlandıran, Azərbaycan tarixinin bütöv bir dövrü haqqında geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, xalqımızın görkəmli oğluna həsr edilmiş kitablarla tanış oldular. Nadir fotoşəkillər bir daha təsdiqləyir ki, bu dahi insan zəngin və mənalı həyat yolu keçmişdir.

Onun şəxsi istifadəsində olmuş əşyalar qonaqlardan hər birinin diqqətini nadir və qiymətli eksponat kimi cəlb etmişdir.

Qonaqlar müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun respublikamıza rəhbərliyinin təxminən 35 illik dövrünü əhatə edən şəkillərlə maraqla tanış oldular. Heydər Əliyevin Azərbaycanın müstəqilliyi illərində, ölkəmizin Cənubi Qafqazda liderə çevrildiyi dövrdəki fəaliyyətini əks etdirən fotoşəkillər qonaqlarda xüsusi maraq doğurdu.

Fondla tanışlıqdan sonra İhsan Doğramacı Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ilə Türk dünyasının böyük oğlu İhsan Doğramacı arasında görüş oldu. Mehriban xanım Əliyeva dedi ki, kimsəsiz, valideyn himayəsindən məhrum, müxtəlif xəstəliklərə düçar olmuş uşaqlara, onların təlim-tərbiyə aldıqları, müalicə olunduqları internatlara, uşaq evlərinə hamilik etmək, xüsusi proqramlar hazırlayıb həyata keçirmək Fondun fəaliyyətində mühüm yer tutur. Fondun yaradıldığı vaxtdan ötən bir ildə xeyli uşaq evi və internat məktəbi təmir edilmişdir.

İhsan Doğramacı belə fəaliyyətə görə Mehriban xanım Əliyevaya təşəkkür etdi, xalqımızın ümummilli lideri ilə böyük dostluğunu xatırlayaraq dedi ki, vaxtilə Heydər Əliyev ona yubileyinin Azərbaycanda qeyd olunmasını təklif etmişdi. Bu ildə mənə 90 illiyimi müxtəlif ölkələrdə qeyd etmək təklif olunmuş, hətta Yaponiyadan xüsusi təyyarə göndərilmişdi. Lakin mən Azərbaycandayam və yubileyimi burada qeyd edəcəyəm. Bu gün Heydər Əliyev aramızda





olmasa da, onun xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır.

Xalqımızın böyük xeyirxahı İhsan Doğramacı bildirdi ki, sədaqətli dostu, türk dünyasının dahi oğlu Heydər Əliyevin arzularının həyata keçirilməsində Fonda yardımçı olmaq, Mehriban xanımın təşəbbüsü ilə görülən işləri dəstəkləmək məqsədilə 10 il ərzində öz şəxsi vəsaitindən Fondun hesabına hər il 100 min dollar köçürülməsini qərara almışdır.

*"Azərbaycan" qəzeti,*
***30 aprel 2005-ci il***

# ÜMUMGÜRCÜSTAN KATOLİKOS-PATRİARXI II İLİANIN AZƏRBAYCANA SƏFƏRİ. HEYDƏR ƏLİYEV FONDUNDA GÖRÜŞ

2005-ci ilin iyunun 7-də Ümumgürcüstan Katolikos-Patriarxı II İlia Heydər Əliyev Fondunda olmuşdur.

Hörmətli qonaq və onu müşayiət edən şəxslər əvvəlcə ümummilli lider Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdiyi hədiyyələrlə ulu öndərimiz haqqında kitablarla tanış oldular, dahi şəxsiyyətin Avropa, Asiya ölkələrinin liderləri ilə çəkdirdiyi fotoşəkillərə böyük maraqla baxdılar.

Fondla tanış olduqdan sonra II İlia Xatirə kitabına ürək sözlərini yazdı, Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin nurlu xatirəsinin gürcü xalqının da qəlbində silinməz iz qoyduğunu, Azərbaycan və Gürcüstan xalqlarının dostluq və qonşuluq münasibətlərinin tarix boyu yaşayacağını ifadə etdi.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ilə Ümumgürcüstan Katolikos-Patriarxı II İlianın görüşü oldu. Mehriban xanım hörmətli qonağı Azərbaycan xalqının ümummilli liderinin adını daşıyan Fondda salamlamaqdan məmnunluq duyduğunu, vaxt tapıb bu görüşə gəldiyinə görə təşəkkürünü bildirdi. O dedi ki, 2004-cü il mayın 10-da fəaliyyətə başlamış Fondun əsas məqsədi müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin zəngin irsini öyrənmək, gələcək nəsillərə çatdırmaq, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə bir daha əyani təsəvvür yaratmaq, dahi şəxsiyyətin müəllifi olduğu Beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləmək, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək etməkdən ibarətdir. Bununla bərabər, Fondun təşəbbüsü, vəsaiti hesabına qısa müddətdə bir sıra layihələr həyata keçirilmiş, valideyn himayəsindən məhrum olmuş uşaqların təlim-tərbiyə aldıqları 12 uşaq evi və internat məktəbində əsaslı təmir, yenidənqurma işləri aparılmış, bu çətin və şərəfli sahə himayəyə götürülmüşdür. Talassemiyalı xəstələrin müalicəsinin təşkili məqsədilə kompleks tədbirlər hazırlanmış, yeni dərs ilinin başlanmasına qədər respublikanın bütün regionlarını əhatə edən 132 kənddə təzə məktəblərin tikintisinə başlanması üçün genişmiqyaslı fəaliyyətə başlanmışdır.

Ümumgürcüstan Katolikos-Patriarxı səmimi görüşdən razılığını bildirərək dedi ki, görkəmli siyasi xadim Heydər Əliyevin iki dost, qonşu millətin bir-biri ilə daha da yaxınlaşmasında, öz xalqının firavanlığının təmin edilməsində misilsiz xidmətləri olmuşdur. Böyük liderin ideyaları Azərbaycanın indiki rəhbəri Prezident İlham Əliyev tərəfindən layiqincə davam





etdirilir. Dövlətlərimizin başçıları arasında mehriban münasibətlərin olmasını görmək mənim üçün çox xoşdur.

II İlia Fondun prezidenti Mehriban xanımın çox dəyərli ictimai fəaliyyəti barədə məlumatı olduğunu vurğuladı, özünün də "Gürcü patriarxı" Fondunu yaratdığını, əsas məqsədinin gürcü xalqının qədim tarixi və mədəniyyətinin öyrənilməsinə, təbliğinə kömək göstərmək olduğunu bildirdi. Heydər Əliyev Fondunun təcrübəsinin faydalı olduğunu söyləyən qonaq iki qurum arasında əlaqə yaradılması barədə arzusunu da bildirdi, Mehriban xanımı Gürcüstana səfərə dəvət etdi.

Xoş sözlərə, fəaliyyyətinə verilən qiymətə görə təşəkkür edən Mehriban xanım dəvəti böyük məmnuniyyətlə qəbul etdi, çox sevdiyi Tbilisiyə imkan olan kimi gələcəyini söylədi.

II İlia Fondun prezidenti Mehriban xanım Əliyevaya gürcü ustalarının əl işi olan nəfis milli sənətkarlıq nümunəsi hədiyyə etdi.

Mehriban xanım hörmətli qonağa Fondun bir illik fəaliyyətini əks etdirən kitabı, üzərində ulu öndərin şəkli olan döş nişanı, Fondun buraxdığı "Qarabağ xanəndələri" albomunu təqdim etdi.

*"Azərbaycan" qəzeti,*
*8 iyun 2005-ci il*



## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN ZAQREBDƏ GÖRÜŞLƏRİ

Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri çərçivəsində dövlətimizin başçısının xanımı Mehriban Əliyeva üçün ayrıca proqram tutulmuşdur.

2005-ci ilin iyunun 10-da Mehriban xanım Əliyevanın Xorvatiya Prezidentinin xanımı Milka Mesiç ilə görüşü oldu. Dövlət başçılarının xanımları mədəniyyət, onun ayrılmaz qolu olan folklor sənətinin təbliği və bu sahədə əməkdaşlıq, habelə səhiyyə, kimsəsiz və əlil uşaqlara dövlət qayğısı məsələləri barədə fikir mübadiləsi etdilər.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva həmin gün Zaqrebdəki mərkəzi uşaq evinə də gəldi. Uşaq evinin müdiriyyəti və burada tərbiyə alan balacalar Azərbaycan Prezidentinin xanımını böyük səmimiyyətlə qarşıladılar. Hörmətli qonağa məlumat verildi ki, dövlət himayəsinə götürülmüş 120 əlil və kimsəsiz uşağın təlim-tərbiyəsi, hərtərəfli inkişafı üçün burada hər cür şərait yaradılmışdır.

Mehriban xanım Əliyeva bu uşaq müəssisəsinin kollektivinə nəcib və xeyirxah işlərində uğurlar dilədi, eyni zamanda, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ölkəmizdə uşaq evləri və internat məktəblərinin problemlərinin həlli, gənc vətəndaşlarımızın sağlamlığının qorunması sahəsində həyata keçirdiyi proqramlar haqqında məlumat verdi.

Dövlətimizin başçısının xanımının adından xorvatiyalı uşaqlara hədiyyələr təqdim olundu.

*"Azərbaycan" qəzeti,*
*12 iyun 2005-ci il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVANIN YUNESKO-nun BAŞ DİREKTORUNUN XANIMI TAKAKA MATSUURA İLƏ GÖRÜŞÜ

2005-ci ilin avqustun 24-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva YUNESKO-nun Baş direktorunun xanımı Takaka Matsuura ilə görüşmüşdür.

Söhbət zamanı Mehriban Əliyeva ölkəmizdə gedən ictimai-siyasi proseslərdə qadınların rolu barədə qonağa məlumat verdi. Azərbaycanda gender siyasətinin uğurla tətbiq olunduğunu söyləyən Mehriban xanım qadınların Milli Məclisdə və yüksək dövlət vəzifələrində təmsil olunmalarına dair çoxsaylı misallar gətirdi.

Mehriban Əliyeva Azərbaycanda elmin, mədəniyyətin tərəqqisində, mədəni irsin qorunması və təbliğində YUNESKO-nun dəstəyini yüksək qiymətləndirdi.

Xanım Takaka Matsuura Bakıda keçirdikləri görüşlərdən aldığı təəssüratlarını bölüşdü. O, müstəqillik əldə etdikdən sonra Azərbaycanda baş verən köklü dəyişikliklərin öz ölkəsində maraqla izləndiyini söylədi, YUNESKO-nun Azərbaycana diqqət yetirməsinin təsadüfi olmadığını bildirdi.

*"Azərbaycan" qəzeti,*
*25 avqust 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2005-ci ilin avqustun 31-də Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suverin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Əvvəlcə Fondun sərgi və ekspozisiyası ilə tanış olan qonaqlara ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən fotoşəkillər barədə ətraflı məlumatlar verildi.

Akkan Suver və nümayəndə heyətinin üzvləri fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələrə, ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə böyük maraqla baxdılar.

Cənab Akkan Suver Xatirə kitabına ürək sözlərini yazdı.

Sonra Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ilə nümayəndə heyətinin üzvləri arasında görüş oldu.

Mehriban xanım qonaqları salamlayaraq dedi ki, Azərbaycan ilə Türkiyə arasındakı sıx əməkdaşlıq indi, demək olar ki, yeni bir mərhələyə qədəm qoyub və sürətlə inkişaf edir.

2004-cü ilin mayın 10-dan fəaliyyətə başlayan Heydər Əliyev Fondunun vəzifələri, əsas məqsədləri haqqında ətraflı məlumat verən Mehriban xanım bildirdi ki, Heydər Əliyev tərəfindən yaradılmış azərbaycançılıq fəlsəfəsinin, azərbaycançılıq ideyasının təbliği, gələcək nəsillərə çatdırılması, ölkəmizin sosial problemlərinin həlli ilə bağlı məsələlər Fondun daim diqqət mərkəzindədir. Fondun vəsaiti hesabına 26 uşaq evi və internat məktəbində əsaslı təmir və bərpa işləri aparılmış, uşaqlara vaxtaşırı yardımlar edilmişdir, diabet və talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlara kömək üçün xüsusi proqramlar həyata keçirilir.

Fondun təhsil və mədəniyyət sahəsində çox böyük layihələri olduğunu vurğulayan Mehriban xanım "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ən ucqar rayon, qəsəbə və kəndlərdə yeni dərs ilinədək 132 məktəbin tikilib istifadəyə veriləcəyini, Azərbaycan muğamının dünyaya daha yaxından tanıdılması üçün buraxılan "Qarabağ xanəndələri" albomunun YUNESKO səviyyəsində də yüksək qiymətləndirildiyini bildirdi.

Mərmərə Qrupu Vəqfinin ölkələrimiz arasında əlaqələrin inkişafı sahəsində səmərəli işlər gördüyünü vurğulayan Mehriban Əliyeva bu görüşün Heydər Əliyev Fondu ilə Vəqfin





qarşılıqlı əlaqələrində mühüm rol oynayacağına inamını ifadə etdi.

Bakıda "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş tədbirlərdə iştirakını, ümummilli liderimiz Heydər Əliyev ilə görüşlərini xatırladan cənab Akkan Suver Fondun çox maraqlı ekpozisiyası ilə tanışlıqdan məmnun olduğunu söylədi.

O, Heydər Əliyev Fondunun prezidenti və xoşməramlı səfir Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirdi, rəhbərlik etdiyi qurumun Fondla qarşılıqlı əlaqələrinin möhkəmlənəcəyinə əminliyini vurğuladı. Cənab Akkan Suver Fondun prezidenti Mehriban Əliyevaya hədiyyələr təqdim etdi və onu yaxın aylarda Vəqfin təşkilatçılığı ilə Türkiyədə keçiriləcək konfransa dəvət etdi.

Dəvəti razılıqla qəbul edən Mehriban xanım Əliyeva qonaqlara və Mərmərə Qrupu Vəqfinə Fondun fəaliyyətindən bəhs edən kitab, "Qarabağ xanəndələri" albomu, üzərində Heydər Əliyevin əksi olan döş nişanları hədiyyə etdi.

*"Azərbaycan" qəzeti,*
*1 sentyabr 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA BU TƏŞKİLATIN BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞMÜŞDÜR

2005-ci ilin sentyabrın 16-da Parisdə Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyəti Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva YUNESKO-nun Baş direktoru Koişiro Matsuura ilə görüşmüşdür.

YUNESKO-nun Baş direktoru Mehriban xanımı hörmətlə qarşıladı. BMT-nin 60 illiyi ilə əlaqədar Nyu-Yorkda keçirilən tədbirə qatıldığı üçün akademik Yusif Məmmədəliyevin 100 illiyi ilə bağlı yubiley mərasimində iştirak edə bilməməsindən təəssüfləndiyini söylədi.

Cənab Matsuura dedi ki, mənə verilən məlumata görə, yubiley tədbirləri yüksək səviyyədə keçmişdir. Baş direktor Azərbaycana son səfərini məmnunluqla xatırlayaraq, ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Mehriban xanıma dərin minnətdarlığını bildirdi. Bakıdakı görüşlərin onda çox gözəl təəssürat yaratdığını söyləyən Koişiro Matsuura YUNESKO ilə Azərbaycan arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı.

Mehriban Əliyeva səmimi və xoş sözlərə görə Baş direktora təşəkkür etdi, akademik Yusif Məmmədəliyevin yubileyinin Parisdə qeyd olunmasından məmnunluğunu bildirdi. O, YUNESKO ilə Azərbaycan arasında əməkdaşlığın inkişafından razılıqla söhbət açaraq, qarşılıqlı əlaqələrin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyini vurğuladı.

Səmimilik şəraitində keçən görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi edildi.

*"Azərbaycan" qəzeti,*
*17 sentyabr 2005-ci il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA BU MÖTƏBƏR TƏŞKİLATIN 60 İLLİK YUBİLEY TƏDBİRİNDƏ İŞTİRAK ETMİŞDİR

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (YUNESKO) xoşməramlı səfiri Mehriban Əliyeva bu qurumun 60 illiyi ilə bağlı keçirilən yubiley tədbirlərində iştirak etmək üçün Parisə gəlmişdir.

YUNESKO-nun iqamətgahında Mehriban Əliyevanı təşkilatın rəsmiləri böyük hörmətlə qarşılamışlar.

Yığıncaqdan əvvəl Mehriban Əliyeva BMT-nin keçmiş baş katibi Butros Butros-Qali, ayrı-ayrı vaxtlarda YUNESKO-nun baş direktorları işləmiş Amadu Mathar M.Bov və Federiko Mayor ilə görüşmüşdür.

Təntənəli mərasimdə əvvəlcə bu mötəbər təşkilatın tarixini əks etdirən film göstərilmiş, müxtəlif dünya xalqlarının dilində YUNESKO-nun məram və məqsədləri səsləndirilmişdir.

Yubiley tədbirini giriş sözü ilə açan YUNESKO-nun baş direktoru Koişiro Matsuura dünyanın tanınmış ictimai və siyasi xadimlərinin mərasimdə iştirak etməsinin qurumun yüksək nüfuzundan xəbər verdiyini bildirmişdir. O, 1945-ci il noyabrın 16-da yaradılmış təşkilatın müxtəlif ölkələrin təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq qurmaq məqsədilə YUNESKO-nun çətin, lakin şərəfli yol keçdiyini xatırlatmış, onun kommunikasiya, mədəniyyət, elm və təhsil kimi mühüm sahələri əhatə etdiyini, insanların formalaşmasında xüsusi rol oynadığını vurğulamışdır. Baş direktor rəhbərlik etdiyi təşkilatın xalqlar arasında hər cür dini və irqi ayrı-seçkiliyi rədd etdiyini, insanların yaratdığı maddi və mədəni irslərə hörmətlə yanaşdığını, dünyanın bütün bölgələrində qeyri-maddi sərvətlərin qorunması, müasir dövrdə mədəniyyətlərin sintezinə, elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı göstərdiyini bildirmişdir.

Koişiro Matsuura YUNESKO-nun fəaliyyətinin təkcə bu missiya ilə məhdudlaşmadığını diqqətə çatdırmış və demişdir ki, hazırda bəşəriyyətin əsas problemlərindən olan müharibələrə və beynəlxalq terrorizmə "Yox!" deyən YUNESKO-nun əsas məqsədi insan ləyaqətini, insan mənəviyyatını uca tutmaqla, haqq, ədalət və sülh naminə fəaliyyətini genişləndirməklə beynəlxalq mədəni irsin qorunmasına töhfə verməkdir. YUNESKO bu yolda dünya xalqlarının sıx birliyinə daha çox ümid edir.

Ayrı-ayrı ölkələrin nümayəndələri YUNESKO-nun dəstəyi ilə həyata keçirilən layihələrin bütövlükdə dünya mədəni irsinin qorunmasına hərtərəfli təsir göstərdiyini yüksək dəyərləndirmişlər.

Yığıncaq iştirakçıları İordaniyada törədilmiş terror aktları zamanı həlak olmuş insanların xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Sonra YUNESKO-nun baş direktoru adından ziyafət verilmişdir.

Axşam 17 ölkənin incəsənət ustalarının iştirakı ilə maraqlı konsert proqramı göstərilmişdir. Azərbaycanın Simfonik Orkestrinin ifasında Almaniyada yaşayıb-yaradan həmyerlimiz, bəstəkar Firəngiz Əlizadənin əsəri səslənmişdir. Ölkəmizin incəsənət ustalarının çıxışı diqqətlə dinlənilmiş, sürəkli alqışlarla qarşılanmışdır.

İki yüzə yaxın ölkənin üzv olduğu YUNESKO-nun yubiley tədbirində Azərbaycan incəsənət ustalarının çıxışına xüsusi yer verilməsi ölkəmizin bu təşkilatdakı yüksək nüfuzunun daha bir təsdiqidir.

*"Azərbaycan" qəzeti,*
*17 noyabr 2005-ci il*







## RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2006-cı ilin fevralın 22-də, birgə Heydər Əliyev Fonduna gəldilər.

Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Rusiya rəhbərini səmimiyyətlə qarşıladı.

Prezident Vladimir Putinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı söhbət açdı.

Rusiyanın dövlət başçısı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldu, dövlət təhlükəsizliyi orqanlarında, Moskvada yüksək dövlət vəzifəsində işləyərkən çəkilmiş şəkillərinə, ailə albomuna xüsusi diqqət yetirdi. Vladimir Putin dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, ümummilli liderimizlə müxtəlif görüşlərdə birgə çəkdirdikləri fotoşəkillərə, habelə onun Avropa, Asiya ölkələrinin liderləri ilə şəkillərinə böyük maraqla baxdı.

Rusiya Prezidenti sonra Xatirə kitabına ürək sözlərini yazdı: "Heydər Əliyev Fondunun fəaliyyəti ilə böyük maraqla tanış oldum. Fond Azərbaycan xalqının görkəmli oğlunun xatirəsini nəinki yaşadır, həm də mühüm istiqamətlərdən birində onun işini davam etdirir, insanlara ən müxtəlif humanitar sahələrdə – təhsil, səhiyyə və s. sahələrdə kömək göstərir. Sizə uğurlar diləyirəm!"

Mehriban xanım Əliyeva Prezident Vladimir Putinə xatirə hədiyyələri təqdim etdi. Sonra xatirə şəkli çəkildi. Ali qonaq Fonddan xoş təəssüratla ayrıldığını bildirdi.

*"Azərbaycan" qəzeti,*
*23 fevral 2006-cı il*





## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN VƏ TÜRKİYƏ PREZİDENTİNİN XANIMI SƏMRA SEZƏRİN GÖRÜŞÜ

2006-cı ilin aprelin 4-də Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyevanın və Türkiyə Prezidentinin xanımı Səmra Sezərin görüşü olmuşdur. "Cakonda" restoranında nahar süfrəsi arxasında keçən görüşdə Mehriban Əliyeva dost ölkənin birinci xanımını Bakıda görməkdən çox şad olduğunu söylədi.

Xanım Səmra Sezər Azərbaycanda olmasından və Mehriban xanımla bir daha görüşməsindən məmnunluq duyduğunu bildirdi.

Səmimi söhbət zamanı vurğulandı ki, Türkiyənin dövlət başçısının bu səfəri ölkələrimiz arasında qarşılıqlı münasibətlərin daha da inkişafına öz töhfəsini verəcəkdir.

*"Azərbaycan" qəzeti,*
*5 aprel 2006-cı il*



## AZƏRBAYCAN VƏ KOREYA RESPUBLİKASI PREZİDENTLƏRİNİN XANIMLARININ GÖRÜŞÜ

Azərbaycan Respublikası Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2006-cı ilin mayın 11-də Prezident sarayında ölkəmizdə səfərdə olan Koreya Respublikası Prezidentinin xanımı Kvon Yanq Suk ilə görüşmüşdür.

*"Azərbaycan" qəzeti,*
*12 may 2006-cı il*







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA DÖVLƏTLƏRARASI AVİASİYA KOMİTƏSİNİN SƏDRİ TATYANA ANODİNA İLƏ GÖRÜŞMÜŞDÜR

Ölkəmizdə səfərdə olan Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodina, onun müavini Aleksandr Filatov, "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov və konsernin bir qrup nümayəndəsi 2006-cı ilin iyunun 2-də Heydər Əliyev Fondunda olmuşlar.

Qonaqlar əvvəlcə Fondun sərgi və ekspozisiyası ilə tanış oldular. Onlara ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən fotoşəkillər barədə ətraflı məlumat verildi.

Ziyarətçilər dahi şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələrə, ulu öndərimiz haqqında

kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə böyük maraqla baxdılar.

T.Anodina Fondun Xatirə kitabına ürək sözlərini yazdı, sonra qonaqlar xatirə şəkilləri çəkdirdilər, Fondun vəsaiti ilə buraxılmış kitab, albom, audio-video disklərə, məktəb ləvazimatlarına baxdılar.

Sonra Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodina ilə görüşdü. Mehriban xanım qonağı səmimiyyətlə salamladı, onu ölkəmizdə və ulu öndər Heydər Əliyevin adını daşıyan Fondda görməkdən şad olduğunu söylədi. O, Heydər Əliyev Fondunun müxtəlif yönümlü proqramları haqqında məlumat verdi, əsas məqsədi Azərbaycan xalqının ümummilli lideri tərəfindən yaradılmış azərbaycançılıq ideologiyasının təbliği və gələcək nəsillərə çatdırılması olan Fondun qayğıya və köməyə ehtiyacı olanların problemlərinin həlli, uşaq evləri və internat məktəblərində tərbiyə alan uşaqlara, qaçqın və məcburi köçkünlərə yardım, elm, təhsil, səhiyyə və mədəniyyət sahəsində gördüyü işlərdən danışdı.

T.Anodina səmimi qəbula görə təşəkkürünü bildirərək, Azərbaycanda gedən nəhəng quruculuq işlərinin miqyasına heyran qaldığını, Heydər Əliyev Fondunun onda zəngin təəssürat doğurduğunu söylədi. Qonaq hələ 1991-ci ildə Dövlətlərarası Aviasiya Komitəsinin yaradılmasında Heydər Əliyevin xüsusi rolunu vurğuladı. Moskvada ali vəzifədə işləyərkən nəqliyyat sektoruna rəhbərlik etmiş Heydər Əliyevin bu sahədə də peşəkar olduğunu, daim dəyərli məsləhətləri ilə düzgün yol göstərdiyini, hava məkanında təhlükəsizlik problemlərinin həlli üçün vahid əlaqələndirici regional təşkilatın yaradılmasının zəruriliyini müdrikcəsinə tövsiyə etdiyini diqqətə çatdırdı.

T.Anodina Mehriban xanıma xeyirxah fəaliyyətində uğurlar arzuladı və Heydər Əliyev Fonduna hədiyyələrini təqdim etdi. Qonağa Heydər Əliyev Fondu adından hədiyyələr verildi.

*"Azərbaycan" qəzeti,*
*3 iyun 2006-cı il*







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA TÜRKİYƏ PREZİDENTİNİN XANIMI SƏMRA SEZƏRLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli ölkələrin dövlət başçılarının Antalyada keçirilən VIII zirvə görüşü çərçivəsində ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2006-cı ilin noyabrın 17-də Türkiyə Prezidenti Əhməd Necdət Sezərin xanımı Səmra Sezərlə görüşmüşdür.

Görüşdə iki dost və qardaş ölkə arasında səmimi münasibətlərin ardıcıl olaraq möhkəmləndiyi, ikitərəfli əməkdaşlığın bütün sahələrdə genişləndiyi və dərinləşdiyi vurğulandı. Bu baxımdan türkdilli ölkələrin dövlət başçılarının uğurla keçən VIII zirvə görüşünün də bütün türkdilli ölkələrin xalqlarının, o cümlədən Azərbaycan və türk xalqlarının əlaqələrinin daha da inkişafına yeni töhfələr verəcəyi diqqətə çatdırıldı.

Azərbaycan ilə Türkiyə arasında mədəni əlaqələrin də mütəmadi genişləndiyi bildirildi.

*"Azərbaycan" qəzeti,*
*19 noyabr 2006-cı il*



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA SİDE QƏDİM YAŞAYIŞ MƏNTƏQƏSİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli ölkələrin dövlət başçılarının Antalyada keçirilən VIII zirvə görüşü çərçivəsində ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2006-cı ilin noyabrın 17-də Türkiyə Prezidenti Əhməd Necdət Sezərin xanımı Səmra Sezərlə birlikdə Side qədim yaşayış məntəqəsində olmuşdur.

Mehriban xanım Əliyevaya Antalya şəhərindən təxminən 100 kilometr məsafədə yerləşən Side yaşayış məntəqəsindəki qədim dövrə aid maddi mədəniyyət abidələri barədə geniş məlumat verildi. Üç sərgi salonundan ibarət muzey Türkiyənin ən böyük və möhtəşəm muzeylərindən biridir. Buradakı qədim hamam nadir tikililərdən biri kimi ilk baxışdan diqqəti cəlb edir. Azı 1400 illik tarixi olan hamama su 38 kilometr məsafədən gətirilir. Bəşər tarixinə böyük hörmətlə yanaşan Türkiyə hökuməti bu muzeyin zənginləşməsinə və antik maddi mədəniyyət





abidələrinin olduğu kimi qorunub saxlanılmasına xüsusi diqqət yetirir. Bir-birindən gözəl əsərlər Anadolunun antik mədəniyyətini hərtərəfli ehtiva edir, o dövr barədə real təsəvvürlərin formalaşdırılmasına və elmi araşdırmaların aparılmasına geniş imkanlar açır. Mehriban xanım Əliyeva əfsanəvi Heraklın nəfis şəkildə işlənmiş heykəlinə də tamaşa etdi.

Aralıq dənizi boyunca sıralanan qədim tikililər, antik dövrün qalaları buraya gələnlərdə gözəl hisslər doğurur, bəşər tarixinə dərin məhəbbət oyadır. Azərbaycanın mədəni irsinin qorunması, beynəlxalq miqyasda təbliği sahəsində ardıcıl və məqsədyönlü tədbirlər görən YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Türkiyə dövlətinin maddi mədəniyyət abidələrinə belə yüksək səviyyədə qayğı ilə yanaşmasından razılığını bildirdi.

Mehriban Əliyeva eramızdan əvvəl II-I əsrlərə aid edilən "Aspendos" teatrına da baxdı. Bildirildi ki, təkrarolunmaz memarlıq üslubu ilə seçilən bu tikili dünya memarlığının nadir incilərindən sayılır, fərqlənir. Əsrlərin şahidi olan bu teatrdan indi də istifadə edilir. Burada mütəmadi olaraq konsertlər, festivallar təşkil edilir.

Qədim yaşayış məntəqəsi ilə tanışlıqdan sonra Türkiyə Prezidentinin xanımı Səmra Sezərin adından Azərbaycan dövlət başçısının xanımı Mehriban xanım Əliyevanın şərəfinə ziyafət verildi.

*"Azərbaycan" qəzeti,*
*19 noyabr 2006-cı il*



## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA İLƏ FRANSA PREZİDENTİNİN XANIMI BERNADET ŞİRAKIN GÖRÜŞÜ

2007-ci ilin yanvarın 29-da Azərbaycan Prezidentinin xanımı, Milli Məclisin deputatı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Yelisey sarayına gəldi.

Fransa Prezidentinin xanımı Bernadet Şirak Azərbaycan Prezidentinin xanımını sarayın önündə səmimiyyətlə qarşıladı.

Sonra dövlət başçılarının xanımları arasında görüş keçirildi.

*"Azərbaycan" qəzeti,*
*30 yanvar 2007-ci il*







## LİTVA PREZİDENTİ VALDAS ADAMKUS İLƏ GÖRÜŞ

2007-ci ilin aprelin 3-də, YUNESKO-nun illik hesabat yığıncağından sonra, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva xoşməramlı səfir, Litvanın Prezidenti Valdas Adamkusla görüşmüşdür. Söhbət zamanı Mehriban xanım Əliyeva son illər ərzində Azərbaycanda mədəniyyət sahəsində görülmüş işlərdən, Heydər Əliyev Fondunun bu yöndə fəaliyyətindən danışmışdır.

Azərbaycana etdiyi səfərini xatırladan Valdas Adamkus onun salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş etmiş, bu səfərdən yüksək təəssürat aldığını xüsusi vurğulamışdır. Ölkələrimiz arasında mədəni əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini bildirən dövlət başçısı Prezident İlham Əliyevi və Mehriban xanımı Litvaya səfərə dəvət etmişdir.

Mehriban xanım Əliyeva bu dəvəti Azərbaycan Prezidentinin diqqətinə çatdıracağını bildirmişdir.

*"Azərbaycan" qəzeti,*
*4 aprel 2007-ci il*




## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN FRANSAYA SƏFƏRİ

2007-ci ilin aprelin 3-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva İordaniya kraliçası, YUNESKO-nun xoşməramlı səfiri Raniyə əl-Abdullah ilə görüşmüşdür.

YUNESKO-nun iqamətgahında keçirilən görüşdə xanım Raniyə əl-Abdullah rəhbərlik etdiyi İordan Çayı Fondunun xeyriyyə tədbirləri, valideyn qayğısından məhrum olmuş uşaqlara himayədarlıq edilməsi, onların hərtərəfli təhsil alması və digər sahələrdə gördüyü işlər barədə məlumat vermişdir.

Mehriban Əliyeva Heydər Əliyev Fondunun tarixi, Azərbaycanda maddi və qeyri-maddi mədəni irsin qorunması, kimsəsiz uşaqlara göstərilən qayğı, təhsil sahəsində YUNESKO ilə birlikdə həyata keçirilən layihələr haqqında danışmışdır.

Sonra Mehriban xanım İordaniya mahnı və rəqslərinin təqdim edildiyi "İordaniya inciləri gecəsi" adlı konsert proqramına tamaşa etmişdir.

*"Azərbaycan" qəzeti,*
*5 aprel 2007-ci il*







## AZƏRBAYCAN-FRANSA MƏDƏNİ ƏLAQƏLƏRİ İNTENSİV XARAKTER ALMIŞDIR

2007-ci ilin aprelin 4-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Fransanın Mədəniyyət və Kommunikasiya naziri Reno Donnedyö de Vabr ilə görüşmüşdür.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya dövlət səfərindən sonra ölkələrimiz arasında təkcə siyasi-iqtisadi deyil, həm də mədəni əlaqələrin daha intensiv xarakter aldığı vurğulanmışdır.

Azərbaycanın birinci xanımını yenidən Parisdə görməyindən məmnunluğunu bildirən nazir Fransa-Azərbaycan mədəni əlaqələrinin tarixini xatırladaraq bildirmişdir ki, bu ənənə indi də davam edir. Fransa qarşılıqlı mədəni əməkdaşlığın daha da genişləndirilməsi və inkişaf etdirilməsini istəyir. Mədəni əlaqələrin genişlənməsi sahəsində Mehriban Əliyevanın çox önəmli xidmətlərindən xəbərdar olduğunu bildirən nazir ölkəmizin birinci xanımının Azərbaycan mədəniyyətinin dünyada tanıdılması sahəsindəki fəaliyyətini yüksək qiymətləndirmişdir.

Görüşdən məmnun qaldığını söyləyən Mehriban Əliyeva demişdir ki, 2007-ci il Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya dövlət səfəri ilə başlanmışdır və inanır ki, bu il ölkələrimizin ikitərəfli əlaqələrində çox önəmli il olacaqdır.

Azərbaycanın birinci xanımının rəhbərlik etdiyi Heydər Əliyev Fondu dünyanın bir çox ölkələri və təşkilatları ilə mədəniyyət sahəsində əməkdaşlıq edir. Fond Fransada da mədəni tədbirlərin keçirilməsi, Azərbaycanın tanıdılması üçün konkret layihələrin reallaşdırılmasında maraqlıdır. Mehriban Əliyeva bu baxımdan ölkələrimizdə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsini təklif etmişdir.

Təklifi məmnuniyyətlə qarşılayan nazir bununla əlaqədar yaxın vaxtlarda hər iki ölkənin müvafiq səfirliklərinə hazırlıq işlərinin görülməsinə dair təlimat veriləcəyinə ümidvar olduğunu bildirmişdir. O, mədəniyyət sahəsində sərgilərin keçirilməsinin də vacibliyini vurğulamışdır.

Mehriban Əliyeva nazir Reno Donnedyö de Vabrı Azərbaycana səfərə dəvət etmişdir. Dəvət böyük razılıqla qəbul olunmuşdur.

*"Azərbaycan" qəzeti,*
*5 aprel 2007-ci il*







## BELARUS PREZİDENTİ HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Belarus respublikasının Prezidenti Aleksandr Lukaşenko 2007-ci ilin mayın 3-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı, Fondun prezidenti Mehriban Əliyeva ali qonağı səmimiyyətlə salamlayaraq onu müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin adını daşıyan Fondda görməkdən məmnun qaldıqlarını bildirdilər.

Dövlət başçıları və Mehriban xanım Əliyeva əvvəlcə Heydər Əliyev Fondunun yaranması, məqsədi, fəaliyyəti, həyata keçirdiyi layihələr, beynəlxalq əlaqələri barədə sənədli filmə baxdılar.

Prezident Aleksandr Lukaşenko Fondun genişmiqyaslı fəaliyyətini yüksək qiymətləndirdi.

Sonra dövlətimizin başçısı ali qonağı Fondun ekspozisiyası ilə tanış etdi.

Ulu öndərin uşaqlıq, təhsil illərinə aid fotoşəkillər, sənədlər, vaxtilə çəkdiyi rəsmlər, xüsusi xidmət orqanlarında çalışdığı dövrü, respublikaya rəhbərliyinin hər iki mərhələsindəki, habelə Moskvadakı fəaliyyətini əks etdirən eksponatlar Aleksandr Lukaşenkoda xüsusi maraq oyatdı. O, keçmiş SSRİ-nin rəhbərlərindən biri kimi yüksək nüfuz qazanmış görkəmli şəxsiyyətin

Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasında və bunun təməli olan iqtisadi islahatların həyata keçirilməsində həlledici rolunu yüksək dəyərləndirdi.

Prezident İlham Əliyev həmkarını ulu öndərin neft strategiyasının zirvəsi olan və indi onun adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin maketi ilə də tanış etdi, bu layihənin nəinki regionda, həm də bütün dünyada geosiyasi vəziyyətə böyük təsir göstərdiyini vurğuladı.

Aleksandr Lukaşenko ümummilli lider Heydər Əliyevin dünyanın nüfuzlu siyasi xadimləri, dövlət və hökumət rəhbərləri ilə görüşlərini, dünyanın müxtəlif ölkələrində onun xatirəsinə ucaldılan abidələri əks etdirən fotoşəkillərə də maraqla baxdı.

Belarus Prezidenti Xatirə kitabına ürək sözlərini yazdı, görkəmli siyasi xadim Heydər Əliyevin xatirəsinə öz dərin ehtiramını bildirdi və Fondla tanışlıqdan zəngin təəssürat aldığını vurğuladı.

Fondun prezidenti Mehriban Əliyeva ali qonağa xatirə hədiyyəsi təqdim etdi.

***"Azərbaycan" qəzeti,***
***4 may 2007-ci il***





## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA XARİCİ ÖLKƏLƏRİN SƏFİRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO- nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2007-ci ilin iyunun 8-də Yaponiyanın ölkəmizdəki səfiri Tadahiro Abe ilə görüşmüşdür.

Səfiri və xanımını səmimiyyətlə salamlayan Mehriban Əliyeva rəhbərlik etdiyi Fondun tarixi, məqsədləri, fəaliyyəti barədə məlumat verdi. Bildirildi ki, 2004-cü ildən fəaliyyət göstərən Fondun layihəsi ilə son iki ildə respublikanın bütün regionlarında, o cümlədən ən ucqar kəndlərdə 180 müasir tipli məktəb tikilib istifadəyə verilmiş, bütün lazımi avadanlıqla təmin edilmişdir. Daha 50 məktəbin tikintisi davam edir. Fond həm də səhiyyə sahəsində, elmin, mədəniyyətin inkişafına, informasiya texnologiyalarının tətbiqinə dair bir neçə layihə həyata keçirmişdir. Beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq qurulmuşdur.

Fondun fəaliyyətinə həsr edilmiş və yenicə çapdan çıxmış kitabı səfirə təqdim edən Mehriban xanım, burada Fondun fəaliyyətinin geniş əks olunduğunu söylədi.

Səfir Tadahiro Abe Yaponiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, bu şərəfli missiyanın davam etməsinə bütün mümkün vasitələrlə kömək göstərəcəyini vurğuladı. Diplomat Mehriban xanımın istər ölkə daxilində, istərsə də Beynəlxalq qurumlarda dəyərli fəaliyyətini yüksək qiymətləndirdi, Yaponiyanın bir sıra ictimai təşkilatlarının Fondla əməkdaşlıq etmək istədiyini bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barəsində işgüzar fikir mübadiləsi edildi.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva həmin gün Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Çjan Xayçjou ilə görüşmüşdür.

Azərbaycanın Çin ilə əlaqələrinin günü-gündən inkişaf etdiyini xatırladan Mehriban xanım, əməkdaşlığın daha da genişlənməsi üçün potensial imkanların da çox olduğunu bildirdi. Xüsusilə mədəniyyət, təhsil, səhiyyə sahəsində belə imkanların uğurlu nəticələr verə biləcəyinə inandığını söylədi.

Ötən il Fondun illik fəaliyyətinə həsr olunmuş toplantıda iştirak etdiyini xatırladan səfir Çjan Xayçjou Azərbaycanın birinci xanımının Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı kimi çoxşaxəli fəaliyyətinin bütünlüklə öz xalqının təhsil, elm, mədəniyyət, səhiyyə, sosial sahələrdə inkişafına həsr etdiyinə ürəkdən inandığını bildirdi. O, Mehriban xanımın Dünya Səhiyyə Təşkilatının yüksək mükafatına, digər Beynəlxalq mükafatlara layiq görülməsini belə dəyərli işlərə verilən qiymətin təzahürü olduğunu vurğuladı. Çinlə Azərbaycanı birləşdirən tellərin möhkəmlənməsinə töhfəsini əsirgəməyəcəyini deyən diplomat ölkəsinə xoş münasibətə, səmimi qəbula görə Mehriban

xanım Əliyevaya minnətdarlığını bildirdi.

Səmimilik şəraitində keçən görüşdə bir sıra məsələlər barəsində də söhbət aparıldı.

Qonağa Heydər Əliyev Fondu haqqında kitab hədiyyə olundu. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın iyunun 8-də daha bir görüşü Türkiyənin ölkəmizdəki səfiri Hüseyn Avni Qarslıoğlu ilə olmuşdur.

Azərbaycanın birinci xanımı səfiri yeni təyinatı münasibətilə təbrik etdi, fəaliyyətində uğurlar arzuladı.

Mehriban Əliyeva səfirə Heydər Əliyev Fondunun yaranma tarixi, məqsədləri, fəaliyyəti barədə kitabı və görkəmli yazıçı, pedaqoq, ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin Türkiyədə çapdan çıxmış dörd kitabını hədiyyə etdi.

Səfir Azərbaycanın birinci xanımının fəaliyyətinə Türkiyədə həmişə yüksək diqqət verildiyini, mətbuatda da dəfələrlə xüsusi yazılar dərc edildiyini bildirdi. Ölkəmizin bütün sahələrdə inkişafının Türkiyədə qürurla izləndiyini deyən səfir, öz fəaliyyətində ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kimi səciyyələndirdiyi xalqlarımızın və ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına çalışacağını söylədi.

Mehriban xanımın səfirliyin təzə binasındakı şərait barədə sualına cavab verən səfir, burada ən müasir tələblərə uyğun şərait yaradıldığını, heç bir problemin olmadığını bildirdi, eyni zamanda, binanın açılış mərasimində Azərbaycan Prezidenti ilə birlikdə iştirakına görə Mehriban xanıma təşəkkür etdi.

Hüseyn Avni Qarslıoğlu dünya şöhrətli liderin adını daşıyan Fondda səmimi görüşə görə Mehriban xanıma minnətdarlığını bildirdi.

*"Azərbaycan" qəzeti,*
*9 iyun 2007-ci il*





## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA LİTVA PREZİDENTİNİN XANIMI ALMA ADAMKİENE İLƏ GÖRÜŞMÜŞDÜR

2007-ci ilin sentyabrın 13-də Vilnüsdə Prezident sarayında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva ilə Litva Prezidentinin xanımı Alma Adamkienenin görüşü olmuşdur.

Görüş başa çatandan sonra Mehriban xanım Əliyeva və xanım Alma Adamkiene Çürlönis adına milli incəsənət məktəbinə gəldilər. Mehriban xanım tədris prosesinin gedişi ilə tanış oldu, ona bu məktəbin tarixi və fəaliyyəti barədə məlumat verildi.

Mehriban xanım Əliyeva məktəbin şagirdlərinin ifasında musiqi nömrələrini dinlədi.

Azərbaycan Prezidentinin xanımı məktəbdə fəaliyyət göstərən muzeylə də tanış oldu, fəxri "Qonaqlar kitabı"na ürək sözlərini yazdı.

Həmin gün Litva Prezidentinin xanımı Alma Adamkienenin adından Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyevanın şərəfinə nahar verildi.

*"Azərbaycan" qəzeti,*
*14 sentyabr 2007-ci il*



## AZƏRBAYCANIN VƏ RUMINİYANIN BİRİNCİ XANIMLARININ GÖRÜŞÜ

2007-ci ilin sentyabrın 24-də Buxarestdə "Lak 2" iqamətgahında Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə Rumıniya Prezidentinin xanımı Mariya Beseskunun görüşü olmuşdur.

*"Azərbaycan" qəzeti,*
*25 sentyabr 2007-ci il*







## QƏTƏR ƏMİRİNİN XANIMI ŞEYXA MOZA BİNT NASİR ƏL-MİSNƏD AZƏRBAYCANA GƏLMİŞDİR

2007-ci ilin oktyabrın 31-də Qətər Əmirinin xanımı Şeyxa Moza bint Nasir əl-Misnəd Azərbaycana səfərə gəlmişdir.

Azərbaycanın və Qətərin dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında hörmətli qonağı Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva qarşıladı.

Hava limanının ali qonaqlar üçün salonunda Azərbaycanın və Qətərin birinci xanımları arasında qısa protokol söhbəti oldu.

Xanım Şeyxa Moza bint Nasir əl-Misnəd Bakıda keçiriləcək "Gənclər Sivilizasiyaların Alyansı uğrunda" beynəlxalq təşəbbüs, nəsillərarası yüksək səviyyəli konfransda iştirak edəcəkdir.

*"Azərbaycan" qəzeti,*
*1 noyabr 2007-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA BMT-nin BAŞ KATİBİNİN XÜSUSİ MƏSLƏHƏTÇİSİ NAFİS SADİQ İLƏ GÖRÜŞMÜŞDÜR

2007-ci ilin dekabrın 14-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva BMT-nin Baş katibinin xüsusi məsləhətçisi, təşkilatın Asiya və Sakit okean regionunda HIV/AIDS üzrə Baş Katibi Nafis Sadiq ilə görüşmüşdür.

Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti haqqında məlumat verən Mehriban xanım Əliyeva demişdir ki, 2004-cü ilin mayında yaranmış Fond təhsil, səhiyyə, idman və digər sahələrdə irimiqyaslı layihələr həyata keçirir, bir sıra iri təşkilatlarla sıx əməkdaşlıq edir. Fond səhiyyə sahəsində keçirilən layihələrə xüsusi önəm verir.

Heydər Əliyev Fondu BMT-nin İnkişaf Proqramı çərçivəsində zəif görən insanların informasiya texnologiyalarına çıxışı layihəsini həyata keçirir. Bu layihə çərçivəsində xüsusi mərkəzin inşa olunduğunu bildirən Mehriban Əliyeva Heydər Əliyev Fondunun HIV/AIDS-ə qarşı mübarizədə də geniş fəaliyyət göstərməyə hazır olduğunu vurğulamışdır.

AİDS-in bütün dünyanı narahat edən başlıca problemlərdən biri olduğunu deyən Nafis Sadiq bu bəlaya qarşı mübarizədə cəmiyyətin bütün təbəqələrinin birgə fəaliyyətinin vacibliyini bildirmişdir. O, dünyanı bürüməkdə olan xəstəliyə qarşı mübarizədə əhalinin geniş təbəqələri arasında maarifləndirmənin əhəmiyyətini vurğulamışdır.

*"Azərbaycan" qəzeti,*
*15 dekabr 2007-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BUXARESTDƏ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI XANIMLARININ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMİŞDİR

2008-ci ilin aprelin 3-də Buxarestdə, Milli muzeydə NATO-nun sammitində iştirak edən dövlət və hökumət başçılarının xanımlarının görüşü olmuşdur.

Rumıniya Prezidentinin xanımı Mariya Besesku Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanı və digər qonaqları səmimiyyətlə qarşılamışdır.

Çay süfrəsi arxasında keçən görüşdə Azərbaycan və ABŞ Prezidentlərinin xanımları Mehriban Əliyeva və Loura Buş səmimi söhbət etmişlər.

Dövlət başçılarının xanımları daha sonra muzeylə də tanış olmuşlar. Mehriban xanım Əliyeva muzeyin fəxri qonaqlar kitabını imzalamışdır.

*"Azərbaycan" qəzeti,*
*4 aprel 2008-ci il*



## İORDANİYA KRALİÇASI RANİYA HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

İordaniya Kralı əlahəzrət II Abdullahın xanımı Raniya 2008-ci ilin mayın 6-da Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva hörmətli qonağı səmimiyyətlə qarşıladı.

Mehriban Əliyeva Kraliçaya Azərbaycan xalqının ümummilli liderinin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.

Kraliça Raniya fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Qonaq Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.





Mehriban xanım və Kraliça Raniya Heydər Əliyev Fondunun fəaliyyətindən bəhs edən filmə baxdılar.

Fondla tanışlıqdan sonra Azərbaycan və İordaniyanın birinci xanımlarının görüşü oldu. Mehriban xanım Kraliça Raniyanı Bakıda görməkdən məmnunluğunu bildirdi.

Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi. Bildirdi ki, Fondun əsas məqsədləri ulu öndərin zəngin irsini öyrənmək və təbliğ etmək, onun Azərbaycanın tərəqqisinə yönəlmiş geniş miqyaslı fəaliyyəti barədə gələcək nəsilləri məlumatlandırmaq, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdir. Bununla yanaşı, Fond təhsil, səhiyyə, mədəniyyət və digər sahələrlə bağlı genişmiqyaslı layihələr hazırlayıb həyata keçirir. Uşaq evləri və internat məktəblərinin yenidən qurulması, maddi-texniki bazasının yaxşılaşdırılması, valideyn himayəsindən məhrum olan uşaqlara hərtərəfli qayğı göstərilməsi, diabet və talassemiyadan əziyyət çəkən insanlara kömək, yeni məktəblərin tikintisi, əlil uşaqlara informasiya texnologiyaları ilə işləmək vərdişlərinin aşılanması, zəngin mədəniyyətimizin öyrənilməsi, təbliği sahəsində görülmüş işlərdən danışan Mehriban xanım hazırda Talassemiya mərkəzinin tikildiyini də bildirdi.

Səmimi görüşə və ətraflı məlumata görə təşəkkür edən Kraliça Raniya Heydər Əliyev Fondunun və onun prezidentinin xeyirxah işlərini yüksək qiymətləndirdi.

Hörmətli qonağa Heydər Əliyev Fondu haqqında kitab hədiyyə edildi.

Kraliça Raniya Fondla tanışlıqdan xoş və zəngin təəssürat aldığını bildirdi.

*"Azərbaycan" qəzeti,*
*7 may 2008-ci il*



## AZƏRBAYCANIN VƏ İSVEÇRƏNİN BİRİNCİ XANIMLARININ GÖRÜŞÜ

2008-ci ilin mayın 12-də Azərbaycan Respublikası Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın və İsveçrə Konfederasiyası Prezidentinin xanımı Brigit Kuşpenin görüşü olmuşdur.

*"Azərbaycan" qəzeti,*
*13 may 2008-ci il*







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA İORDANİYA ŞAHZADƏSİ FERİAL İLƏ GÖRÜŞMÜŞDÜR

2008-ci ilin mayın 14-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva "Gülüstan" sarayında YUNESKO-nun himayəsi ilə təhsil problemlərinə dair keçirilən konfransda iştirak etmək üçün ölkəmizə gəlmiş İordaniya şahzadəsi, YUNESKO-nun xoşməramlı səfiri xanım Ferial ilə görüşmüşdür.

Qonağı səmimiyyətlə salamlayan Mehriban xanım onun dəvətini qəbul edib Bakıya gəldiyi üçün şahzadə Feriala təşəkkür etdi. Mehriban xanım Heydər Əliyev Fondunun fəaliyyəti haqqında qonağa məlumat verdi.

Azərbaycan xalqının qonaqpərvərliyini yüksək qiymətləndirən şahzadə Ferial Bakının gözəlliyindən məmnunluğunu vurğuladı.

Görüşdə YUNESKO çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

*"Azərbaycan" qəzeti,*
*15 may 2008-ci il*



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA İSLANDİYANIN SABİQ PREZİDENTİ VİQDOS FİNNBOQADOTTİR İLƏ GÖRÜŞMÜŞDÜR

2008-ci ilin mayın 14-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva "Gülüstan" sarayında YUNESKO-nun himayəsi ilə təhsil problemlərinə dair keçirilən konfransda iştirak etmək üçün ölkəmizdə səfərdə olan İslandiyanın sabiq prezidenti, YUNESKO-nun xoşməramlı səfiri xanım Viqdos Finnboqadottir ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva Azərbaycana səfərə gəldiyinə görə və konfransda iştirakına görə qonağa təşəkkürünü bildirdi.

Xoş münasibətə və qonaqpərvərliyə görə minnətdarlıq edən xanım Viqdos Finnboqadottir Bakıda keçirilən konfransın əhəmiyyətini vurğuladı.

Mehriban xanım Heydər Əliyev Fondunun fəaliyyəti və həyata keçirdiyi layihələr haqqında qonağa ətraflı məlumat verdi.

*"Azərbaycan" qəzeti,*
*15 may 2008-ci il*







## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN XANIMI ƏMİNƏ ƏRDOĞAN NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ OLMUŞLAR

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri çərçivəsində onun xanımı Əminə Ərdoğan 2008-ci ilin iyunun 4-də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın müşayiəti ilə Naxçıvan Dövlət Universitetində olmuşdur.

Universitetin müəllim və tələbələri hörmətli qonaqları səmimiyyətlə qarşıladılar.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Türkiyənin Baş nazirinin xanımı Əminə Ərdoğan Universitetin Konservatoriyasına gəldilər. Konservatoriya ilə tanışlıq zamanı bildirildi ki, 350-dək müəllimin çalışdığı Universitetdə 4 min tələbə təhsil alır. 10 fakültənin hər birində auditoriyalar kompyuter avadanlığı ilə təchiz olunub və internetə qoşulubdur.

Mehriban xanım Əliyeva və Əminə xanım Ərdoğan Konservatoriyanın fortepiano, vokal, dirijorluq, bəstəkarlıq sinifləri, musiqi alətləri, musiqişünaslıq, metodika kafedraları, auditoriyaları ilə tanış oldular, xor kapellasının ifasında Azərbaycan və Türk mahnılarını dinlədilər.

Xanım Əminə Ərdoğan Konservatoriyaya xatirə hədiyyəsi təqdim etdi. Türkiyəli qonağa Universitetin beynəlxalq əlaqələri barədə də məlumat verildi, Türkiyənin ali məktəbləri ilə sıx əməkdaşlıq edildiyi vurğulandı.

Sonra Naxçıvan Dövlət Universitetində təhsil alan türkiyəli tələbələrlə görüşən xanım Əminə Ərdoğan onların təhsili ilə maraqlandı. Tələbələr burada yaradılan şəraitdən razılıqlarını bildirdilər.

*"Azərbaycan" qəzeti,*
*5 iyun 2008-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA MACARISTAN BAŞ NAZİRİNİN XANIMI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva ölkəmizdə səfərdə olan Macarıstanın Baş naziri Ferents Dyurçanın xanımı Klara Dobrev ilə görüşmüşdür.

*"Azərbaycan" qəzeti,*
*8 iyul 2008-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MARİANNA VARDİNNOYANİS İLƏ GÖRÜŞMÜŞDÜR

2008-ci ilin sentyabrın 24-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Bakıda keçirilən Dünya Gənclərinin IV Məşğulluq Sammitində iştirak etmək üçün Azərbaycanda səfərdə olan Yunanıstanın Uşaq və Ailə Fondu Qeyri-Hökumət Təşkilatının prezidenti Marianna Vardinnoyanis ilə görüşmüşdür.

*"Azərbaycan" qəzeti,*
*25 sentyabr 2008-ci il*







## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN VƏ ESTONİYA PREZİDENTİNİN XANIMI EVELİN İLVESİN GÖRÜŞÜ

2009-cu ilin yanvarın 13-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın və Estoniyanın birinci xanımı Evelin İlvesin görüşü olmuşdur.

*"Azərbaycan" qəzeti,*
*14 yanvar 2009-cu il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA YUNESKO-nun BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva 2009-cu ilin martın 19-da YUNESKO-nun Baş direktoru Koişiro Matsuura ilə görüşmüşdür.

Koişiro Matsuuranı yenidən Azərbaycanda görməkdən məmnunluğunu söyləyən Mehriban Əliyeva "Muğam aləmi" Beynəlxalq Festivalında iştirak etmək üçün ölkəmizə gəldiyinə görə ona təşəkkür etdi, son dövrdə Azərbaycan ilə YUNESKO arasında əməkdaşlığın daha da inkişaf etdiyini bildirdi.

Ölkəmizə növbəti dəfə səfər etməsindən şad olduğunu bildirən YUNESKO-nun Baş direktoru Azərbaycanda Beynəlxalq Muğam festivalının keçirilməsini yüksək qiymətləndirdi.

Görüşün sonunda Heydər Əliyev Fondu və BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında qeyri-maddi mədəni irsin qorunması üzrə strateji hədəflərə nail olmaq məqsədilə əməkdaşlıq sazişi imzalandı.

Sazişi Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və YUNESKO-nun Baş direktoru Koişiro Matsuura imzaladılar.

Sənəddə hər iki tərəf YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair 2003-cü il tarixli konvensiyasının həyata keçirilməsinə öz töhfəsini vermək, bu sahədə imkan və təcrübələrdən istifadə etməklə sıx əməkdaşlığı davam etdirmək niyyətini bir daha bildirmişdir.

Heydər Əliyev Fondu və YUNESKO xoşməramlılıq prinsiplərini rəhbər tutaraq inkişaf edən ölkələrdə şəraitin yaxşılaşdırılması, peşəkar inkişafa xüsusi diqqət yetirməklə qeyri-maddi mədəni irsin qorunması sahəsində birgə tədbirlərin keçirilməsi barədə razılığa gəlmişlər.

İmzalanma mərasimindən sonra Koişiro Matsuura Mehriban xanım Əliyevaya YUNESKO-nun xatirə gümüş medalını təqdim etdi.

*"Azərbaycan" qəzeti,*
*20 mart 2009-cu il*







## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN VƏ POLŞA PREZİDENTİNİN XANIMI MARİYA KAÇİNSKANIN GÖRÜŞÜ

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın və Polşanın birinci xanımı Mariya Kaçinskanın görüşü olmuşdur.

*"Azərbaycan" qəzeti,*
*3 iyul 2009-cu il*



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA YAZIÇI-ALİM RUDOLF İVANOVLA GÖRÜŞMÜŞDÜR

2009-cu ilin iyulun 3-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva rusiyalı tanınmış tədqiqatçı alim və yazıçı, professor Rudolf İvanov və onun xanımı Yekaterina ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva Azərbaycanın görkəmli hərbçiləri haqqında kitabları ilə məşhur olan yazıçı və onun xanımı ilə xatirə şəkli çəkdirmişdir.

Heydər Əliyev Fondunda yazıçını görməyə şad olduğunu deyən Mehriban xanım Əliyeva Azərbaycan Prezidentinin sərəncamı ilə "Dostluq" ordeninə layiq görülməsi münasibətilə qonağı təbrik etmişdir.

Yazıçının yaradıcılığının ölkəmizdə diqqətlə izlənildiyini qeyd edən Mehriban xanım Azərbaycan tarixini obyektiv araşdırdığına və bu mövzudakı sanballı əsərlərinə görə professor Rudolf





İvanova təşəkkür etmişdir. Mehriban xanım bildirmişdir ki, yazıçının yaradıcılığı, eyni zamanda, Azərbaycan və Rusiya arasında mədəni əlaqələrə töhfədir.

Heydər Əliyev Fondunun prezidenti yazıçıya yaradıcılığında yeni uğurlar arzulamışdır.

Səmimi qəbula görə təşəkkür edən yazıçı Rudolf İvanov yaradıcılığına göstərilən diqqətə görə minnətdarlıq etmişdir. O, Prezident İlham Əliyevin sərəncamı ilə "Dostluq" ordeni ilə təltif olunmasını yaradıcılığına verilən böyük qiymət kimi qəbul etdiyini demişdir.

Yaradıcılığı haqqında məlumat verən yazıçı əsərlərinin nəşrinə göstərdiyi köməyə görə Heydər Əliyev Fondunun prezidentinə minnətdarlığını bildirmişdir.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunmuşdur.

*"Azərbaycan" qəzeti,*
*4 iyul 2009-cu il*



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA MÜXTƏLİF ÖLKƏLƏRİN DİN XADİMLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda səfərdə olan müxtəlif ölkələrin din xadimləri 2009-cu ilin iyulun 6-da Heydər Əliyev Fondunda olmuşlar.

Qonaqlar Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin verdiyi hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış olmuş, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxmışlar.

Ulu öndərin orta və ali məktəbləri əla qiymətlərlə bitirməsi barədə attestatı və diplomu, əla təhsilə və nümunəvi əxlaqa görə tərifnaməsi, işlədiyi müxtəlif kollektivlərdə yalnız müsbət keyfiyyətlərlə səciyyələndirilən xasiyyətnamələri, keçmiş SSRİ-nin müxtəlif guşələrində, respublikamızın ayrı-ayrı şəhər və rayonlarında keçirilən tədbirlərdə çəkilmiş yadigar fotoşəkillər,





iş otağındakı əşyalar şərəfli ömrün salnaməsini xatirələrdə bir daha canlandırmışdır.

Məlumat verilmişdir ki, ümummilli lider Heydər Əliyev iqtisadi rifahın, sosial-mədəni irəliləyişlərin, müasir cəmiyyət quruculuğunun bütün səviyyələrdə uğurlu inkişafı üçün zəruri zəminlər yaratmışdır.

Din xadimləri Heydər Əliyev Fondunun görkəmli siyasi xadimin zəngin irsinin öyrənilməsi, təbliği, Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti ilə bağlı apardığı işləri yüksək qiymətləndirmişlər.

Fondla tanışlıqdan sonra qurumun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva qonaqlarla görüşmüşdür. Mehriban xanım Əliyeva onları ölkəmizdə və ulu öndər Heydər Əliyevin adını daşıyan Fondda görməkdən məmnun olduğunu bildirdi.

Qurumun prezidenti Fondun artıq beş ildir ki, fəaliyyət göstərdiyini və onun yaranma ideyasının dahi şəxsiyyət Heydər Əliyevə məxsus olduğunu söylədi. Mehriban xanım vurğuladı ki, Fond yaranan gündən ümummilli liderin həyatının ən başlıca amalı olan Azərbaycana xidmət etməyi qarşısına əsas məqsəd kimi qoymuşdur. Qurum təhsil, səhiyyə, mədəniyyət, elm, gənclərə yardım və bir çox sahələrdə müxtəlif layihələr həyata keçirir.

Mehriban xanım əlavə etdi ki, Fondun ünvanına daxil olan məktubların heç biri cavabsız qalmır. Fondun əsas vəzifəsi insanlara və, ilk növbədə, ehtiyacı olanlara xidmət etməkdir.

Qurumun prezidenti Azərbaycanda həmişə dini dözümlüyün olduğunu qeyd edərək yarandığı gündən Fondun tolerantlığın qorunmasına istiqamətlənən layihələrə böyük önəm verdiyini vurğuladı. Mehriban xanım Əliyeva bildirdi ki, rəhbərlik etdiyi qurumun təşəbbüsü ilə ölkədə məscidlər tikilir. Fond pravoslav və katolik kilsələrə də lazımi yardımı göstərir.

Dini dözümlülüyün əsas məqsədlərimizdən biri olduğunu deyən Heydər Əliyev Fondunun prezidenti Təzəpir məscid kompleksinin açılışında iştirak etmək üçün Bakıya gəlmiş din xadimlərinin gözəl paytaxtımızla tanış olacaqlarına ümidvar olduğunu bildirdi. Mehriban xanım Əliyeva inamın ürəklərdə yaşadığını deyərək məscidin açılışını xoş hadisə kimi dəyərləndirdi.

*"Azərbaycan" qəzeti,*
*7 iyul 2009-cu il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA LONDON SİTİ MERİNİN XANIMI LİN LUDER İLƏ GÖRÜŞMÜŞDÜR

2009-cu ilin iyulun 20-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva ölkəmizdə səfərdə olan London Siti merinin xanımı Lin Luder ilə görüşmüşdür.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Lin Luderi Bakıda görməkdən məmnun olduğunu bildirdi. Bu yaxınlarda Böyük Britaniyada səfərdə olduğunu deyən Mehriban xanım iki ölkə arasında dostluq əlaqələrinin uğurla inkişaf etdiyini vurğuladı.Xanım Lin Luder xoş sözlərə və səmimi münasibətə görə Mehriban Əliyevaya təşəkkür etdi.

Görüşdə ölkələrimiz və xalqlarımız arasında münasibətlərin yüksək səviyyədə olması xüsusi vurğulandı, əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

*"Azərbaycan" qəzeti,*
*21 iyul 2009-cu il*





## HEYDƏR ƏLİYEV FONDUNDA GÖRÜŞ

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva 2010-cu ilin yanvarın 22-də Rusiya Dövlət Dumasının deputatları və Rusiyanın nüfuzlu kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunda iştirak etmək üçün Bakıya gəlmiş qonaqları salamlayaraq onları ölkəmizdə görməsindən məmnunluğunu bildirdi.

Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun əhəmiyyətindən danışan Mehriban xanım Əliyeva tədbirin işinə uğurlar arzuladı və Forumun hər il keçirilməsinin vacibliyini bildirdi. Belə tədbirlərdə gələcəyə doğru real addımların atıldığını deyən Fondun prezidenti, hər iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın bu gün də uğurla davam etdiyini diqqətə çatdırdı.

Rəhbərlik etdiyi qurumun fəaliyyəti haqqında məlumat verən Mehriban xanım Əliyeva Fondun ulu öndər Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və təbliği ilə yanaşı, müxtəlif sosial-iqtisadi, mədəni layihələr həyata keçirdiyini və bunun da Azərbaycanın tərəqqisinə, mədəniyyətinin və tarixinin təbliğinə xidmət etdiyini vurğuladı. Mehriban xanım Əliyeva Azərbaycanda rus dilinin inkişafına da qayğı göstərildiyini deyərək, ölkəmizdə rusdilli orta və ali məktəblərin fəaliyyət göstərdiyini söylədi. Bu istiqamətdə ölkələrimizin əlaqələrinin gələcəkdə də uğurla davam etdirilməsinin vacibliyini vurğuladı.

Qonaqlar Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələrdəki əməkdaşlıq məsələlərinə toxunaraq, keçirilən Forumun tərəflər arasında mövcud münasibətlərin daha da inkişafına zəmin yaradacağına əminliklərini bildirdilər.

*"Azərbaycan" qəzeti,*
*23 yanvar 2010-cu il*



## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVANIN VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN XANIMI ƏMİNƏ ƏRDOĞANIN GÖRÜŞÜ

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın və Türkiyə Baş nazirinin xanımı Əminə Ərdoğanın görüşü olmuşdur.

2010-cu ilin mayın 17-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Türkiyə Baş nazirinin xanımı Əminə Ərdoğan Talassemiya Mərkəzində olmuş, müalicə ocağının fəaliyyəti və xəstələrin vəziyyəti ilə maraqlanmışlar. Mərkəzin direktoru Azər Kərimov məlumat vermişdir ki, Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunan bu səhiyyə ocağı gün ərzində 30-40 xəstə qəbul edir. Azərbaycanda min nəfərə yaxın talassemiyalı xəstə vardır ki, onların da 60 faizi mərkəzdə daimi müalicə olunur. Beynəlxalq standartlara tam cavab verən mərkəzin laboratoriyasında qan qrupunu avtomatik təyin edən aparat və digər lazımi avadanlıq quraşdırılmışdır. Burada donorlardan götürülən qan dərhal müayinə olunur.





Xanım Əminə Ərdoğan mərkəzin ikinci mərtəbəsində yerləşən transfuziya zalına, 12 otaqdan ibarət klinikaya, manipulyasiya otaqlarına və laboratoriyaya baxmışdır. Qeyd olunmuşdur ki, transfuziya zalında xəstələrə qanköçürmə əməliyyatı aparılır. Mehriban Əliyeva və Əminə Ərdoğan burada müalicə alan uşaqların səhhəti ilə maraqlanmış, onların valideynləri ilə söhbət etmişlər. Bundan əvvəl övladlarını xaricdə çox çətinliklə müalicə etdirmək məcburiyyətində olduqlarını və bu mərkəz fəaliyyətə başladıqdan sonra problemin aradan qaldırıldığını deyən valideynlər göstərilən diqqət və qayğıya, ümumiyyətlə, ölkədə səhiyyə sahəsində aparılan çox mühüm islahatlara görə dövlətimizin başçısı İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkürlərini bildirmişlər.

Sonra Əminə Ərdoğan mərkəzin üçüncü mərtəbəsində yerləşən reanimasiya palatası, molekulyar diaqnostika laboratoriyası, sterilləşdirmə mərkəzi ilə tanış olmuşdur. Bildirilmişdir ki, burada regionda ilk dəfə olaraq sümük iliyinin köçürülməsi üçün əməliyyat otağı yaradılmışdır və bu prosesin tətbiqi istiqamətində geniş iş aparılır. Mərkəzdə xəstəliyin aşkar edilməsi üçün xüsusi poliklinika da fəaliyyət göstərir. Türkiyə Baş nazirinin xanımı mərkəzin beşinci mərtəbədə yerləşən konfrans zalına və yeməkxanaya da baxmışdır.

*"Azərbaycan" qəzeti,*
*18 may 2010-cu il*



## HEYDƏR ƏLİYEV FONDU İLƏ LİTVANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİ ARASINDA HUMANİTAR SAHƏDƏ ƏMƏKDAŞLIĞA DAİR ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

2010-cu ilin iyulun 12-də Heydər Əliyev Fondu ilə Litvanın Azərbaycandakı səfirliyi arasında humanitar sahədə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

Sənədi Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva və Litvanın Azərbaycandakı səfiri Kestutis Kudzmanas imzalamışlar.

Qonağı Heydər Əliyev Fondunda səmimi salamlayan Mehriban xanım Əliyeva mədəniyyət, təhsil, səhiyyə, hüquq sahələrini əhatə edən əməkdaşlığın rəsmiləşdirilməsindən məmnunluğunu bildirdi. Bununla ikitərəfli əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu deyən Heydər Əliyev Fondunun prezidenti sənədin gələcəkdə yeni birgə layihələrin həyata keçirilməsinə zəmin yaradacağına ümidvar olduğunu söylədi.





Mehriban xanım qeyd etdi ki, Heydər Əliyev Fondu bu istiqamətdə əməkdaşlığa hazırdır.

Səfir Kestutis Kudzmanas Heydər Əliyev Fondunun fəaliyyəti ilə yaxından tanış olduğunu bildirərək, Fondun gördüyü işləri, reallaşdırdığı mühüm layihələri yüksək qiymətləndirdi.

Litva səfiri Fondun uşaqlarla bağlı çox mühüm layihələr həyata keçirdiyini deyərək, imzalanan memorandumun azərbaycanlı gənclər üçün yeni imkanlar açdığını söylədi. Belə ki, memorandum çərçivəsində bu il xüsusi istedada malik 20 azərbaycanlı gənc Litvanın aparıcı universitetlərində ödənişsiz əsaslarla təhsil almaq hüququ qazanacaqdır. Vurğulandı ki, Litva səfirliyi Heydər Əliyev Fondunu azərbaycanlı gənclərin bu ölkədə təhsil alması üçün ən yaxın tərəfdaşı hesab edir.

*"Azərbaycan" qəzeti,*
*13 iyul 2010-cu il*



# AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA POLŞANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ KŞİŞTOF KRAYEVSKİ İLƏ GÖRÜŞMÜŞDÜR

2010-cu ilin iyulun 12-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Polşanın Bakıdakı səfiri Kşiştof Krayevski ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva ölkələrimiz arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Prezident İlham Əliyevin Sərəncamı ilə "Dostluq" ordeninə layiq görülmüş səfiri bu münasibətlə təbrik etdi. Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, K.Krayevskinin səfir postunda fəaliyyəti bu illər ərzində Azərbaycan ilə Polşa arasında əlaqələrin daha da yaxınlaşmasına töhfə vermişdir.

Mehriban xanım ölkəmizdə diplomatik fəaliyyətini başa vuran K.Krayevskinin bundan sonra harada çalışmasından asılı olmayaraq, hər zaman Azərbaycanın dostu olaraq qalacağına ümidvar olduğunu bildirdi.





Xoş sözlərə görə Mehriban xanım Əliyevaya təşəkkürünü bildirən səfir, Azərbaycanın onun üçün doğma ölkə olduğunu, burada çoxlu dostlar qazandığını söylədi.

Azərbaycandakı fəaliyyətinin zəngin olduğunu deyən səfir K.Krayevski hər zaman ölkələrimiz arasında əlaqələrin genişlənməsinə çalışdığını bildirdi. O dedi ki, səfirlik Fondla birlikdə Azərbaycanda "Şopen ili"ni keçirir. İkitərəfli əməkdaşlıq çərçivəsində isə Samux rayonunun Sarıqamış kəndində məktəb inşa olunmuşdur.

*"Azərbaycan" qəzeti,*
*13 iyul 2010-cu il*



## HEYDƏR ƏLİYEV FONDUNDA GÖRÜŞ

2010-cu ilin sentyabrın 3-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondunda Rusiya Prezidentinin xanımı Svetlana Medvedeva ilə görüşmüşdür.

Birinci xanımlar əvvəlcə Fondun fəaliyyəti, təhsil, elm, səhiyyə və digər sahələrdə həyata keçirdiyi layihələrdən bəhs edən filmə baxdılar.

Sonra Mehriban Əliyeva ilə Svetlana Medvedevanın görüşü oldu. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bildirdi ki, Fond Azərbaycanın tərəqqisinə yönələn, mədəniyyətimizin və ölkəmizin tarixinin geniş təbliği ilə bağlı görülən işləri dəstəkləyir. Azərbaycanın birinci xanımı dedi ki, rəhbərlik etdiyi qurum müxtəlif sahələri əhatə edən və cəmiyyəti düşündürən, ölkəmizin həqiqətlərinin dünyada təbliğ olunmasına yönələn genişmiqyaslı layihələr həyata keçirir. Fond bir sıra beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq edir.

Heydər Əliyev Fondunun Rusiya Prezidentinin xanımının rəhbərlik etdiyi Sosial-Mədəni Təşəbbüslər Fondu kimi geniş xeyriyyəçilik və irimiqyaslı sosial və humanitar layihələr həyata keçirdiyini söyləyən Mehriban xanım dedi ki, biz bir yerdə əməkdaşlıq çərçivəsində





çox şeyə nail ola bilərik.

Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirən Rusiyanın birinci xanımı Svetlana Medvedeva görülən işlərin təqdirəlayiq olduğunu söylədi. O, Fondun reallaşdırdığı layihələrin əhəmiyyətini xüsusi qeyd edərək, Heydər Əliyev Fonduna gələcək fəaliyyətində uğurlar arzuladı.

Rusiyanın birinci xanımı özünün rəhbərlik etdiyi Sosial-Mədəni Təşəbbüslər Fondunun fəaliyyəti haqqında məlumat verərək, qurumun bir sıra iri layihələr həyata keçirdiyini söylədi.

Görüşdə mədəni irsin qorunması sahəsində müzakirələr aparıldı. Birinci xanımlar Fondlar arasında əlaqələrin inkişafı ilə bağlı razılığa gəldilər. Xeyriyyəçilik missiyası ilə bərabər, ölkələrimizin mədəniyyətlərinin təbliğatına da böyük diqqət ayrılmasının vacibliyi vurğulandı.

Görüşdən sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Svetlana Medvedevaya xatirə hədiyyələri təqdim etdi.

Rusiyanın birinci xanımı Heydər Əliyev Fondundan zəngin təəssüratlarla ayrıldı.

*"Azərbaycan" qəzeti,*
*4 sentyabr 2010-cu il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN VƏ LATVİYANIN BİRİNCİ XANIMI LİLİTA ZATLERENİN GÖRÜŞÜ OLMUŞDUR

Prezident İlham Əliyevin Latviyaya səfəri çərçivəsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva 2011-ci ilin yanvarın 17-də Latviyanın birinci xanımı Lilita Zatlere ilə görüşmüşdür.

*"Azərbaycan" qəzeti,*
*18 yanvar 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA RİQADA "SAULE" SOSİAL İNKİŞAF MƏRKƏZİNDƏ OLMUŞDUR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2011-ci ilin yanvarın 17-də Riqada "Saule" Sosial İnkişaf Mərkəzində olmuşdur.

Mehriban xanıma məlumat verildi ki, 1995-ci ildə Beynəlxalq donorlar tərəfindən təsis olunmuş bu qeyri-hökumət təşkilatının məqsədi əqli cəhətdən zəif insanların öz imkanları daxilində cəmiyyətə maksimum inteqrasiya olunmasına yardım göstərməkdir. Mərkəzin qayğısı ilə əhatə olunan insanların əl işləri Beynəlxalq sərgilərdə nümayiş edilir. Təşkilat həm də vətəndaş cəmiyyətinin qurulmasında yaxından iştirak edir. Beynəlxalq əməkdaşlıq çərçivəsində "Saule" Sosial İnkişaf Mərkəzi Gənclərin Beynəlxalq mübadilə layihələrində yaxından iştirak edir, müxtəlif təlim-tədris proqramlarını həyata keçirir.

Azərbaycanın birinci xanımına mərkəzin reallaşdırdığı müxtəlif xeyirxah layihələr barədə də məlumat verilmişdir.

Mehriban xanım mərkəzlə yaxından tanış olmuş, burada yaradıcılıqla məşğul olanların əl işlərinə baxmışdır.

Sonra Azərbaycanın birinci xanımı mərkəzin üzvlərinin ifasında konsert proqramına tamaşa etmişdir.

Azərbaycanın və Latviyanın birinci xanımlarına hədiyyələr təqdim olunmuşdur.

Heydər Əliyev Fondunun adından "Saule" Sosial İnkişaf Mərkəzinə noutbuklar təqdim edilmişdir.

*"Azərbaycan" qəzeti,*
*18 yanvar 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VƏ FRANSANIN MƏDƏNİYYƏT NAZİRİ FREDERİK MİTTERANIN GÖRÜŞÜ

2011-ci ilin fevralın 17-də Parisdə Azərbaycan Respublikasının müstəqilliyini yenidən bərpa etməsinin 20-ci ildönümünə və "Azərbaycan" kitabının təqdimatına həsr olunmuş təntənəli mərasim çərçivəsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Fransanın Mədəniyyət naziri Frederik Mitteran ilə görüşmüşdür.

Fransanın Mədəniyyət naziri Frederik Mitteran Mehriban xanım Əliyevanı salamlayaraq dedi:

– Hörmətli birinci xanım, mən sizi burada – Parisdə qəbul etməkdən olduqca şadam. Mən çox gözəl bilirəm ki, siz öz ölkənizin mədəniyyətinin təşviq olunmasında, bu baxımdan, ümumiyyətlə, bir çox tədbirlər görürsünüz və bu sahədə çox fəalsınız. Onu da etiraf etməliyəm ki, Fransada Azərbaycan haqqında bilgilər, Azərbaycanın tanınması gözəçarpan dərəcədə artır. Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, televiziyada yayımlanan həm sənədli, həm də reklam

xarakterli filmlər Azərbaycanın turizm imkanları, mədəni irsi haqqında geniş bilgilər verir və bu da fransızların, sözün əsl mənasında, böyük marağına səbəb olur.

Görürəm ki, bu möhtəşəm tədbir çox yüksək səviyyədə təşkil olunub və artıq mən bunu böyük bir uğur adlandıra bilərəm. Siz bilirsiniz ki, həmçinin mən Azərbaycan ilə Fransa arasında mədəni əlaqələrin daha da dərinləşməsi, daha da artması üçün çox çalışıram və bunu səmimi qəlbdən arzulayıram. Eyni zamanda, onu qeyd etmək istəyirik ki, təşkil olunan bu cür tədbirlər, görülən işlər, atılan addımlar – bütün bunlar, sadəcə, öz hüdudları ilə məhdudlaşmır. Bu o deməkdir ki, bunlar, sözün əsl mənasında, ictimai rəyə, ümumiyyətlə, insanların – burada yaşayan yerli insanların təfəkkürünə, dünyagörüşünə birbaşa təsir göstərir. Bu da özlüyündə çox xoş bir haldır.

Eyni zamanda, qeyd etmək istəyirəm ki, biz mədəni irs, arxeologiya, muzey işinin təşkili, musiqi sahələrində mübadilələrin təmin edilməsi üçün çox çalışırıq. Ölkələrimiz arasında sıx əməkdaşlıq mövcuddur. Mən bu əməkdaşlığın davamı olaraq istəyirəm ki, ölkənizə səfər edim, əgər siz bunu arzulayırsızsa.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva nazirə təşəkkür edərək dedi:

– Çox sağ olun. Mən, ilk növbədə, öz minnətdarlığımı bildirmək istəyirəm ki, cənab nazir dəvətimizi qəbul edib bu gün bizimlədir, ümumiyyətlə, sizin dəstəyiniz bizim üçün çox vacibdir.

Mən tamamilə razıyam ki, insanlar, xalqlar bir-birini məhz mədəniyyət yolu ilə daha yaxşı tanıyırlar, bir-birini daha dərindən öyrənirlər və bu da, ümumiyyətlə, ölkələr arasında mövcud olan əlaqələrin inkişafında çox vacib rol oynayır.

Bu, bizim ilk tədbirimizdir. Amma ümidvaram ki, il ərzində biz bir neçə belə mədəni tədbir hazırlayıb keçirəcəyik və xüsusilə belə tədbirlərin Fransada keçirilməsinə böyük əhəmiyyət veririk. Fransa dünyanın ən qədim tarixə və mədəniyyətə məxsus olan bir dövlətidir.

Mən fürsətdən istifadə edərək sizi Azərbaycana səfərə dəvət edirəm və ümidvaram ki, biz çox yaxın gələcəkdə Azərbaycanda görüşəcəyik.

*"Azərbaycan" qəzeti,*
*19 fevral 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA BMT-nin AZƏRBAYCANDAKI REZİDENT-ƏLAQƏLƏNDİRİCİSİ FİKRƏT AKÇURA İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2011-ci ilin martın 1-də BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi, BMT-nin İnkişafı Proqramının rəhbəri Fikrət Akçura ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva qonağı Fondda görməkdən şad olduğunu bildirmişdir. Azərbaycanın birinci xanımı BMT-nin İnkişafı Proqramı ilə səmərəli əməkdaşlığın olduğunu demişdir. Heydər Əliyev Fondunun prezidenti bu əməkdaşlıq çərçivəsində "Kor və görmə qabiliyyəti zəif olan insanların İKT-yə çıxışının təmin olunması" layihəsinin uğurla başa çatmasını, məhdud fiziki imkanlı insanlar üçün Gəncədə və Naxçıvanda regional informasiya mərkəzlərinin yaradılmasını xüsusi qeyd etmişdir.

Uğurla əməkdaşlığa görə Mehriban xanım Əliyevaya təşəkkür edən Fikrət Akçura hazırkı görüşün gələcək əməkdaşlıq istiqamətlərini, o cümlədən həyata keçirilməsi nəzərdə tutulan birgə layihələrin müzakirəsi baxımından əhəmiyyətini qeyd etmişdir. Mehriban xanım Əliyevanın təhsil və səhiyyə sahəsinin inkişafına diqqət və qayğısını yüksək qiymətləndirən Fikrət Akçura təmsil etdiyi qurumun Heydər Əliyev Fondu ilə əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırmışdır.

Görüşdə əməkdaşlıq müstəvisində həyata keçirilən layihələr barədə ətraflı söhbət aparılmış, hazırda Yevlaxda bu istiqamətdə işlərin davam etdirildiyi vurğulanmış, tərəfdaşlığın perspektivləri müzakirə olunmuşdur.

*"Azərbaycan" qəzeti,*
*2 mart 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA YUNİSEF-in AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİNİN RƏHBƏRİ MARK HEREVARDLA GÖRÜŞMÜŞDÜR

2011-ci ilin martın 1-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mark Herevardla görüşmüşdür.

Mehriban xanım Əliyeva YUNİSEF ilə birgə həyata keçirilən layihələrin uğurla icra olunduğunu bildirmişdir. Birgə əməkdaşlıq çərçivəsində ana südü ilə qidalanma və anemiyanın profilaktikası, həmçinin məhdud fiziki imkanlı uşaqlara xüsusi qayğı ilə bağlı həyata keçirilən layihələrin davamını müsbət qiymətləndirmişdir.

Görüşdə yaxın gələcəkdə bu mövzuda keçiriləcək beynəlxalq konfransa hazırlıq və təklif olunan digər layihələr müzakirə olunmuşdur.

*"Azərbaycan" qəzeti,*
*2 mart 2011-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ÖLKƏMİZDƏKİ SƏFİRİ METYU BRAYZA İLƏ GÖRÜŞMÜŞDÜR

2011-ci ilin martın 4-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Metyu Brayza ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva ABŞ səfirini Fondda görməkdən şad olduğunu bildirmişdir. Azərbaycanın birinci xanımı Azərbaycan-ABŞ əlaqələrinin yüksək səviyyədə olduğunu demiş, səfirə ölkələrimizin qarşılıqlı münasibətlərinin inkişaf etdirilməsi istiqamətindəki fəaliyyətində uğurlar diləmişdir.

Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti barədə qonağa məlumat verən Mehriban xanım Əliyeva Fondun müxtəlif sosial-iqtisadi, mədəni layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyəti və tarixinin təbliğinə kömək etdiyini diqqətə çatdırmışdır. Metyu Brayza Fondun fəaliyyətini yüksək qiymətləndirdiyini, onun xətti ilə həyata keçirilən layihələrin vacibliyini vurğulamışdır.

Görüşdə Azərbaycan ilə ABŞ arasında strateji əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunmuşdur.

*"Azərbaycan" qəzeti,*
*5 mart 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA AVSTRİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Heydər Əliyev Fondunun fəaliyyəti Avropada yüksək qiymətləndirilir və təqdir edilir.

Bu fikir Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın 2011-ci ilin martın 15-də Avstriyanın Azərbaycandakı səfiri xanım Silvia Mayer-Kaybiç ilə görüşündə səslənmişdir.

Görüşdə qonağa Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti barədə ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, 7 ildir fəaliyyət göstərən Fond Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə genişmiqyaslı proqram və layihələr həyata keçirir. Ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan Fondun məqsədi Ulu öndərin zəngin irsini öyrənmək və təbliğ etmək, görkəmli siyasət və dövlət xadiminin Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdır. Bununla bərabər, Fond təhsil, səhiyyə, mədəniyyət, elm sahələri ilə bağlı genişmiqyaslı layihələr də həyata keçirir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiya-

sız həyat naminə" layihə və proqramları müstəqil Azərbaycanın sürətli inkişaf perspektivlərinə hesablanmışdır.

Fondun genişmiqyaslı beynəlxalq əlaqələrindən danışan Mehriban xanım Əliyeva YUNİSEF, YUNESKO, BMT-nin İnkişaf Proqramı kimi nüfuzlu qurumlarla uğurlu əməkdaşlığın qurulduğunu diqqətə çatdırmışdır.

Səfir xanım Silvia Mayer-Kaybiç Heydər Əliyev Fondunun həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda gördüyü nəcib işlərin Avropada da yüksək qiymətləndirildiyini bildirmiş, bu fəaliyyətin humanitar əhəmiyyətini və örnək olduğunu xüsusi qeyd etmişdir.

Görüşdə təhsil və mədəniyyət sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

***"Azərbaycan" qəzeti,***
***16 mart 2011-ci il***







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA TÜRKİYƏNİN AZƏRBAYCANDAKI SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

2011-ci ilin martın 15-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Türkiyənin ölkəmizdəki səfiri Hulusi Kılıç ilə görüşmüşdür.

Qonağı Heydər Əliyev Fondunda salamlamaqdan məmnun olduğunu bildirən Mehriban xanım Əliyeva Azərbaycan ilə Türkiyənin dərin köklərə malik sarsılmaz dostluq və qardaşlıq əlaqələrinin xalqlarımızın və ölkələrimizin birgə maraqlarına xidmət etdiyini vurğulamışdır. Digər sahələrdə olduğu kimi, humanitar sahədə də əməkdaşlığın faydalı olacağından əminliyini bildirən Azərbaycanın birinci xanımı gələcəkdə yeni birgə layihələrin həyata keçirilməsi üçün Fondun açıq olduğunu diqqətə çatdırmışdır. Mehriban xanım Əliyeva bildirmişdir ki, Heydər Əliyev Fondu əməkdaşlığa hər zaman hazırdır.

Səfir Hulusi Kılıç xoş sözlərə görə Heydər Əliyev Fondunun prezidentinə təşəkkürünü

bildirmiş, onu qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etmişdir. Türkiyəli diplomat Heydər Əliyev Fondunun həyata keçirdiyi möhtəşəm layihələrdən xəbərdar olduğunu, ölkəsində bu fəaliyyətin yüksək qiymətləndirildiyini və qürur hissi doğurduğunu vurğulamışdır. Əməkdaşlığın perspektivlərinə toxunan səfir, qarşılıqlı fəaliyyətin qardaş ölkələrimizin inkişafına sanballı töhfələr verəcəyinə ümidvar olduğunu diqqətə çatdırmışdır. Səfir ümummilli lider Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamını xatırladaraq Fond ilə əməkdaşlığın xalqlarımızın münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcəyini demişdir.

*"Azərbaycan" qəzeti,*
*16 mart 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞMÜŞDÜR

2011-ci ilin aprelin 8-də "Gülüstan" sarayında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva İSESKO-nun Baş direktorunu Bakıda yenidən görməkdən məmnun olduğunu demişdir. Azərbaycanın birinci xanımı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun müsbət nəticələri olacağına əminliyini ifadə etmişdir.

Mədəniyyətlərarası dialoqa dair müzakirələrin vacibliyini qeyd edən İSESKO-nun Baş direktoru forumun yüksək səviyyədə təşkilini vurğulamışdır. Əbdüləziz bin Osman əl-Tüveycri Azərbaycan ilə İSESKO arasında sıx əlaqələrdən danışmışdır.

*"Azərbaycan" qəzeti,*
*9 aprel 2011-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA PARİS ŞƏHƏRİNİN YEDDİNCİ RAYONUNUN MERİ, AVROPA PARLAMENTİNİN ÜZVÜ RƏŞİDƏ DATİ İLƏ GÖRÜŞMÜŞDÜR

2011-ci ilin aprelin 8-də "Gülüstan" sarayında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən Paris şəhərinin yeddinci rayonunun meri, Avropa Parlamentinin üzvü Rəşidə Dati ilə görüşmüşdür.

Qonağı Bakıda görməkdən məmnun olduğunu deyən Mehriban xanım Əliyeva Forumda iştirakına görə Rəşidə Datiyə təşəkkürünü bildirmişdir.

Azərbaycanın birinci xanımı Rəşidə Datinin tədbirdəki çıxışının maraqlı və məzmunlu olduğunu demişdir.

Azərbaycana dəvətə görə Mehriban xanım Əliyevaya minnətdarlığını bildirən Avropa Parlamentinin üzvü Bakı Forumunda keçirilən müzakirələrdə iştirak etməkdən məmnun olduğunu vurğulamışdır.

Qonaq Mehriban xanım Əliyevanın qadınların cəmiyyətdə rolunun təşviqi sahəsində gördüyü işləri yüksək qiymətləndirmişdir.

*"Azərbaycan" qəzeti,*
*9 aprel 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA RUMINİYANIN MƏDƏNİYYƏT NAZİRİNİN MÜAVİNİ İRİNA CALAL MARİN İLƏ GÖRÜŞMÜŞDÜR

2011-ci ilin aprelin 8-də "Gülüstan" sarayında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən Ruminiyanın Mədəniyyət nazirinin müavini İrina Calal Marin ilə görüşmüşdür.

İrina Calal Marini Azərbaycanda salamlayan Mehriban xanım Əliyeva Bakı Forumunun Mədəniyyətlərarası Dialoqun inkişafına müsbət təsir göstərəcəyinə əminliyini bildirmişdir.

Heydər Əliyev Fondunun prezidenti Azərbaycan-Ruminiya əlaqələrindən danışmış, Ruminiyada Heydər Əliyev Fondunun nümayəndəliyinin fəaliyyət göstərdiyini bildirmişdir.

Azərbaycanın birinci xanımının Ruminiyaya səfərini xatırladan İrina Calal Marin Fondun Ruminiya nümayəndəliyinin fəaliyyətini yüksək qiymətləndirmişdir.

Qonaq nümayəndəlik tərəfindən Ruminiyadakı kolleclərdən birinin kompyuter və digər avadanlıqla təchiz edildiyini ölkələrimiz arasında olan sıx əməkdaşlığın nümunəsi olduğunu demişdir.

*"Azərbaycan" qəzeti,*
*9 aprel 2011-ci il*



## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA YUNESKO-nun KEÇMİŞ BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞMÜŞLƏR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2011-ci ilin oktyabrın 10-da YUNESKO-nun keçmiş Baş direktoru Koişiro Matsuura ilə görüşmüşlər.

Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun əhəmiyyətinə toxunan YUNESKO-nun keçmiş Baş direktoru Koişiro Matsuura son illər ölkəmizdə çox mühüm humanitar təşəbbüslərin həyata keçirildiyini vurğuladı. Koişiro Matsuura dünyanın görkəmli alimlərinin və ictimai xadimlərinin Forumda iştirakını tədbirə olan beynəlxalq marağın ifadəsi kimi qiymətləndirdi.

Dövlətimizin başçısı YUNESKO-nun keçmiş Baş direktoru Koişiro Matsuuranı yenidən ölkəmizdə görməyindən məmnunluğunu bildirdi. Bakı Beynəlxalq Humanitar Forumunu əhəmiyyətli hadisə kimi dəyərləndirən Prezident İlham Əliyev ölkəmizin artıq beynəlxalq humanitar təşəbbüslərin mərkəzinə çevrildiyini vurğuladı.

*"Azərbaycan" qəzeti,*
*11 oktyabr 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVAYA İNTERPOL-un YADİGAR MEDALI TƏQDİM EDİLMİŞDİR

2011-ci ilin noyabrın 22-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ölkəmizdə səfərdə olan beynəlxalq polis təşkilatı – İNTERPOL-un Baş katibi Ronald Noblun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Heydər Əliyev Fonduna gələn İNTERPOL-un nümayəndə heyətinə əvvəlcə Fondun məqsədi və fəaliyyəti haqqında məlumat verildi.

Qonaqların diqqətinə çatdırıldı ki, Fond ümummilli lider Heydər Əliyevin zəngin irsini öyrənmək, milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədini daşıyır. Bildirildi ki, Fondun fəaliyyətində səhiyyə, təhsil, sosial və mədəniyyət sahələrində layihələrin həyata keçirilməsi prioritet istiqamətlərdir.

İNTERPOL-un nümayəndə heyəti ulu öndərin şəxsi arxivindən götürülən və fəaliyyətinin

müxtəlif dövrlərini əhatə edən eksponatlar və fotoşəkillərlə tanış oldu.

Sonra İNTERPOL-un nümayəndə heyəti ilə görüşən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva qonaqları salamlayaraq bildirdi ki, onların ölkəmizlə daha yaxından tanış olmaq imkanı vardır. Azərbaycanın bu il müstəqilliyinin 20-ci ildönümünü qeyd etdiyini deyən Heydər Əliyev Fondunun prezidenti ötən müddətdə ölkəmizin böyük nailiyyətlər əldə etdiyini, regionun lider dövlətinə çevrildiyini, respublikamızda bütün sahələrdə sürətli inkişafın getdiyini diqqətə çatdırdı.

Mehriban xanım Əliyeva xüsusilə qeyd etdi ki, Azərbaycan təhlükəsiz ölkədir və respublikamızda cinayətkarlığın səviyyəsi çox aşağıdır. Heydər Əliyev Fondunu prezidenti ölkəmizin 1992-ci ildən İNTERPOL-a üzv olduğunu, dövlət və hökumət orqanları ilə bu qurum arasında sıx əlaqələrin qurulduğunu vurğuladı.

Heydər Əliyev Fondunun fəaliyyəti haqqında danışan Mehriban xanım Əliyeva Fondun 2004-cü ildən fəaliyyət göstərdiyini söylədi. "Ümidvaram ki, biz qeyri-hökumət təşkilatı olaraq gələcəkdə əməkdaşlıq qura bilərik" – deyən Azərbaycanın birinci xanımı Heydər Əliyev Fondunun BMT, YUNESKO, YUNİSEF, İSESKO və digər beynəlxalq qurumlarla əməkdaşlığını qeyd etdi.

"Azərbaycan təhlükəsizlik baxımından nümunəvi ölkədir" – deyən İNTERPOL-un Baş katibi Ronald Nobl Heydər Əliyev Fondunun fəaliyyətindən məlumatlı olduğunu vurğulayaraq, Fondun mədəniyyət tədbirlərinin keçirilməsindəki təcrübəsini qeyd etdi. O, gələcəkdə Azərbaycanda birgə mədəni tədbirlərin keçirilməsini təklif etdi.

Sonra Ronald Nobl İNTERPOL-un bu il təsis etdiyi "Daha təhlükəsiz dünyanın yaradılmasında xidmətə görə" yadigar medalını Mehriban xanım Əliyevaya təqdim etdi.

Baş katib R.Nobl bildirdi ki, Mehriban xanım Əliyeva dünyada bu medalın təqdim olunduğu ilk şəxsdir.

***"Azərbaycan" qəzeti,***
***23 noyabr 2011-ci il***







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VATİKANDA MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏT KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva İtaliyaya səfəri çərçivəsində 2011-ci ilin noyabrın 29-da Vatikanda Müqəddəs Taxt-Tacın Dövlət Katibi, kardinal Tarçizio Bertoni ilə görüşmüşdür.

Görüşdən əvvəl Papa sarayı ilə tanış olan Mehriban xanım Əliyevaya məlumat verilmişdir ki, bu saray Roma Papasının rəsmi iqamətgahıdır. Papanın rəsmi qəbullarını keçirdiyi sarayda dünya mədəniyyətinin incilərinin toplandığı mindən çox otaq vardır. Hər il dünyanın müxtəlif ölkələrindən Vatikana gələn çoxsaylı turistlərin maraq göstərdiyi sarayın divarlarını isə dünya şöhrətli rəssamlar Mikelancelo və Rafaelin əsərləri bəzəyir.

Görüşdə kardinal Tarçizio Bertoni iki dövlət arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdiyini xüsusi vurğulamış və bildirmişdir ki, Azərbaycanın mədəniyyətlərarası dialoq platformasında rolu gündən-günə güclənməkdədir. Bu baxımdan bu il Azərbaycanda

keçirilmiş Beynəlxalq Humanitar Forum böyük əhəmiyyətə malikdir. Məhz həmin tədbirlərdə Müqəddəs Taxt-Tacın təmsilçiləri də fəal iştirak etmişlər.

Vatikanın Dövlət Katibi Azərbaycanda katolik icması üçün yaradılmış şəraitdən də məmnunluğunu qeyd etdi.

Mehriban xanım Əliyeva rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə Vatikan dövlətinin birgə həyata keçirdiyi layihələrin əhəmiyyətini vurğulayaraq, əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminliyini ifadə etdi.

Azərbaycanın birinci xanımı Prezident İlham Əliyevin salamlarını Roma Papası XVI Benediktə çatdırmağı Tarçizio Bertonidən xahiş edərək, Azərbaycan dövlətinin başçısı adından Papanı ölkəmizə dəvət etdi.

Görüşdən sonra Mehriban xanım Əliyeva Azərbaycan xalça sənətinin nümunəsi olan hədiyyəni Roma Papasına çatdırmaq üçün kardinala təqdim etdi.

Hədiyyə üçün təşəkkürünü bildirən Tarçizio Bertoni isə Vatikanın təsis etdiyi qızıl medalı, həmçinin xüsusi hədiyyə olan, Romada rast gəlinən bitkilər və naxışları özündə əks etdirən XVII əsrə mənsub reproduksiyanın və onların şərhlərinin toplandığı kitabı Papanın adından Azərbaycanın birinci xanımına təqdim etdi.

*"Azərbaycan" qəzeti,*
*30 noyabr 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA İTALİYANIN BAŞ NAZİRİNİN XANIMI İLƏ GÖRÜŞMÜŞDÜR

İtaliyada səfərdə olan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2011-ci ilin dekabrın 1-də ölkənin Baş naziri Mario Montinin xanımı Elza Monti ilə görüşmüşdür. Görüşdə ölkəmizin mədəniyyət və təhsil sahələrində birgə reallaşdırılan layihələr nəzərdən keçirildi, həmçinin Azərbaycan ilə İtaliyanın ali təhsil məktəbləri arasında tələbə və müəllim-professor mübadiləsinin həyata keçirilməsi barədə razılıq əldə olundu. Bununla yanaşı, Azərbaycan dilinin və mədəniyyətinin İtaliyada, italyan dilinin isə ölkəmizdə daha geniş tədris olunmasının vacibliyi xüsusi vurğulandı. Mehriban xanım Əliyeva Elza Montini ölkəmizə səfərə dəvət etdi. Sonra İtaliyanın Baş nazirinin xanımı Heydər Əliyev Fondunun prezidentinə İtaliya hökumətinin rəsmi qəbullar evi olan Villa Panfininin tarixi və onun yerləşdiyi ərazi haqqında ətraflı məlumat verdi. Elza Monti bildirdi ki, XVII əsrin birinci yarısında inşa olunan Villa Panfini italyan memarlığının şah əsərlərindəndir. Sənət dünyasının ən qiymətli incilərinin qorunub saxlandığı bina ictimaiyyətə ilk dəfə 1972-ci ildə açılmışdır.

*"Azərbaycan" qəzeti,*
*2 dekabr 2011-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA İTALİYA PREZİDENTİ CİORCİO NAPOLİTANO İLƏ GÖRÜŞMÜŞDÜR

İtaliyada səfərdə olan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2011-ci ilin dekabrın 2-də İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitano ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Prezident Ciorcio Napolitanoya çatdırdı. İtaliyanı Azərbaycan üçün dost ölkə adlandıran birinci xanım dedi ki, Azərbaycanın müstəqilliyinin bərpasının 20-ci ildönümünün keçirildiyi ölkələrdən birinin də məhz İtaliya olması bunun əyani sübutudur. Mehriban xanım Əliyeva Azərbaycan-İtaliya münasibətlərinin inkişafından məmnunluğunu bildirdi və qeyd etdi ki, ölkələrimiz arasında mədəniyyət sahəsindəki əməkdaşlığın daha da genişləndirilməsinə ehtiyac vardır. Bununla bağlı 2012-ci ildə İtaliyada bir çox tədbirlərin, həmçinin Azərbaycan mədəniyyət həftəsinin keçirilməsi nəzərdə tutulmuşdur.

İtaliya Prezidenti Ciorcio Napolitano da öz növbəsində Prezident İlham Əliyevə ən xoş arzularını çatdırmağı Azərbaycanın birinci xanımından xahiş etdi. İtaliya dövlətinin başçısı Azərbaycanın müstəqilliyinin bərpasının 20-ci ildönümü ilə bağlı Romada təşkil olunan tədbirin





ölkələrimiz arasında mədəni əlaqələrin inkişafına təkan verəcəyini bildirdi. Prezident vurğuladı ki, Azərbaycan ilə İtaliya arasında siyasi və iqtisadi sahədə gözəl əlaqələr vardır.

Prezident Ciorcio Napolitano Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mədəniyyət sahəsindəki fəaliyyətindən xəbərdar olduğunu dedi.

Azərbaycanın birinci xanımı Prezident İlham Əliyevin adından İtaliya dövlətinin başçısını ölkəmizə rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Sonda İtaliya Prezidenti Heydər Əliyev Fondunun mədəniyyət sahəsində həyata keçirdiyi layihələrin əhəmiyyətini nəzərə alaraq, Azərbaycanın birinci xanımına memorial xatirə lövhəsi təqdim etdi.

*"Azərbaycan" qəzeti,*
*3 dekabr 2011-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA SERBİYA OLİMPİYA KOMİTƏSİ SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2012-ci ilin fevralın 29-da Serbiya Olimpiya Komitəsinin sədri, "Ana və Vlade Divats Fondu"nun təsisçisi Vlade Divatsın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Heydər Əliyev Fondunda qonaqları salamlayan birinci xanım Mehriban Əliyeva Azərbaycan ilə Serbiya arasında əməkdaşlığın bütün sahələrdə uğurla inkişaf etdiyini demişdir. Heydər Əliyev Fondunun prezidenti iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd etmiş, bu səfərlərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə töhfə verdiyini bildirmişdir. Heydər Əliyev Fondunun prezidenti "Ana və Vlade Divats Fondu"nun Azərbaycan Prezidenti İlham Əliyevə "Balkanların ləyaqətli dostu" beynəlxalq mükafatını təqdim etməsini xatırlatmışdır.

Birinci xanım Mehriban Əliyeva vurğulamışdır ki, Heydər Əliyev Fondu ilə "Ana və Vlade Divats Fondu"nun əməkdaşlığı qeyri-dövlət qurumları arasında əlaqələr baxımından vacibdir. "Ana və Vlade Divats Fondu"nun humanitar sahədə, məcburi köçkünlərə, çətinliklərdən əziyyət





çəkən insanlara kömək etdiyi barədə məlumatlı olduğunu deyən Mehriban xanım Əliyeva hər iki Fondun eyni məqsədlərə xidmət etdiyini, eyni prioritetlərinin olduğunu vurğulamışdır. Əməkdaşlığın perspektivləri barədə danışan birinci xanım Mehriban Əliyeva qeyd etmişdir ki, Heydər Əliyev Fondu tərəfindən artıq Serbiyada layihələr həyata keçirilir. Bu ölkədə kilsə və məscid bərpa olunur. Gələcəkdə müxtəlif sahələrdə, o cümlədən idman, təhsil və digər istiqamətlərdə layihələrin reallaşdırılması nəzərdə tutulur.

Mehriban xanım Əliyeva Serbiya Olimpiya Komitəsinin sədri, "Ana və Vlade Divats Fondu"nun təsisçisi Vlade Divatsın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu olacağına əminliyini bildirmişdir.

Görüşə görə minnətdarlığını bildirən Vlade Divats demişdir ki, ölkəmizə səfərinin əsas məqsədi Prezident İlham Əliyevə mükafatı təqdim etmək və Azərbaycan xalqı ilə daha yaxından tanış olmaqdır. Qonaq vurğulamışdır ki, Prezident İlham Əliyevin fəaliyyəti xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verir.

Heydər Əliyev Fondunun fəaliyyəti ilə artıq tanış olduqlarını bildirən Vlade Divats qeyd etmişdir ki, Fondun çoxşaxəli fəaliyyəti onları bu qurum ilə geniş əməkdaşlıq qurmağa sövq edir.

***"Azərbaycan" qəzeti,***
***1 mart 2012-ci il***



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRİNİN XANIMI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2012-ci ilin martın 12-də Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlunun xanımı Sare Davudoğlu ilə görüşmüşdür.

Qonağı Heydər Əliyev Fondunda görməkdən məmnun olduğunu bildirən Mehriban xanım Əliyeva qardaş Türkiyənin Azərbaycan üçün önəmini vurğuladı. İlk dəfədir ki, ölkəmizə səfər etdiyini deyən Sare Davudoğlu Azərbaycanda keçirilən "Yeni minillikdə çağdaş dünyamızın müqəddəs vəzifəsi olaraq analığın qorunması" toplantısında iştirak etdiyini bildirdi. Sare Davudoğlu bu toplantının qadın xəstəlikləri ilə mübarizə sahəsindəki önəmini diqqətə çatdırdı. Türkiyənin Azərbaycandakı səfiri Hulusi Kılıç görüş çərçivəsində "Türk Dünyası Sənətçilər və Yazarlar Vəqfi"nin təsis etdiyi "Türk Dünyasına xidmət" mükafatını Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyevaya təqdim etdi.

*"Azərbaycan" qəzeti,*
*13 mart 2012-ci il*







## QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ VƏ XANIMI HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev və xanımı Raisa Atambayeva 2012-ci ilin martın 30-da Heydər Əliyev Fondunda olmuşlar.

Qırğız Respublikasının başçısını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.

Ali qonağa və xanımına Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verildi. Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək göstərir.

Prezident Almazbek Atambayev və xanımı ulu öndər Heydər Əliyevin arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldular.

Fondla tanışlıq zamanı qonaqlara məlumat verildi ki, ümummilli liderin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Qonaqlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldular, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdılar.

Prezident Almazbek Atambayev Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Sonra qarşılıqlı xatirə hədiyyələri təqdim olundu.

*"Azərbaycan" qəzeti,*
*31 mart 2012-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI KENİYA BAŞ NAZİRİNİN XANIMI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva 2012-ci ilin iyunun 29-da Bakıda keçirilən Krans Montana Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Keniyanın Baş nazirinin xanımı İda Odinqa ilə görüşmüşdür.

Keniya Baş nazirinin xanımını Azərbaycanda görməkdən məmnunluğunu bildirən Mehriban xanım Əliyeva qonağa Krans Montana Forumundakı çıxışında ölkəsində qadın hüquqları ilə bağlı verdiyi maraqlı məlumatlara görə təşəkkürünü çatdırdı. Azərbaycanın birinci xanımı İda Odinqanı Keniya Baş naziri ilə birlikdə ölkəmizə səfərə dəvət etdi.

Krans Montana Forumunda iştirak üçün dəvətə görə Mehriban xanım Əliyevaya minnətdarlığını bildirən xanım İda Odinqa Azərbaycanın çox maraqlı ölkə olduğunu vurğuladı. O, gələcəkdə də Azərbaycana səfər edəcəyinə ümidvar olduğunu söylədi.

*"Azərbaycan" qəzeti,*
*30 iyun 2012-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI İSESKO-nun BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2012-ci ilin iyunun 29-da Bakıda keçirilən Krans Montana Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri ilə görüşmüşdür.

Baş direktor Əbdüləziz bin Osman əl-Tüveycri rəhbərlik etdiyi qurumun 30 illiyi münasibətilə təsis olunan xatirə medalını İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya təqdim etdi.

Görüşdə Azərbaycan ilə İSESKO arasında əməkdaşlıq məsələləri müzakirə olundu. Əbdüləziz bin Osman əl-Tüveycri yenidən Bakıya səfərindən məmnunluğunu qeyd edərək Krans Montana Forumunun Bakıda yüksək səviyyədə təşkil olunduğunu vurğuladı.

*"Azərbaycan" qəzeti,*
***30 iyun 2012-ci il***







## BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA LİTVANIN AZƏRBAYCANDAKI SƏFİRİ KESTUTİS KUDZMANAS İLƏ GÖRÜŞMÜŞDÜR

2012-ci ilin iyulun 10-da Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Litvanın ölkəmizdəki səfiri Kestutis Kudzmanas ilə görüşmüşdür.

Səfir Kestutis Kudzmanası Heydər Əliyev Fondunda salamlayan Mehriban xanım Əliyeva Azərbaycan ilə Litva arasında ikitərəfli münasibətlərin yüksələn xətlə inkişaf etdiyini bildirdi. Azərbaycanın birinci xanımı ölkəmizdə diplomatik fəaliyyət müddəti başa çatan litvalı səfirə gələcək işlərində uğurlar arzuladı. Heydər Əliyev Fondu ilə səmərəli əməkdaşlığa görə diplomata təşəkkürünü bildirən Mehriban xanım Əliyeva ölkələrimiz arasında həyata keçirilən layihələrin davam etdiriləcəyinə ümidvar olduğunu bildirərək dedi: "Əminəm ki, bizim əməkdaşlıq təcrübəmiz dost dövlətlərin münasibətləri necə qurmasına nümunədir".

Səfir Kestutis Kudzmanas Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən mühüm layihələri yüksək qiymətləndirdi. Diplomat Azərbaycanda səfir kimi fəaliyyət göstərdiyi müddətdə Heydər Əliyev Fondu ilə Litvanın Azərbaycandakı səfirliyi arasında humanitar sahədə əməkdaşlığa dair imzalanan Anlaşma Memorandumu çərçivəsində görülən işlərdən, birgə uğurlu layihələrdən danışdı və bu layihələrin bundan sonra da davam etdiriləcəyini bildirdi.

*"Azərbaycan" qəzeti,*
***11 iyul 2012-ci il***



## HEYDƏR ƏLİYEV FONDU İLƏ BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATI ARASINDA ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

2012-ci ilin iyulun 10-da Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) missiyasının rəhbəri Məhəmməd Ruiqinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycanın birinci xanımı Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti barədə qonaqlara məlumat verdi. Fondun 2004-cü ildən fəaliyyət göstərdiyini deyən Mehriban xanım Əliyeva qurumun müxtəlif sahələrdə, xüsusilə də humanitar sahədə bir çox layihələr həyata keçirdiyini bildirdi. BMT ilə sıx əməkdaşlığın qurulduğunu qeyd edən Heydər Əliyev Fondunun prezidenti bu təşkilatla birlikdə bir neçə müştərək layihənin reallaşdırıldığını qeyd etdi. Azərbaycanın birinci xanımı gələcəkdə də bu əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Mehriban xanım Əliyeva FAO-nun nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığın inkişafına yeni təkan verəcəyinə ümidvar olduğunu bildirdi. Fondun prezidenti Azərbaycan dövlətinin BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının fəaliyyətinə kömək etməyə hazır olduğunu vurğuladı. Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun da qeyri-hökumət təşkilatı kimi əməkdaşlığa hazır olduğunu diqqətə çatdırdı. Azərbaycanın birinci xanımı rəhbərlik etdiyi Fondun bir çox nüfuzlu beynəlxalq qurumları, o cümlədən YUNİSEF və YUNESKO ilə uğurlu əməkdaşlığından danışdı. Mehriban xanım Əliyeva bu əməkdaşlığın FAO ilə də uğurlu istiqamətdə qurulacağına əmin olduğunu bildirdi.

Görüşə görə təşəkkür edən FAO missiyasının rəhbəri Məhəmməd Ruiqi Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın gördüyü işləri yüksək qiymətləndirdiyini bildirdi. Görüşdə Heydər Əliyev Fondunun FAO-nun Romadakı baş ofisi ilə əməkdaşlığı, ərzaq təhlükəsizliyi, həmçinin bu sahədə xüsusi uşaq müəssisələrinin yaradılması məsələləri müzakirə olundu.

*"Azərbaycan" qəzeti,*
*11 iyul 2012-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BOLQARISTANIN SABİQ PREZİDENTİ PETER STOYANOV İLƏ GÖRÜŞMÜŞDÜR

2012-ci ilin oktyabrın 4-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Bolqarıstanın sabiq prezidenti Peter Stoyanov ilə görüşmüşdür.

İkinci Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün paytaxtımıza gələn qonağı Azərbaycanda salamlayan Heydər Əliyev Fondunun prezidenti tədbirin əhəmiyyətini qeyd etdi, onun işinin səmərəli olacağına əminliyini bildirdi.

Görüşdə Heydər Əliyev Fondunun Bolqarıstan ilə əməkdaşlığının perspektivləri, gənclər təşkilatları ilə birgə layihələrin həyata keçirilməsi, mədəniyyət sahəsində tədbirlərin təşkili müzakirə edildi.

*"Azərbaycan" qəzeti,*
*5 oktyabr 2012-ci il*







## AZƏRBAYCAN İLƏ BOLQARISTAN ARASINDA HƏR ZAMAN SƏMƏRƏLİ DİALOQ MÖVCUDDUR

2012-ci ilin oktyabrın 4-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edən Bolqarıstanın sabiq prezidenti Georgi Pırvanov ilə görüşmüşdür.

Bakı Beynəlxalq Humanitar Forumunu mühüm hadisə kimi dəyərləndirən Azərbaycanın birinci xanımı tədbirdə müzakirə olunan məsələlərin, qəbul edilən qərarların reallaşacağına ümidvar olduğunu dedi.

Mehriban xanım Əliyeva müasir dövrdə humanitar sahədə əməkdaşlığın rolunu vurğuladı.

Foruma dəvətə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Georgi Pırvanov Azərbaycan ilə Bolqarıstan arasında hər zaman səmərəli dialoqun olduğunu qeyd etdi. Bolqarıstanın sabiq prezidenti gələcəkdə də bu dialoqun davam edəcəyinə ümidvar olduğunu bildirdi.

*"Azərbaycan" qəzeti,*
*5 oktyabr 2012-ci il*



# AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA "AFRİKA ÜÇÜN QABAQCIL İNKİŞAF FONDU"NUN TƏSİSÇİSİ VƏ PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2013-cü ilin yanvarın 14-də "Afrika üçün qabaqcıl inkişaf Fondu"nun təsisçisi və prezidenti xanım Kumba Ture ilə görüşmüşdür.

Qonağı ölkəmizdə salamlayan Mehriban xanım Əliyeva bu səfərin uğurlu olacağına əminliyini ifadə etmişdir. Heydər Əliyev Fondunun fəaliyyəti barədə məlumat verən Azərbaycanın birinci xanımı bildirmişdir ki, Fond Azərbaycanda və dünyada humanitar, həmçinin sosial problemlərin həlli, yoxsul və ehtiyacı olan insanlara maddi və tibbi dəstək, təhsil və mədəniyyət sahələri üzrə layihələri reallaşdırır.

"Bu baxımdan fondlarımızın fəaliyyəti oxşardır", – deyən Mehriban xanım Əliyeva gələcəkdə uğurlu əməkdaşlığın qurulmasından məmnunluq duyulacağını diqqətə çatdırmış, Heydər Əliyev Fondunun müxtəlif layihələrin həyata keçirilməsi istiqamətində böyük təcrübəsi olduğunu vurğulamışdır.





Xanım Kumba Ture dəvət üçün Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkürünü bildirmişdir. Qonaq Fondun fəaliyyətindən xəbərdar olduğunu demiş, həyata keçirilən layihələrin uğurları münasibətilə Azərbaycanın birinci xanımını təbrik etmişdir. Xanım Kumba Ture həm Heydər Əliyev Fondunun, həm də rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətlərinin üst-üstə düşdüyü üçün məmnunluq ifadə etmiş, birgə əməkdaşlıqdan qürur duyacaqlarını bildirmişdir.

*"Azərbaycan" qəzeti,*
*15 yanvar 2013-cü il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA FRANSA RESPUBLİKASININ KEÇMİŞ BAŞ NAZİRİ VƏ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ VƏKİLİ DOMİNİK DE VİLLPEN İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2013-cü ilin fevralın 11-də Fransa Respublikasının keçmiş Baş naziri və ticarət məsələləri üzrə vəkili Dominik de Villpen ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva Dominik de Villpen ilə Parisdəki görüşünü məmnunluqla xatırlamışdır. Ölkələrimiz arasında gözəl əlaqələrin olduğunu deyən Mehriban xanım Əliyeva Azərbaycanın ilk telekommunikasiya peykinin orbitə buraxılmasının məhz fransız şirkətinin dəstəyi ilə reallaşmasını buna bariz nümunə kimi göstərmişdir. O, Fransanın köməyi ilə bu proqramın gələcəkdə də davam edəcəyinə ümidvarlıq bildirmişdir.

"Biz Heydər Əliyev Fondu olaraq humanitar, mədəniyyət, təhsil sahələrində də əməkdaşlıq edirik. Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərinin Fransada tanınmasını istəyir və biz bu istiqamətdə geniş fəaliyyət göstəririk. Artıq bir ildir ki, Fond Fransada Azərbaycan mədə-





niyyətini təbliğ edən iri layihə həyata keçirir. Bu layihə çərçivəsində tədbirlər bütün Fransanı əhatə edir" – deyə Mehriban xanım Əliyeva vurğulamışdır. Azərbaycanın birinci xanımı bu tədbirlərin maraqla qarşılandığını, Fransa mətbuatında Azərbaycan barədə müsbət yazıların sayının artdığını xüsusilə qeyd etmişdir.

Təhsil sahəsində əməkdaşlığa da toxunan Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakıda Fransız məktəbinin inşa olunduğunu demişdir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Dominik de Villpenin səfərinin uğurlu olacağına əminliyini ifadə etmişdir.

Dominik de Villpen xoş sözlərə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkürünü bildirmiş, Azərbaycana səfərindən böyük məmnunluq duyduğunu demişdir. O, Azərbaycanı qazandığı uğurlar münasibətilə bir daha təbrik etmiş, Birinci Avropa Oyunlarının məhz Bakıda keçirilməsini ölkənin artan nüfuzunun bariz göstəricisi adlandırmışdır. Fransalı qonaq bu oyunların keçirilməsi ilə əlaqədar yaradılmış təşkilat komitəsinə rəhbərlik edən Mehriban xanım Əliyevaya uğurlar arzulamışdır.

*"Azərbaycan" qəzeti,*
*12 fevral 2013-cü il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA TÜRKİYƏNİN ÖLKƏMİZDƏKİ SƏFİRİ İSMAYIL ALPER COŞKUNLA GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2013-cü ilin fevralın 11-də Türkiyənin ölkəmizdəki səfiri İsmayıl Alper Coşkunla görüşmüşdür.

Azərbaycanın birinci xanımı qonağı salamlayaraq dost və qardaş ölkənin səfiri ilə görüşdən məmnunluq duyduğunu bildirmişdir. Mehriban xanım Əliyeva qeyd etmişdir ki, Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər qardaşlıq və dostluğa əsaslanmaqla bütün sahələri əhatə edir. Azərbaycanın birinci xanımı Heydər Əliyev Fondunun iki ölkə arasındakı əlaqələrin inkişafına verdiyi töhfəni də vurğulayaraq demişdir ki, Fond Türkiyə hökuməti ilə birgə bir sıra uğurlu layihələrə imza atmışdır.

Səmimi qəbula görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlıq edən Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşkun beş aydır ki, ölkəmizdə səfir kimi fəaliyyət göstərdiyini söyləmişdir. Səfir vurğulamışdır ki, Azərbaycandakı fəaliyyəti dövründə mövcud dostluq və qardaşlıq münasibətlərinin daha da dərinləşməsi üçün bütün qüvvəsini sərf edəcəkdir.





Görüşdə həmçinin 2013-cü ildə Heydər Əliyev Fondu ilə səhiyyə, mədəniyyət və birgə sahələrdə həyata keçiriləcək layihələr haqqında müzakirələr aparılmış, Türkiyədə fəaliyyət göstərən fondlarla müştərək işin zəruriliyi önə çəkilmişdir. Həmçinin Azərbaycanın dünyada, o cümlədən Türkiyədə təbliğinin daha da gücləndirilməsinin yolları barədə fikir mübadiləsi edilmişdir.

*"Azərbaycan" qəzeti,*
*12 fevral 2013-cü il*



# · *VII fəsil* ·

# Birinci xanımın Azərbaycan xalqının mədəniyyəti və incəsənətinin inkişafında və təbliğində rolu

# HEYDƏR ƏLİYEV FONDUNDA AZƏRBAYCAN MUĞAMLARI İLƏ BAĞLI LAYİHƏLƏRİN TƏQDİMATI KEÇİRİLMİŞDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri Mehriban xanım Əliyeva 2005-ci ilin fevralın 2-də Azərbaycan muğamları ilə bağlı layihələrin təqdimat mərasimini keçirmişdir.

Fondun binasında təşkil olunmuş tədbirə dəvət edilən tanınmış musiqişünaslar, muğam ustaları, musiqiçilər, sənətşünaslar əvvəlcə xalqımızın ümummilli liderinin həyat və fəaliyyətini əks etdirən sərgiyə baxdılar, ulu öndərin nurlu xatirəsini ehtiramla yad etdilər.

Mehriban xanım Əliyeva mərasimi açaraq, Fond barədə iştirakçılara məlumat verdi və bildirdi ki, Heydər Əliyev Fondunun əsas məqsədi ulu öndərin irsinin dərindən öyrənilməsi və gələcək nəsillərə çatdırılmasıdır.

Fondun bu gün həyata keçirdiyi xeyirxahlıq, mərhəmət missiyasından danışan Mehriban xanım Əliyeva Prezident Heydər Əliyevin muğama, bu sənətin ifaçılarına həmişə böyük diqqət göstərdiyini vurğuladı. Azərbaycanda musiqi ənənələrinin yaşadılmasında böyük xidmətləri olan ümummilli lider Heydər Əliyevin arzu və istəklərinin həyata keçirilməsi baxımından Azərbaycan muğamları ilə bağlı layihələrin təqdimatının əhəmiyyətindən danışdı.

Mərasim iştirakçılarına videolentlər vasitəsilə göstərilən "Muğam-irs", "Muğam-dəstgah", "Muğam-ensiklopediya", "Muğam-internet", "Muğam-antologiya", "Muğam aləmi" və "Muğam mərkəzi" layihələrində bu musiqi növünün unudulmuş səhifələri yada salındı, hər bir layihə barədə ətraflı məlumat verildi, ustad sənətkarların ifasında ayrı-ayrı muğam parçaları səsləndirildi.

Sonra "Dəyirmi masa" arxasında layihələr barədə müzakirələr aparıldı.

Bildirildi ki, Azərbaycanda dünya səviyyəli Muğam Mərkəzini yaratmaqla, Muğam simpoziumları keçirməklə kütləvi təbliğat vasitələrində muğam ifaçılarına qədərincə yer verilməklə və təqdim edilən layihələri reallaşdırmaqla xalqımızın böyük sərvəti olan muğamı dünyada daha geniş təbliğ etmək mümkündür.

Mehriban xanım Əliyeva müzakirələri yekunlaşdıraraq öz fikirlərini söylədi. Müzakirədə səslənən təkliflərin nəzərə alınacağını, muğamla bağlı hazırlanmış mükəmməl layihənin reallaşması üçün bütün sənət adamlarının köməyindən istifadə olunacağını və belə görüşlərin ənənəyə çevriləcəyini vurğuladı.

*"Azərbaycan" qəzeti,*
*3 fevral 2005-ci il*





# DÜNYA ŞÖHRƏTLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇİN DİRİJORLUĞU İLƏ AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİNİN KONSERTİ

2005-ci ilin martın 7-də Azərbaycan Dövlət Filarmoniyasında maestro Mstislav Rostropoviçin dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti olmuşdur.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.

Konsertdə əvvəlcə Leonard Bernstaynın görkəmli violonçelistə həsr etdiyi "Slava" əsəri ifa olundu.

Sonra solist, beynəlxalq müsabiqələr laureatı Sergey Krılovun (skripka) iştirakı ilə Pyotr Çaykovskinin "Skripka və orkestr üçün Konserti" (üç hissədə) və "4 nömrəli Simfoniya"sı (dörd hissədə) səsləndi. Böyük müvəffəqiyyətlə keçən konsert dəfələrlə gurultulu alqışlarla qarşılandı.

Maestro Mstislav Rostropoviç Beynəlxalq "Qadınlar Günü" münasibətilə Azərbaycan xanımlarını ürəkdən təbrik etdi və onların şərəfinə Dmitri Şostakoviçin "İki nəfər üçün çay" simfoniyasını təqdim etdi.

*"Azərbaycan" qəzeti,*
*8 mart 2005-ci il*

# AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA ƏR-RİYADDA MUZEY-MƏRKƏZDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva üçün də ayrıca səfər proqramı tərtib olunmuşdu.

Mehriban Əliyeva Kral Əbdüləziz adına Tarixi Muzey-Mərkəzlə yaxından tanış oldu. Möhtəşəm tarixi abidə kimi öz gözəlliyi ilə seçilən bu Muzey-Mərkəz barədə Azərbaycan Prezidentinin xanımına ətraflı məlumat verildi. Bildirildi ki, burada ilk insanın yaranması, məskunlaşması və ölkənin bugünkü müasir tarixi əks olunur. Muzey-Mərkəzdə arxeoloji tapıntıların nümunələri ilə yanaşı, çoxəsrlik tarixi olan Səudiyyə Ərəbistanının ərazisində ilk neftin tapılması və hasilatı ilə bağlı dəyərli eksponatlar, Kral Əbdüləzizin şəxsi minik maşınları, əşyaları, onun müxtəlif dövrləri əks etdirən fotoşəkilləri toplanmışdır. Səudiyyə Ərəbistanı Krallığı ərazisində dövlətin qurulması və keçdiyi yol barədə də dəyərli materiallar vardır.

Mehriban xanım Əliyeva mərasim otaqlarına, salonlara, divarlarda, tavanda, hətta döşəmələrdə yüksək peşəkarlıqla təsvir olunan və Şərq mədəniyyətinin zənginliyinin əyani göstəricisi kimi diqqəti cəlb edən nadir qədim və zəngin sənət nümunələrinə baxdı.

Sonra İki Müqəddəs Ocağın Xadimi, Kral Fəhd bin Əbdüləziz Al Səudun həyatı və fəaliyyəti barədə film göstərildi.

YUNESKO-nun xoşməramlı səfiri İki Müqəddəs Ocağın - Məkkə və Mədinənin - genişləndirilməsi və abadlaşdırılması ilə bağlı Muzey-Mərkəzin daxilində yaradılmış xüsusi komplekse də baxdı. Burada toplanan və qorunub saxlanılan hər bir mədəniyyət, incəsənət nümunəsi hörmətli qonaqda bu ölkəyə böyük maraq və rəğbət yaratdı.

Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva Muzey-Mər-kəzlə tanışlıqdan məmnun qaldığını bildirdi, fəxri "Qonaqlar kitabı"na ürək sözlərini yazdı.

Mehriban xanım Əliyevaya Muzey-Mərkəz barədə Xatirə kitabı hədiyyə olundu.

*"Azərbaycan" qəzeti,*
*12 mart 2005-ci il*





# ŞANXAY TELEQÜLLƏSİ ŞƏRQİN İNCİSİDİR

2005-ci ilin martın 19-da Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, habelə ölkəmizin nümayəndə heyətinin üzvləri Şanxayın məşhur televiziya qülləsinə gəlmişlər.

Şərqin incisi adlandırılan Şanxay teleqülləsi hündürlüyünə görə (468 metr) Asiyada birinci, dünyada isə üçüncü yerdədir.

Azərbaycan dövlətinin başçısını teleqüllənin önündə orkestr salamladı. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və Azərbaycan nümayəndə heyətinin üzvləri teleqüllənin baxış meydançasından Şanxayın panoramını seyr etdilər. Belə bir yüksək nöqtədən baxdıqda Çinin sürətlə inkişaf edən bu nəhəng şəhərinin əzəmətinə heyran qalmamaq mümkün deyildir.

Prezident İlham Əliyev Şanxay teleqülləsinin fəxri "Qonaqlar kitabı"na ürək sözlərini yazdı.

*"Azərbaycan" qəzeti,*
*20 mart 2005-ci il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK ETMİŞDİR

2005-ci il martın 21-də qədim İçərişəhərin darvazaları qarşısında - Gənclər meydanında – bayram münasibətilə böyük mərasim təşkil olunmuşdu. Meydanda Novruz tonqalı şölələnirdi. Ətrafdakı binaları, əsrlərin şahidi olan qədim qala divarlarını al-əlvan plakatlar bəzəyirdi.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və bu əziz gündə paytaxtımızın qonağı olan Gürcüstan Prezidentinin xanımı Sandra Elizabet Rulofs Novruz şənliklərində iştirak etmək üçün Gənclər meydanına gəldilər. Meydana toplaşmış minlərlə şəhər sakini dövlətimizin başçısını, onun xanımını və hörmətli qonağı hərarətlə, sürəkli alqışlarla qarşıladılar, onlara bahar ətirli gül-çiçək dəstələri təqdim edildi.

Bahar qız Azərbaycan Prezidentini xalqımızın qədim el bayramı münasibətilə ürəkdən təbrik etdi, Azərbaycanın xoşbəxt gələcəyi, ölkəmizin sosial-iqtisadi inkişafı və ərazi bütövlüyünün bərpası naminə gördüyü işlərdə ona uğurlar arzuladı.

*"Azərbaycan" qəzeti,*
*23 mart 2005-ci il*





# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI FONDU FİLARMONİYADA "MUĞAM AXŞAMI" TƏŞKİL ETMİŞDİR

Azərbaycan Mədəniyyətinin Dostları Fondu YUNESKO-nun dəstəyi ilə reallaşdırdığı "Muğam dəstgahları" layihəsi çərçivəsində 2005-ci ilin martın 21-də Novruz bayramı münasibətilə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında "Muğam axşa-mı" təşkil etmişdir.

Salona toplaşanlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və Gürcüstan Prezidentinin xanımı Sandra Elizabet Rulofsu hərarətli alqışlarla qarşıladılar.

Dövlət Mahnı və Rəqs Ansamblının ifasında milli rəqs ifa olunduqdan sonra səhnəyə gələn Bahar qız "Muğam axşamı"na toplaşanları əziz Novruz bayramı münasibətilə təbrik etdi və dedi ki, ölkəmiz müstəqillik qazandıqdan sonra bu bayram hər il dövlət səviyyəsində qeyd olunur. Təbiətin oyanmasının müjdəçisi olan Novruzu xalqımız həmişə böyük sevinclə qarşılayır.

Milli geyimli qızlar su, yel, od və torpaq çərşənbələrinin mahiyyəti barədə məlumat verdilər. Bildirildi ki, bütün bunlara görə ta qədimdən Novruz bayramı dörd həftə davam edir.

Sonra Azərbaycanın əməkdar artisti Mənsum İbrahimov və xalq artisti Səkinə İsmayılova "Rast" və "Hümayun" muğamlarını özlərinə xas ustalıqla ifa etdilər. Həmişəyaşar muğamlarımız böyük maraqla dinlənildi, ifaçıların məharəti sürəkli alqışlarla qiymətləndirildi.

*"Azərbaycan" qəzeti,*
*23 mart 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA "2004-cü İLİN BİRİNCİ XANIMI" MÜKAFATINA LAYİQ GÖRÜLMÜŞDÜR

Ankara İş Qadınları Dərnəyinin İdarə heyəti Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya "2004-cü ilin birinci xanımı" mükafatı verilməsi haqqında qərar qəbul etmişdir.

Dərnəyin İdarə heyətinin sədri Serpil Tınaz Akçarın bununla əlaqədar səfirliyə göndərdiyi məktubda deyilir ki, Mehriban xanım Əliyeva bu mükafata Azərbaycan və Türkiyə arasında əməkdaşlığın və qardaşlığın inkişafı, Azərbaycan mədəniyyətinin, incəsənətinin təbliği və qorunması istiqamətindəki fəaliyyətinə, YUNESKO-nun xoşməramlı səfiri kimi beynəlxalq aləmdə fəaliyyət göstərərək qadınların, uşaqların, yaşlıların problemlərinə, qadınların ailədə, cəmiyyətdə, işdə və siyasi həyatda haqlarının qorunmasında qətiyyətinə görə layiq görülmüşdür.

*"Azərbaycan" qəzeti,*
*27 mart 2005-ci il*





## YAGELLO UNİVERSİTETİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev hava limanından Polşanın ən qədim, 1364-cü ildə yaradılmış ali təhsil ocağı olan məşhur Yagello Universiteti rəyasət heyətinin binasına gəlmişdir.

Universitetlə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, vaxtilə bu binada Polşa kralının iştirakı ilə ən yüksək vəzifəli şəxslərin yığıncaqları keçirilmişdir. Universitetin yaradılmasından sonra ən tanınmış alimlər cəlb edilərək elmi tədqiqat işləri aparılmışdır. Hazırda bu ali təhsil ocağının 13 fakültəsində (o cümlədən 3 tibb fakültəsində) 35 mindən artıq tələbə təhsil alır. Professor-müəllim heyətinin sayı isə 6 mindən çoxdur.

Azərbaycan Prezidenti müxtəlif rəsm əsərləri, astronomik cihazlar, qədim ikonalar və digər əşyalarla tanış oldu.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sonra şəhəri gəzintiyə çıxdılar. İlk tanışlıq Krakovun bazar meydanından başladı. Burada milli geyimli qızlar Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim etdilər.

Prezident orta əsrlərə aid mahudçular sexinin ticarət sıralarına ("Sukennitse"), müxtəlif memarlıq abidələrinə tamaşa etdi. Dövlətimizin başçısına Polşanın ən qədim, Avropanın ən gözəl şəhərlərindən biri, XI-XVI əsrlərdə ölkənin paytaxtı kimi şöhrət qazanmış Krakovun tarixi-memarlıq abidələri barədə geniş məlumat verildi.

Prezident İlham Əliyev daha sonra Krakovun qədim məhəlləsini gəzdi. Abidələrlə zəngin olan bu məhəllədə Polşa kralları dövründə inşa olunmuş kilsələr də vardır.

*"Azərbaycan" qəzeti,*
*1 aprel 2005-ci il*

## ANTON ÇEXOVUN "QAĞAYI" PYESİ BAKI SƏHNƏSİNDƏ

Moskvanın ən yaxşı teatrlarından biri, Mossovet adına Dövlət Akademik Teatrı kollektivi 2005-ci ilin aprelin 12-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrının səhnəsində rus ədəbiyyatının klassiklərindən olan Anton Çexovun "Qağayı" pyesi əsasında tamaşa göstərmişdir.

YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyeva tamaşaya baxmışdır.

Dördpərdəli orijinal quruluşu tanınmış rejissor Andrey Konçalovski vermişdir. İrina Arkadina rolunu Rusiyanın əməkdar artisti İ.Rozanova, Nina Zareçnaya rolunu Y.Visotskaya oynamışlar. Tamaşada Rusiyanın xalq artisti, Dövlət mükafatı laureatı Y.Steblov, Rusiyanın xalq artisti A. Adoskin, aktyorlar A.Qrişin, O.Anoxina və başqaları daçıxış etmişlər.

Tamaşanın quruluşçu rəssamı Etsso Fricerio, bəstəkarı Rüstəm Həmdəmovdur.

Əsərin peşəkar səhnə həlli, aktyorların gözəl ifası Çexov yaradıcılığının incəliklərini bütün dolğunluğu ilə tamaşaçılara çatdırmışdır.

***"Azərbaycan" qəzeti,***
***13 aprel 2005-ci il***





## TÜRK DÜNYASININ BÖYÜK OĞLU İHSAN DOĞRAMACININ ANADAN OLMASININ 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ "YUBİLEY GECƏSİ"

2005-ci ilin aprelin 29-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında AMEA-nın fəxri üzvü, Azərbaycan Tibb Universitetinin fəxri doktoru, türk dünyasının böyük oğlu, görkəmli alim və ictimai xadim professor İhsan Doğramacının anadan olmasının 90 illiyinə həsr olunmuş təntənəli "Yubiley gecəsi" keçirilmişdir. Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, professor İhsan Doğramacını və xanımı Aysel Doğramacını hərarətli alqışlarla qarşıladılar.

***"Azərbaycan" qəzeti,***
***30 aprel 2005-ci il***

## AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI FONDU FİLARMONİYADA "MUĞAM AXŞAMI" TƏŞKİL ETMİŞDİR

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun "Muğam dəstgahları" layihəsi çərçivəsində 2005-ci ilin iyunun 8-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında növbəti "Muğam axşamı" təşkil edilmişdir.

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva konsertdə olmuşdur.

Musiqi sənətimizin baş tacı olan muğamların qorunub saxlanması və təbliğinə son dövrdə göstərilən diqqət və qayğı həm ictimaiyyət, həm də incəsənət xadimləri tərəfindən çox böyük razılıqla qarşılanır və haqlı olaraq deyilir ki, muğamatın keşiyində duranları min yaşasın. Konsertdən sonra respublikamızın bir qrup tanınmış ağsaqqal sənətçisi Mehriban xanım Əliyevaya yaxınlaşaraq, xalqımızın milli mədəniyyətinin, misilsiz sərvəti olan muğamlarımızın dünyada təbliği sahəsində gördüyü işləri yüksək qiymətləndirdilər və ona dərin təşəkkürlərini bildirdilər.

*"Azərbaycan" qəzeti,*
*9 iyun 2005-ci il*





## ZAQREB ŞƏHƏRİNİN TARİX-MƏDƏNİYYƏT ABİDƏLƏRİ İLƏ TANIŞLIQ

Xorvatiya Respublikasına rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva 2005-ci ilin iyunun 11-də ölkənin paytaxtı Zaqrebin görməli yerlərini gəzmiş, tarix-mədəniyyət abidələri ilə tanış olmuşlar.

Prezident İlham Əliyevə məlumat verildi ki, tarixi mənbələrdə şəhərin adı ilk dəfə 1094-cü ildə yepiskopluğun mərkəzi kimi çəkilir. Şəhərin indiyədək qalan qala divarları 1226-cı ildə inşa edilmişdir.

Dövlətimizin başçısı "Daş qapı" adlanan yerə gəldi. 1760-cı ildə tikilmiş bu kompleksdə şəhər sakinləri "böyük yanğın" zamanı Zaqrebi xilas etmiş qadının xatirəsinə şamlar yandırırlar.

Sonra Azərbaycan Prezidenti və xanımı Zaqreb yepiskopluğunun əsaslı bərpa işləri aparılan binasına gəldilər. 1217-ci ildə tikilmiş bu kompleks 1242-ci ildə monqol-tatar qoşunları tərəfindən dağıdılmış, 1284-cü ildə isə qotika üslubunda yenidən bərpa edilmişdir. Binanın bir hissəsi 1880-ci ildə zəlzələ nəticəsində dağılsa da, 1902-ci ildə hazırkı görkəmində bərpa olunmuşdur. On bir hissədən ibarət kompleksdə orqan salonu olan kilsə, mehrab və onun arxasında appostolların, yepiskopların və qəhrəmanların şəkilləri vardır. Pəncərələrdəki rəngli mozaykalar 1847-ci ildə Münxendən gətirilmişdir.

Prezident İlham Əliyev və Mehriban xanım şəhərin qədim hissəsindəki digər abidələrə də tamaşa etdilər və mərkəzi meydanda Zaqreb sakinləri ilə birgə çay içdilər.

*"Azərbaycan" qəzeti,*
*12 iyun 2005-ci il*

## "GÜLÜSTAN" SARAYINDA "AZƏRBAYCANDA KOREYA MƏDƏNİYYƏTİ GÜNLƏRİ" ÇƏRÇİVƏSİNDƏ TƏDBİR KEÇİRİLMİŞDİR

2005-ci ilin iyunun 27-də "Azərbaycanda Koreya mədəniyyəti günləri" çərçivəsində "Gülüstan" sarayında Koreyanın milli musiqisi, rəqsi, mətbəxi və saray geyimi, eləcə də qədim Silla sülaləsi dövründəkinə oxşar müxtəlif əşyalar və çini qablar nümayiş olunmuşdur.

Mərasimdə nazirliklərin, komitələrin rəhbərləri, Milli Məclisin deputatları, Koreyanın ölkəmizdəki səfirliyinin əməkdaşları və respublika ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Tədbirdə Azərbaycan Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, "SEBA" Koreya-Azərbaycan Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri Park Li Su Yunq, Koreya Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Mun Hayonq və Koreya-Türkiyə Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri Yonq Dark çıxış edərək, bu cür tədbirlərin son zamanlar dinamik inkişaf edən hər iki ölkənin xalqları arasında əlaqələrin genişlənməsinə xidmət etdiyini vurğulamışlar. Xalqlarımız arasında oxşar cəhətlərin olduğunu bildirən natiqlər hər iki xalqda böyüyə hörməti, istiqanlılığı, mehribançılığı qeyd etmişlər. Bildirilmişdir ki, mədəniyyət və incəsənət sahəsində görüşləri hər il keçirmək lazımdır, bu mübadilələr nəticəsində xalqlarımız mədəni cəhətdən daha da zənginləşəcəklər. Belə tədbirlərin keçirilməsinə yaxından köməyə görə Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya xüsusi təşəkkür bildirən natiqlər əminliklə söylədilər ki, bu, əlaqələrimizin yalnız başlanğıcıdır.

Tədbirdə Koreyaya həsr olunmuş sənədli film də göstərilmişdir.

***"Azərbaycan" qəzeti,***
***28 iyun 2005-ci il***





## QƏDİM MİLLİ TƏBABƏTİMİZLƏ BAĞLI ƏLYAZMALAR YUNESKO-nun MƏDƏNİ İRS SİYAHISINA DAXİL EDİLMİŞDİR

Azərbaycan YUNESKO-ya üzv olduğu ilk dövrlərdən bu qurum ölkəmizin zəngin qədim mədəniyyətinə, incəsənətinə və təbabətinə xüsusi maraq göstərmiş, xalq tərəfindən yaradılmış əsərlərin qorunub saxlanmasına və "Ümumdünya mədəni və təbii irsin qorunması" siyahısına daxil edilməsinə çalışmışdır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva YUNESKO-nun xoşməramlı səfiri kimi şərəfli ada layiq görüldükdən sonra ölkəmizin qurumla əlaqələri yeni tarixi mərhələyə daxil olmuş, xalqımıza məxsus qədim əsərlərin irs səviyyəsində qorunub saxlanması sahəsində ciddi addımlar atılmış, muğam kimi incəsənət əsərimiz "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına daxil edilmişdir.

Azərbaycanın YUNESKO yanında daimi nümayəndəliyindən bildirmişlər ki, bu nüfuzlu təşkilat 2005-ci ilin iyul ayının 13-17-də Çin Xalq Respublikasında keçirdiyi növbəti yığıncağında Tarixi Abidələrə dair Beynəlxalq Komitənin zəmanəti ilə ölkəmizin orta əsrlər təbabətindən və əczaçılığından bəhs edən əlyazmaların "Dünya mədəni və təbii irsin qorunub saxlanması" siyahısına daxil edilməsi məsələsini nəzərdən keçirmiş və həmin əlyazmaların siyahıya daxil edilməsi yekdilliklə qərara alınmışdır.

Xatırladaq ki, memarlıq abidələrimizin şah əsəri hesab olunan İçərişəhər bir neçə il əvvəl "Dünya mədəni və təbii irsin qorunması" siyahısına daxil edilmişdir.

***"Azərbaycan" qəzeti,***
***25 avqust 2005-ci il***

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA SOFİYANIN TARİXİ ABİDƏLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri çərçivəsində onun xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2005-ci ilin sentyabrın 23-də Bolqarıstan Prezidentinin xanımı Zorka Pırvanovanın müşayiəti ilə Sofiyanın bir çox tarixi abidələri ilə tanış olmuşdur.

Həmin abidələr arasında müqəddəs "Aleksandr Nevski patriarx məbədi" öz əzəməti ilə daha çox diqqəti cəlb edir. Burada hörmətli qonağa məlumat verildi ki, bu nəhəng kompleks 1877-1878-ci illərdə Bolqarıstanın azadlığı uğrunda döyüşlərdə həlak olmuş qəhrəmanların şərəfinə ucaldılmışdır. Deyilənə görə, məbədin tikintisində bütün bolqar xalqı iştirak etmişdir. Dünyanın hər yerindən buraya ibadətə gəlirlər. Pravoslav müqəddəslərinin ikona və şəkilləri ilə bəzədilmiş məbəd həm də tarixi abidə kimi mühafizə olunur. Məbədlə tanışlıq zamanı Mehriban xanım Əliyevaya məlumat verildi ki, sosializm dövründə Bolqarıstanda dinə qoyulmuş qadağalarla əlaqədar məbəd bir qədər diqqətdən kənardan qalmışdı. Son vaxtlar məbədin təmiri və bərpası üçün dövlət tərəfindən tədbirlər görülməkdədir.

Məbədin dini rəhbəri Azərbaycan xalqına, onun Prezidentinə və Mehriban xanım Əliyevaya firavanlıq, xoşbəxtlik, əmin-amanlıq arzuları ilə dua etdi.

Bolqarıstanın ən qədim sənət əsərlərinin əsas hissəsinin nümayiş etdirildiyi Milli Rəssamlıq Qalereyasının bolqar incəsənəti filialı ilə tanışlıq da xoş təəssürat doğurdu. Mehriban xanım Əliyevaya burada toplanmış eksponatlar barədə ətraflı məlumat verildi. Bildirildi ki, ikonalar, freskalar, müxtəlif sənət inciləri bu ölkənin qədim tarixindən xəbər verir. X əsrdən başlayaraq, tarixin müxtəlif dövrlərində, hələ sənətin nəzəriyyəsi və sistemi mövcud olmadığı zamanlarda yaranmış həmin sənət əsərlərinin əksəriyyəti öz qeyri-adiliyi ilə diqqəti cəlb edir. Əsasən apostolların, çarların, hökmdarların təsvir edildiyi şəkillərin bəzilərində qədim Şərq üslubunun cizgiləri də açıq-aydın hiss olunur. Pavilyonlarda nümayiş etdirilən əsərlərin böyük bir hissəsi XII əsr Pravoslav incəsənətinə aiddir.

Bizans-Tırnovo incəsənət məktəblərinin nümunələri ilə tanışlıq da böyük maraq doğurdu. Mehriban Əliyeva eksponatlara tamaşa etdi, onların yaranma tarixi ilə maraqlandı.

Daha sonra Mehriban xanım Əliyeva Bolqarıstanın məşhur orta əsr memarlıq və rəngkarlıq sənətini özündə geniş təcəssüm etdirən Boyana kilsəsinə gəldi. Əsrlər boyu bu bina həm tarixi abidə, həm də yerli əhalinin ibadət yeri olmuşdur. Ölkəmizin birinci xanımına məlumat verildi ki, divarlardakı rəsmlərin bir hissəsi XI əsrdə, digər hissəsi isə XIII əsrdə çəkilmişdir. XIV-XV əsrlərdə isə kilsənin divarları yeni-yeni rəsmlərlə zənginləşdirilmişdir. Maraqlıdır ki, bir neçə





yüzilliklər keçməsinə baxmayaraq, həmin rəsmlər əsasən öz orijinallığını qoruyub saxlamışdır. Müharibələr zamanı dağıdılmış daş kitabələrin qalıqları da burada mühafizə olunur.

Mehriban xanım Əliyevaya bildirildi ki, bu tarixi memarlıq abidəsi 1979-cu ildə YUNESKO-nun mədəni irs siyahısına daxil edilmişdir. Azərbaycan Prezidentinin xanımı kilsədə aparılan təmir-bərpa işləri ilə də maraqlandı, fəxri "Qonaqlar kitabı"na ürək sözlərini yazdı.

Həmin gün Bolqarıstan Prezidentinin xanımı Zorka Pırvanova Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyevanın şərəfinə nahar təşkil etdi. Söhbət zamanı Mehriban Əliyeva bu ölkədə onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.

Azərbaycan Prezidentinin xanımı ölkəmizdə qadın siyasətinin uğurlu nəticələrindən söhbət açdı, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Azərbaycanda həyata keçirdiyi layihələr, habelə mədəni irsin qorunmasına dövlət qayğısı ilə bağlı görülən işlər barədə məlumat verdi.

Bolqarıstan Prezidentinin xanımı dövlətimizin başçısı İlham Əliyevin rəsmi səfərinin bütün sahələrdə olduğu kimi, iki ölkənin qadın təşkilatları, elm, mədəniyyət, təhsil qurumları arasında əlaqələrin genişlənməsinə də təkan verəcəyinə əminliyini ifadə etdi.

*"Azərbaycan" qəzeti,*
*27 sentyabr 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA VOKALÇILARIN BÜLBÜL ADINA 3-cü BEYNƏLXALQ MÜSABİQƏSİNİN MÜNSİFLƏR HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2005-ci ilin dekabrın 5-də vokalçıların Bülbül adına 3-cü Beynəlxalq müsabiqəsinin münsiflər heyətinin üzvləri ilə görüşmüşdür.

Münsiflər heyətinin sədri, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatı laureatı, Beynəlxalq Musiqi Xadimləri İttifaqının prezidenti, akademik İrina Arxipova, üzvlər - Mariya Biyeşu (Moldova), Bibigül Tulegenova (Qazaxıstan), Firəngiz Əhmədova, Fərhad Bədəlbəyli (Azərbaycan), Mati Palm (Estoniya), Mariya Stefyuk (Ukrayna), Nodar Andquladze (Gürcüstan), Korneliya fon Kerssenbrok (Almaniya), Oleq Melnikov (Belarus) əvvəlcə Fondun sərgi və ekspozisiyası ilə tanış oldular. Qonaqlara ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən fotoşəkillər barədə ətraflı məlumat verildi.

Hörmətli qonaqlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələrə, ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, xüsusən elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə böyük maraqla baxdılar.

Sonra Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ilə görüş oldu. Mehriban xanım qonaqları səmimiyyətlə salamladı, onları ölkəmizdə və ulu öndər Heydər Əliyevin adını daşıyan Fondda görməkdən çox böyük qürur hissi keçirdiyini söylədi. O, Heydər Əliyev Fondu haqqında qısa məlumat verərək bildirdi ki, 2004-cü il mayın 10-dan fəaliyyətə başlayan Fondun əsas məqsəd və vəzifələri Heydər Əliyev tərəfindən yaradılmış azərbaycançılıq fəlsəfəsini, azəbaycançılıq ideyasını təbliğ etmək və gələcək nəsillərə çatdırmaqdır. Ancaq bununla bərabər, Fond fəaliyyətə başladığı ilk gündən qarşıya zamanın tələblərinə cavab verən vəzifələr qoymuş, böyük, qlobal layihələr həyata keçirməyə başlamışdır.

Fondun prezidenti konkret insanların problemlərinin həllinə kömək, ölkənin sosial problemlərinin həlli, uşaq evləri və internat məktəblərində təlim-tərbiyə alan, diabet xəstəliyindən əziyyət çəkən uşaqlara yardım, talassemiyasız həyat, təhsil, mədəniyyət





sahəsində çox böyük layihələr həyata keçirdiyini diqqətə çatdırdı. Belə layihələrdən biri olan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində cari ilin son altı ayında respublikamızın bütün regionlarında 130 məktəb tikilib istifadəyə verildiyini vurğuladı.

Müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin həmişə mədəniyyətin inkişafına, xalqlar arasında dostluq əlaqələrinin genişlənməsinə böyük diqqət yetirdiyini vurğulayan Mehriban xanım, dünya şöhrətli siyasi xadimin Azərbaycan professional vokal sənətinin banisi Bülbülün 100 illik yubileyi münasibətilə imzaladığı sərəncamda hər 3 ildən bir görkəmli sənətkarın xatirəsinə həsr edilmiş beynəlxalq müsabiqənin də keçirilməsini gərəkli saydığını, əvvəlki iki müsabiqənin yüksək səviyyədə təşkil olunduğunu, həmin müsabiqənin qalibi olan 30-dan çox vokalçının dünyanın möhtəşəm konsert salonlarında dəfələrlə uğurla çıxış etdiklərini diqqətə çatdırdı, 3-cü müsabiqədə də Rusiya, Ukrayna, Gürcüstan, Moldova, Özbəkistan, Qazaxıstan, Çin və İrandan 60 gənc vokalçının iştirak etməsini yüksək dəyərləndirən Mehriban Əliyeva əmin olduğunu bildirdi ki, artıq yekun mərhələsinə qədəm qoyan bu müsabiqənin qalibləri də ifaçılıq sənətinə öz töhfələrini verəcəklər.

İrina Arxipova xoş sözlərə, Bakıda hər addımda hiss etdikləri qonaqpərvərliyə görə Mehriban xanıma təşəkkürünü bildirdi, budəfəki gəlişində paytaxtda xeyli dəyişiklikləri müşahidə etdiyini, habelə Fondun çox maraqlı ekspozisiyaları ilə tanışlıqdan məmnun qaldığını söylədi.

Mehriban xanımı respublikanın ali qanunvericilik orqanına seçilməsi münasibətilə təbrik edərək, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti kimi onun gördüyü çox dəyərli işlər, çoxşaxəli xeyriyyəçilik fəaliyyəti barədə məlumatı olduğunu bildirdi.

Vokalçıların Bülbül adına 3-cü Beynəlxalq müsabiqəsinin yüksək səviyyədə təşkil edildiyini, xeyli istedadların üzə çıxarıldığını, ən çox da azərbaycanlı vokalçıların çıxışlarından razı qaldıqlarını vurğulayan sənətçilər Mehriban Əliyevanın xalqlar arasında mədəni əlaqələrin inkişafına öz dəyərli töhfəsini verməsini razılıq hissi ilə vurğuladılar, özlərinin də ölkələrində ayrı-ayrı mədəniyyət cəmiyyətlərinə, təşkilatlarına rəhbərlik etdiklərini söyləyərək, əməkdaşlığın və qarşılıqlı əlaqələrin möhkəmlənməsi naminə mövcud imkanlardan daha səmərəli istifadə olunması barədə Mehriban xanımın fikirlərini, təşəbbüslərini dəstəklədiklərini, bu ideyanın da həyata keçəcəyinə əminliklərini bildirdilər.

Səmimi şəraitdə keçən görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.

*"Azərbaycan" qəzeti,*
*6 dekabr 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNDA BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ TİKİNTİSİNİN LAYİHƏSİ MÜZAKİRƏ EDİLMİŞDİR

2005-ci ilin dekabrın 14-də Heydər Əliyev Fondunda paytaxtın Dənizkənarı Milli parkında yaradılacaq Beynəlxalq Muğam Mərkəzinin binasının layihəsi respublikamızın tanınmış muğam ifaçılarının iştirakı ilə müzakirə olunmuşdur.

Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva muğam ustalarını səmimiyyətlə salamlayaraq bildirdi ki, xalqımızın milli mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan muğam sənətimizin qorunub saxlanması, tədqiqi, öyrənilməsi, dünyaya tanıdılması, gələcək nəsillərə çatdırılması üçün Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr cəmiyyətdə böyük razılıq hissilə qarşılanır, nüfuzlu beynəlxalq təşkilatlarda, dünyanın bir sıra ölkələrində də çox geniş maraq doğurur. 2005-ci ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyevin və YUNESKO-nun Baş direktoru cənab Matsuuranın iştirakı ilə Milli parkda nadir musiqi məbədinin – Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulduğunu xatırladan Mehriban xanım tikintinin eskiz və layihəsi, arxitekturası ilə bağlı respublikamızın ən məşhur muğam ifaçılarının fikirlərini öyrənmək istədiyini vurğuladı. İndiyədək 10 layihə təqdim olunduğunu, əsas diqqətin qədim milli və müasir arxitektura elementlərini birləşdirməklə musiqimizin əsas sütunu olan muğam sənətinin dərin fəlsəfəsini özündə təcəssüm etdirən bir kompleksin inşasına nail olmağı arzu etdiyini bildirən Fondun prezidenti musiqi xadimlərini açıq, işgüzar fikir mübadiləsinə çağırdı.

Sonra layihələrin həm slaydları, həm də kağız üzərində eskizləri göstərildi.

Respublikanın xalq artistləri, professorlar Arif Babayev və Canəli Əkbərov, Habil Əliyev, Ağaxan Abdullayev, Alim Qasımov, Teymur Mustafayev, Mənsum İbrahimov və başqaları milli mədəniyyətimizin zirvəsi olan muğam sənətimizə Mehriban xanımın göstərdiyi qayğını, bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirdilər, təqdim olunmuş layihələr barədə öz təklif, tövsiyə və fikirlərini bildirdilər.

Müzakirələrin əhəmiyyətli olduğu, qarşılıqlı fikir mübadiləsinin bundan sonra da davam etdiriləcəyi vurğulandı.

***"Azərbaycan" qəzeti,***
***15 dekabr 2005-ci il***





## DAHİ BƏSTƏKAR DMİTRİ ŞOSTAKOVİÇİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ FESTİVALIN TƏNTƏNƏLİ AÇILIŞI

2006-cı ilin fevralın 20-də Azərbaycanda "Rusiya İli" çərçivəsində Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə dahi bəstəkar Dmitri Şostakoviçin 100 illik yubileyinə həsr edilmiş Beynəlxalq festivalın açılışı olmuşdur.

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının salonuna toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və ailə üzvlərini hərarətlə qarşıladılar. Festivalın prezidenti, dünya şöhrətli musiqiçi, həmyerlimiz Mstislav Rostropoviç səhnəyə dəvət olundu. Maestro musiqisevərlərə müraciətlə dedi: "Çox xoşbəxtəm ki, sevimli şəhərim Bakıda dahi bəstəkar Dmitri Şostakoviçin 100 illiyinə həsr edilmiş festival keçirilir. Onun Bakını və bakılı şagirdlərini necə sevdiyini çox yaxşı bilirəm. Əminəm ki, onun bu festivalda səslənəcək musiqisi musiqiçiləri və dinləyiciləri gözəlliyə məhəbbətdə birləşdirəcəkdir. Ümumiyyətlə, onun yüksək yaradıcılığı və musiqi sahəsindəki xidmətləri Azərbaycanda çox yüksək qiymətləndirilmiş və ona Azərbaycanın "Xalq artisti" adı verilmişdir. O, həm də Azərbaycanın görkəmli bəstəkarları Qara Qarayevin və Cövdət Hacıyevin sevimli müəllimi olmuşdur. Bu mötəbər festivalın Azərbaycan kimi gözəl, sabit və inkişaf edən bir ölkədə keçirilməsinin böyük əhəmiyyəti vardır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə belə mühüm tədbirlərin təşkili dünyada mədəniyyətlərarası dialoqun inkişafı baxımından çox dəyərlidir. Mən Azərbaycan xalqına bir daha minnətdaram".

Sonra maestro Mstislav Rostropoviçin dirijorluğu ilə Rusiya Dövlət Akademik Simfonik Orkestri D.Şostakoviçin 1-ci simfoniyasını və "Katerina İzmaylova" operasından beş antraktı ifa etdi.

Ukrayna müğənnisi, beynəlxalq müsabiqələr laureatı Oksana Dikanın (soprano) ifasında Şostakoviçin ötən əsrin hələ 30-cu illərində bəstələdiyi "Mtsensk qəzasının ledi Makbeti" operasından iki ariya səsləndi.

Böyük müvəffəqiyyətlə keçən konsert dəfələrlə gurultulu alqışlarla qarşılandı.

Maestro Mstislav Rostropoviç səhnəyə qayıdaraq tamaşaçılara dərin təşəkkürünü bildirdi, Dmitri Şostakoviçin "İki nəfər üçün çay" simfoniyasının yaranma tarixindən danışdı və əsəri simfonik orkestrin ifasında dinləyicilərə təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev konsertdən sonra Filarmoniyanın foyesində maestro Mstislav Rostropoviçlə səmimi görüşdü, onu uğurlu çıxışına görə təbrik etdi.Mstislav Rostropoviç dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi. Azərbaycanda mədəniyyətin və incəsənətin inkişafına göstərilən diqqət və qayğının dünyada yüksək qiymətləndirildiyini söylədi. O, Prezidentin ailə üzvləri ilə də görüşdü.

***"Azərbaycan" qəzeti,***
***21 fevral 2006-cı il***



## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA İKEBANA AKADEMİYASI (MƏRKƏZİ) İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Yaponiyaya rəsmi səfəri çərçivəsində onun xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2006-cı ilin martın 8-də Tokioda məşhur İkebana Akademiyası (Mərkəzi) ilə tanış olmuşdur.

Akademiyanın rəhbərləri Azərbaycanın birinci xanımını böyük hörmət və ehtiramla qarşıladılar, onu Beynəlxalq "Qadınlar günü" münasibətilə təbrik etdilər.

Yaponiyada İkebana buketdüzəltmə sənətinin – 600 illik tarixi var.

1924-cü ildə yaradılmış Mərkəzin isə dünyanın bir sıra ölkəsində nümayəndəlikləri fəaliyyət göstərir. Hazırda Gündoğar ölkənin ən məşhur mərkəzlərindən biri sayılır. Mərkəzlə tanışlıq zamanı Mehriban xanıma bir neçə buketdüzəltmə nümunəsi göstərilmişdir.

Mərkəzlə tanışlıqdan sonra Mehriban xanım Əliyeva yüksək zövqlə gül buketi düzəltmişdir.

***"Azərbaycan" qəzeti,***
***10 mart 2006-cı il***







## BAKIDA "ÜNS YARADICILIQ SƏHNƏSİ" TEATRININ TƏNTƏNƏLİ AÇILIŞI OLMUŞDUR

2006-cı ilin aprelin 22-də Bakıda, "ÜNS yaradıcılıq səhnəsi" teatrının təntənəli açılış mərasimi olmuşdur.

Dövlətimizin başçısı teatrın rəmzi açılışını bildirən lenti kəsdi, ailə üzvləri ilə birlikdə teatrın foyelərinə, aktyor otaqlarına, səhnənin quruluşuna baxdı.

Sonra teatrın təntənəli açılışı oldu. "ÜNS yaradıcılıq səhnəsi" layihəsinin müəllifi və rəhbəri, professor Nərgiz Paşayeva mərasim iştirakçılarını səmimiyyətlə salamlayaraq dedi ki, Azərbaycanda 150 illik bir dövrdə milli səhnəmiz zəngin teatr məktəbini formalaşdırmış və ənənələr yaratmışdır. Böyük aktyorlar Şərq mədəniyyəti üçün ənənəvi olmayan sahədə böyük uğurlar qazanmış, özlərindən sonra böyük məktəb və ənənə qoymuşlar. "ÜNS yaradıcılıq səhnəsi" teatrının əsas məqsədlərindən biri Azərbaycanda teatr sənətinin zəngin ənənələrinə əsaslanaraq onu indiki, müasir səviyyəyə qaldırmaq, bir növ ənənəni və yeniliyi birləşdirməkdir.

Qeyri-kommersiya xarakterli olmaqla fikri, ideyanı, mənəvi tələbatı reallaşdırmaq məqsədi

daşıyan layihədə üstünlük teatr tamaşalarına verilsə də, burada ədəbi-bədii axşamlar, maraqlı şəxsiyyətlərlə görüşlər, maarifçi xarakterli tədbirlər təşkil ediləcəkdir. Çünki məhz bu teatr mədəniyyətin bir çox növlərini və janrlarını özündə təmsil edir və mərkəzi xarakter daşıyır.

O, xüsusi vurğuladı ki, bu layihənin ideya istiqamətlərindən biri də Şərq və Qərb mədəniyyətləri birliyinin bədii əksini sənətdə və mədəniyyətdə göstərməkdir.

Sonra "ÜNS teatrının ilk səhnə əsəri" – "Bakı" musiqili tamaşası göstərildi. Tamaşanı yüksək peşəkarların rəhbərliyi altında Bakı Musiqi Akademiyasının, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Bülbül adına orta ixtisas musiqi məktəbinin tələbələri – 16 gəncdən ibarət kollektiv hazırlamışdır. Tamaşada unudulmaz bəstəkar Tofiq Quliyevin 30 mahnısından istifadə olunmuşdur. Dinləyicilər nəğmələrlə yanaşı, çox az ifa olunan və geniş auditoriyaya bəlli olmayan melodiyalara qulaq asdılar. Bu mahnılar Moskva arxivlərində uzun axtarışlardan sonra tapılmış və musiqisevərlərə yenidən təqdim edilmişdir.

Tamaşanın sonunda bu günün vətənpərvərlik ruhuna tam uyğun gələn "Azərbaycan" mahnısı səsləndirildi və tamaşaçıların hərarətli, sürəkli alqışları ilə qarşılandı.

*"Azərbaycan" qəzeti,*
*23 aprel 2006-cı il*





## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

"Birinci Beynəlxalq Rus Kitabı" festivalının iştirakçılarından böyük bir qrupu 2006-cı ilin sentyabrın 15-də Heydər Əliyev Fondunda olmuşdur. Qonaqlara məlumat verildi ki, Fond 2004-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum günü fəaliyyətə başlamışdır. Görkəmli siyasi xadimin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun əsas məqsədləri Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, ulu öndərin Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, xarici qonaqlarda əyani təsəvvür yaratmaqdan ibarətdir. Fond dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsinə kömək etməyi, ölkənin sosial problemlərinin həllini dəstəkləməyi, konkret insanlara qayğını da prioritet vəzifələrindən sayır. Azərbaycan mədəniyyətinin və tarixinin geniş təbliğində də qurumun dəyərli, səmərəli köməyi var.

Fondun ekspozisiyalarına maraqla baxan qonaqların məşhur dövlət xadiminin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən fotolara dair xeyli sualları cavablandırıldı. Onlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə də tanış oldular. Xüsusilə Moskvada keçmiş SSRİ hökumətinin rəhbərlərindən biri kimi onun çoxsahəli fəaliyyətini əks etdirən sənədlər qonaqlarda xoş təəssürat yaratdı. Onlar Azərbaycanın, eləcə də dünyanın müxtəlif ölkələrinin tanınmış elm, incəsənət, ədəbiyyat xadimləri ilə görüşlərdə, müxtəlif tədbirlərdə çəkilmiş şəkillərə də böyük maraqla baxdılar.

Sonra qonaqlar kinosalonda Heydər Əliyev Fondunun fəaliyyətinə, həyata keçirdiyi layihələrə, beynəlxalq əlaqələrinə dair sənədli filmə tamaşa etdilər.

Festival iştirakçıları ilə görüş çay süfrəsi arxasında davam etdirildi.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qonaqları Azərbaycanda Rusiya ili çərçivəsində keçirilən "Birinci Beynəlxalq Rus Kitabı" festivalı münasibətilə təbrik edərək dedi: "İlk belə festivalın məhz Bakıda keçirilməsi tamamilə qanunauyğundur. Siz, yəqin, bilirsiniz ki, Azərbaycanda rus ədəbiyyatına, incəsənətinə, mədəniyyətinə həmişə ehtiramla yanaşmışlar. Lakin tariximizin müəyyən dövründə ölkəmizin müstəqilliyə qovuşduğu dövrdə, yəqin ki, obyektiv səbəblərə görə biz "mədəni qıtlıq" hiss etdik. Biz bu gün də mədəni dialoqun zəruriliyinə, ünsiyyətə, qonşuların və dostların mədəniyyəti ilə tanış olmağa ikiqat ehtiyac duyuruq.

Bu baxımdan bizim çox yaxşı ənənələrimiz var və çox xoşdur ki, onlar davam və inkişaf edir.

Azərbaycan postsovet məkanında yeganə dövlətdir ki, müstəqillik əldə olunduqdan sonra burada heç bir rusdilli məktəb bağlanmadı, bu məktəblərin hamısı fəaliyyətini davam etdirir. Azərbaycan və bakılılar dünya mədəniyyətinin bir hissəsi olan rus mədəniyyətinə həmişə məhəbbət və hörmətlə yanaşmışlar. Ölkənin paytaxtında Bakı Slavyan Universiteti fəaliyyət göstərir."

Mehriban Əliyeva başçılıq etdiyi Fondun fəaliyyətindən danışaraq bildirdi ki, o 2004-cü ilin mayında, Heydər Əliyevin doğum günü açılmışdır. Fondun fəaliyyət sahəsi çox genişdir. Humanitar proqramlar, yəni təhsil, səhiyyə, sosial məsələlər, cəmiyyətin ən az təminatlı təbəqələrinə, qaçqın-köçkünlərə, (onlar Azərbaycanda təxminən bir milyon nəfərdir) yardım öncül istiqamətlərdir.

Təhsil sahəsinə xüsusi diqqət yetirilir. Çox böyük layihələr həyata keçirilir, iki il əvvəl yeni məktəblərin tikintisi layihəsinə başlanmışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə 2004-cü ilin mayından bu günədək 260 yeni məktəb tikilmişdir. Onların əksəriyyəti dağlıq, gediş-gəliş çətin olan rayonlarda inşa edilmişdir. Bu proqram davam etdirilir və yaxın illərdə daha 500 məktəb tikmək planlaşdırılır. Fondun keçirdiyi tədbirlər ölkədə geniş dəstəklənir.

Heydər Əliyev Fondunun prezidenti festivalın yüksək səviyyədə keçdiyinə əminliyini bildirərək dedi ki, ona maraq olduqca böyükdür, paytaxtın bir çox vətəndaşları festivalın tədbirlərində iştirakçılara kömək göstərmək xahişi ilə müraciət etmişlər.

Görüşdə görkəmli yazıçılar, ictimai xadimlər – Çingiz Aytmatov, Oljas Süleymenov, Tatyana Ustinova, Federal Mətbuat və Kütləvi Kommunikasiyalar Agentliyinin rəhbəri Mixail Seslavinski, "Rus Klubu" Beynəlxalq Mədəni-Maarif İttifaqının prezidenti Nikolay Sventitski, İTAR-TASS-ın baş direktoru Vitali İqnatenko və başqaları çıxış edərək bildirdilər ki, bu festival dövlətlərimizin həyatında çox böyük hadisədir. Bu, təkcə ədəbi hadisə, humanitar münasibətlər sahəsində hadisə deyil, həm də xalqlarımızın düzgün yolla, müstəqil və çox gözəl yolla getmələrinin daha bir sübutudur.

Qonaqlar qeyd etdilər ki, onlar Azərbaycanda sovet və müasir rus ədəbiyyatının, klassik rus ədəbiyyatının necə sevildiyinin və oxunduğunun şahidi oldular. Tədbirlər zamanı paytaxt vətəndaşları ilə görüş və söhbətlərinin necə səmimilik və mehribanlıq şəraitində keçməsindən yaxşı mənada təəccüb qalmışlar.

Festivalın birinci günü çox tədbirlər keçirilmişdir. Sentyabrın 16-da iştirakçılar üç rayonda olacaq, öz oxucuları ilə görüşəcəklər.

Qonaqlar Heydər Əliyev Fondunun fəaliyyətindən danışaraq Mehriban Əliyevanın rolunu





yüksək qiymətləndirdilər. Bildirdilər ki, indi dünyada fondlar çoxdur. Lakin Heydər Əliyev Fondunun fərqləndirici xüsusiyyətləri bundadır ki, o fəaliyyətin müxtəlif istiqamətlərini özündə birləşdirmişdir bunlar mədəniyyət və tarix, təhsil və səhiyyə, bir çox digər humanitar məsələlərdir.

Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, bu qurumun planlarına ölkədə kitab mağazalarının geniş bir şəbəkəsini yaratmaq da daxildir.

Sonra görüş iştirakçılarına Fondun xatirə hədiyyələri təqdim olundu. Festival iştirakçıları adından Fonda hədiyyə nəşrləri, görkəmli siyasi xadim Heydər Əliyevin tarixi fotoşəkilləri təqdim edildi.

Görüşdən sonra qonaqlar Heydər Əliyev Fondunun buraxdığı kitablar, albomlar, audio və video məhsullarla tanış oldular.

*"Azərbaycan" qəzeti,*
*16 sentyabr 2006-cı il*



# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA LATVİYA TARİX MUZEYİNDƏ OLMUŞ, MİLLİ GEYİMLƏR SƏRGİSİNƏ BAXMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasına dövlət səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva 2006-cı ilin oktyabrın 4-də Riqa şəhərində Latviya Tarix Muzeyi ilə tanış olmuşdur. Hörmətli qonağa məlumat verildi ki, burada ölkənin tarixinin müxtəlif dövrlərinə aid çoxlu əşya və sənədlər toplanmışdır.

Əlverişli coğrafi mövqedə yerləşən Latviya tarix boyu qonşularının hərbi təcavüzünə məruz qalmışdır. Bütün bu tarix, habelə latış xalqının azadlıq uğrunda mübarizəsi muzeyin eksponatlarında öz əksini tapmışdır.

Mehriban xanım muzeylə tanışlıqdan sonra fəxri "Qonaqlar kitabı"na ürək sözlərini yazdı. Hörmətli qonağa xatirə hədiyyəsi təqdim edildi.

Həmin gün Azərbaycanın birinci xanımı Latviya milli geyimlər sərgisində nümayiş etdirilən





müxtəlif tikmələrə, zərif şəkildə işlənmiş zinət əşyalarına baxmışdır.

Mehriban xanıma məlumat verildi ki, burada Latviyanın 16 regionunu, bütövlükdə isə latış xalqının qədim tarixini və mədəniyyətini əks etdirən nadir nümunələr cəmlənmişdir. Məhz bu geyim dəstləri vasitəsilə latış xalqının zəngin keçmişi barədə məlumat almaq olar.

Mehriban Əliyeva orta əsrlərin yadigarı olan qadın geyimlərinə, zərif əl işlərinə baxdı, bəzək əşyaları və onların toxunma üsulları ilə maraqlandı.

Sərginin Şərq və digər bölmələrində nümayiş etdirilən kişi və qadın geyimləri də orijinallığı ilə diqqəti cəlb edirdi.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva latış xalqının milli tarixi ənənələrini tikmələrdə yaşadan sərgini yüksək qiymətləndirdi və bildirdi ki, kişi və qadın geyimləri ilə yanaşı, latış xalqının kulinariyasını, musiqisini, eləcə də mədəniyyətinin digər elementlərini əks etdirən nümunələrin olması sərgiyə daha da zənginlik gətirə bilər.

Sərgi ilə tanışlıqdan xatirə olaraq Mehriban xanıma hədiyyə təqdim edildi.

Mehriban Əliyeva fəxri "Qonaqlar kitabı"na sərgi barədə təəssüratını yazdı.

*"Azərbaycan" qəzeti,*
*7 oktyabr 2006-cı il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA GƏNCƏDƏKİ HƏZRƏTİ ZEYNƏB MƏSCİDİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyevin respublikanın qərb rayonlarına səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2006-cı ilin oktyabrın 31-də Gəncədəki Həzrəti Zeynəb məscidini ziyarət etmişdir.

Bu müqəddəs ziyarətgah Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yenidən qurulmuşdur. Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə qazısı Hacı Tahir bu xeyirxahlığına görə Mehriban Əliyevaya minnətdarlıq etdi. O, Gəncədə tarixi abidələrin, ocaqların və pirlərin təmiri və bərpasına həssaslıq göstərən dövlətimizin başçısına və xanımına uca Allahdan can sağlığı və xoşbəxtlik dilədi, belə xeyirxah işlərin heç vaxt əvəzsiz qalmayacağını və Tanrı tərəfindən mükafatlandırılacağını vurğuladı.

Mehriban xanıma müqəddəs "Quran" təqdim edildi.

*"Azərbaycan" qəzeti,*
*1 noyabr 2006-cı il*





## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA MOSKVADA "BİBLİOBRAZ - 2007" BEYNƏLXALQ FESTİVALININ İŞİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin başçısı Leyla Əliyeva "Bibliobraz-2007" Beynəlxalq festivalının təntənəli açılış mərasimində iştirak etmişlər. Moskvada təşkil edilmiş bu forum Rusiyanın birinci xanımı Lyudmila Putinanın himayəsi ilə keçirilmişdir.

Lyudmila Putina təntənəli mərasimi açaraq bildirmişdir ki, festivalın əsas məqsədi məktəb kitabxanalarının və kitabxanaçıların statusunu yüksəltmək, məktəbliləri kitabxanalara cəlb etmək, kütləvi informasiya vasitələrinin təsiri ilə ikinci plana keçmiş kitabla məktəbliləri yenidən qovuşdurmaqdan ibarətdir. Bu layihə uşaqlar üçün və onların tərbiyəsi üçün çox əhəmiyyətlidir. L.Putina demişdir: "Bu gün bu möhtəşəm layihə beynəlxalq tədbirə çevrilmişdir". "Bibliobraz-2007" festivalının açılışı "Bir-birimizi kəşf edirik" adlı beynəlxalq aksiya çərçivəsində nəşr olunmuş ədəbi məcmuələrin təqdimatı ilə davam etdirilmişdir. Bu aksiya çərçivəsində Azərbaycan, rus və bolqar yazıçılarının Heydər Əliyev Fondu tərəfindən çap edilmiş əsərlərindən ibarət məcmuə tədbir iştirakçılarına təqdim olunmuşdur.

İlk söz Mehriban xanım Əliyevaya verilmişdir. O, belə bir forumun təşkil edilməsinə görə Lyudmila Putinaya və festivalın iştirakçılarına təşəkkürünü bildirmişdir. Mehriban Əliyeva təbrik çıxışında demişdir: "İlk növbədə, "Bibliobraz-2007" Beynəlxalq festivalında iştirak etməyə dəvətinizə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Bu festivala maraq ilbəil artır. Bu da təbiidir, çünki festival bizim hamımızı narahat edən problemlərə toxunur. Bu festival gənc oxucunu onun ehtiyac duyduğu ədəbiyyatla təmin etmək üçün gözəl imkanlar yaradır. Naşirlər, tərcüməçilər və yazıçılar üçün də yeni imkanlar açılır. Festival rusdilli mədəni məkanın genişləndirilməsinə və qorunub saxlanmasına kömək edir. Mən bu festival çərçivəsində keçirilən "Bir-birimizi kəşf edirik" aksiyasını xüsusi vurğulamaq istəyirəm. Bu aksiya bütün gənc oxucuların və bizim hamımızın da bir-birimizi daha yaxşı tanımağımıza kömək edir. Tanımaq isə başa düşmək və hörmət etmək deməkdir".

Mərasimdə Almaniyanın sabiq federal kanslerinin xanımı Doris Şröder-Kepf, Qırğızıstan Prezidentinin xanımı Tatyana Bakiyeva və başqaları da çıxış etmişlər.

Sonra Azərbaycanın birinci xanımı və digər ölkələrin prezidentlərinin xanımları festivalın iştirakçı ölkələrini təmsil edən milli geyimli uşaqların hər birinə elə səhnədəcə üzərində xatirə

sözləri yazılmış "Bir-birimizi kəşf edirik" məcmuəsini hədiyyə etmişlər. Uşaqlar "Bir-birimizi kəşf edirik" ədəbi məcmuələrinə daxil olmuş əsərlərdən kiçik fraqmentləri müxtəlif dillərdə oxumuşlar, o cümlədən Bakı Slavyan Universitetinin rektoru, yazıçı Kamal Abdullanın "Tarixi gündəlik" əsərindən fraqment səslənmişdir.

Mehriban xanım Əliyeva və Lyudmila Aleksandrovna Putina Moskvadakı Azərbaycan etnik-mədəni komponentli 157 nömrəli məktəbin şagirdlərinin ifasında "Azərbaycan milli geyimləri rus rəssamı Q.Qaqarinin gözü ilə" adlı tamaşaya baxmışlar. Tamaşanın ikinci hissəsində isə Azərbaycanın və Rusiyanın birinci xanımları Azərbaycan xalq çalğı alətlərinin tarixindən bəhs edən "Azərbaycana musiqili səyahət"in şahidi olmuşlar. Adi qələmlərin köməyi ilə nəlbəkilərlə ifa edilən Azərbaycan təranələri böyük heyrət doğurmuş və gurultulu alqışlarla qarşılanmışdır. Tamaşa başa çatandan sonra Mehriban xanım Əliyeva tanınmış Azərbaycan rəssamı Elmira Abbaslının əl işi olan gəlinciyi Lyudmila Putinaya hədiyyə etmişdir.

Azərbaycan və Rusiya prezidentlərinin xanımları Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Azərbaycan" stendinin ekspozisiyası ilə də tanış olmuşlar. Stenddə Azərbaycan ədəbiyyatı klassiklərinin rus dilində və başqa dillərdə nəşr edilmiş əsərləri, Heydər Əliyev Fondunun buraxdığı yeni kitablar, o cümlədən XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mir Cəlal Paşayevin kitabları, Azərbaycan mədəniyyətinə və Qarabağ probleminə həsr olunmuş DVD və CD-lər, əl işi olan gəlinciklər, miniatürlər, mini-xalçalar, musiqi alətləri, mis qablar və başqa eksponatlar nümayiş etdirilirdi. Mehriban xanım Əliyeva nəfis poliqrafik tərtibatlı "Bir-birimizi kəşf edirik" məcmuəsinin Azərbaycan nəşrini Lyudmila Putinaya bağışlamışdır.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun xətti ilə Moskvaya gətirilmiş 10 min nüsxədən çox kitab, suvenirlər və digər kitab məhsulları Fondun Azərbaycan mədəniyyətinin xaricdə təbliğinə yönəlmiş fəaliyyətinə əyani sübutdur.

Elə həmin gün axşam Mehriban Əliyeva festivalın təşkilat komitəsinin sədri Lyudmila Putinanın birinci ledilərin şərəfinə Kreml sarayında təşkil etdiyi qəbulda iştirak etmişdir.

*"Azərbaycan" qəzeti,*
*10 oktyabr 2007-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BUDAPEŞTİN TARİXİ MEMARLIQ ABİDƏLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

2008-ci ilin fevralın 18-də Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana dövlət səfəri çərçivəsində ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Budapeştin tarixi memarlıq abidələri ilə tanış olmuşdur.Mehriban xanım əvvəlcə Macarıstan memarlığının qədim abidələrindən olan Buda qəsrinə tamaşa etdi.

Azərbaycanın birinci xanımı Kral sarayının (XIII-XVIII əsrlər) Qəsr muzeyi ilə də tanış oldu. Bildirildi ki, orta əsr Avropa memarlığının gözəl nümunələrindən olan bu qəsr paytaxt Budapeştin əsas simvoludur. Burada Macarıstanın etnoqrafiyasına aid eksponatlar da nümayiş etdirilir. Mehriban Əliyeva qəsrin ərazisini gəzdi, "Balıqçılar qalası"ndan Budapeştin mənzərəsini seyr etdi.

Daha sonra Azərbaycanın birinci xanımı müqəddəs "Matiyaş kilsəsi"ndə (XIII-XV əsrlər) oldu. Orta əsr Avropa memarlığının incilərindən olan kilsə əzəməti ilə diqqəti cəlb edir. Mehriban xanım Əliyeva burada fəxri "Qonaqlar kitabı"na ürək sözlərini yazdı.

*"Azərbaycan" qəzeti,*
*19 fevral 2008-ci il*



## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNDA VƏ ƏTRAF ƏRAZİLƏRDƏ APARILAN BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2008-ci ilin martın 11-də "İçərişəhər" Dövlət Tarix-memarlıq qoruğunda və ətraf ərazilərdə aparılan bərpa və yenidənqurma işləri ilə tanış olmuşlar.

Dövlətimizin başçısı və xanımı əvvəlcə milli memarlığımızın nadir nümunələrindən olan İçərişəhərə gələrək burada aparılan əsaslı bərpa və yenidənqurma işlərinin gedişi ilə maraqlandılar. Tarixi erkən orta əsrlərdən başlayan İçərişəhər yeganə qoruq Şəhər-muzeydir və 21,5 hektar ərazini əhatə edir. Burada Şərq memarlığı üslubunda tikilmiş 50-yə qədər tarixi, mədəniyyət və dini abidələr qorunur. İçərişəhərin qədim abidələrinin dəyəri nəzərə alınaraq 1977-ci ildə bura qoruq elan edilmiş, 2000-ci ildə YUNESKO tərəfindən "Dövlət Tarix-memarlıq qoruğu" kimi qeydə alınmışdır.





2001-ci il fevralın 2-də ümummilli lider Heydər Əliyevin tapşırığı ilə respublika hökuməti İçərişəhərin "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri" siyahısına daxil edilməsi barədə qərar qəbul etmişdir.

Bərpa və təmir işlərinin gedişi ilə yaxından tanış olan Prezident İlham Əliyev yerindəcə müvafiq tapşırıqlarını verdi.

Sonra dövlətimizin başçısı və xanımı XX əsr Azərbaycan satirik ədəbiyyatının banisi M.Ə.Sabirin adını daşıyan bağa gəldilər. Paytaxt sakinlərinin istirahət yerlərindən olan Sabir bağında da Prezident İlham Əliyevin tapşırığı ilə geniş abadlıq və quruculuq işlərinə başlanılmışdır. Prezident İlham Əliyevə burada işlərin gedişi barədə məlumat verildi.

Azərbaycan Prezidenti və xanımı dahi şair və mütəfəkkir Nizami Gəncəvinin abidəsinin ucaldığı bağa gələrək burada dövlət başçısınıngöstərişi ilə aparılan əsaslı yenidənqurma işləri ilə tanış oldular. Prezident İlham Əliyev işlərin vaxtında və yüksək keyfiyyətlə başa çatdırılması ilə əlaqədar tövsiyələrini verdi. Nizami və Sabir bağlarında görülən işlər də Bakı şəhərində həyata keçirilən geniş abadlıq və yenidənqurma tədbirlərinin davamı olaraq paytaxtımızı daha da gözəlləşdirəcəkdir.

Daha sonra yenidən İçərişəhərə qayıdan Prezident və xanımı burada digər tarix-memarlıq abidələrində görülən bərpa və təmir işləri ilə maraqlandılar. İçərişəhərin planı ilə tanış olan dövlətimizin başçısı iş prosesində tarixi tikililərin memarlıq üslubuna xələl gətirilməməsini bir daha tapşırdı.

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva orta əsr Azərbaycan memarlığının nadir nümunələrindən olan Qız qalasına baxdılar. Qalanın hündürlüyü bütövlükdə 29,7 metr, diametri 16-16,5 metr, divarının qalınlığı aşağıda 5 metr, yuxarı yaruslarda isə 4 metrdir. Son dəfə qalada bərpa işləri 1960-cı ildə görülmüşdür. Burada arxeoloji qazıntılar da aparılmışdır. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva qalada saxlanılan eksponatlarla tanış oldular, sonra qalaya çıxaraq oradan şəhərin mənzərəsini seyr etdilər.

Sonra dövlətimizin başçısı və xanımı Bakının dünənini və bu gününü əks etdirən videosüjetə baxdılar, İçərişəhərdə aparılan arxeoloji qazıntılar zamanı tapılmış maddi mədəniyyət nümunələri ilə tanış oldular.

*"Azərbaycan" qəzeti,*
*12 mart 2008-ci il*



## "AZƏRBAYCANDA MOLDOVA MƏDƏNİYYƏTİ GÜNLƏRİ"NİN TƏNTƏNƏLİ AÇILIŞI

2008-ci ilin aprelin 23-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında "Azərbaycanda Moldova mədəniyyəti günləri"nin təntənəli açılış mərasimi olmuşdur.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi, onun xanımı Mehriban Əliyevanı və Moldova Prezidenti Vladimir Voronini gurultulu alqışlarla qarşıladılar.

Moldovanın və Azərbaycanın Dövlət himnləri səsləndi. Aparıcılar dövlət başçılarını və mərasim iştirakçılarını salamlayaraq vurğuladılar ki, Moldova və Azərbaycan xalqları arasında əlaqələrin çoxəsrlik tarixi var. Bu əlaqələr heç vaxt qırılmamış, iki ölkə xalqlarının mədəniyyətləri daim təmasda olmuş, bir-birinə qarşılıqlı təsir göstərmiş və qarşılıqlı surətdə zənginləşmişdir. Moldova incəsənət ustalarının bir çoxunun yaradıcılığı azərbaycanlılara yaxşı tanışdır. Eyni zamanda, Azərbaycanın bir çox musiqiçi, yazıçı və şairlərinin yaradıcılığı moldovalılar üçün əziz, onlara yaxındır.

Sonra Moldova incəsənət ustalarının qala-konserti oldu. Tamaşaçılar SSRİ və Moldova Respublikasının xalq artisti Vladimir Kurbetin rəhbərliyi ilə "Jok" Dövlət Milli Akademik xalq rəqs ansamblının, "Catharsis" duetinin, "Concertino" akkordeonçular ansamblının, Advaxov qardaşlarının rəhbərlik etdiyi orkestrin, Moldovanın tanınmış musiqiçi və müğənnilərindən – Viktoriya Lunqu, Konstantin Moskoviç, Natalya Qordiyenko, Mixail Muntyanu və Marin Gerasın çıxışlarını böyük maraqla qarşıladılar.

*"Azərbaycan" qəzeti,*
*24 aprel 2008-ci il*





## BÖYÜK YAZIÇI VƏ ALİM, GÖRKƏMLİ PEDAQOQ MİR CƏLAL PAŞAYEVİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ ELMİ KONFRANS

2008-ci ilin aprelin 25-də Bakı Dövlət Universitetində (BDU) Azərbaycan ədəbiyyatının və elminin inkişafına əvəzsiz töhfələr vermiş böyük ədib və alim, görkəmli pedaqoq, ictimai xadim, professor Mir Cəlal Paşayevin 100 illik yubileyinə həsr olunmuş ikigünlük elmi konfrans öz işinə başlamışdır.

Ayrı-ayrı dövlət qurumları nümayəndələrinin, tanınmış elm və mədəniyyət xadimlərinin, ali məktəb rektorlarının, pedaqoqların, deputatların, Rusiya, Ukrayna və digər ölkələrdən olan alimlərin iştirak etdikləri tədbirdə BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov Prezident İlham Əliyevin "YUNESKO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin, əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" 2008-ci il 31 yanvar tarixli sərəncamında yazıçı-alim Mir Cəlal Paşayevin 100 illik yubileyinin keçirilməsi ilə bağlı müddəanın əhəmiyyətini vurğulamışdır.

Görkəmli yazıçı və alim Mir Cəlal Paşayevin zəngin ədəbi və elmi yaradıcılığından, şəxsiyyətinin böyüklüyündən bəhs edən rektor, 40 ildən artıq bir dövrdə Bakı Dövlət Universitetində çalışmış, Azərbaycan ədəbiyyatına və elminə, təhsilinə dəyərli töhfələr vermiş alimin şərəfli ömür yolunun layiqli örnək olduğunu bildirmişdir. Akademik A.Məhərrəmov, eyni zamanda, elmi konfransda 100-dən artıq məruzənin dinləniləcəyini söyləmişdir.

Sonra professor Mir Cəlal Paşayevin həyat və fəaliyyətindən bəhs edən "Üç zirvənin fatehi" sənədli filmi nümayiş etdirilmişdir.

Böyük alimin nəvəsi, Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Nərgiz Paşayeva XX əsr Azərbaycan ədəbi prosesinin inkişafında böyük ədib və alim Mir Cəlal Paşayevin mühüm rolunu vurğulamışdır.

Professor N.Paşayeva heç zaman aktuallığını itirməyən 300-dən artıq hekayə və romanın, neçə-neçə monoqrafiyanın müəllifi olan Mir Cəlal Paşayevin əsərlərinin əhəmiyyətini diqqətə çatdırmışdır. Professor qeyd etmişdir ki, Mir Cəlal Paşayev qələminin məhsulu olan "Azərbaycanda ədəbi məktəblər" kitabı Azərbaycan ədəbiyyatı, mədəniyyəti və ictimai həyatı haqqında ən sanballı elmi əsərdir. Bu əsər ədəbiyyatşünaslıq elmimizə çox dəyərli bir töhfədir.

Baş nazirin müavini, xalq yazıçısı Elçin Əfəndiyev professor Mir Cəlal Paşayevin zəngin yaradıcılığından, elmi və pedaqoji fəaliyyətindən, nəcib insani keyfiyyətlərindən bəhs etmişdir. Bildirmişdir ki, böyük ədib və alim Mir Cəlal Paşayev çox müdrik insan, nadir bir

şəxsiyyət idi. Onun müxtəlif janrlarda olan bədii əsərləri həm mövzu zənginliyinə, həm də dil və üslubuna görə böyük maraq doğurur. İctimai fikrimizin formalaşmasında və inkişafında böyük xidmətləri olmuş dərin zəka sahibi M.C.Paşayev Azərbaycan ədəbi tarixində həm böyük ədib, alim, həm də görkəmli pedaqoq kimi daim qalacaqdır.

Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Yevgeni Sidorov M.C.Paşayevin 100 illik yubileyinin YUNESKO-nun təşəbbüsü ilə keçirilməsi münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

Akademik Bəkir Nəbiyev və digər natiqlər də professor Mir Cəlal Paşayevin ədəbiyyatımızın, elmimizin, təhsilimizin inkişafında, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında əvəzsiz xidmətlərindən, gözəl insani keyfiyyətlərindən danışmış, onunla bağlı xatirələrini söyləmişlər.

Böyük yazıçı və alim Mir Cəlal Paşayevin oğlu, akademik Arif Paşayev yubileyin keçirilməsi ilə bağlı verilən müvafiq sərəncama görə dövlətimizin başçısına və YUNESKO-nun rəhbərliyinə minnətdarlığını, atasının xatirəsinə göstərilən diqqət və ehtirama görə tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirmişdir.

Tədbirdə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva iştirak etmişdir.

Sonra elmi konfrans ayrı-ayrı bölmə iclaslarında işini davam etdirmiş, məruzələr dinlənilmişdir.

*"Azərbaycan" qəzeti,*
*26 aprel 2008-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA HELSİNKİDƏ İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

2008-ci ilin mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Finlandiyaya rəsmi səfəri çərçivəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Finlandiya Prezidentinin həyat yoldaşı Pentti Arayarvinin müşayiəti ilə Helsinkidəki İncəsənət muzeyi ilə tanış olmuşdur.

Muzeylə tanışlıq zamanı Mehriban xanıma məlumat verildi ki, ekspozisiya çox zəngindir. Burada müxtəlif dövrlərdə Finlandiyada yaşayıb-yaradan fırça ustalarının ayrı-ayrı cərəyanları əks etdirən rəsm əsərləri nümayiş etdirilir. Ekspozisiyada Finlandiyanın füsunkar təbiətinin təsvir olunduğu əsərlər daha çoxdur.

Mehriban xanım Əliyevaya muzeydə saxlanılan əsərlər barədə xatirə albomu təqdim olundu.

*"Azərbaycan" qəzeti,*
*30 may 2008-ci il*



## "AZƏRBAYCANDA UKRAYNA MƏDƏNİYYƏTİ GÜNLƏRİ"NİN AÇILIŞINA HƏSR OLUNMUŞ KONSERT

2008-ci ilin iyunun 30-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında "Azərbaycanda Ukrayna mədəniyyəti günləri"nin açılışı münasibətilə konsert olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Ukrayna Prezidenti Viktor Yuşşenko konsertdə olmuşlar. Salona toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.

Ukrayna incəsənət ustalarının ifasında konsert proqramı nümayiş olundu.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Ukrayna Prezidenti Viktor Yuşşenkonun adından gül çələngləri təqdim edildi.

Konsertdən sonra Filarmoniyanın foyesində Azərbaycan Prezidenti İlham Əliyevə Taras Şevçenkonun Bakıda ucaldılmış abidəsinin maketi təqdim olundu. Abidənin müəllifi, ukraynalı heykəltəraş İqor Qreçanik dedi ki, azadlıq mübarizi Taras Şevçenkonun abidəsinin maketinin Azərbaycan Prezidentinə təqdim olunması rəmzi xarakter daşıyır.

Taras Şevçenkonun Bakıda abidəsinin açılmasını əlamətdar hadisə adlandıran dövlətimizin başçısı uğurlu işinə görə müəllifi təbrik etdi.

*"Azərbaycan" qəzeti,*
*1 iyul 2008-ci il*





## AZƏRBAYCANIN BİRİNCİ XANIMININ KİTABI ABŞ KONQRESİNİN KİTABXANASINA TƏQDİM EDİLMİŞDİR

ABŞ Konqresi kitabxanasının Azərbaycan bölməsinə daha bir nəşr əlavə olunmuşdur. Dünya şöhrətli musiqiçi və ictimai xadim, 20 il ABŞ Milli Simfonik Orkestrinə başçılıq etmiş Mstislav Rostropoviçin xatirəsinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində maestronun Bakı həyatından bəhs olunan "Rostropoviç" kitabı Konqres kitabxanasına təqdim edilmişdir. Kitabın müəllifi Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevadır.

Təqdimat mərasimində Rostropoviçin Bakıdakı ev muzeyi tərəfindən təşkil olunan və Azərbaycan hökuməti tərəfindən Konqres kitabxanasına hədiyyə edilmiş fotosərgi də böyük maraqla qarşılanmışdır.

Baş kitabxanaçı Ceyms Billinqton yeni kitabın Azərbaycan bölməsinə əlavə edilməsini yüksək dəyərləndirmişdir. O bildirmişdir ki, hazırda Konqres kitabxanasında Azərbaycanla bağlı 138 müxtəlif nəşr və fotoarxiv vardır.

Maestronun qızı Olqa Rostropoviç çıxışında atasının həyatında Azərbaycanın mühüm rol oynadığını demişdir. O, Azərbaycan Prezidenti İlham Əliyevi son seçkilərdə inamlı qələbəsi münasibətilə təbrik edərək demişdir: "Mənim atam Bakıda həyatının ilk və xoşbəxt illərini keçirmişdir. Ömrünün son illərində isə o, özünə Bakıda çoxlu dost qazanmışdır. Onların arasında möhtərəm Prezident İlham Əliyev və onun gözəl xanımı Mehriban Əliyeva da vardır".

Azərbaycanın Vaşinqtondakı səfiri Yaşar Əliyev çıxışında vurğulamışdır ki, YUNESKO-nun xoşməramlı səfirləri kimi Mstislav Rostropoviç və Mehriban Əliyeva dünyada mədəniyyət və incəsənətin, o cümlədən musiqinin təbliğinə dair bir sıra layihələrdə birgə çalışmışlar. Doğulduğu Bakı Rostropoviçə çox şey verdiyi kimi, maestro da həyatının son illərində Azərbaycan paytaxtına səfərləri zamanı çox işlər görmüşdür. Hər gəlişində o, Dövlət Konservatoriyasında ustad dərsləri keçməklə Azərbaycanın musiqi sənətinə dəyərli töhfələr vermiş, çadır düşərgələrində olmuş, sosial layihələrdə iştirak etmişdir. Səfir təqdim edilən kitaba istinadla bildirmişdir ki, ailəsinin sözlərinə görə, həyatla vidalaşan maestronun son sözlərindən biri "Deməli, mən Bakıya gedə bilməyəcəm" ifadəsi olmuşdur.

*"Azərbaycan" qəzeti,*
*19 oktyabr 2008-ci il*



## GÖRKƏMLİ ƏDİB, ALİM, PEDAQOQ MİR CƏLAL PAŞAYEVİN 100 İLLİYİ YUNESKO SƏVİYYƏSİNDƏ QEYD OLUNMUŞDUR

2008-ci ilin noyabrın 10-da Parisdə, YUNESKO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir.

YUNESKO səviyyəsində keçirilən yubiley mərasimində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva iştirak etmişdir.

XX əsr Azərbaycan ədəbiyyatında, elmində müstəsna xidmətlər göstərən Mir Cəlal Paşayevin 100 illiyinin YUNESKO səviyyəsində qeyd olunması, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən önəmin və dəyərin təzahürüdür. 2008-2009-cu illərdə YUNESKO-nun dünya miqyaslı hadisələrin və şəxsiyyətlərin yubileylərinin qeyd olunması ilə bağlı qərarına Mir Cəlal Paşayevin də adının daxil edilməsi, həm də Azərbaycan-YUNESKO əməkdaşlığının inkişafının bariz nümunəsidir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri kimi bu sahədə geniş və səmərəli fəaliyyəti qurumla ölkəmiz arasında əlaqələrin inkişafına mühüm töhfə verir.

YUNESKO-nun iqamətgahına gələn Mehriban xanım Əliyevanı qurumun Baş direktoru Koişiro Matsuura və digər rəsmi şəxslər səmimiyyətlə qarşılamışlar.

Koişiro Matsuura və Mehriban xanım əvvəlcə Mir Cəlal Paşayevin həyat və yaradıcılığından bəhs edən sərgi ilə tanış olmuşlar. Azərbaycanın görkəmli yazıçısı və aliminin müxtəlif illərdə çəkilmiş fotolarında onun zəngin həyat və fəaliyyətinin ən maraqlı məqamları əks olunmuşdur. Bu fotolarda görkəmli yazıçının dövrünün görkəmli ziyalıları ilə görüşlərini yaşadan məqamlar, ailə üzvləri ilə şirin xatirələr yaşanır. Sərgidə yazıçının həm Azərbaycanda, həm də xaricdə nəşr edilmiş əsərləri də təqdim olunmuşdur.





Görkəmli yazıçının əsərləri bir neçə nəslin tərbiyəsində, maariflənməsində və dünya baxışının formalaşmasında mühüm rol oynamışdır. Mir Cəlal Paşayev həm də alimliyi, müəllimliyi, ziyalılığı ilə Azərbaycanın fikir tarixində xüsusi yer tutur. Odur ki, bu böyük ziyalının yubileyinin YUNESKO səviyyəsində qeyd edilməsinin xüsusi mənası və özəlliyi var.

Yubiley mərasimini açan YUNESKO-nun Baş direktoru Koişiro Matsuura demişdir ki, Azərbaycan xalqının böyük alimi və yazıçısı Mir Cəlal Paşayevin 100 illiyinin YUNESKO səviyyəsində qeyd edilməsi qurumun ənənələrinə uyğundur. Çünki YUNESKO ilə Azərbaycan arasında güclü əməkdaşlıq var və bu münasibətlər müxtəlif sahələri əhatə edir. Bu əməkdaşlığın qurulması və inkişafında Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın xidmətləri xüsusi vurğulanmalıdır. Baş direktor bildirmişdir ki, Mir Cəlal Paşayevin 100 illiyinin YUNESKO-da qeyd edilməsi də qurumla Azərbaycan arasındakı uğurlu əməkdaşlığın nümunəsidir.

Sonra çıxış edən Azərbaycanın birinci xanımı Mehriban Əliyeva xalqımızın zəngin mədəni dəyərləri olduğunu vurğulayaraq bildirmişdir ki, çox böyük ədəbi irsə malik olan Azərbaycan böyük alimlər, mütəfəkkirlər nəsli yetişdirib. Mir Cəlal Paşayevin ədəbi və elmi yaradıcılığının xarakterik xüsusiyyətlərindən danışan Mehriban xanım demişdir ki, onun əsərləri bütöv bir dövrün mənzərəsini yaradır. O, böyük pedaqoq kimi Azərbaycan cəmiyyəti üçün minlərlə açıq fikirli tələbə yetişdirmişdir.

Mehriban Əliyeva başda YUNESKO rəhbərliyi olmaqla, yubiley mərasiminin keçirilməsində əməyi olan bütün insanlara təşəkkürünü bildirmişdir.

Sonra Mir Cəlal Paşayevin həyat və yaradıcılığından bəhs edən film nümayiş olunmuşdur.

Mərasim "Könül dolusu musiqi" adlı konsert proqramı ilə davam etdirilmişdir. Dirijor, xalq artisti Rauf Abdullayevin idarəsi ilə Azərbaycan Dövlət Simfonik Orkestri Azərbaycan və Avropa bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı təqdim etmişdir.

Yubiley mərasiminə dəvət olunmuş Fransa Senatının keçmiş sədri Kristian Ponsöle Azərbaycan xalqının görkəmli ziyalısı Mir Cəlal Paşayevin 100 illiyi münasibətilə Mehriban xanım Əliyevanı təbrik etmiş, bu mərasimdən aldığı yüksək təəssüratın ölkəmizə olan rəğbətini daha da artırdığını vurğulamışdır.

Mərasimdən sonra YUNESKO-nun iqamətgahında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın adından Mir Cəlal Paşayevin 100 illik yubiley mərasimində iştirak edən qonaqların şərəfinə ziyafət verilmişdir.

*"Azərbaycan" qəzeti,*
*13 noyabr 2008-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA GÖRKƏMLİ AZƏRBAYCAN RƏSSAMI TAHİR SALAHOV İLƏ GÖRÜŞMÜŞDÜR

2008-ci ilin noyabrın 24-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva görkəmli Azərbaycan rəssamı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, SSRİ xalq rəssamı Tahir Salahov ilə görüşmüşdür.

Görkəmli rəssamı Heydər Əliyev Fondunda səmimiyyətlə qarşılayan Mehriban xanım Əliyeva onu 80 illik yubileyi münasibətilə ürəkdən təbrik etdi.

Tahir Salahovun parlaq ənənələrə malik müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndələrindən olduğunu vurğulayan Mehriban xanım dedi ki, rəssamın mövzu və janr rəngarəngliyi, bədii forma əlvanlığı və estetik kamilliyi ilə seçilən əsərləri milli sənət xəzinəmizin "Qızıl fondu"na daxil olmuşdur. Yaratdığı tablolardan ibarət sərgilər rəssama





ölkəmizin hüdudlarından uzaqlarda da şöhrət qazandırmışdır. Sənətkarın dünyanın mötəbər muzeylərində və qalereyalarında, şəxsi kolleksiyalarda saxlanılan əsərləri Azərbaycan mədəniyyətinin geniş təbliğində mühüm əhəmiyyət kəsb edir. Tahir Salahov öz pedaqoji fəaliyyəti və təşkilatçılıq bacarığı ilə gənc rəssamlar nəslinin yetişdirilməsinə və milli rəssamlığın inkişafına sanballı töhfələr vermişdir. Tahir Salahovun Azərbaycan incəsənətinin inkişafı və təbliğində təqdirəlayiq xidmətlərini xüsusi vurğulayan Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, dünya şöhrətli rəssam Azərbaycan xalqının fəxridir.

Xoş sözlərə və səmimi münasibətə görə dərin minnətdarlığını bildirən Tahir Salahov dedi ki, doğma Vətənində yubileyinin qeyd olunması sənətinə verilən böyük qiymətin göstəricisidir.

80 illik yubileyinin qeyd edilməsi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamdan təsirləndiyini bildirən Tahir Salahov diqqət və qayğıya görə dövlətimizin başçısına, habelə Azərbaycan mədəniyyətinin təbliği və inkişafına xüsusi diqqət yetirən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya bir daha təşəkkür etdi.

Mehriban xanım Əliyeva Tahir Salahova Heydər Əliyev Fondunun fəaliyyəti haqqında kitab və "Qarabağ xanəndələri" musiqi albomunu hədiyyə etdi.

*"Azərbaycan qəzeti,*
*25 noyabr 2008-ci il*



## BAKIDA BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ AÇILMIŞDIR

2008-ci ilin dekabrın 27-də Bakıda, dənizkənarı Milli parkda Beynəlxalq Muğam Mərkəzinin açılışı olmuşdur.

Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı möhtəşəm layihələr sırasında xüsusi əhəmiyyəti olan bu Mərkəzin inşası Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. Belə bir mədəniyyət ocağının tikilməsi, muğamın daha da inkişaf etdirilməsi və təbliği üçün görkəmli xanəndələrin, muğam bilicilərinin iştirakı ilə "dəyirmi masa" keçirilmiş və Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınmışdı. Bundan sonra 2005-ci il aprelin 6-da Prezident İlham Əliyev Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında sərəncam imzalamışdı. Beləliklə, xalqımızın qədim mədəni irsinin ölməz nümunəsi, Azərbaycan musiqisinin zəngin fəlsəfi təməl üzərində təşəkkül tapmasında əvəzsiz rol oynayan muğama möhtəşəm abidə ucaldılması istiqamətində ciddi addım atılmışdır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun Dünya irs siyahısına daxil edilməsi isə bütövlükdə onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.





2005-ci ilin avqustunda Prezident İlham Əliyevin və ölkəmizin birinci xanımı Mehriban Əliyevanın, YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın iştirakı ilə təməli qoyulmuş Beynəlxalq Muğam Mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarətdir. Binanın forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. Ən müasir texnologiyadan istifadə edilməklə tikilən bina üçün lazımi avadanlıq İtaliya, Avstriya, Fransa və Türkiyədən gətirilmişdir. İnşaat işləri zamanı 2 mindən çox müxtəlif ölçülü şüşədən istifadə olunmuşdur.

Dövlətimizin başçısı və xanımı Mərkəz ilə yaxından tanış oldular. Bildirildi ki, Azərbaycan-YUNESKO əməkdaşlığının bəhrəsi olan Beynəlxalq Muğam Mərkəzində 350 yerlik konsert salonu, klub, 80 nəfərlik restoran, dərs otaqları, səsyazma studiyası vardır. Bina müasir havalandırma və istilik sistemləri ilə təchiz edilmişdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva tarın qoluna xatırladan dəhlizdə Azərbaycanın görkəmli muğam ifaçılarının büstlərinə və "Ud" restoranına baxdılar.

Sonra Muğam Mərkəzinin konsert salonunda açılış mərasimi keçirildi.

*"Azərbaycan" qəzeti,*
*29 dekabr 2008-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI YUNANISTAN MİLLİ QALEREYASINDA OLMUŞDUR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Yunanıstan Milli Qalereyasında olmuşdur.

Mehriban xanım muzeydə Yunanıstanın müasir rəngkarlıq məktəbini təmsil edən rəssamların əsərlərinə baxdı.

Azərbaycanın birinci xanımına qalereyadakı eksponatların kataloqu hədiyyə olundu.

Muzeylə tanışlıq zamanı Mehriban xanım Əliyevanı YUNESKO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis müşayiət edirdi.

*"Azərbaycan" qəzeti,*
*17 fevral 2009-cu il*







## BEYNƏLXALQ MUĞAM FESTİVALI ÇƏRÇİVƏSİNDƏ FİLARMONİYADA KONSERT PROQRAMI OLMUŞDUR

2009-cu ilin martın 19-da "Muğam aləmi" Beynəlxalq festivalı çərçivəsində Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında konsert proqramı olmuşdur.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva və YUNESKO-nun Baş direktoru Koişiro Matsuura konsertdə olmuşlar.

Proqramda Fikrət Əmirovun "Şur", "Gülüstan-Bayatı Şiraz" və "Kürd ovşarı" simfonik muğamları səslənmişdir.

*"Azərbaycan" qəzeti,*
*20 mart 2009-cu il*



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA "EUROVİSİON-2009" MAHNI MÜSABİQƏSİNDƏ AZƏRBAYCANI TƏMSİL ETMİŞ AYSEL TEYMURZADƏ VƏ ARAŞ İLƏ GÖRÜŞMÜŞDÜR

2009-cu ilin mayın 20-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva "Eurovision-2009" mahnı müsabiqəsində Azərbaycanı uğurla təmsil etmiş Aysel Teymurzadə və Araş ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva müsabiqədə Azərbaycanı layiqincə təmsil etmiş iştirakçılarımızla xatirə şəkli çəkdirmişdir.

Heydər Əliyev Fondunda Aysel Teymurzadəni və Araşı görməyə şad olduğunu deyən Mehriban xanım Əliyeva "Eurovision-2009" mahnı müsabiqəsində qazandıqları böyük uğur münasibətilə onları ürəkdən təbrik etmişdir.

Aysellə Araşın qazandıqları uğuru xüsusi vurğulayan Mehriban xanım Əliyeva bildirmişdir ki, "Eurovision" Avropada musiqi sahəsində ən böyük müsabiqədir.

Ölkəmizdə bu musiqi yarışmasının həyəcanla izlənildiyini bildirən Heydər Əliyev Fondunun





prezidenti vurğulamışdır ki, Aysel və Araş qitə miqyaslı müsabiqədə Azərbaycanı layiqincə təmsil etmişlər. Artıq Azərbaycan bu sahədə də nailiyyət əldə etmişdir.

"Eurovision-2009"-da qələbə münasibəti ilə Azərbaycan təmsilçilərini bir daha təbrik edən Mehriban xanım Əliyeva demişdir ki, qarşıda onları yeni-yeni uğurlar gözləyir.

Aysel Teymurzadə və Araş yüksək diqqət, qayğı və dəstəyə görə Mehriban xanım Əliyevaya təşəkkürlərini bildirmişlər.

*"Azərbaycan" qəzeti,*
*21 may 2009-cu il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI TALLİNN ŞƏHƏRİNİN QƏDİM HİSSƏSİ İLƏ TANIŞ OLMUŞDUR

2010-cu ilin aprelin 7-də Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Estoniyanın birinci xanımı Evelin İlvesin müşayiəti ilə Tallinn şəhərinin qədim hissəsi ilə tanış olmuşdur.

Mehriban xanıma məlumat verildi ki, Estoniya paytaxtının nadir memarlıq inciləri ilə zəngin olan bu hissəsi şəhərə gələn turistlərin ən çox maraq göstərdiyi yerlərdən biridir. Tallinnin ən böyük kilsəsi olan XIV əsrə aid Olav da paytaxtın bu hissəsində yerləşir.

Azərbaycanın birinci xanımına mərkəzi meydanda yerləşən qədim binalar, digər kilsələr, ümumiyyətlə, Tallinnin tarixi barədə ətraflı məlumat verildi.

Sonra birinci xanımlar şəhər Ratuşasının yerləşdiyi meydana gəldilər.

Mehriban xanım Əliyevaya tarixi abidələrlə zəngin olan ərazidə yerləşən və 600 illik tarixi olan Ratuşanın fəaliyyəti və onun Estoniya tarixində oynadığı rol barədə danışıldı.

*"Azərbaycan" qəzeti,*
*8 aprel 2010-cu il*







## HEYDƏR ƏLİYEV FONDUNUN DƏSTƏYİ İLƏ "QALA FESTİVALI" KEÇİRİLMİŞDİR

2010-cu ilin iyunun 3-də Bakının Xəzər rayonunun Qala qəsəbəsində "Qala" Dövlət Tarix Etnoqrafiya Qoruğunun ərazisində "Qala festivalı" keçirilmişdir. Festivalda Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva və Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva iştirak etmişlər. Tədbirə Bakının müxtəlif orta və internat məktəblərindən, uşaq evlərindən 2 min 500 uşaq qatılmışdır. Uşaqlar Mehriban xanım Əliyevanı hərarətlə qarşıladılar.

Azərbaycanın birinci xanımına gül dəstələri təqdim olundu. Azərbaycanın tarixi irsinə həssaslıqla yanaşan Heydər Əliyev Fondu tərəfindən maddi mədəniyyət abidələrimizin qorunması istiqamətində ciddi addımlar atılır.

Respublikamızda ən qədim insan məskənlərindən sayılan Qala qəsəbəsində də Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə silsilə tədbirlər həyata keçirilir. "Qala festivalı" da Heydər Əliyev Fondunun dəstəyi ilə xalqımızın zəngin tarixi keçmişini, qədim və mükəmməl məişət ənənələrini yaşatmaq, gənc nəslə tanıtmaq və təbliğ etmək məqsədini daşıyır. Beş min il tarixi olan qəsəbədə III minillikdən başlayaraq XX əsrə qədər tarixi olan kurqanlar, sərdabələr, yaşayış binaları, məqbərələr, məscidlər, hamamlar, qədim qəsrin qalıqları mövcuddur.

2008-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə açıq səma altında yaradılan ilk Arxeoloji Etnoqrafik Muzey Kompleksində yerli tarixi və mədəni abidələrlə yanaşı, Abşeron yarımadasında aşkar edilmiş digər arxeoloji tapıntılar yer almışdır.

Muzey Kompleksində eramızdan əvvəl III-II minilliklərə aid yaşayış və digər memarlıq abidələri ilk görünüşündə olduğu kimi qurulmuşdur. Buranı ziyarət edənlər iki hektar ərazisi olan Muzey Kompleksində qayaüstü rəsmlər, qavaldaşı, bu dövrü əhatə edən keramika, məişət və bəzək əşyaları, silah və sikkələrlə tanış olur, ibtidai yaşayış sahələrini, müxtəlif emalatxanaları gəzmək imkanı əldə edirlər.

Festivalda toxuculuq, dulusçuluq, dəmirçilik ənənələrini sərgiləyən sənətkarların əl işlərinə tamaşa etmək, iş prosesini izləmək və onun iştirakçısı olmaq mümkündür. Festivalda Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Dövlət Uşaq-gənclər xalq çalğı alətləri orkestrinin ifa etdiyi musiqi nömrələri bu möhtəşəm tədbirin ab-havasına daha xoş ovqat qatmışdır. Festival çərçivəsində qədim Qalanı ziyarət edən qonaqları bir-birindən maraqlı tədbirlər gözləyirdi. Festivala qatılanlar Abşeronda ən qədim insan məskənlərindən biri hesab olunan Qalada tarixi keçmişə səyahət etmək və tarixi sirlərin daşıyıcısı olan Qalanın nadirliyi haqqında məlumat əldə etmək imkanı qazanmışlar.

Azərbaycanın birinci xanımı burada yerləşən Qala qəsrinin bərpa layihəsi ilə tanış oldu.

XII-XIV əsrlərə aid Qala qəsri bir müddət məscid kimi də fəaliyyət göstərmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycan Milli Elmlər Akademiyası burada qazıntı işləri aparacaqdır. Qəsrin altında aşkar edilən əşyalar, evlər, qəbirlər və digər tikililər olduğu kimi bərpa edilərək, Qala kompleksinin tərkib hissəsinə çevriləcəkdir. Mehriban xanım Əliyeva və Leyla Əliyeva xalq gəzintisinə çevrilən festivalda iştirak edən uşaqlarla görüşüb, onlarla söhbət etdilər. Bu tədbirin Azərbaycanın qədim adət-ənənələrinin, milli mədəni dəyərlərinin öyrənilməsi baxımından əhəmiyyətini vurğuladılar.

Festivala qatılan uşaqlar öz bacarıqlarını nümayiş etdirmək imkanı əldə etmişlər. Burada onların müxtəlif materiallardan hazırladıqları orijinal əl işləri nümayiş olunmuşdur.

Mehriban xanım Əliyeva və Leyla Əliyeva onları güləryüz və səmimiyyətlə qarşılayan uşaqların əl işlərinin maraqlı olduqlarını bildirdilər və bu gənc peşəkarlarla xatirə şəkli çəkdirdilər.

"Oriqami" Uşaq və Yeniyetmələr İctimai Birliyi də "Qala festivalı"na öz töhfəsini vermişdir. Bu birlikdə xüsusi qayğıya ehtiyacı olan uşaqların reabilitasiyası orijinal üsulla oriqami fiqurları ilə həyata keçirilir. Heydər Əliyev Fondunun prezidentinin qayğı və diqqətini hər zaman hiss edən bu uşaqların bir ay ərzində oriqami üsulu ilə kağızdan hazırladıqları maraqlı kompozisiya Mehriban xanım Əliyevaya təqdim edildi.

Mehriban xanım Əliyeva festivalda iştirak edən xüsusi qayğıya ehtiyacı olan uşaqlarla da görüşdü, onlarla söhbət etdi, problemləri ilə maraqlandı.

Azərbaycanın birinci xanımı Heydər Əliyev Fondu və Rusiyanın Uralsib Maliyyə Korporasiyası arasında imzalanan sənəd çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzinin inşasının tezliklə yekunlaşacağını bildirdi.

Festival çərçivəsində Heydər Əliyev Fondu və "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Qala" Dövlət Tarix Etnoqrafiya Qoruğunda tullantıların idarə olunması





layihəsinə start verilmişdir.

Təqdimat mərasimində bildirilmişdir ki, layihə Qoruq ərazisində tullantıların yığılması, daşınması və zərərsizləşdirilməsi sisteminin müasir standartlara uyğun qurulmasını nəzərdə tutur. "Qala festivalı" daha bir əlamətdar hadisə ilə yadda qalmışdır.

Yeni nəslin fiziki, intellektual, mənəvi sağlamlığına daim diqqət yetirən Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan və şəxsiyyətin inkişafına, Vətənə, xalqımızın milli irsinə yönələn iki masaüstü - "Gənc intellektual" və "Şirvanşahların yüksəlişi" oyunlarının festival çərçivəsində təqdimatı olmuşdur.

Müasir oyun texnologiyalarından səmərəli istifadə olunan bu layihə ilk milli iqtisadi oyun kimi yeniyetmələrin intellektual bacarığı ilə yanaşı, xalqımızın tarixi və mədəniyyətinə marağın artmasına, emosional yaddaşın, bədii düşüncənin, yaradıcılıq qabiliyyətinin inkişafına şərait yaradır.

"Şirvanşahların yüksəlişi" tarixi-iqtisadi oyunu IX-XIII əsr Azərbaycan şəhərlərinə əyləncəli səyahət təklif edir. Saray çəkişmələri, yadelli işğalçılara qarşı mübarizələr, təbii fəlakətlər oyunçuların darıxmasına imkan verməyəcək və tarixi bələdçiyə çevrilən oyunu daha maraqlı edəcəkdir.

Festivalın özəlliyi Qalada mis qablar və əntiq əşyalar muzeyinin təməlqoyma mərasimi olmuşdur.

Heydər Əliyev Fondunun prezidenti mərasimdə iştirak etmişdir. Mehriban xanım Əliyeva gilizi təmələ buraxdı, beton qarışığı tökdü. Məlumat verildi ki, muzey Şaiq Həbibullayevin kolleksiyası əsasında yaradılacaqdır. Mehriban xanım Əliyeva və Leyla Əliyeva Bakı şəhəri 1 saylı uşaq evinin folklorumuz, mədəniyyətimizlə bağlı əl işlərinin nümayiş etdirildiyi guşəyə də baxdılar. Uşaqların əl işlərində milli atributlarımız və naxışlarımız üstünlük təşkil edir. Burada rəsm əsərləri, toxumalar, ağac üzərində oyma işləri sərgilənmişdir.

Uşaqlar üzərində milli ornamentlər olan yeni toxunmuş xalçanı dəzgahdan kəsərək Mehriban xanıma hədiyyə etdilər.

Festivalın maraqlı məqamlarından biri burada uşaqlar üçün ustad dərslərinin təşkil edilməsi olmuşdur.

Qonaqlar qədim Qala kəndində sənətkar olmağa, dulusçuluq emalatxanasında yerli gildən kiçik fiqurlar, xalçaçılıq emalatxanasında keçə və yun saplardan dəvə və atlar üçün bəzək əşyaları hazırlamağa dəvət olundular. Ustad dərslərini izləyən Mehriban xanım Əliyevaya qədim adətlərimizdən biri sayılan xına ilə əl üzərinə milli ornamentin çəkilməsi nümayiş etdirildi. Heydər Əliyev Fondunun prezidenti də festivalda öz bacarığını nümayiş etdirdi. Mehriban xanım Əliyeva festival iştirakçılarının birinin əlinə xına ilə naxış vurdu.

Festivalda Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin kolleksiyası nümayiş etdirilmişdir. Burada xurcun, heybə, məfrəşin istifadəsi barədə məlumat verilmişdir. Festivalda qonaqlara kündə yaymaq, yun daramaq, buğdanı üyütmək üsulları

göstərilmişdir. Tacir evində isə uşaqlara toxuma bacarığı öyrədildi.

Festivalda uşaqlar üçün əyləncəli yarışlar təklif olunmuşdur. Mehriban xanım Əliyeva və Leyla Əliyeva balacaların köşəyə ad qoyma mərasimində iştirak etdilər. Mərasimdə köşəyə "Nərbala" adı qoyan uşaq qalib gəlmişdir.

Qonaqlar xüsusi meydançada Dövlət Pantomim Teatrının bir qrup aktyorunun hazırladığı maraqlı səhnəciyə də baxdılar.Tamaşaçılar tarixi abidələr, adətlərlə tanış olmaqla yanaşı Azərbaycanın şirniyyatlarını və təbii nemətlərini də dada bildilər.

Festival günü tərəvəz, gül, ədviyyat, quş satışı bazarını gəzmək, təzə bişən un məmulatları, bal nümunələrinin dadına baxmaq mümkün olmuşdur.

Heydər Əliyev Fondunun prezidenti dəmirçi emalatxanasında "Uğur nalı" müsabiqəsini izləmişdir.

Qədim etnoqrafik ənənələrlə tanış olmaq istəyən qonaqlar buğda biçini mərasimi ənənələrinin teatrlaşdırılmış səhnələrinə tamaşa etdilər.

Mehriban Əliyeva və Leyla Əliyeva festivalın İnformasiya mərkəzində oldular. Burada festival və Qala haqqında bukletlər təqdim edilir.

Festivalda uşaqların köməyi ilə böyüyən ev heyvanları nümayiş etdirilmişdir. Müxtəlif cinsli atların nümayişi də tədbirin bəzəyi olmuşdur. Qurulan çadırlarda qonaqlara qədim ənənələr əsasında hazırlanan yemək və çay süfrələri təklif olunmuşdur.

Xalq gəzintisinə çevrilən "Qala festivalı"nın ənənəvi olacağı bildirilmişdir. Yeri gəlmişkən, qeyd edək ki, bu layihə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiə Günündə Heydər Əliyev Fondunun Azərbaycan uşaqlarına töhfəsi olmuşdur.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə aparılan yenidənqurma və abadlıq işləri nəticəsində ən qədim yaşayış məskənlərindən olan Qala qəsəbəsinin siması tamamilə dəyişmişdir. İndi burada qədimlik və müasirlik gözəl sintez təşkil edir. Qala turizm məkanı kimi də diqqəti cəlb edən ərazidir. Burada yeni muzey mərkəzlərinin açılışı, turizm şəbəkəsinin genişlənməsi nəzərdə tutulmuşdur.

Vaxtı ilə Qalada salınan məhəllələrdən bir neçəsi bu günədək qorunub saxlanılmışdır.

Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın qayğısını görən Qala sakinlərinin qədim ənənələrimizə uyğun qurulan evlərinin qapıları həmişə açıqdır. Qəsəbəyə gələn hər kəs artıq qoruğun bir hissəsi olan bu evlərdə yaradılan şəraitlə tanış olmaq imkanı əldə edir. Qalada məscidlər də bərpa olunur.

Bütün işlər son vaxtlar sürətlə abadlaşan Xəzər rayonunun görkəmini daha da gözəlləşdirir. Bir sözlə, indi bu ərazi, həqiqətən də, xüsusi ab-hava ilə fərqlənir.

*"Azərbaycan" qəzeti,*
*4 iyun 2010-cu il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BATUMİDƏ QONİO APSAR TARİX-MEMARLIQ MUZEYİNDƏ OLMUŞDUR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Gürcüstan Prezidentinin xanımı Sandra Elizabet Rulofs 2010-cu ilin iyulun 18-də Batumidə Qonio Apsar Tarix-Memarlıq Muzeyində olmuşlar.

Batuminin qədim abidələrindən olan, tarixi eramızdan əvvəl VIII-VII əsrlərə aid edilən Qonio Apsar qalası ilə tanışlıq zamanı məlumat verildi ki, erkən orta əsrlərdə bura romalıların yaşadığı şəhər-qala rolunu oynayırdı. Ərazisi 5 hektara yaxın olan bu qala romalılar üçün strateji siyasi və mədəni mərkəz idi. Orta əsrlərdə isə bu qala bizanslıların, daha sonra isə Osmanlı imperiyasının tərkibinə daxil olmuşdur. XIV əsrdə burada Gürcü knyazlığı yaradılmışdır.

1994-cü ildən muzey kimi fəaliyyət göstərən bu ərazidə müxtəlif vaxtlarda alimlərin iştirakı ilə geniş arxeoloji qazıntılar aparılmışdır.

Mehriban xanımın diqqətinə çatdırıldı ki, muzeyin ən maraqlı yerlərindən biri burada mövcud olan saxsı su kəmərinin qalıqlarıdır.

Muzeydə müxtəlif dövrlərə aid pul sikkələri, qızıl və gümüşdən hazırlanan bəzək əşyaları, qədim Yunan və Roma dövrlərinə aid keramika nümunələri saxlanılır.

*"Azərbaycan" qəzeti,*
*20 iyul 2010-cu il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VƏ YUNESKO-nun BAŞ DİREKTORU XANIM İRİNA BOKOVA BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNDƏ OLMUŞ, XALÇA MUZEYİ BİNASININ ESKİZİ İLƏ MARAQLANMIŞLAR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva və ölkəmizə səfərə gələn YUNESKO-nun Baş direktoru xanım İrina Bokova 2010-cu ilin iyulun 29-da Beynəlxalq Muğam Mərkəzi ilə tanış olmuşlar.

Mehriban xanım Əliyevaya və xanım İrina Bokovaya gül dəstələri təqdim olundu.

YUNESKO-nun Baş direktoruna dənizkənarı Milli Parkda yerləşən Mərkəz haqında ətraflı məlumat verildi. Bildirildi ki, Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı layihələr sırasında xüsusi əhəmiyyəti olan bu Mərkəzin inşası Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. 2005-ci ilin avqustunda Prezident İlham Əliyevin və ölkəmizin birinci xanımı Mehriban Əliyevanın, YUNESKO-nun sabiq





Baş direktoru Koişiro Matsuuranın iştirakı ilə təməli qoyulmuş Beynəlxalq Muğam Mərkəzi ümumi sahəsi 7,5 min kvadrat metr olan üçmərtəbəli binadan ibarətdir. Binanın forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.

Mərkəz ilə yaxından tanış olan qonaq burada Azərbaycanın görkəmli muğam ifaçılarının büstlərinə baxdı və ona milli musiqi alətləri barədə ətraflı məlumat verildi.

Xanım İrina Bokova və Mehriban xanım Əliyeva gənc xanəndələrin ifasında Azərbaycanın muğam, təsnif və xalq mahnılarını dinlədilər.

Sonra Mehriban xanım Əliyeva və xanım İrina Bokova Dənizkənarı Milli Parkın ərazisində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi binasının inşa olunduğu əraziyə gəldilər. Mehriban xanım Əliyeva və İrina Bokova muzeyin maketi ilə tanış oldular, binanın layihəsinə baxdılar.

Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi və YUNESKO-nun birgə layihəsi əsasında inşa olunan muzey binası, ilk növbədə, milli memarlıq ənənələrinə görə fərqlənəcəkdir.

Bildirildi ki, çox qeyri-adi bir forma "bükülmüş xalça" muzeyin memarlıq quruluşunun əsasında dayanmaqla binanın orijinallığını təşkil edəcəkdir. Binanın inşasında məhz bu tikili üçün hazırlanan xüsusi avadanlıqdan istifadə olunur. Muzeyin ətrafında geniş yaşıllaşdırma işləri aparılacaqdır.

Binanın birinci mərtəbəsində qədim xalça və digər məişət əşyalarının yaşını müəyyən etmək üçün laboratoriya, xalçaların bərpası otaqları, ikinci mərtəbədə mərasimlər və audiovizual təqdimatlar salonu, xalça toxunan otaq, üçüncü mərtəbədə isə açıq və bağlı sərgi salonları olacaqdır. Eksponatların saxlanması üçün xüsusi yerlər, mərkəzi anbar da fəaliyyət göstərəcəkdir. Muzeydə 200 nəfər çalışacaqdır.

Qonağa "Venesiya şəhərciyi" adlanan ərazidə inşa olunacaq Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eskiz layihəsi də göstərildi. Bildirildi ki, eskizin üst görünüşündə Azərbaycanın dövlət himninin notları əks olunmuşdur. Qeyd edildi ki, işçi layihəni bu ilin sonunadək başa çatdırmaq, gələn il isə inşaat işlərinə başlamaq nəzərdə tutulmuşdur. Muzey binasının inşası başa çatdıqdan sonra Milli Parkın bu ərazisi Beynəlxalq Muğam Mərkəzi və Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi ilə birgə "mədəniyyət üçbucağı"na çevriləcəkdir.

*"Azərbaycan" qəzeti,*
*30 iyul 2010-cu il*

## MÜASİR İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞLIQ

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Rusiyanın birinci xanımı Svetlana Medvedeva 2010-cu ilin sentyabrın 3-də Müasir İncəsənət Muzeyində olmuşlar.

Xanım Svetlana Medvedeva Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış muzeyin ekspozisiyasına tamaşa etdi.

Qonağa məlumat verilmişdir ki, buradakı ekspozisiyanın əsasını XX əsrin ikinci yarısından bugünədək Azərbaycanın ən yaxşı avanqard rəsm və heykəltəraşlıq əsərləri təşkil edir. Muzeydə Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 1000-dək işi toplanmışdır.

Bildirilmişdir ki, muzeyin beynəlxalq əlaqələri də genişlənir. Bu mədəniyyət ocağı 2011-ci ildə 47 ölkənin təmsilçisinin qatılacağı Avropa müasir incəsənət muzeylərinin müsabiqəsində iştirak etmək niyyətindədir.

Qonaq Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdürrəhmanovun, adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil edilmiş bir çox fırça ustası və heykəltəraşın əsərləri ilə tanış oldu.

Rusiyanın birinci xanımı muzeydə Mehriban xanım Əliyevanın mayın sonlarında Bakıda keçirilmiş "Qız qalası" Beynəlxalq incəsənət festivalına təqdim etdiyi əsərinə maraqla tamaşa etdi. Mehriban xanım Əliyevanın əsərində bir sıra ölkələrin müxtəlif tarixi və mədəniyyət abidələri əks etdirilmişdir. Əsərin üzərində isə mədəni irsin qorunmasına rəmzi çağırış mənasını daşıyan çətir qurulmuşdur. YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva bu əsəri ilə bütün dünyanı mədəni irsin qorunmasına çağırmışdır.

Qərbi Avropa incəsənəti salonunda isə Pablo Pikasso, Salvador Dali, Mark Şaqal kimi dahi klassiklərin əsərləri nümayiş etdirilir.

Dizayn müəllifi tanınmış rəssam Altay Sadıqzadə olan bu mədəniyyət məbədində uşaq incəsənəti salonu, kitabxana, videosalon, restoran və art-kafe də fəaliyyət göstərir. Muzeydə 800-dək rəsm işi ilə yanaşı, 200-dən çox heykəltəraşlıq nümunəsi də nümayiş etdirilir.

Qonaq muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.

Rusiyanın birinci xanımına xatirə hədiyyəsi təqdim olundu. Xanım Svetlana Medvedeva da Mehriban xanım Əliyevaya hədiyyə təqdim etdi.

*"Azərbaycan" qəzeti,*
*4 sentyabr 2010-cu il*





## AZƏRBAYCAN XALÇALARI RUSİYANIN BİRİNCİ XANIMINI VALEH ETMİŞDİR

Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və ölkəmizdə səfərdə olan Rusiya Prezidentinin xanımı Svetlana Medvedeva 2010-cu ilin sentyabrın 3-də "Azər-İlmə" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Sehrli ilmələr" qalereyasında olmuşlar. Hörmətli qonaqlara gül dəstələri təqdim edilmişdir.

Müəssisə ilə tanış olan Rusiyanın birinci xanımına məlumat verilmişdir ki, xalçaçılıq Azərbaycan xalqının ən qədim sənətlərindən biridir. Qədim səyyahlar, salnaməçilər ölkəmizdə toxunan xalı-xalçanın yüksək keyfiyyəti, zəngin çeşniləri barədə yazılı məlumatlar vermiş, bütün Şərqdə məşhur olduğunu bildirmişlər. Azərbaycanın xalı və xalçaları indi də dünyanın bir çox muzeylərinin ən nadir eksponatlarından sayılır. 1996-cı ildən fəaliyyətə başlamış, hazırda 350 nəfərin çalışdığı "Azər-İlmə"nin məhsulları ABŞ, Almaniya, Avstriya, İngiltərə, İtaliya, Yaponiya və Rusiyada keçirilən satış sərgilərində xüsusi mükafatlara və sertifikatlara layiq görülmüşdür. Müəssisədə iplər ancaq təbii rənglərlə boyanır, eskizlər milli naxış və çeşnilərdən götürülür. İşlədilən bütün xammal yerli məhsullardır.

Vurğulanmışdır ki, keçən il "Azər-İlmə" Avropanın Biznes Assambleyasının "United Europe" və "XXI əsrin liderləri" beynəlxalq imic proqramının "European Quality" nüfuzlu mükafatına layiq görülmüşdür.

Azərbaycanın və Rusiyanın birinci xanımları qalereyanın açıq səma altında nümayiş etdirilən zəngin eksponatlarına baxdılar, boyama, toxuma prosesini maraqla izlədilər, xalçaçı qızlarla səmimi söhbət etdilər. Xanım Svetlana Medvedeva xalçaçı qızların köməyi ilə orijinal kompozisiyalı xalçaya bir neçə ilmə də vurdu və bunun çox çətin, incə peşə olduğunu söylədi.

Dövlət başçılarının xanımları xalçaçı qızlara işlərində uğurlar arzuladılar. Rusiyanın birinci xanımı qədim xalçaların nümayiş olunduğu sərgiyə də baxdı. Burada yaşı yüz ildən çox olan xalılar da nümayiş etdirilir. Sərgi qonaqda böyük maraq oyatdı.

"Azərbaycan xalçası qalereyası"nda nümayiş olunan "Azərbaycanın tarixi xalçaçılıq məktəbləri" ipək xalı xəritəsi də yüksək bədii tərtibatı ilə qonağı məftun etdi.

Svetlana Medvedeva qalereyanın Xatirə kitabına ürək sözlərini yazdı. Hörmətli qonağa xatirə hədiyyəsi təqdim edildi.

*"Azərbaycan" qəzeti,*
*4 sentyabr 2010-cu il*



## BAKIDA ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU ÖZ İŞİNƏ BAŞLAMIŞDIR

2011-ci ilin aprelin 7-də Bakıda, "Gülüstan" sarayında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu öz işinə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Forumun "Sərhədsiz dünyaya doğru" mövzusunda açılış sessiyasında iştirak etmişlər.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycanın irəli sürdüyü və BMT-nin Sivilizasiyalar Alyansı, YUNESKO, Avropa Şurası, AŞ-nın Şimal-Cənub Mərkəzi və İSESKO-nun dəstəklədiyi təşəbbüsdür. Bu təşəbbüs mədəniyyətlərarası dialoqun dünyada ən təxirəsalınmaz vəzifələrdən biri olduğunu göstərir.

Bakı Forumunda mədəniyyətlərarası dialoqun konseptual, idarəçilik, siyasi və praktiki aspektləri müzakirə olunacaq, dialoqa yönələn maneələr nəzərdən keçiriləcək və onun





müxtəlif mühitdə ən yaxşı formada aparılması konkret şəkildə müzakirə ediləcəkdir. Forum, həmçinin, təcrübə mübadiləsi, eləcə də yeni təşəbbüslərin irəli sürülməsi baxımından əlverişli imkanlar yaradacaqdır.

Dünyanın bütün qitələrindən gəlmiş insanların təmsil olunduğu Forumda siyasi liderlər və ictimai xadimlər, beynəlxalq təşkilatların rəhbərləri, dövlət və hökumət nümayəndələri, mədəniyyət nazirləri və mədəniyyət məsələləri üzrə səfirlər, deputatlar, diplomatlar, merlər və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, jurnalistlər, mədəniyyət üzrə ekspertlər və tanınmış ziyalılar iştirak edirlər.

*"Azərbaycan" qəzeti,*
*8 aprel 2011-ci il*




## ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU ÇƏRÇİVƏSİNDƏ "QADINLAR - MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN ƏSAS TƏMSİLÇİLƏRİ" MÖVZUSUNDA SESSİYA KEÇİRİLMİŞDİR

Sessiyanın həmsədri, YUNESKO-nun mədəniyyət və mədəniyyətlərarası dialoq şöbəsinin direktoru Katerina Stenou çıxış edərək YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya səmərəli fəaliyyətinə görə minnətdarlıq etmişdir.

"Mədəniyyətlərarası dialoqa bir çox hallarda ümumiləşdirilmiş ideya sistemi kimi baxılır", – deyən Katerina Stenou bildirmişdir ki, mədəniyyət sırf homogen məfhum deyil və ümumi mədəniyyətin tərkibində çoxsaylı fərqlərlə də rastlaşmaq mümkündür. Bu məsələdə qadınların roluna diqqət çəkən YUNESKO-nun rəsmisi vurğulamışdır ki, keçmişi qoruyan qadınlar yenilikləri və dəyişiklikləri də aramıza gətirən şəxslərdir. Odur ki, qadınlar mühafizəkar mövqelərdən uzaq olaraq hər zaman dəyişikliyə can atırlar.

"Mədəniyyət insan hüquqlarının pozulmasına görə də məsuliyyət daşıyır", – deyən Katerina





Stenou bu Forum çərçivəsində yeni elementlərin tapılmasına yardım etməyin vacib olduğunu demişdir.

Rusiya Federasiyası Federasiya Şurasının sədr müavini Svetlana Orlova tam əmin olduğunu bildirmişdir ki, Bakıdan başlanan bu yol dünya miqyaslı platformaya çevriləcəkdir.

Bu məsələdə qadınların roluna gəlincə S.Orlova qeyd etmişdir ki, Azərbaycan bu sahədə öncül sıradadır. Çünki hələ 90 il əvvəl Şərqdə ilk dəfə qadınların seçki hüququ Azərbaycanda tanınmışdır.

"Mədəni müxtəlifliyin özü də bir çağırışdır", – deyən S.Orlova bildirmişdir ki, müxtəlif risklərin və ziddiyyətlərin mövcud olduğu dünyada mədəniyyətlərarası dialoqun təmin edilməsi vacibdir. Bu məsələdə tolerantlığın da diqqətdə saxlanılması, mədəni dəyərlərin daha çox gündəmə gətirilməsi zəruri xarakter daşıyır. Dünyada sülhün bərqərar olmasında qadınlarla yanaşı, təhsil və elm də mühüm rol oynayır.

Paris şəhərinin 7-ci rayonunun meri, Avropa Parlamentinin üzvü Rəşidə Dati Bakıda gedən inkişaf proseslərindən danışmışdır. O demişdir ki, Bakıda gedən müsbət dəyişikliklər bu şəhərin dəyərini başa düşən insanların əməyinin bəhrəsidir. Qonaq bu müsbət dəyişikliklərin dünyanın bir çox şəhərlərində də həyata keçirməyin mümkünlüyünə toxunmuş, Azərbaycan paytaxtının qazandığı nailiyyətlər münasibətilə Mehriban xanım Əliyevanı təbrik etmişdir.

"Bakıda müxtəlif sivilizasiyalar qovuşur", – deyən R.Dati bildirmişdir ki, Azərbaycan bu cür tədbirləri keçirməklə prosesə olan sadiqliyini göstərir. R.Dati böyük ictimai fəaliyyətlə məşğul olan Azərbaycanın birinci xanımının ölkəmizin mədəni dəyərlərinin təbliğindəki fəaliyyətindən xəbərdar olduqlarını və bunun beynəlxalq miqyasda təqdir edildiyini bildirmişdir.

Mərakeş parlamentinin üzvü Mbarka Buayda ölkəsindəki qadın hərəkatı barədə danışmış, qadınların Mərakeş parlamentindəki səmərəli fəaliyyətindən bəhs etmişdir. M.Buayda müasir cəmiyyətin qurulmasında qadınların rolunun daha da gücləndirilməsinin vacibliyini vurğulamışdır.

Rusiyanın İqtisadi Strategiyalar İnstitutunun direktoru Aleksandr Ageev demişdir ki, qadınlar hər zaman kişilərin rəyinə güclü təsir göstərmiş və bu baxımdan böyük hakim qüvvədir.

Qadınların iqtisadi proseslərə təsiri barədə fikirlərini Forum iştirakçıları ilə bölüşən Aleksandr Ageev bildirmişdir ki, dünya qloballaşdıqca cəmiyyətlərdə qadınların da rolu artır. Bununla belə, qadınların karyera qurulmasında kişilərin yardımçı rolu daha da artırılmalı, tərəqqini daha da gücləndirmək üçün qadın amili mütləq nəzərə alınmalıdır.

*"Azərbaycan" qəzeti,*
*9 aprel 2011-ci il*



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA PARİSDƏ "AZƏRBAYCAN MƏDƏNİYYƏT GÜNLƏRİ" ÇƏRÇİVƏSİNDƏ BİR SIRA GÖRÜŞLƏR KEÇİRMİŞ, TƏDBİRLƏRDƏ İŞTİRAK ETMİŞDİR

Fransada səfərdə olan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Parisdə "Azərbaycan mədəniyyəti günləri" çərçivəsində bir sıra görüşlər keçirmiş, tədbirlərdə iştirak etmişdir.

2011-ci ilin aprelin 18-də Parisdə "Odlar yurdu Azərbaycanın müasir əsərləri" sərgisi açılmışdır. Sərginin açıldığı tarixi "Vandom" meydanındakı "Eğvö" hotelində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Fransanın Mədəniyyət naziri Frederik Mitteran ilə görüşmüşdür. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı yenidən Parisdə görməkdən məmnun olduğunu deyən Frederik Mitteran ölkələrimiz arasında mədəniyyət sahəsində əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu demişdir. O, 2011-ci ilin fevralında Parisdə Azərbaycan Respublikasının müstəqilliyini bərpa





etməsinin 20-ci ildönümünə həsr olunan mərasimi xatırlayaraq tədbirin böyük uğurla keçdiyini bildirmişdir. Frederik Mitteran demişdir ki, Fransa tərəfi Azərbaycanda özünün mədəni irsinin nümayiş etdirilməsi təşəbbüsü ilə çıxış etmişdir. Fransaya məxsus 100 mədəniyyət nümunəsinin Azərbaycanda müxtəlif sərgilərdə nümayiş etdirilməsi nəzərdə tutulmuşdur.

Mehriban xanım Əliyeva bu təşəbbüsə Azərbaycan hökumətinin dəstək verdiyini bildirmiş və demişdir ki, Heydər Əliyev Fondunun prezidenti kimi bu tədbirin uğurla keçməsi üçün səylərini əsirgəməyəcəkdir. Azərbaycanın birinci xanımı Fransanın Mədəniyyət nazirini Azərbaycana səfərə dəvət etmisdir. Dəvət məmnunluqla qəbul olunmuşdur.

Görüş başa çatdıqdan sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Fransanın Mədəniyyət naziri Frederik Mitteran ölkəmizin 18 modern rəssamının 33 əsərinin nümayiş olunduğu "Odlar yurdu Azərbaycanın müasir əsərləri" adlı sərgiyə baxmışlar. Sərgidə Azərbaycan rəssamlarından Əşrəf Murad, Darvin və Rəşad Vəlibəyovlar, Rasim və Rəşad Babayevlər, Məmməd Mustafayev, Mirnadir Zeynalov, Altay Sadıqzadə kimi tanınmış fırça ustalarının əsərləri nümayiş olunur. Ölkəmizi tərənnüm edən bu sərgi Azərbaycan insanının xarakterini Qərb tamaşaçısına çatdırmaq baxımından əvəzsiz fürsət olmuşdur.

Görkəmli rəssamlarımızdan Tahir Salahovun, Toğrul Nərimanbəyovun da iştirak etdikləri sərgi Odlar yurdu Azərbaycanın, mavi Xəzərin sahilində qərar tutmuş, Şərq ilə Qərbin koloritinin cəmləndiyi Bakının nadir gözəlliyini əcnəbi auditoriyaya uğurla çatdırmışdır. Modern rəssamlarımızdan Mikayıl Əbdürrəhmanov, Müseyib Əmirov, Eliyar Əlimirzəyev, Niyaz Nəcəfov, Aida Mahmudova, Fuad Salayev, Bəhram Xəlilov, Eldar Məmmədov və Fazil Nəcəfovun paytaxtımızın qədim və müasir görkəmini əks etdirən əsərləri tamaşaçıların böyük marağına səbəb olmuşdur. Realist çalarlarla, fərqli forma və rənglərlə maraq doğuran bu yaradıcılıq nümunələri bir qədər sərt görünsə də, əslində, heyrətamiz gözəlliyi və maraqlı işlənmə texnikası ilə diqqəti çəkmişdir. Sərginin zəngin ekspozisiyası müasir sənətin xüsusiyyətlərinin açıqlanmasına imkan vermişdir. Bir fikir də öz təsdiqini tapmışdır ki, incəsənət həmişə insanın məkanda tutduğu yeri ifadə edir. Amma müasir incəsənət bu ideyanı yeni forma vasitəsilə həyata keçirir. Avanqard yeni çalarlar, ritm, plastika və forma ilə maraqlıdır. Həqiqətən parlaq və orijinal bir fenomen olan müasir Azərbaycan incəsənətinin nümunələri də bu sırada özəlliyi ilə seçilir. Buradakı əsərlər estetik tərbiyə, bədii zövqün inkişafı, fərqli düşüncə üçün gözəl imkanlar açır. Sərgidəki əsərlərdə daha çox qeyri-ənənəvi, bəzən hətta gözlənilməz ifadə texnologiyası tətbiq edilmişdir. Fransız sənətsevərlər böyük estetik zövq bağışlayan əsərlərə maraqla tamaşa etmiş və bir daha Azərbaycan mədəniyyətinin bütün istiqamətlərdə inkişaf etdiyinin şahidi olmuşlar.

Sonda Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın adından sərginin iştirakçılarına ziyafət verilmişdir.

Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2011-ci ilin aprelin 19-da YUNESKO-nun mənzil-qərargahına gəldi.

Əvvəlcə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə YUNESKO-nun Baş direktoru İrina Bokovanın görüşü oldu. Görüşdə Azərbaycanın birinci xanımını salamlayan YUNESKO-nun Baş direktoru bu yaxınlarda Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun böyük uğur qazandığını bildirdi. Qeyd etdi ki, Bakı artıq mədəniyyətlərarası dialoq sahəsində ənənəvi yer tutur. Təsadüfi deyil ki, mədəniyyətlərarası dialoq YUNESKO-nun bütün dünyada apardığı fəaliyyətin əsas istiqamətlərindən biridir. Azərbaycanın birinci xanımının bu sahədə rolunu xüsusi vurğulayan İrina Bokova Mehriban Əliyevanı bu ilin sentyabrında keçiriləcək YUNESKO-nun xoşməramlı səfirlərinin illik toplantısına dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Dəvətə görə YUNESKO-nun Baş direktoruna minnətdarlığını bildirən Mehriban Əliyeva Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna verdiyi dəstəyə görə İrina Bokovaya təşəkkürünü bildirdi. Mehriban xanım Əliyeva bu Forumda qəbul edilən mühüm qərarların kağız üzərində deyil, həyatda reallaşmasının vacibliyini xüsusi vurğuladı və qeyd etdi ki, məhz bu ideyanın həyata keçirilməsi üçün indi beynəlxalq səylərə daha çox ehtiyac vardır. Görüşdə Azərbaycan-YUNESKO əməkdaşlığının inkişaf etdiyi, YUNESKO-da baş tutan budəfəki mədəniyyət mərasiminin də bunun bariz nümunəsi olduğu bildirildi.

Sonra YUNESKO-da Azərbaycan xalçalarının sərgisi açıldı. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın, YUNESKO-nun Baş direktoru İrina Bokovanın iştirak etdiyi sərgidə coğrafi mövqeyinə, naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri təmsil olunmuşdur. Burada nümayiş etdirilən xalçalar sərgiyə gələnlərdə böyük maraq doğurdu. Sərgidə yer alan Qarabağ xalçaçılıq məktəbinin nümunələri Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bir daha hamının diqqətinə çatdırdı.

Bu sərgidən də göründü ki, Azərbaycanda xalçaçılığın inkişafının qədim tarixi vardır. Qədim və orta əsrlərdəki mənbələrdə Azərbaycan xalçaları haqqında əksini tapan məlumatlar xalqımızın milli sərvəti olan xalçaçılıq sənəti barədə ən qiymətli faktları özündə əks etdirir. Böyük tarixi inkişaf yolu keçən Azərbaycan xalçaları bu gün də elm kimi öyrənilir, tədqiq olunur. İndi Azərbaycan xalılarının sorağı dünyanın ən məşhur saraylarından, muzeylərindən gəlir.

Sərgidə nümayiş etdirilən xalçalar arasında ən çox diqqət çəkən isə xalq rəssamı Tahir Salahovun əsərlərini əks etdirən xalçalar idi. Dünya şöhrətli Azərbaycan rəssamının ölkəmizin maddi-mədəniyyətini, tarixi şəxsiyyətlərini işıqlandırdığı sənət əsərlərinin xalça həlli qonaqlarda xüsusilə maraq doğurdu. Tahir Salahovun fransız auditoriyasına yaxşı tanış olan "Atəşgah", "Qız qalası", "Dədə Qorqud", "Fikrət Əmirov", "Rostropoviç", "Qara Qarayev", "Kosmosa uçuş",





Fikrət Əmirovun "Min bir gecə" baletinə çəkilən dekorasiyalar və digər məşhur əsərlərinin xalça üzərində əksi sərgiyə gələnlərə xoş ovqat bəxş etdi.

Bu gün Azərbaycanda xalçaçılıq məktəbi özünün inkişaf dövrünü yaşayır. Xalqımızın milli sərvəti olan xalçaçılığın inkişafı ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlər, ilk növbədə, qədim el sənətinin yaşadılmasına göstərilən diqqətdən irəli gəlir. Hazırda özünün yeni inkişaf mərhələsinə daxil olan xalçalarımız Azərbaycan mədəniyyətinin ən böyük hamisi olan Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrlə daha da zənginləşir, bu sənətin inkişafı ilə bağlı görülən işlər xalçalarımızın milli və dünyəvi dəyərini daha da artırır.

Azərbaycan xalçalarının YUNESKO-da nümayişi böyük əks-səda doğurdu. Xalqımızın milli kimliyinin, soydaşlarımızın arzu və istəklərinin əks olunduğu bu xalçalar hər bir azərbaycanlının qəlb döyüntüsünü Qərb tamaşaçısına uğurla çatdırdı.

Sonra təntənəli mərasim başladı. Mərasimi YUNESKO-nun Baş direktoru İrina Bokova açdı. Qonaqları salamlayan İrina Bokova bildirdi ki, bu gün YUNESKO-da Azərbaycan xalçalarının gözəl sərgisi açılıb. Baş direktor Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın YUNESKO ilə sıx əməkdaşlığına toxundu. Qeyd etdi ki, Mehriban Əliyeva 2004-cü ildən YUNESKO-nun xoşməramlı səfiridir və bu dövrdə öz fəaliyyəti ilə YUNESKO ailəsinə böyük töhfələr verib. Azərbaycanın birinci xanımı musiqi irsinin qorunmasında, eləcə də mədəniyyətlərarası dialoqun əldə edilməsində mühüm xidmətlər göstərib. YUNESKO-nun Baş direktoru Heydər Əliyev Fondunun da bu sahədə təqdirəlayiq fəaliyyəti ilə seçildiyini diqqətə çatdırdı. Dünya musiqi sərvətinin incisi olan muğamın YUNESKO-nun maddi-mədəni irs siyahısına daxil edildiyini vurğuladı. İrina Bokova bu gecənin maraqlı keçəcəyinə əminliyini bildirdi və qeyd etdi ki, bu gözəl mərasim hər bir kəsin xatirəsində dərin iz buraxacaqdır.

Mərasimdə çıxış edən Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da qonaqları salamladı. YUNESKO-nun xoşməramlı səfiri ölkəmiz haqqında tədbir iştirakçıları ilə təəssüratlarını bölüşərək bildirdi ki, qədim tarixə malik olan Azərbaycanda 1918-ci ildə Şərqdə ilk dəfə Demokratik Respublika qurulub, müsəlman aləmində ilk dəfə məhz bizim ölkədə qadınlara seçmək və seçilmək hüququ verilib. Mehriban Əliyeva ölkəmizin Ermənistanın işğalına məruz qaldığını bildirərək qeyd etdi ki, buna baxmayaraq, bu gün Azərbaycan iqtisadiyyatı inkişaf edir, ölkəmizdə böyük sosial-infrastruktur layihələri həyata keçirilir, səhiyyə ocaqları, məktəblər tikilir. Mehriban xanım Əliyeva YUNESKO-Azərbaycan əməkdaşlığını yüksək qiymətləndir-di. Bildirdi ki, bunu muğamın, Azərbaycan xalçalarının və xalqımızın ən qədim bayramı olan Novruzun YUNESKO-nun qeyri maddi-mədəni irs siyahısına daxil edilməsi də göstərir. Heydər Əliyev Fondunun fəaliyyətindən danışarkən Mehriban Əliyeva diqqətə çatdırdı ki, Fond ölkəmizin həyatında genişmiqyaslı fəaliyyət göstərir və bu sırada YUNESKO ilə birgə həyata keçirilən

layihələr də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın birinci xanımı YUNESKO-da çıxış edəcək musiqiçilərin gənc istedadların öz maraqlı ifaları ilə hamının qəlbində dərin iz buraxacaqlarına ümidvar olduğunu bildirdi.

Sonra Azərbaycanın gənc istedadları YUNESKO-da möhtəşəm konsert proqramı ilə çıxış etdilər.

İki aylıq fasilədən sonra Azərbaycan yenə də Fransanın gündəmində idi. Azərbaycan mədəniyyətinin Parisdə Fransa ictimaiyyətinə yüksək səviyyədə təqdim olunması, ilk növbədə, ölkəmizin malik olduğu mədəni zənginliyi göstərdi. Digər tərəfdən, siyasi mahiyyəti ilə də diqqət çəkən bu tədbirlər silsiləsi dünya mədəniyyətinin ən böyük hamisi qismində çıxış edən YUNESKO-da Azərbaycana verilən önəmi nümayiş etdirdi.

Müasir Azərbaycan estradasının populyar simalarının çıxış etdiyi konsertdə əsas diqqətçəkən məqamlardan biri burada janr müxtəlifliyinin, sintez harmoniyasının, zəngin improvizasiyaların mövcudluğu idi. Elə auditoriyanı ən çox heyrətləndirən də bu oldu.

Bu konsert Parisdə əsl hadisəyə çevrilməklə diqqəti nadir inciləri ilə öyünən Azərbaycana yönəltdi. Mədəniyyətimizin təntənəsinə, ölkəmizin tanıdılmasına və, əlbəttə ki, xalqımızın yaratdığı nadir sənət nümunələrinin təbliğinə çevrildi.

Böyük marağa səbəb olan bu konsert proqramı bir daha təsdiq etdi ki, hazırda Azərbaycan mədəniyyətinin nadir incilərinin sorağı mötəbər mərasimlərdən gəlir. Bu da, ilk növbədə, Azərbaycan dövlətinin mədəni irsimizə olan münasibətinin nəticəsidir. Təbii ki, Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin təbliğində oynadığı rol da əvəzolunmazdır. Elə bu mərasim də Fondun prezidenti Mehriban xanım Əliyevanın mədəni irsimizə olan münasibətinin dinamikasını yetərincə göstərdi.

Təəssüratlar kifayət qədər zəngin oldu. Bu, özünəməxsus koloriti ilə diqqət çəkən Azərbaycan mədəniyyətinə olan ehtiramın nümunəsinə, həm də fransız tamaşaçısında heç vaxt unudulmayacaq əbədi xatirəyə çevrildi. Bu xatirənin təməlində isə Azərbaycan və onun zəngin mədəniyyəti dayandı. Bu sənət əsərləri Azərbaycan musiqisinin zənginliyindən xəbər verdi. Fransa mədəniyyətsevərlərində Azərbaycana, onun zəngin musiqisinə əbədi maraq oyatdı.

Konsertdən sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın adından ziyafət verildi. Beləliklə, Azərbaycan mədəniyyətinin Parisdə nümayişi unudulmaz bayrama döndü. Burada nümayiş etdirilən mədəniyyət nümunələri mərasimə gələn hər bir kəsi nağıllar aləminə – Azərbaycana apardı.

*"Azərbaycan" qəzeti,*
*21 aprel 2011-ci il*








## PREZİDENT İLHAM ƏLİYEV VƏ XANIMI MEHRİBAN ƏLİYEVA BAKIDA KEÇİRİLƏN 10-cu AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR, 2-ci ÜMUMRESPUBLİKA DAXİLİ TURİZM SƏRGİLƏRİ İLƏ TANIŞ OLMUŞLAR

2011-ci ilin aprelin 29-da Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Sərgi Mərkəzində keçirilən 10-cu Azərbaycan Beynəlxalq turizm və səyahətlər, 2-ci Ümumrespublika daxili turizm sərgiləri ilə tanış olmuşlar.

Son illər Azərbaycanın uğurlu iqtisadi inkişafı, dayanıqlı sabitlik respublikamıza turist axınını şərtləndirən əsas amillərdəndir. Azərbaycanın coğrafi baxımdan əlverişli məkanda yerləşməsi, flora və fauna növlərinin müxtəlifliyi ölkəmizin turizm imkanlarını daha da artırır. Prezident İlham Əliyevin sərəncamı ilə 2011-ci ilin Azərbaycanda "Turizm ili" elan edilməsi bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində mühüm addım olmuşdur. Kifayət qədər turizm potensialı olan Azərbaycan bu sahədə dünyanın aparıcı ölkələri ilə rəqabətə girməyə və öz imkanlarını nümayiş etdirməyə qadirdir. Ölkəmizin turizm imkanları ilə maraqlanan əcnəbilər bu sahəyə

göstərilən dövlət qayğısını da yüksək qiymətləndirirlər. Artıq beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilən Azərbaycanda turizm sərgilərinin təşkili bu sahəyə olan marağın göstəricisidir. Belə sərgilər həm də ölkəmizin turizm imkanlarının nümayiş etdirilməsi üçün əlverişli imkanlar yaradır.

Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi ilk dəfə 2002-ci ildə keçirilmişdir. Həmin il sərgidə 5 ölkədən 26 şirkət iştirak edirdisə, indi onların sayı xeyli artmışdır. Ötən illər ərzində sərgiyə təxminən 900-ə yaxın şirkət qatılmışdır. Təsadüfi deyildir ki, Azərbaycan Beynəlxalq turizm sərgisi bütün Xəzəryanı regionun səyahət sənayesinin əsas hadisəsinə çevrilmişdir. Sərgi çərçivəsində müxtəlif görüşlər keçirilir, əməkdaşlıq müqavilələri imzalanır, yeni proqram, layihə və istiqamətlər müəyyənləşdirilir.

"İteca Caspian" şirkətinin dəstəyi ilə baş tutan Beynəlxalq sərginin 2-ci Ümumrespublika daxili turizm sərgisi ilə eyni vaxtda keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki bu, xarici qonaqlara Azərbaycanın zəngin turizm potensialı, gözəl təbiəti, müalicəvi kurortları ilə tanış olmaq fürsəti verir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva 10-cu Azərbaycan Beynəlxalq turizm və səyahətlər və 2-ci Ümumrespublika daxili turizm sərgiləri ilə tanış olmaq üçün Bakı Sərgi Mərkəzinə gəldilər.

Sərgidə Azərbaycanın turizm bölgələri də yüksək səviyyədə təmsil olunmuşdur.

Xaçmaz rayonu stendinin qarşısına gələn Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, bu rayonun geniş turizm imkanları vardır. Azərbaycanın ən tanınmış və sevilən istirahət zonalarından olan Xaçmaz həm dəniz, həm də meşə turizminin inkişafı baxımından çox əlverişlidir. Hazırda Xaçmazda 32 turizm obyekti lisenziya ilə fəaliyyət göstərir. Rayonda 2003-cü ildə mehmanxana və mehmanxana tipli bir obyekt var idisə, indi bu rəqəm 57-yə çatmışdır. Xaçmazda 62 tarixi abidənin olması rayonun turizm imkanlarını daha da artırır.

Bu potensial özünü Quba-Qusar bölgəsində də göstərir. Həmin region həm qış, həm də yay turizmi üçün əlverişlidir. Gözəl təbiət bu bölgəni turistlər üçün ilin bütün fəsillərində cəlbedici edir. Bu rayonlarda turistlərin qəbulu üçün gözəl şərait yaradılmışdır. Səkkiz il əvvəl Qubada bir mehmanxana var idisə, hazırda onların sayı 29-dur. Bu, regiona gələn turistlərin istirahəti üçün geniş imkanlar açır.

Azərbaycanın cənub bölgəsi də özünün turizm potensialı ilə diqqəti cəlb edir. Dövlət başçısının diqqətinə çatdırıldı ki, özünəməxsus təbiəti və geniş istirahət imkanları olan bu bölgədə son illər turizmin inkişafı ilə bağlı görülən işlər öz bəhrəsini verir. Bu sırada Masallı da xüsusi yer tutur. Azərbaycanın gözəl guşələrindən olan bu rayona istirahətə gələnlərin sayı ilbəil artır. Hazırda rayonda Mədəniyyət və Turizm Nazirliyinin lisenziyası əsasında 22 turizm obyekti fəaliyyət göstərir. Eyni şərait Lənkəranda da yaradılmışdır. Burada 9 turizm obyekti turistlərin ixtiyarına verilmişdir. Lənkəranda çoxlu tarixi abidələrin olması turistlərin bu bölgəyə olan marağını daha da artırmışdır.

Dövlət başçısı və xanımı Lənkəranın "Nənələr" folklor ansamblının ifasını dinlədilər.





Qeyd edildi ki, Lerik də cənub bölgəsində turizm imkanları geniş olan rayondur. Bildirildi ki, 2003-cü ilədək burada heç bir turizm obyekti olmasa da, indi onların sayı səkkizə çatmışdır.

Sərgidə İsmayıllı rayonunun turizm imkanlarının əks olunduğu stend də Prezident İlham Əliyevdə və xanımı Mehriban Əliyevada maraq doğurdu. Bildirildi ki, rayonun dəniz səviyyəsindən 2500 metr yüksəklikdə yerləşən Lahıc kəndi daim öz sənətkarları ilə məşhur olmuşdur. Hər il Lahıca 8-10 min turist gəlir ki, onların da 80 faizi əcnəbilərdir. Bu rayonda müxtəlif millətlərin nümayəndələrinin birgə yaşayışı qonaqlarda maraq doğurur.

Azərbaycan Prezidenti və xanımı "İvanovka" folklor qrupunun çıxışını izlədilər.

Qax və Zaqatala rayonlarının turizm potensialını əks etdirən stendlər də diqqət çəkdi. Burada əks olunan məlumatlardan da görünürdü ki, bölgənin turizm imkanları kifayət qədər inkişaf etmişdir. Hazırda Qaxda yeddi, Zaqatalada isə altı turizm obyekti fəaliyyət göstərir.

Məlumat verildi ki, son illər Şəkidə də turizmin inkişafı üçün mühüm işlər görülmüşdür. Bunu rayona istirahətə gələnlərin sayında müşahidə olunan artımdan da görmək olur. Əgər 2004-cü ildə Şəkiyə 2800 turist gəlmişdisə, ötən il onların sayı 15 minə yaxınlaşmışdır.

Qəbələ stendində rayonun səfalı yerləri ilə yanaşı, həm də müasir səviyyədə inşa edilən mehmanxana kompleksləri nümayiş olunur. Ötən il Qəbələyə 30 mindən çox turist gəlmişdir. Onlardan 4 mindən çoxu müxtəlif xarici ölkələrdən gələn qonaqlar olmuşdur. Turistlərin sayındakı artım, şübhəsiz ki, Qəbələdə yaradılan müasir turizm infrastrukturunun nəticəsidir.

Azərbaycanın ən səfalı bölgələrindən olan Şamaxının da turizm imkanları bu sərgidə yüksək səviyyədə nümayiş etdirilmişdir. Stendlə tanış olan dövlət başçısına və xanımına məlumat verildi ki, səfalı təbiəti ilə diqqəti çəkən Şamaxı rayonunda həm yay, həm də qış turizmi üçün geniş imkanlar vardır. Hazırda Şamaxıda 12 turizm obyekti fəaliyyət göstərir.

Ölkəmizin həm qədim, həm də müasir şəhəri olan Gəncənin stendində isə sənətkarların əl işləri daha çox maraq doğururdu. Stenddə Gəncədə, Göygöldə, Daşkəsəndə və Hacıkənddəki istirahət mərkəzləri barədə geniş məlumatlar da yer almışdır.

Diqqətə çatdırıldı ki, Azərbaycanın ən qədim və gözəl guşələrindən olan Naxçıvan da sərgidə uğurla təmsil olunur. Naxçıvanın coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri bölgənin turizm imkanlarının genişliyindən xəbər verir. Naxçıvandakı müalicəvi sular, "Duzdağ" Fizioterapiya Mərkəzi turistlərdə böyük maraq doğurur.

Azərbaycan mədəniyyətinin zəngin hissəsini özündə yaşadan Qarabağın malik olduğu imkanlar, bununla belə hazırda işğal altındakı bölgələrimizdə mövcud turizm potensialının ermənilər tərəfindən məhv edilməsi də sərgiyə gələnlərin diqqətinə çatdırılır. Onlara Qarabağın tarixi, mədəniyyəti, etnoqrafiyası barədə məlumatlar verilir.

Paytaxtımızın da yerləşdiyi Abşeron yarımadasının qədim tarixi, abidələri, o cümlədən nadir coğrafi mövqeyi bu regionu da turistlərin maraq dairəsinə daxil etmişdir. Xəzər dənizinin sahilində yerləşən çoxsaylı istirahət mərkəzləri daim turistləri cəlb edən məkana çevrilmişdir.

Dövlət başçısına məlumat verildi ki, hazırda Bakıda beynəlxalq standartlara cavab verən

altı müasir mehmanxana komplekslərinin tikintisi gedir. Bu komplekslərin istifadəyə verilməsi paytaxtımızın gözəlliyinə əlavə çalarlar qatmaqla bərabər, turizmin inkişafında mühüm rol oynayacaqdır. Bununla yanaşı, son illərdə bölgələrdə də müasir turizm kompleksləri istifadəyə verilir. Qusarda inşa olunan Şahdağ qış-yay turizm kompleksi ölkəmizin iqtisadi gücünün göstəricisi olmaqla yanaşı, Azərbaycanın turizm imkanlarını da nümayiş etdirir. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mədəniyyət və Turizm Nazirliyinin pavilyonu ilə də tanış oldular. Dövlət başçısına ölkəmizdə turizmin inkişaf dinamikası barədə ətraflı məlumat verildi.

Bildirildi ki, ötən il Azərbaycana 1 milyon 962 min 906 nəfər gəlmişdir ki, onlardan da 1 milyon 494 min 725 nəfəri turistlərdir.

Qeyd edildi ki, ölkəyə gələn turistlər üçün yeni imkanlar yaradılır. Bu sırada "Azərbaycan turizm naviqasiyası" layihəsi xüsusi əhəmiyyət daşıyır. Layihə çərçivəsində yaradılan onlayn turist naviqatoru geniş imkanlara və özəlliklərə malikdir. Burada üç dildə Azərbaycanın yeddi turizm marşrutuna dair məlumatlar yer almışdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva 10-cu Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisində xarici ölkələrin turizm şirkətlərinin pavilyonları ilə də tanış oldular.

Türkiyə yubiley sərgisinə beş şirkətlə qatılmışdır. Türkiyə artıq ikinci dəfədir ki, bu sərginin əsas tərəfdaşı kimi çıxış edir. Ümumilikdə isə sərgidə 24 ölkədən 230 şirkət təmsil olunur. Şirkətlər 61 turizm istiqamətini əhatə edir. Ötən illə müqayisədə builki sərgidə daha çox iştirakçının olması Bakıda keçirilən bu tədbirə Beynəlxalq səviyyədə yaranan maraqdan xəbər verir. Misir, Gürcüstan, Rusiya Federasiyasının Dağıstan Respublikası, Çexiya, Yunanıstan və Hindistanın milli stendlərinin geniş yer aldığı sərgi qonaqları turizmin müxtəlif istiqamətləri ilə tanış edir. Sərgidə Seyşel, Mavriki və Maldiv adaları öz turizm proqramlarını təqdim edirlər. Sanatoriyalar və kurortlar tərəfindən təqdim olunan müalicə turizmi ilə Azərbaycan, Rusiya, Ukrayna və Çexiyanın stendlərində tanış olmaq mümkündür. Sərgi Azərbaycan üçün ilk dəfə olaraq Laos, Kamboca, Macarıstan, Vyetnam, Myanma və Meksika kimi ölkələrə yeni istiqamətlər açacaqdır.

Sərgini dolğun işgüzar proqram müşayiət edir. Belə ki, Mədəniyyət və Turizm Nazirliyi sərgiyə xarici ölkələrdən Səudiyyə Ərəbistanı Krallığı, Küveyt, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya üçün informasiya turları təşkil etmişdir. Bununla yanaşı, turizm sahəsinin peşəkarları Ümumdünya Turizm Təşkilatı və digər şirkətlər tərəfindən təşkil ediləcək seminarlar, təqdimat mərasimləri və təkmilləşdirmə kurslarında iştirak etmək imkanı qazanmışlar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Zirə adasında inşası nəzərdə tutulan "Azərbaycan mirvarisi" layihəsi ilə də tanış oldular.

Daha sonra dövlət başçısı və xanımı Azərbaycan Milli Kulinariya Mərkəzinin nümayəndələri ilə söhbət etdilər, onların təqdim etdiyi mətbəx nümunələrinə və əl işlərinə baxdılar.

*"Azərbaycan" qəzeti,*
*30 aprel 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA FRANSANIN MƏŞHUR "VAN CLEEF & ARPELS" EVİNİN PREZİDENTİ STANİSLAS DE KERSİZ İLƏ GÖRÜŞMÜŞDÜR

2011-ci ilin mayın 4-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva "Sənət inciləri" sərgisinin keçirdiyi Müasir İncəsənət Muzeyində dünyanın məşhur "Van Cleef & Arpels" zərgərlik evinin prezidenti Stanislas de Kersiz ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva Stanislas de Kersizi Azərbaycanda salamlamaqdan və Bakıda "Sənət inciləri" adlı sərginin açılmasından məmnunluğunu bildirdi. Azərbaycanın birinci xanımı qeyd etdi ki, dünyada üçüncü dəfədir təşkil edilən belə sərginin Bakıda keçirilməsi ölkələrimizin mədəni həyatında mühüm hadisədir. Mehriban xanım Əliyeva vurğuladı ki, sərginin təşkil edildiyi Müasir İncəsənət Muzeyi onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılmışdır. Bu möhtəşəm sərginin mədəni əlaqələrin inkişafına töhfə verəcəyini vurğulayan Azərbaycanın birinci xanımı bildirdi ki, ekspozisiyada nümayiş olunan zinət əşyaları "Van Cleef & Arpels" evinin inkişafının tarixini göstərir.

Mehriban xanım Əliyeva Stanislas de Kersizin ölkəmizə səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.

"Van Cleef & Arpels" evinin prezidenti Stanislas de Kersiz Azərbaycana səfərindən məmnunluğunu bildirdi, sərginin Azərbaycan ilə Fransa arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynayacağını qeyd etdi.

*"Azərbaycan" qəzeti,*
*5 may 2011-ci il*



## MEHRİBAN XANIM ƏLİYEVA: "AZƏRBAYCAN DÖVLƏTİ LUVR MUZEYİNDƏ APARILAN BƏRPA İŞLƏRİNƏ MADDİ DƏSTƏK VERMİŞDİR"

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2011-ci ilin mayın 4-də Müasir İncəsənət Muzeyində Fransanın məşhur Luvr Muzeyinin direktoru Anri Luaret ilə görüşmüşdür.

Fransanın dünyaca məşhur muzeyinin direktorunu Bakıda salamlamaqdan məmnun olduğunu bildirən Mehriban xanım Əliyeva Azərbaycan ilə Luvr Muzeyi arasındakı sıx əlaqələrdən danışdı. Bildirdi ki, Luvr Muzeyində bir neçə dəfə Azərbaycanla bağlı tədbirlər keçirilmişdir. Azərbaycan dövləti Luvr Muzeyində aparılan bərpa işlərinə maddi dəstək vermişdir. "Amma biz əməkdaşlığımızı daha da genişləndirə bilərik" deyən Azərbaycanın birinci xanımı Mehriban Əliyeva qonağa ölkəmizin qədim və zəngin mədəniyyəti barədə məlumat verdi.

Görüşdə muzey sərvətlərinin saxlanılması, onların qorunması sahəsində, eləcə də materialların toplanmasında təcrübə mübadiləsi məsələləri müzakirə edildi.

*"Azərbaycan" qəzeti,*
*5 may 2011-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA TANINMIŞ FRANSIZ KİNOAKTRİSASI KATRİN DENEV İLƏ GÖRÜŞMÜŞDÜR

2011-ci ilin mayın 4-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Müasir İncəsənət Muzeyində tanınmış fransız kinoaktrisası Katrin Denev ilə görüşmüşdür.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Katrin Denevi salamlayaraq dünya şöhrətli kinoaktrisanı ölkəmizdə görməkdən məmnun olduğunu bildirdi. Katrin Denevin Azərbaycana ilk dəfə səfər etdiyini, məşhur aktrisanın artıq Bakının bir sıra görməli yerləri və tarixi abidələri ilə tanış olduğunu deyən Mehriban xanım Əliyeva səfərin uğurlu keçəcəyinə əminliyini ifadə etdi.

Mehriban xanım Əliyeva ölkəmizin zəngin mədəniyyətə malik olduğunu, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mədəniyyət sahəsində bir sıra mühüm layihələr reallaşdırdığını diqqətə çatdırdı.

Görüşdə Azərbaycan ilə Fransa arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Fransada nəşr olunan nüfuzlu "L'Officiel" jurnalının rus versiyasının baş redaktoru Evelina Xromçenko ilə görüşdü.

*"Azərbaycan" qəzeti,*
*5 may 2011-ci il*

## AZƏRBAYCANIN VƏ LATVİYANIN BİRİNCİ XANIMLARI MÜASİR İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞ OLMUŞ, "SƏNƏT İNCİLƏRİ" SƏRGİSİNƏ BAXMIŞLAR

2011-ci ilin mayın 11-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və ölkəmizdə səfərdə olan Latviyanın birinci xanımı Lilita Zatlere Müasir İncəsənət Muzeyində olmuşlar.

Qonağa məlumat verilmişdir ki, buradakı ekpozisiyanın əsasını XX əsrin ikinci yarısından bu günədək yaradılmış ən yaxşı avanqard rəsm və heykəltəraşlıq əsərləri təşkil edir. Muzeydə Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 1000-dək işi toplanmışdır.

Qərbi Avropa incəsənəti salonunda isə Pablo Pikasso, Salvador Dali, Mark Şaqal kimi dahi klassiklərin əsərləri nümayiş etdirilir.

Qonaq Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov və Nadir Əbdürrəhmanovun, bir çox digər fırça və tişə ustalarının əsərləri ilə tanış olmuşdur.

Azərbaycanın və Latviyanın birinci xanımları Müasir İncəsənət Muzeyində açılmış "Van Cleef & Arpels" şirkətinin tarixi sənət kolleksiyasının və azərbaycanlı Əməkdar rəssam Əliyar Əlimirzəyevin biri digərindən maraqlı əsərlərinin təqdim olunduğu "Sənət inciləri" sərgisinə də baxmışlar.

Bildirilmişdir ki, "Sənət inciləri" sərgisi eyni yaradıcı ideyanı paylaşan iki fərqli ifadə tərzini bir araya gətirməklə Fransa və Azərbaycan arasında mədəni dialoqu nümayiş etdirir. Bu yaradıcı ideyanın bir qolu "Van Cleef & Arpels" Evinin zərgərlik məmulatlarından, digər qolu isə Azərbaycan rəssamı Əliyar Əlimirzəyevin əsərlərində təcəssüm tapmışdır. Buna görə də həm Ə. Əlimirzəyevin əsərləri, həm də "Van Cleef & Arpels"in nadir sənət nümunələri bir-birini heyrətamiz şəkildə tamamlayır.

Qonaq muzey və sərgi ilə tanışlıqdan xoş təəssüratla ayrılmışdır.

*"Azərbaycan" qəzeti,*
*12 may 2011-ci il*







## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ XANIMI MEHRİBAN ƏLİYEVA "EUROVİSİON-2011" MAHNI MÜSABİQƏSİNDƏ QƏLƏBƏ QAZANMIŞ AZƏRBAYCAN NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞLƏR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Almaniyanın Düsseldorf şəhərində keçirilmiş "Eurovision-2011" mahnı müsabiqəsində qələbə qazanmış Azərbaycan nümayəndələrini 2011-ci ilin mayın 16-da qəbul etmişlər.

Dövlət başçısı nümayəndələri təbrik edərək dedi:

– Mən sizi ürəkdən təbrik edirəm. Siz "Eurovision" mahnı müsabiqəsində ölkəmizi çox ləyaqətlə təmsil etmisiniz, böyük qələbə qazanmısınız. Bu qələbə ölkəmizin qələbəsidir, sizin qələbənizdir. Bu qələbə ilə siz bütün Azərbaycan xalqını sevindirmisiniz. Yəqin bilirsiniz ki, qələbədən sonra dərhal minlərlə insan küçələrə çıxıb sizin qələbənizi qeyd etdi. Azərbaycan bayrağı dalğalanırdı. Biz çox gözəl anlar yaşadıq. Siz, doğrudan da, ölkəmizi ləyaqətlə təmsil etdiniz.

Biz "Eurovision" müsabiqəsində dördüncü dəfədir ki, iştirak edirik. Bütün bu illərdə yaxşı nəticələr göstərmişik. Ancaq bu nəticə, əlbəttə ki, ən gözəl nəticədir və zirvədir.

Onu da deyə bilərəm ki, "Eurovision"da iştirakımızın təşəbbüskarı Heydər Əliyev Fondu, Mehriban xanım olmuşdur. Biz bu yarışa onun təşəbbüsü ilə qoşulduq və bütün bu illərdə Heydər Əliyev Fondu, Gənclər və İdman Nazirliyi, İctimai Televiziya və digər qurumlar çox fəal işlədilər. Hər il biz qələbəyə daha da yaxınlaşırdıq.

Bu müsabiqə, deyə bilərəm ki, dünyanın ən mötəbər mahnı müsabiqəsidir. Əlbəttə ki, bu, Avropa ölkələrini əhatə edir. Ancaq, hesab edirəm ki, dünya miqyasında buna oxşar ikinci müsabiqə yoxdur. Tamaşaçı auditoriyası haradasa 100 milyondan artıq idi. Belə mötəbər yarışda birincilik əldə etmək tarixi qələbədir. Bu, ilk növbədə, sizin qələbənizdir. Mən sizi bir daha təbrik edirəm. Bu, Azərbaycan gəncliyinin, Azərbaycan xalqının və Azərbaycan dövlətinin qələbəsidir.

Bu, artıq tarixdə qalacaqdır. Siz də artıq tarixdə varsınız. "Eurovision" tarixində Azərbaycan öz sözünü demişdir. Bu, əlbəttə ki, hamımızı çox sevindirir.

Mən sizi bir daha təbrik edirəm! Sizə uğurlar arzulayıram! Əminəm ki, bundan sonra da siz ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz. Beləliklə, Azərbaycan bu sahədə də dünyada öz sözünü dedi. Biz idmanda qələbələrə öyrəşmişik. İdmançılarımız müxtəlif yarışlarda qələbələrlə bizi sevindirirlər. Bu sahədə isə birinci qələbədir. Bir daha sizi təbrik edirəm və sizə yeni uğurlar arzulayıram!

Sonra Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva "Eurovision-2011" mahnı müsabiqəsinin qaliblərini təbrik etdi, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı. Eldar Qasımov təşəkkür edərək dedi:

– Mən Sizi təbrik etmək istəyirəm. Çünki bu, bizim qələbəmizdir, bütün Azərbaycanın qələbəsidir.

***"Azərbaycan" qəzeti,***
***17 may 2011-ci il***







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VENESİYA BİENNALESİNDƏ ÖLKƏMİZİN PAVİLYONUNUN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

İtaliyanın Venesiya şəhərində növbəti Ümumdünya Təsviri İncəsənət Sərgisi – 54-cü Venesiya Biennalesi öz işinə başlamışdır.

2011-ci ilin iyunun 1-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Venesiya Biennalesində ölkəmizin pavilyonunun rəsmi açılış mərasimində iştirak etmişdir.

Bu, dünyanın çağdaş incəsənətində ən nüfuzlu və mötəbər bir sərgi aksiyasıdır. Noyabr ayına qədər davam edəcək bu sərgidə 100-dək ölkə öz pavilyonları ilə iştirak edəcəkdir. Azərbaycan artıq üçüncü dəfədir ki, Venesiya Biennalesinə qatılır. 54-cü Venesiya Biennalesində Azərbaycan pavilyonu şəhərin ən izdihamlı məkanlarının birində, məşhur Realto körpüsü yaxınlığındakı Qrand kanalın üzərində qərarlaşan və 15-ci əsrdə ucaldılan Benzon sarayında (Palazzo Benzonda) yerləşir.

Bu il Azərbaycan pavilyonu "Relations of Baku" devizi altında çıxış edir. İşçi qrupunun və iştirakçıların vahid qənaətinə görə, bu, "Bakıya məxsus" kimi izah olunur.

Azərbaycanı Biennalede altı rəssam – Altay Sadıqzadə, Mikayıl Əbdürrəhmanov, Aydan Salahova, Zeyqəm Əzizov, Xanlar Qasımov və Ağa Hüseynov təmsil edirlər. Bu fırça ustalarının əsərləri müasir incəsənət vasitəsilə Azərbaycanı tanıtmaq və ölkəmizdə yaşayan insanların

xarakterini Qərb tamaşaçısına çatdırmaq baxımından əvəzolunmaz fürsətə çevrilmişdir.

Builki Venesiya Biennalesinin mövzusu və konsepsiyası əsasən illüminasiyaya, yəni millətlərin işığına həsr olunmuşdur. Modernist rəssamlarımızın əsərləri müasir incəsənət və bu sənət növünün imkanları vasitəsilə Qərb tamaşaçısında paytaxtımızın qədim və müasir görkəmi, ölkəmiz, burada yaşayan insanlar haqqında zəngin təəssürat yaradır. Realist çalarlarla, fərqli forma və rənglərlə diqqət çəkən bu yaradıcılıq nümunələri ilk baxışdan bir qədər sərt görünsə də, əslində, heyrətamiz gözəlliyi və maraqlı işlənmə texnikası ilə diqqəti cəlb edir. Sərginin zəngin toplusu bu müasir sənətin xüsusiyyətlərinin açıqlanmasına imkan verir.

Həqiqətən, parlaq və orijinal bir fenomen olan müasir Azərbaycan incəsənətinin nümunələri özəlliyi ilə seçilir. Buradakı əsərlər estetik tərbiyə, bədii zövqün inkişafı, fərqli düşüncə üçün gözəl imkanlar açır. Sərgidəki əsərlərdə daha çox qeyri-ənənəvi, bəzən hətta gözlənilməz ifadə texnologiyası tətbiq edilmişdir.

Venesiya Biennalesində Azərbaycan pavilyonu onu da təsdiqləmişdir ki, müasir incəsənət əsərlərində müəllif yeni obrazlar axtarmaqla yanaşı, həm də onların yeni ifadə formaları üzərində çalışır. Bu sahədə əsər yaradan hər bir fırça ustası seçdiyi mövzu haqqında ən dolğun məlumat vermək üçün özünəməxsus ifadə üsullarından istifadə edir. Müasir incəsənət üslubunu seçənlər əsərləri ilə tamaşaçını dialoqa, diskussiyaya çağırırlar. Müasir incəsənətin ən parlaq aspekti onun qeyri-müəyyənliyidir.

Sərgiyə gələnlər tükənməz təsir bağışlayan əsərlərə böyük maraqla baxmış və bir daha Azərbaycan mədəniyyətinin bütün istiqamətlərdə inkişaf etdiyinin şahidi olmuşlar.

Avanqard çalarlarla zəngin olan bu sərginin əvqatı həm də bir reallığı ortaya qoymuşdur ki, Azərbaycanda mədəniyyətə, sənətə və sənətkarlara hər zaman böyük diqqət göstərilmişdir. Ölkəmizdə mədəniyyətin inkişafı üçün daha münbit şəraitin yaradılması, mədəniyyət və incəsənət nümayəndələrinin azad yaradıcılıq imkanlarının təmin edilməsi yolunda müntəzəm olaraq həyata keçirilən tədbirlər də bu reallıqdan qaynaqlanır. Dövlət qayğısı ilə yanaşı, Heydər Əliyev Fondu da mədəniyyətin inkişafını fəaliyyətində prioritet istiqamətlərdən birinə çevirmişdir.

Sərgidə Azərbaycan pavilyonunun açılışı xarici kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olmuşdur. Bir sözlə, Venesiya Biennalesindəki pavilyonumuz öz maraqlı formatı və qeyri-adi əsərləri ilə diqqəti çəkmişdir. Parlaq və orijinal ideyaların vəhdətindən ərsəyə gələn bu sənət əsərləri müasir Azərbaycan incəsənətinin özəlliyindən xəbər vermişdir. Orijinal zövqün, maraqlı düşüncənin, incə ruhun vəhdətdə təqdim olunduğu bu sərgidə qeyri-ənənəvi ifadə texnologiyaları tamaşaçılarda böyük maraq doğurmuşdur.

*"Azərbaycan" qəzeti,*
*3 iyun 2011-ci il*







## BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA BERLİNDƏKİ "BERLİN-BAKU-GALERİ" SƏRGİ SALONUNDA VƏ AZƏRBAYCANIN ALMANİYADAKI SƏFİRLİYİNDƏ OLMUŞDUR

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Almaniyaya səfəri çərçivəsində 2011-ci ilin sentyabrın 30-da Berlindəki "Berlin-Baku-Galeri" sərgi salonunda olmuşdur. Bakıdakı "Qız qalası" rəsm qalereyasının direktoru Emin Məmmədov "Berlin-Baku-Galeri" sərgi salonunun fəaliyyəti barədə Mehriban xanım Əliyevaya məlumat verdi. Azərbaycanın birinci xanımı "Berlin-Baku-Galeri" salonunun rəhbəri, tanınmış rəssam İbrahim Əhrari ilə görüşdü.

Məlumat verildi ki, 2007-ci ildən fəaliyyət göstərən bu qalereya Bakıdakı "Qız qalası" rəsm qalereyasının Berlindəki filialıdır. İndiyədək burada 62 Azərbaycan, 46 alman rəssamının sərgisi keçirilmişdir. Açılışından bəri qalereyada 43 sərgi, 2011-ci ilin ötən dövründə isə 12 sərgi təşkil olunmuşdur. Hazırda qalereyada alman rəssamı İnqa Şmitin və Azərbaycan rəssamı Əli İbadullayevin rəsm əsərləri sərgilənir. Bu qalereya, həmçinin Azərbaycan mədəniyyətinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Sonra Mehriban xanım Əliyeva Azərbaycanın Almaniyadakı səfirliyinə gəldi.

Səfir Pərviz Şahbazov Azərbaycanın Almanıyadakı diplomatik nümayəndəliyinin fəaliyyəti barədə Mehriban xanım Əliyevaya məlumat verdi. Qeyd olundu ki, səfirliyin yerləşdiyi binada əməkdaşların fəaliyyəti üçün bütün şərait yaradılmışdır.

Heydər Əliyev Fondunun prezidenti burada Azərbaycanın əməkdar rəssamı, Almaniyada yaşayan soydaşımız Əşrəf Heybətov ilə görüşdü. Rəssam Azərbaycanın birinci xanımının portretini və "Azərbaycan Şərq dünyası" adlı qrafik əsərlərinin albomunu Mehriban xanım Əliyevaya təqdim etdi.

Birinci xanım Mehriban Əliyeva səfirlikdə Almaniyanın Humbolt Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri professor Yeva Mariya Aux ilə görüşdü. Yeva Mariya Aux 2010-cu ildə açılan kafedranın fəaliyyəti barədə Mehriban xanım Əliyevaya məlumat verdi. Mehriban xanım Əliyeva Azərbaycan tarixini tədris edən kafedranın fəaliyyətinə dəstək verdiyini bildirdi və uğurlar arzuladı.

Azərbaycanın Almaniyadakı səfirliyinin əməkdaşları ilə görüşən Mehriban xanım Əliyeva onlara işlərində uğurlar arzuladı.

*"Azərbaycan" qəzeti,*
*1 oktyabr 2011-ci il*





## BAKIDA "YARAT MÜASİR İNCƏSƏNƏT MƏKANI" TƏŞKİLATININ "ÖN SÖZ" SƏRGİSİ AÇILMIŞDIR

Bakıda "YARAT müasir incəsənət məkanı" təşkilatının "Ön söz" adlı sərgisi açılmışdır.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva sərginin açılış mərasimində iştirak etmişdir.

Məzmununa və formasına görə onsuz da seçilən müasir incəsənət əsərləri bu dəfə həm də fərqli məkanda təqdim edilmişdir. Əsərlər hələ ki, inşası davam edən binada sərgilənmişdir. Təmir və tikinti fonunda gənc rəssamların qeyri-adi əsərlərinin ideyası daha qabarıq şəkildə təqdim olunmuşdur. Belə sərginin keçirilməsi ideyası isə tədbiri təşkil edən "YARAT müasir incəsənət məkanı" təşkilatına məxsusdur. Bu, qurumun ilk ekspozisiya layihəsidir və, eyni zamanda, onun yeni, fəaliyyətdə olan mədəni institusiya kimi təqdimatıdır.

Təşkilatın əsas məqsədi müasir Azərbaycan incəsənətinin professional səviyyədə dəstəklənməsi, rəssamlarımızın yaradıcılığının ölkəmizdə və xaricdə təbliğinə yönələn sərgilər, festivallar, seminarlar, ustad dərsləri və müxtəlif təlim-tədris tədbirlərinin keçirilməsini təşkil etməkdir.

Sərgidə müasir incəsənətin ənənəvi növləri və janrları ilə yanaşı, quraşdırmalar, performans və videoart təmsil olunur. Burada 27 rəssamın əsərləri təqdim edilir. Sərginin məqsədlərindən biri də tamaşaçıları müasir incəsənətin tanınmış nümayəndələri ilə yanaşı, yeni, gənc, ümid doğuran istedadlarla tanış etməkdir.

Adından da göründüyü kimi, "Ön söz" ekspozisiyasında söhbət incəsənətin dövrümüzün önəmli və canlı problemlərinə toxunan ən aktual, eksperimental yanaşmalarından gedir.

Ekspozisiya həm də ictimaiyyətin diqqətini müasir incəsənətin özünəməxsus art-analitika, yeni günümüzün ən aktual meylləri və problemlərini konseptual bədii modellər vasitəsilə üzə çıxaran və təhlil edən sahə qismində önəmli roluna cəlb etmək məqsədini daşıyır.

Tanınmış ictimai-siyasi xadimlərin Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin, incəsənət təmsilçilərinin iştirak etdiyi mərasimi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, xalq rəssamı Ömər Eldarov açmışdır. O, rəssam Aida Mahmudovanın rəhbərlik etdiyi "YARAT müasir incəsənət məkanı" təşkilatının üzərinə götürdüyü missiyanın incəsənətimizin təbliği istiqamətində yeni addım hesab ediləcəyinə ümidvar olduğunu bildirmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, professor Hicran Hüseynova bu sərginin insanları müasir incəsənətin müxtəlif istiqamətləri ilə tanış etdiyini vurğulamışdır. Bildirmişdir ki, Aida Mahmudovanın rəhbərliyi ilə yaradılan yeni təşkilat öz ətrafında gənc rəssamları toplayaraq, onların yaradıcılığına təkan verəcək və bu gənclər Azərbaycanın incəsənətini xaricdə yüksək səviyyədə təbliğ edən şəxslər olacaqlar.

Sərginin qeyri-adiliyindən danışan Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif

Paşayev vurğulamışdır ki, rəssam üçün həm əsəri yaratmaq, həm də onu nümayiş etdirmək vacib məsələdir. "YARAT müasir incəsənət məkanı" isə yaradıcı insanlara yeni imkanlar açır.

Akademik Arif Paşayev təşkilata və gənc rəssamlara uğurlar arzulamışdır.

"YARAT müasir incəsənət məkanı" təşkilatının rəhbəri, rəssam Aida Mahmudova çıxış edərək tədbirə gələn qonaqlara minnətdarlığını bildirmişdir. Gənc rəssam qeyd etmişdir ki, bu sərgini həm təşkil etmək, həm də burada iştirakçı kimi çıxış etmək, arzuların reallığa çevrildiyini görmək sevindirici haldır.

*"Azərbaycan" qəzeti,*
*7 oktyabr 2011-ci il*





## LONDONDA "BAKIYA UÇUŞ: MÜASİR AZƏRBAYCAN İNCƏSƏNƏTİ" ADLI SƏRGİ AÇILMIŞDIR

2012-ci ilin yanvarın 17-də Londonda Heydər Əliyev Fondunun və "Baku" jurnalının ingilisdilli versiyasının dəstəyi və təşkilatçılığı ilə "Bakıya uçuş: Müasir Azərbaycan incəsənəti" mövzusunda sərginin açılışı olmuşdur.

Tədbirdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva iştirak etmişlər.

Heydər Əliyev Fondunun Azərbaycanın dünyada daha yaxından tanıdılması istiqamətində həyata keçirdiyi tədbirlərin sırasına daha biri əlavə olunmuşdur. Londonun məşhur "Phillips de Pury & Company" sərgi qalereyasında Heydər Əliyev Fondunun və "Baku" jurnalının ingilisdilli versiyasının dəstəyi və təşkilatçılığı ilə açılan "Bakıya uçuş: Müasir Azərbaycan incəsənəti" sərgisi Fondun prezidenti Mehriban xanım Əliyevanın və vitse-prezidenti Leyla Əliyevanın fəaliyyətində mədəniyyətimizin təbliğinin prioritet istiqamətlərdən biri olduğunu bir daha təsdiqləmişdir.

"Phillips de Pury & Company" şirkətinin rəhbəri Simon de Püri demişdir ki, 2011-ci ilin yayında həyat yoldaşı ilk dəfə Bakıya səfər edib. Səfər zamanı Azərbaycan rəssamlarının əsərlərinin rəngarəngliyi və həyat ehtirası, keyfiyyəti və orijinallığı onu heyran qoyub. Nəticədə, bu sərgini keçirmək qərarına gəlib.

London elitasının üzvlərinin qatıldığı bu sərgi Britaniya paytaxtında Azərbaycan incəsənətinə böyük marağı bir daha aydın şəkildə nümayiş etdirir. İngiltərənin paytaxtında keçirilən və çox sayda müasir rəssamların iştirak etdiyi "Bakıya uçuş: Müasir Azərbaycan incəsənəti" mövzusunda sərgiyə gələnlərin sayı bunu deməyə əsas verir.

Sərginin açılışında çıxış edən "Phillips de Pury & Company" şirkətinin rəhbəri Simon de Püri belə möhtəşəm tədbirin məhz onun qalereyasında keçirilməsinin əhəmiyyətini vurğuladı. Bildirdi ki, bu cür tədbiri məhz Londonda keçirmək çox əlamətdar hadisədir.

Simon de Püri sərginin təşkilində Heydər Əliyev Fondunun dəstəyinə görə minnətdarlığını bildirmiş, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, birinci xanım Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyevanın Azərbaycan incəsənəti və mədəniyyətinin təbliği istiqamətində gördüyü işləri yüksək qiymətləndirmişdir.

*"Azərbaycan" qəzeti,*
*19 yanvar 2012-ci il*




## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA "EUROVİSİON" MAHNI MÜSABİQƏSİNİN TARİXİNİ ƏKS ETDİRƏN SƏRGİ İLƏ TANIŞ OLMUŞDUR

2012-ci ilin martın 7-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Bakı Biznes Mərkəzində "Eurovision" mahnı müsabiqəsinin tarixini əks etdirən sərgi ilə tanış olmuşdur.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva əvvəlcə mərkəzin həyətində yeni gətirilən avtobusla tanış oldu. Azərbaycanın birinci xanımına məlumat verildi ki, 49 yerlik bu avtobuslar Bakıda keçiriləcək "Eurovision" mahnı müsabiqəsi zamanı Azərbaycana gələn nümayəndə heyətlərinə xidmət göstərəcəkdir. Hər nümayəndə heyətinə bir avtobus ayrılmışdır.

Bildirildi ki, fiziki imkanları məhdud insanlara xidmət edəcək yeni "Şatl bus" adlı nəqliyyat vasitələrinin də Azərbaycana gətirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərkəzdəki şərait və "Eurovision" mahnı müsabiqəsi ilə əlaqədar yaradılan İşçi qrupunun fəaliyyəti ilə tanış oldu.





Birinci mərtəbədəki stendlərə baxış zamanı Heydər Əliyev Fondunun prezidentinə məlumat verildi ki, mərkəzdə 100-dən artıq mütəxəssisin fəaliyyət göstərməsi nəzərdə tutulmuşdur.

Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən guşələrə baxan Mehriban xanım Əliyeva milli musiqi alətlərimizin də yer aldığı stend ilə tanış oldu. Burada milli musiqi alətlərimizin tarixi barədə ətraflı məlumatlar yer almışdır.

Sonra Azərbaycanın birinci xanımı elektron tablo vasitəsilə həyata keçirilən əməliyyatlara baxdı. Bu tablolarda elektron biletlərin satışı prosesi göstərilir.

Mehriban xanım Əliyeva "Eurovision" mahnı müsabiqəsinin tarixini başlandığı 1956-cı ildən 2011-ci ilədək dövrü əks etdirən stendə də baxdı. Heydər Əliyev Fondunun prezidentinə müsabiqənin müxtəlif illərində qalib olan ölkələrin nümayəndələri haqqında məlumat verildi. Stenddə ötən il Azərbaycana qələbə qazandırmış Eldar Qasımov və Nigar Camalın fotoları da yer almışdır.

İkinci mərtəbə ilə də tanış olan Azərbaycanın birinci xanımı konfrans zallarına baxdı, müsabiqənin keçirilməsi ilə bağlı təşkilati məsələlərə dair sənədlərlə tanış oldu.

*"Azərbaycan" qəzeti,*
*8 mart 2012-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA FRANSANIN MƏDƏNİYYƏT VƏ KOMMUNİKASİYA NAZİRİ FREDERİK MİTTERANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

2012-ci ilin martın 9-da Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ölkəmizdə səfərdə olan Fransanın Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitteranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Əvvəlcə qonaqlar Heydər Əliyev Fondunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən ekspozisiya ilə tanış olmuşlar.

Nümayəndə heyətinə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə ətraflı məlumat verilmişdir.

Qonaqlar dahi şəxsiyyət Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar və fotoşəkillərlə tanış olmuşlar. Nümayəndə heyəti ulu öndər Heydər Əliyevin fenomen şəxsiyyət, mahir diplomat, görkəmli siyasi xadim və nəcib insan olduğunu əks etdirən ekspozisiyaya maraqla baxmışdır.





Fondla tanışlıqdan sonra Fransanın Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitteranın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə görüşmüşdür.

Heydər Əliyev Fondunda qonaqları salamlayan birinci xanım Mehriban Əliyeva onları burada görməkdən şad olduğunu dedi.

Görüşdə Heydər Əliyev Fondunun prezidenti 2012-ci ilin martın 10-da Bakıda "Fransanın inciləri" adlı sərginin açılacağını və burada Fransanın on möhtəşəm muzeylərinə aid kolleksiyalardan eksponatların təqdim ediləcəyini bildirdi. Birinci xanım Mehriban Əliyeva vurğuladı ki, bu sərgi Azərbaycanın mədəni həyatında mühüm hadisədir. "Şadam ki, dövlət qurumları ilə yanaşı, Heydər Əliyev Fondu da Fransanın mədəniyyət qurumları ilə sıx əməkdaşlıq edir", – deyən Mehriban xanım Əliyeva qeyd etdi ki, Azərbaycan Fransada nazir Frederik Mitteranın dəstəyini hər zaman hiss etmişdir. Azərbaycanın birinci xanımı bu dəstəyə görə minnətdarlığını bildirdi.

Heydər Əliyev Fondunun prezidenti paytaxt Paris ilə yanaşı, Fransanın regionlarında da Azərbaycanla bağlı mədəni tədbirlərin keçirildiyindən şad olduğunu dedi, bu ilin sonunadək Fransanın regionlarında bir neçə tədbirin keçirilməsinin nəzərdə tutulduğunu qeyd etdi. "Şübhəsiz ki, bütün bu tədbirlərin, görüşlərin məqsədi Azərbaycan və fransız xalqlarını bir-birinə daha yaxından tanıtmaqdır", – deyən birinci xanım Mehriban Əliyeva bu ilin aprelində Parisdə "Bakıya uçuş" adlı sərginin təşkil ediləcəyini diqqətə çatdırdı və nazir Frederik Mitteranı bu tədbirə dəvət etdi.

Fransanın Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitteran birinci xanım Mehriban Əliyeva ilə görüşməkdən məmnun olduğunu bildirdi.

Heydər Əliyev Fondunun prezidentinin ötən il Fransaya səfərini xatırladan Frederik Mitteran keçirilən görüşlərin ölkələrimiz arasında dostluğa töhfə olduğunu vurğuladı.

Qonaq birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində mədəniyyət sahəsinin prioritet istiqamətlərindən birini təşkil etdiyini qeyd edərək bu sahənin əhəmiyyətindən danışdı.

Fransanın Mədəniyyət və Kommunikasiya naziri Bakıda "Fransanın inciləri" sərgisinin təşkilinə göstərilən dəstəyə görə Mehriban xanım Əliyevaya minnətdarlığını bildirdi.

*"Azərbaycan" qəzeti,*
*10 mart 2012-ci il*



## FRANSANIN MƏDƏNİYYƏT VƏ KOMMUNİKASİYA NAZİRİ MÜASİR İNCƏSƏNƏT MUZEYİNDƏN ZƏNGİN TƏƏSSÜRATLARLA AYRILMIŞDIR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fransanın Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitteran 2012-ci ilin martın 9-da Müasir İncəsənət Muzeyində olmuşlar.

Fransanın Mədəniyyət və Kommunikasiya naziri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış muzeyin ekspozisiyasına tamaşa etdi.

Qonağa məlumat verildi ki, buradakı ekspozisiyanın əsasını XX əsrin ikinci yarısından bugünədək Azərbaycanın ən yaxşı avanqard rəsm və heykəltəraşlıq əsərləri təşkil edir. Muzeydə Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 1000-dək işi toplanmışdır.

Qonaq Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdürrəhmanov və bir çox digər tanınmış fırça ustası və heykəltəraşının əsərləri ilə tanış oldu.





Fransanın Mədəniyyət və Kommunikasiya nazirinə bildirildi ki, muzeyin Qərbi Avropa incəsənəti salonunda Pablo Pikasso, Salvador Dali, Mark Şaqal kimi dahi klassiklərin əsərləri nümayiş etdirilir.

Dizayn müəllifi, tanınmış rəssam Altay Sadıqzadə olan bu mədəniyyət məbədində uşaq incəsənəti salonu, kitabxana, videosalon, restoran və art-kafe də fəaliyyət göstərir. Muzeydə 800-dək rəsm işi ilə yanaşı, 200-dən çox heykəltəraşlıq nümunəsi nümayiş etdirilir.

Fransanın Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitterana Müasir İncəsənət Muzeyinin kataloqu təqdim olundu.

Frederik Mitteran muzeyin əməkdaşlarına təşəkkürünü bildirərək buradan zəngin təəssüratlarla ayrıldı.

*"Azərbaycan" qəzeti,*
*10 mart 2012-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA PRAQANIN DEKORATİV İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

2012-ci ilin aprelin 5-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Praqanın Dekorativ İncəsənət Muzeyində olmuşdur.

Mehriban xanım Əliyevaya məlumat verildi ki, muzeyin yerləşdiyi bina yeni intibah üslubunda inşa edilmişdir. Tikintisi XIX əsrdə başa çatmış bina zəngin kompozisiyası ilə insanları valeh edir. Binanın özü və divarlardakı işləmələr insanı xəyalən qədim dövrlərə aparır. Muzeydə qədim vaxtlara və bu günə aid sənətkarlıq nümunələri qorunub saxlanılır.

Bildirildi ki, muzeydə ipəkçilik, toxuculuq, qrafika, fotoqrafiya, pulkəsmə və sair sahələri əhatə edən çoxsaylı bölmələr vardır. Bu bölmələrdə Çexiyanın ərazisində yaşayıb fəaliyyət göstərən tanınmış ustaların əl işləri toplanmışdır. Bu əl işləri ölkənin milli sərvəti kimi qorunur.

Çexiya mədəniyyətinin ən mühüm nümunələrinin toplandığı bu muzey buraya gələn turistlərdə ölkə haqqında geniş təəssürat yaratmaqla respublikanın malik olduğu maddi-mədəni dəyərləri də təqdim edir. Ümumiyyətlə, Praqanın əksər gözəl binaları kimi, bu muzey də şəhərin qədim hissəsində yerləşir. Lakin şəhərin müasir hissəsi də gözəlliyinə görə digər məhəllələrdən geri qalmır.

Azərbaycanın birinci xanımı muzeydən zəngin təəssüratla ayrıldı.

*"Azərbaycan" qəzeti,*
*6 aprel 2012-ci il*








## PARİSDƏ "BAKIYA UÇUŞ: MÜASİR AZƏRBAYCAN İNCƏSƏNƏTİ" SƏRGİSİ AÇILMIŞDIR

Parisdə Heydər Əliyev Fondunun və "Baku" jurnalının ingilisdilli versiyasının dəstəyi və təşkilatçılığı ilə "Bakıya uçuş: Müasir Azərbaycan incəsənəti" mövzusunda sərginin açılışı olmuşdur.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və Fondun vitse-prezidenti Leyla xanım Əliyeva, o cümlədən Fransanın Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitteran mərasimdə iştirak etmişlər.

"Bakıya uçuş: Müasir Azərbaycan incəsənəti" sərgisi Londondan sonra bu dəfə Parisdə açılmışdır. Sərgiyə olan marağı Fransa paytaxtının mərkəzi küçələrində vurulan reklam lövhələrindən də görmək olurdu.

Heydər Əliyev Fondunun Azərbaycanın dünyada daha yaxından tanıdılması istiqamətində həyata keçirdiyi tədbirlər sırasında xüsusi əhəmiyyəti olan sərgi Parisin məşhur Salomon de Rotşild malikanəsində açıldı. Bu da Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın fəaliyyətlərində

mədəniyyətimizin təbliğinin prioritet istiqamət olduğunu bir daha təsdiqlədi.

Sərginin kuratoru Erve Mikaeloff vurğuladı ki, bu sərgi zənginliyi ilə diqqət çəkir və burada təqdim edilən əsərlər orijinallığı ilə seçilir. "Azərbaycan incəsənətinin dərin tarixi kökləri vardır" deyən Erve Mikaeloff bu cür tədbirlərin ölkəmizin dünyada daha yaxşı tanıdılmasına kömək etdiyini vurğuladı. O, bu sərginin keçirilməsində böyük əməyi olan Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevaya minnətdarlığını bildirdi.

Sonra Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva, Fransanın Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitteran "Bakıya uçuş: Müasir Azərbaycan incəsənəti" sərgisi ilə tanış oldular.

Sərginin iştirakçıları arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da adı vardır. Onun müəllifi olduğu illüstrasiyalardan gələcəkdə rus və ingilis dillərində işıq üzü görəcək "Biri var idi, biri yox" nağıl kitabında istifadə ediləcəkdir. Leyla xanım Əliyevanın müəllifi olduğu "Nar", "Nar ağacı", "Həyat davam edir" və digər rəsm əsərləri də orijinallığı ilə iştirakçıların qəlbinə yol tapır.

Sərgidə gənc rəssamlardan Aida Mahmudovanın əsəri də üslubu ilə iştirakçıları özünə cəlb edə bildi. Müəllif əsərində keçmiş həyatı, rastlaşdığı hadisə və hissləri indiki zamanda təqdim edir.

Bundan əlavə, sərgidə tanınmış rəssamlar Altay Sadıqzadə, Ənvər Əsgərov, Mirnadir Zeynalov, ümumilikdə 21 müəllifin təsviri incəsənət, qrafika, heykəltəraşlıq, fotoqrafiya, video-art kimi müxtəlif istiqamətlərdə işləri təqdim edilir. Əsərlərin hər biri orijinallığı, bədii üslubu ilə maraq doğurur. Bir-birindən maraqlı, fərqli avanqard ideyaların hakim kəsildiyi bu sənət əsərləri müasir Azərbaycan incəsənətinin özəlliyindən xəbər verir. Orijinal zövqün, maraqlı düşüncənin, incə ruhun təcəssüm tapdığı əsərlərin bir məkanda təqdim olunduğu bu sərgidə qeyri-ənənəvi ifadə texnologiyaları diqqət çəkir.

Sərgidə, həmçinin müxtəlif illərdə Venesiya Biennalesində Azərbaycanı təmsil edən rəssamların, eləcə də xarici ölkələrdə yaşayan gənc fırça ustalarının, beynəlxalq nüfuzlu tədbirlərdə iştirak edən sənət adamlarının əsərləri də nümayiş olunur. Buradan aydın görünür ki, Heydər Əliyev Fondunun istedadlı gəncləri üzə çıxarmaq istiqamətində reallaşdırdığı bu layihələr nəticəsində zəngin Azərbaycan mədəniyyəti ilə yanaşı, ölkəmizin istedadlı gəncləri də dünyada tanınır və qəbul edilir.

Bu orijinal sərgidə nümayiş olunan əsərlər bir daha sübut etdi ki, incəsənətin imkanları sonsuzdur və o, heç bir məhdudiyyət tanımır. Avanqard çalarlarla zəngin olan bu sərginin ovqatı həm də onu təsdiqləyir ki, Azərbaycanda mədəniyyətə və sənətə hər zaman böyük diqqət olmuşdur. Ölkəmizdə mədəniyyətin inkişafı üçün daha münbit şəraitin yaradılması, mədəniyyət və incəsənət nümayəndələrinin azad yaradıcılıq imkanlarının təmin edilməsi yolunda müntəzəm tədbirlər həyata keçirilir.





Beləliklə, Parisdə açılan sərgi Azərbaycan mədəniyyətinin və milli bənzərsizliyimizin zəngin və sehrli aləmini heyranlıqla seyr etdi. Bu cür sərgilərin gələcəkdə Moskva, Berlin, Roma, Nyu-York və Bakıda keçirilməsi nəzərdə tutulmuşdur.

Sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın adından sərgidə iştirak edən qonaqların şərəfinə ziyafət verilmişdir. Ziyafətdə birinci xanım Mehriban Əliyeva və Fransanın Mədəniyyət və Kommunikasiya naziri Frederik Mitteran çıxış etmişlər.

*"Azərbaycan" qəzeti,*
*13 aprel 2012-ci il*



## ROMADA "BAKIYA UÇUŞ: MÜASİR AZƏRBAYCAN İNCƏSƏNƏTİ" SƏRGİSİ AÇILMIŞDIR

2013-cü ilin martın 5-də Heydər Əliyev Fondunun, "Baku" jurnalının ingilisdilli versiyasının və Azərbaycanın İtaliyadakı səfirliyinin birgə layihəsi çərçivəsində Romanın MAXXİ Milli Müasir İncəsənət Muzeyində "Bakıya uçuş: Müasir Azərbaycan incəsənəti" sərgisinin rəsmi açılışı olmuşdur.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-Prezidenti Leyla Əliyeva mərasimdə iştirak etmişlər.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva MAXXİ Milli Müasir İncəsənət Muzeyinə gəldilər. Əvvəlcə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və muzeyin prezidenti xanım Covanna Melandri arasında görüş oldu.

Görüşdə "Bakıya uçuş" sərgisinin Romada keçirilməsindən məmnunluq ifadə edildi, bu sərginin Azərbaycan ilə İtaliya arasında mədəniyyət sahəsində əməkdaşlığa töhfə olduğu vurğulandı. Bundan əlavə, MAXXİ Milli Müasir İncəsənət Muzeyi ilə Heydər Əliyev Mərkəzi arasında gələcək əməkdaşlıq məsələləri müzakirə edildi.





Sonra Mehriban xanım Əliyeva MAXXİ Milli Müasir İncəsənət Muzeyi ilə tanış oldu. Qeyd edildi ki, avanqard, qeyri-ənənəvi üslubda yaradılan bina 2010-cu ilin iyununda istifadəyə verilmişdir.

Daha sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və Fondun vitse-prezidenti Leyla xanım Əliyeva "Bakıya uçuş: Müasir Azərbaycan İncəsənəti" sərgisinin rəsmi açılışında iştirak etdilər.

Romanın MAXXİ Milli Müasir İncəsənət Muzeyinin prezidenti Covanna Melandri Azərbaycanın birinci xanımının tədbirdə iştirakını məmnunluqla qeyd edərək sərginin təşkilatçılarına minnətdarlığını bildirdi.

*"Azərbaycan" qəzeti,*
*7 mart 2013-cü il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VYANADA İMPERİYA XƏZİNƏSİ, İSPAN ATÇILIQ MƏKTƏBİ VƏ MÜQƏDDƏS MİXAEL KİLSƏSİ İLƏ TANIŞ OLMUŞDUR

2013-cü ilin mayın 13-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Vyanada Hofburq saray kompleksində yerləşən İmperiya Xəzinəsi ilə tanış olmuşdur.

Əvvəlcə Mehriban xanım Əliyeva və Avstriyanın birinci xanımı Marqit Fişer Hofburqda bu sarayın qədim görüntülərini əks etdirən rəsm əsərlərinə baxdılar.

Azərbaycanın birinci xanımına məlumat verildi ki, hazırda muzey kimi fəaliyyət göstərən İmperator Xəzinəsində Habsburqlar sülaləsinin ailə xəzinəsi, incəsənət kolleksiyası, müxtəlif dövrlərdə imperatorlara təqdim edilmiş qiymətli hədiyyələr saxlanılır, İmperiya Xəzinəsi XVI əsrdə yaradılmış, XVII əsrdə isə hazırki məkanına köçürülmüşdür. Burada Avropa tarixinin min ildən artıq dövrünə aid dəyərli eksponatlar nümayiş etdirilir.

Bildirildi ki, İmperiya Xəzinəsi İncəsənət Tarixi Muzeyini və digər zallar da daxil olmaqla 21 bölmədən ibarət nadir kolleksiyanı özündə birləşdirir. Burada bir neçə əsr ərzində Habsburq





sarayı tərəfindən çoxlu sayda qiymətli nümunələr toplanmışdır. Kolleksiyanın ən qiymətli nümunələrinə İmperiya tacı, Müqəddəs Roma İmperiyası imperatorlarına aid geyimlər, simvollar və digər nadir kolleksiyalar daxildir.

Diqqətə çatdırıldı ki, İmperiya Xəzinəsi iki kolleksiyadan ibarətdir. Bunlardan biri dünyəvi, digəri isə dini kolleksiyadır. Dünyəvi kolleksiyada Habsburqlar sarayına aid zərgərlik məmulatları və qiymətli daşlar da daxil olmaqla çoxsaylı tarixi eksponatlara rast gəlmək mümkündür. Bu eksponatlar öz tərtibatı ilə sahiblərinin hüdudsuz qüdrətini nümayiş etdirir. Dini kolleksiyada isə din xadimlərinin şəxsi kolleksiyalarından əşyalar təqdim olunur.

Azərbaycanın birinci xanımı İmperiya Xəzinəsində nümayiş etdirilən eksponatlara baxdı.

Mehriban xanım Əliyeva İmperiya Xəzinəsinin xatirə kitabına ürək sözlərini yazdı.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Hofburq saray kompleksinin tərkibində yerləşən İspan Atçılıq Məktəbində də olmuşdur.

Mehriban xanım Əliyevaya məlumat verildi ki, məktəb XIX əsrdə Avstriya-Macarıstan imperiyasının hakim sülaləsi olan Habsburqlar ailəsinin üzvləri üçün təsis edilmişdir. Həmin məktəb hazırda klassik atçılıq sənətinin davam etdirilməsi üçün qorunub saxlanılır. Məktəbin adı incəsənət atçılığı üçün yetişdirilən xüsusi cins ispan atlarının adından götürülmüşdür. Klassik atçılıq və ispan atçılıq məktəbi sənəti 2010-cu ildə YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir.

Daha sonra Azərbaycanın birinci xanımı Vyananın mərkəzində yerləşən Müqəddəs Mixael Kilsəsi ilə tanış oldu.

Mehriban xanım Əliyevaya məlumat verildi ki, kilsə XIII əsrdə Babenberq sülaləsinə mənsub olan VI Leopold tərəfindən Roman üslubunda tikdirilmişdir. Kilsə hazırda Vyananın ən qədim və görkəmli tarixi abidələrindən biri sayılır.

Diqqətə çatdırıldı ki, orta əsrlərdə imperator ailəsi tərəfindən dini ayinlər üçün mütəmadi istifadə edilən kilsə öz sərdabaları ilə muzey kimi də fəaliyyət göstərir.

*"Azərbaycan" qəzeti,*
*14 may 2013-cü il*



# İTALİYANIN VENESİYA ŞƏHƏRİNDƏ AZƏRBAYCANIN VƏ QONŞU ÖLKƏLƏRİN MÜASİR İNCƏSƏNƏTİNİN NÜMAYİŞ OLUNDUĞU SƏRGİ AÇILMIŞDIR

2013-cü ilin mayın 30-da İtaliyanın Venesiya şəhərində 55-ci Beynəlxalq Venesiya Biennalesi çərçivəsində Azərbaycanın və qonşu ölkələrin müasir incəsənətinin nümayiş olunduğu sərgi açılmışdır.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişdir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya məlumat verilmişdir ki, Azərbaycan, o cümlədən Türkiyə, Rusiya, İran və Gürcüstandan 17 rəssamın müasir təsviri incəsənətə dair əsərlərinin nümayiş olunduğu sərgi "Love me love me not" adlanır. Sərginin kuratoru əsasən Yaxın Şərq, İran və Qafqazda müasir incəsənət sahəsində ixtisaslaşan, əvvəllər "Kristi" hərracında mütəxəssis kimi çalışan Dina Naser Xadividir.

Sərginin özəlliyini təşkil edən əsas cəhət buradakı əsərlərin hər bir xalqın dinamikasını yaxından duymağa, unudulmuş, yaxud naməlum tarixin gizli tərəflərini açmağa və həmin ölkələrdə olan baxış tərzini göstərməyə imkan verməsidir.





Sərgidə geniş çeşiddə media və əşya xarakterli materiallar, həmçinin videoinstallyasiyalar və rəsm əsərləri nümayiş olunur. Kompozisiyalarda şəxsi təcrübədən qaynaqlanmış tarixi mövzular, müasir həyatın müxtəlif tərəfləri də ustalıqla əks olunmuşdur. Azərbaycan rəssamı Sitarə İbrahimovanın Qarabağ müharibəsinə həsr etdiyi "Hədd" adlı ekspoziyası sərgiyə gələnlərdə xüsusi maraq doğurur. Bu ekspozisiyanın əsasını müharibə dövründə Qırmızı Xaç Komitəsinin əməkdaşları tərəfindən çəkilən fotolar təşkil edir. Həmin fotolarda müharibədə itkin düşən şəxslərin əşyaları, hazırda Ağdamda və cəbhə xəttində yaşayan insanların həyatı təsvir olunur. Digər işlərdə, videoinstallyasiyalarda rəssamlar öz hisslərini, dünyaya baxışlarını maraqlı tərzdə təqdim edirlər. Əsərlərin müəllifləri rənglərdən və rəssamlıq texnikasından səmərəli istifadə edərək təsviri məlumatları, incəsənət tarixi haqqında biliklərini əks etdirməyə çalışmışlar. Onlar həmçinin müasir incəsənətin müxtəlif formaları ilə insan təbiətinə məxsus hərəkət detallarını və abstraksiyanı təsvir etmişlər.

*"Azərbaycan" qəzeti,*
*1 iyun 2013-cü il*



*VIII fəsil*

# Körpələrə analıq qayğısı

## HEYDƏR ƏLİYEV FONDU KİMSƏSİZ, QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİNDƏN OLAN UŞAQLAR ÜÇÜN "GÜLÜSTAN" SARAYINDA BAYRAM ŞƏNLİKLƏRİ KEÇİRİR

Heydər Əliyev Fondu "Gülüstan" sarayında müxtəlif orta məktəblərdə təhsildə xüsusilə fərqlənən, uşaq evlərində və internat məktəblərində tərbiyə alan, qaçqın və məcburi köçkün ailələrindən olan, yetim və valideyn himayəsindən məhrum uşaqlar üçün Yeni il şənlikləri keçirir. Şənliklərə minlərlə uşaq dəvət olunmuşdur.

2005-ci ilin yanvarın 3-də Fondun prezidenti, Azərbaycan Respublikası Prezidentinin xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva növbəti şənlikdə iştirak etmiş, bir neçə saat uşaqlarla birlikdə olmuş, onların sevinc və fərəhini bölüşmüşdür.

Ümummilli liderimiz Heydər Əliyevin müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından bəhs edən filmin nümayişi iştirakçılarda xoş duyğular oyatmışdır.

Salona toplaşmış uşaqların, onları müşayiət edən böyüklərin çöhrələrində bu gözəl bayram şənliyini onlara ərməğan edən Heydər Əliyev Fonduna, onun prezidenti Mehriban xanıma minnətdarlıq hissləri aydın sezilirdi. Aparıcıların təbrikləri, personajların şən zarafatları bu ovqatı daha da artırırdı. Həmin gün şənlik iştirakçıları arasında məcburi köçkün və qaçqın ailələrindən olan uşaqlar, qayğıya gündəlik ehtiyac duyan, uşaq evlərində və xüsusi məktəblərdə təlim-tərbiyə alan balaca soydaşlarımız əksəriyyət təşkil edirdi.

İncəsənət ustaları, gənc istedadlar öz oynaq, şux mahnıları, rəqsləri ilə bayram tədbirini daha da rövnəqləndirirdilər. Rəqslərə qoşulan, məharətlərini göstərən, möcüzələrə heyrət edən uşaqların sevinci hədsiz idi. Çünki tanınmış sənətçilərin, klounların, sehrbazların bir-birindən maraqlı çıxışları məhz onlara ünvanlanmışdı. Şənlikdə maraqlı müsabiqələr də təşkil olunmuş, qaliblərə Heydər Əliyev Fondunun mükafatları və hədiyyələri təqdim edilmişdir.

Ən yaddaqalan məqamlardan biri, şübhəsiz ki, Şaxta baba və Qar qızın möhtəşəm saraya gəlişi olmuşdur.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bayram şənliyində çıxış edərək demişdir:

– Əziz uşaqlar, hörmətli valideynlər, hörmətli müəllimlər! Mən sizi ürəkdən təbrik edirəm. Sizə 2005-ci ildə cansağlığı, yeni-yeni uğurlar, səadət, xoşbəxtlik arzulayıram. Mən bilirəm ki, sizin hər birinizin ürəyində öz arzularınız, istəyiniz var. İstəyirəm ki, bu yeni ildə bütün arzularınız, bütün istəkləriniz gerçəkləşsin. Bu gün bizim bu "Gülüstan" sarayımızda məcburi köçkün və qaçqın ailələrinin nümayəndələri var. Sizin ürəyinizdə olan arzu hər bir azərbaycanlının, hər bir Azərbaycan vətəndaşının ən müqəddəs arzusudur. Mən arzulayıram ki, bu arzu yeni ildə hər şeydən əvvəl gerçəkləşsin.





Biz – Heydər Əliyev Fondu çox çalışır, çox istəyirdik ki, bu gün sizin üçün əsl bayram olsun. Mən hiss edirəm ki, biz buna nail ola bilmişik. Sizi bir daha ürəkdən təbrik edir, hamınızı öpürəm. Söz verirəm ki, bu il tez-tez görüşəcəyik. Bayramınız mübarək!

Azərbaycan Prezidentinin xanımı və qızları şənliyin sonunadək uşaqlarla birlikdə olmuşlar.

Şənliyin sonunda Mehriban xanım Əliyeva jurnalistlərə müsahibə verərək demişdir:

– Mənim çox xoşuma gəldi. Çox xoşbəxtəm ki, belə gözəl bayram alındı. Heydər Əliyev Fondunun məqsədi o idi ki, şənlik uşaqlar üçün yaxşı keçsin. Hiss edirəm ki, onlar çox razıdırlar, xoşbəxtdirlər. Sevinirlər, oynayırlar. Mənim istəyim bu idi, ona da nail oldum. Mən söz verdim ki, bu il uşaqlarla tez-tez görüşəcəyik. Heydər Əliyev Fondunun proqramı var. Bu, kimsəsiz və ağır vəziyyətdə yaşayan uşaqlara yardım proqramıdır. Yeni il ərəfəsində mən 4 məktəbdə – iki uşaq evində və iki internatda olmuşam. Azərbaycandakı bütün belə məktəblərə gedəcək, onların vəziyyəti, şəraiti ilə tanış olacağam. Sonra ümumi bir proqram yaradılacaq və onlara yardım ediləcəkdir. Ona görə də mən söz vermişəm və sözümün üstündə duracağam. Yeni iliniz mübarək!

*"Azərbaycan" qəzeti,*
*5 yanvar 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA BAKIDAKI XÜSUSİ İNTERNAT MƏKTƏBLƏRİNDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Fondun hazırladığı Bakı şəhərinin internat məktəbləri və uşaq evləri ilə tanışlıq üzrə dördmərhələli proqramın dördüncü mərhələsi çərçivəsində 2005-ci ilin fevralın 3-də paytaxtın Sabunçu rayonunun Bilgəh qəsəbəsindəki əqli cəhətdən qüsurlu uşaqlar üçün 11 nömrəli yardımçı internat məktəbində olmuşdur.

Uşaqlar və müəllimlər Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Məktəbin direktoru Mehparə Cəfərova bildirdi ki, 1940-ci illərdə tikilib istifadəyə verilən bina indiyədək əsaslı təmir olunmamışdır. Pilot dərslərinin keçirilməsi üçün Fransanın "Total" Neft Şirkəti tərəfindən 10 sinif otağından ibarət yardımçı bina inşa olunmuşdur. Burada sağlam və xəstə uşaqların adaptasiyası üçün şərait yaradılmışdır. 396 şagirdin oxuduğu və 56 müəllimin çalışdığı məktəbin təmirlə bağlı ciddi problemləri vardır.

Mehriban xanım ayrı-ayrı sinif otaqlarına baxdı, dərs prosesini izlədi, uşaqların təhsil səviyyəsi, idman salonu, tikiş, dərzilik, xalçatoxuma və əmək təlimi emalatxanası, yataqxana, yeməkxana ilə tanış oldu, uşaqların əl işlərinə baxdı. O, məktəb binasının təmiri ilə bağlı problemlərin həlli üçün lazımi tədbirlərin görüləcəyini vurğuladı.

*"Azərbaycan" qəzeti,*
*4 fevral 2005-ci il*





## TƏMİR İŞLƏRİ 2005-ci İLİN MAYINADƏK BAŞA ÇATACAQDIR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin fevralın 3-də Sabunçu rayonunun Maştaga qəsəbəsindəki yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1 nömrəli Xüsusi internat məktəbinə getmişdir. Burada hörmətli qonağı ehtiramla qarşıladılar.

İki tədris korpusundan və bir yataqxana binasından ibarət məktəb Avropa Birliyinin Azərbaycana yardım proqramı çərçivəsində ayrılmış vəsait hesabına əsaslı təmir edilir. Məktəbin direktoru Zaur Quliyev bildirdi ki, 204 şagirdin oxuduğu və 60 pedaqoji işçinin çalışdığı məktəbdə təmir işləri bu ilin mayınadək tam başa çatdırılacaqdır. Lakin binaların qızdırılması və avadanlıqla təchizat sarıdan çətinliklər mövcuddur.

Fondun prezidenti tam təmir olunmuş birinci tədris korpusu ilə, yeməkxana, mətbəx, sinif otaqları ilə tanış oldu, bu təhsil ocağının avadanlıqla təchizinə kömək göstəriləcəyini vurğuladı.

*"Azərbaycan" qəzeti,*
*4 fevral 2005-ci il*

## UŞAQLAR ÜÇÜN HƏR CÜR ŞƏRAİT YARADILACAQDIR

2005-ci ilin fevralın 3-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Sabunçu rayonunun Pirşağı qəsəbəsindəki sanatoriya tipli 10 nömrəli internat məktəbi ilə də tanış olmuşdur.

Direktor Dilarə Həsənova məktəb haqqında məlumat verərək dedi ki, buradakı şagirdlər əsasən yel xəstəlikləri olan uşaqlardır. 545 uşağın 445-i yataqxanada qalır, qalanlarını isə valideynləri dərsdən sonra evlərinə aparırlar. Bu məktəb də Avropa Birliyinin yardımı ilə təmir olunur və burada uşaqlar üçün hər cür şərait yaradılacaqdır.

YUNESKO-nun xoşməramlı səfiri 1961-ci ildən fəaliyyət göstərən bu tərbiyə ocağının təmir olunmuş otaqlarına, şagirdlərin əl işlərinə baxdı və uşaqlar üçün yaradılmış şəraitdən razılığını bildirdi.

*"Azərbaycan" qəzeti,*
*4 fevral 2005*





## TƏDRİS PROQRAMLARINDA ƏMƏK DƏRSLƏRİNƏ DAHA ÇOX ÜSTÜNLÜK VERİLİR

Bu barədə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya 2005-ci ilin fevralın 3-də Suraxanı qəsəbəsindəki əqli cəhətdən qüsurlu uşaqlar üçün 7 nömrəli internat məktəbində olarkən məlumat verilmişdir. Fondun prezidenti sinif otaqları, akt və idman salonları, yataqxana, yeməkxana və mətbəxlə tanış oldu. Əl işlərindən ibarət sərgiyə baxdı, yeməklərin keyfiyyəti ilə maraqlandı.

Direktor Qabilə Bağırova bildirdi ki, məktəbin 326 şagirdi, 67 pedaqoji işçisi vardır. Əmək dərslərinə ciddi fikir verilir. Uşaqlar IX sinfi bitirdikdən sonra Əhmədli qəsəbəsində verləşən 1 nömrəli peşə məktəbinə göndərilir. Direktor məktəbdə qızdırıcı sistemin alayarımçıq işlədiyini də xatırlatdı. Mehriban xanım problemlərin həlli üçün tədbirlər görüləcəyini söylədi.

Məktəbə gəlməsindən xatirə olaraq, Fondun prezidentinə hədiyyə təqdim edildi.

*"Azərbaycan" qəzeti,*
*4 fevral 2005-ci il*

## DİPLOMATİK KORPUSUN UŞAQ EVLƏRİNƏ YARDIMI TƏQDİRƏ LAYİQDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin fevralın 3-də Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsindəki 2 nömrəli uşaq evində olmuş, burada yaradılmış şəraiti yüksək qiymətləndirmişdir.

Müdir Sevda Hacıyeva burada 145 uşağın təlim-tərbiyəsi ilə 19 pedaqoqun məşğul olduğunu bildirdi.

Mehriban xanım Əliyeva uşaq evi ilə tanış oldu, Yaponiya, Türkiyə, ABŞ səfirliklərinin buranın problemlərinin həllinə kömək göstərməsindən, ABŞ-ın Hərbi attaşesinin yardımı ilə xüsusi yeməkxananın tikiləcəyindən məmnunluğunu söylədi.

Özfəaliyyət kollektivinin çıxışı, uşaqların söylədikləri şeirlər maraqla qarşılandı.

Uşaqlar Heydər Əliyev Fonduna "Bütün dünyanın uşaqları" adlı rəsm əsəri hədiyyə etdilər.

***"Azərbaycan" qəzeti,***
***4 fevral 2005-ci il***





## BAKININ NƏRİMANOV RAYONUNDAKI PSİXO-NEVROLOJİ UŞAQ EVİ İLƏ TANIŞLIQ

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin fevralın 3-də Bakının Nərimanov rayonundakı Psixo-nevroloji uşaq evinə getmişdir. Onu burada səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Uşaq evinin direktoru İradə Musayeva məlumat verdi ki, hazırda 73 uşağın olduğu, müasir tibbi ləvazimatlarla təchiz edilmiş bu müəssisənin binasının təmiri üçün Bakı Baş Səhiyyə İdarəsi vaxtaşırı kömək edir. Heç bir ciddi problem yoxdur, bəzi çətinliklər var, bunlar da il ərzində büdcədən ayrılan vəsait hesabına aradan qaldırılacaqdır.

Fondun prezidenti uşaq evində yaradılmış şəraitlə, balacaların əl işləri ilə tanış oldu, müayinə və müalicə prosesi, uşaqlara verilən yeməklərin keyfiyyəti ilə maraqlandı.

***"Azərbaycan" qəzeti,***
***4 fevral 2005-ci il***

## ANA NƏVAZİŞİNDƏN MƏHRUM OLAN KÖRPƏLƏR SAĞLAM BÖYÜMƏLİDİRLƏR

2005-ci ilin fevralın 3-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Nəsimi rayonundakı 1 nömrəli körpələr evində olmuşdur.

Diqqət və qayğıya, balacalara baş çəkdiyinə görə hörmətli qonağa təşəkkür edən körpələr evinin direktoru Nəhayət Əliyeva bildirdi ki, burada 46 kimsəsiz uşağa yüksək səviyyədə qulluq edilməsi üçün Səhiyyə Nazirliyi və yerli icra hakimiyyəti tərəfindən hər cür kömək göstərilir. Müxtəlif humanitar təşkilatların da köməyi vardır. Uşaqlara 3 yaşadək burada baxılır.

Yataq, müayinə otaqlarında balacalara baş çəkən Mehriban xanım Əliyeva onlara əsl valideyn sevinci bəxş etdi, Fatimə və Zəhra əkiz bacılarını, digər körpələri qucağına alaraq bağrına basdı, ana nəvazişindən məhrum olan fidanların qidalanması, müayinəsi, sağlam böyümələri üçün yaradılmış şəraitlə tanış oldu.

YUNESKO-nun xoşməramlı səfiri görülən işlərdən razılığını vurğulayaraq, kimsəsiz uşaqların gələcəkdə cəmiyyətdə layiqli yerlərini tutmaları üçün bundan sonra da hər cür tədbirlərin görüləcəyini bildirdi.

*"Azərbaycan" qəzeti,*
*4 fevral 2005-ci il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA GƏNCƏ VƏ GORANBOYDA UŞAQ TƏRBİYƏ MÜƏSSİSƏLƏRİNDƏ OLMUŞDUR

Ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Fondun fəaliyyətində kimsəsiz və valideyn himayəsindən məhrum, əqli və fiziki cəhətdən zəif uşaqlara qayğı, onların təlim-tərbiyə aldıqları internatların və digər xüsusi məktəblərin müasir tələblər səviyyəsində yenidən qurulması aparıcı istiqamətlərindən biridir. Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva özü bu işlərə xüsusi diqqət yetirir və müvafiq tədbirlər görülməsinə daim nəzarət edir. Mehriban xanım Azərbaycan Prezidentinin Gəncə və Goranboya səfəri çərçivəsində fürsət tapıb təlim-tərbiyə müəssisələrində olmuşdur. Onun Səhiyyə Nazirliyinin Gəncədəki Körpələr evinə gəlişi qəfil olsa da, həm uşaqların, həm də tərbiyəçilərin sonsuz sevincinə səbəb oldu.

Yeni təmir olunmuş binadakı səliqə-sahman, körpələrə qulluq xoş təsir bağışladı. Bununla belə, Mehriban xanım problemlərlə də maraqlandı, əsasən atılmış uşaqların olduğu Körpələr evinin bütün ehtiyaclarını ödəmək üçün Fondun imkanlarından istifadə edəcəyini bildirdi. Fondun prezidenti hələ Gəncəyə gəlməmişdən qabaq buradakı uşaqlara hədiyyələr göndərmişdi.

Təhsil Nazirliyinin Gəncədəki uşaq evində isə 3 yaşından 15 yaşınadək 109 uşaq tərbiyə alır. Burada da son vaxtlar təmir işləri aparılıb, səliqə-sahman yaradılmışdır.

Uşaqların təlim-tərbiyəsi, qidalanma rejimi ilə maraqlanan Fondun prezidentinə məlumat verildi ki, tərbiyə ocağının heç bir çətinliyi yoxdur. Mehriban xanım uşaqlarla şəkil çəkdirdi, bu tərbiyə müəssisəsi ilə də müntəzəm maraqlanacağını bildirdi.

Goranboydakı Rəsul Atakişiyev adına internat əsas məktəbdə Mehriban xanım Əliyevanı öz doğmaları kimi qarşıladılar. Məktəblə tanışlıq zamanı Heydər Əliyev Fondunun prezidentinə məlumat verildi ki, bu təlim-tərbiyə ocağı ötən il Avropa Birliyinin vəsaiti hesabına əsaslı təmir olunmuş, yeni yeməkxana tikilmişdir. Mehriban xanım sinif otaqlarını gəzərək, dərs prosesini izlədi, uşaqların necə qidalanması ilə maraqlandı. Buradakı şəraitdən razılığını bildirən Mehriban xanım məktəbə kompyuter dəstləri bağışlayacağına söz verdi.

*"Azərbaycan" qəzeti,*
*20 may 2005-ci il*

# HEYDƏR ƏLİYEV FONDUNDA "AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT UŞAQ MÜƏSSİSƏLƏRİNDƏN UŞAQLARIN KƏNAR EDİLMƏSİ (DEİNSTİTUSİONALİZASİYA) VƏ ALTERNATİV QAYĞI" LAYİHƏSİNİN MÜZAKİRƏSİNƏ HƏSR OLUNMUŞ "DƏYİRMİ MASA" KEÇİRİLMİŞDİR

2005-ci ilin iyunun 1-də Heydər Əliyev Fondunda "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların kənar edilməsi (deinstitusionalizasiya) və alternativ qayğı" layihəsinin müzakirəsinə həsr olunmuş "dəyirmi masa" keçirilmişdir. Respublika hökumətinin, Beynəlxalq və Qeyri-hökumət təşkilatlarının, xüsusi internat məktəbləri və uşaq evlərinin nümayəndələrinin iştirakı ilə keçirilən tədbiri açan Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva dedi: "Biz çox vacib məsələni müzakirə etmək üçün yığışmışıq. Heydər Əliyev Fondu ölkəmizin sosial problemlərinin həllində çox fəal iştirak edir, bir sıra böyük proqramlar, layihələr hazırlayıb həyata keçirir, işlər görülür. Fondun prezidenti kimi mən Bakı şəhərində yerləşən 28 uşaq evi və internat məktəbində, Gəncə, Goranboy və Şamaxıdakı uşaq evlərində də olmuşam. Məqsədim bu müəssisələrdəki problemlərlə tanış olmaq idi. Problemlər isə var və müxtəlifdir. Həm tədris, həm də yataqxana binaları, yardımçı tikililər yararsız vəziyyətdədir, maddi-texniki baza köhnəlmişdir. Digər tərəfdən, uşaqların sağlamlığının vəziyyəti, onların aldığı təhsilin səviyyəsi, xüsusən gələcək taleyi, cəmiyyətimizdə rolu və yeri böyük problemlərdir. Bunu nəzərə alaraq, Fond "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı hazırlayıb və onun çərçivəsində bir sıra mühüm işlər görülübdür. Hazırda 10-dan çox məktəbdə əsaslı təmir gedir. Bir neçəsində təmir başa çatıb və onlar ən müasir tələblərə cavab verən təhsil ocağına çevrilibdir."

Mehriban xanım xüsusi vurğuladı ki, ən gözəl təmir olunmuş uşaq evi, ən müasir internat məktəbi heç vaxt ailəni, ailə mühitini əvəz edə bilməz. Azərbaycanda hər bir gəncin formalaşmasında və təhsilində ailənin rolu aparıcı olmuşdur. Ona görə də, bizim qarşımızda böyük bir problem durur. Bu da uşaq evləri və internat məktəblərində yaşayan uşaqların dövlət müəssisələrindən kənar edilməsi və onlara alternativ qayğı proqramı hazırlanmasıdır. Bu istiqamətdə dövlət tərəfindən müxtəlif işlər görülür, beynəlxalq təşkilatların da tövsiyələri vardır. Dünyanın bir sıra inkişaf etmiş ölkələrində, demək olar ki, bu problem artıq həllini tapır və onların təcrübəsi bizim üçün maraqlıdır.

Mehriban Əliyeva məzmunlu keçən müzakirələrə yekun vuraraq dedi ki, göründüyü kimi, bu, doğrudan da, çox vacib məsələdir. Müzakirələr onu da göstərdi ki, suallar çoxdur, cavablar isə, hələ biz istəyən kimi deyildir. Bunlar yaxın bir neçə ildə həll ediləsi məsələ deyil, çox vaxt tələb edir, güc tələb edir. Müzakirələrdə yeni problemlərə toxunduq, bunlar da öz həllini tapmalıdır. Fondun prezidenti YUNİSEF-in təmsilçisi xanım Hanaya xüsusi minnətdarlıq





edərək dedi ki, təşkilat bu istiqamətdə dünyada və Azərbaycanda çox böyük və faydalı işlər görür. Amma biz gərək unutmayaq ki, Azərbaycanın öz reallığı var. Bizim 1 milyon qaçqın və məcburi köçkünlərimiz var, bu ailələrdə uşaqlar var. Statistik məlumatlara görə, bu gün internat məktəblərində tərbiyə alan uşaqların 7-10 faizi həmin ailələrdən olan uşaqlardır. Onların problemləri necə həllini tapacaqdır? Bunun yalnız bir yolu var: Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı və bu insanlar öz doğma yurdlarına qayıtmalı, uşaqlar da öz doğma torpağında məktəbinə getməlidirlər. Bu, yalnız Azərbaycana xas olan çox mühüm məqamdır.

Mehriban xanım əmin olduğunu bildirdi ki, bütün bu problemlər öz həllini tapacaqdır. Çünki Azərbaycanda hamı – həm dövlət, həm ictimaiyyət, həm də ayrı-ayrı şəxslər bu məsələnin həllini istəyirlər.

*"Azərbaycan" qəzeti,*
*2 iyun 2005-ci il*

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA BAKININ NƏRİMANOV RAYONUNDAKI PSİXO-NEVROLOJİ UŞAQ EVİNDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin iyunun 1-də – Uşaqların Beynəlxalq Müdafiə Günü Bakı Baş Səhiyyə İdarəsinin Nərimanov rayonundakı Psixoloji-nevroloji uşaq evində olmuşdur. Uşaq evi Fondun vəsaiti hesabına əsaslı təmir olunmuş, lazımi avadanlıqla təmin edilmişdir. Burada Mehriban xanımı böyük səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Fondun prezidenti ümummilli liderimiz Heydər Əliyevin uşaqların əhatəsində çəkilmiş portretinə, bu tibb ocağının təmirdən əvvəlki və hazırkı görkəmini əks etdirən fotoguşəyə baxdı.

Mehriban xanım Əliyeva həyətdə uşaqların əylənməsi üçün yaradılmış şəraitdən, burada aparılmış yaşıllıq, abadlıq işlərindən razılığını söylədi, bu ilin əvvəlində burada gördüyü mənzərədən əsər-əlamət qalmadığını bildirdi.

Mehriban xanım Əliyevaya məlumat verildi ki, 100 çarpayılıq uşaq evində hazırda 87 azyaşlı uşaq müalicə edilir. Buraya qəbul olunarkən hətta ayaq üstə durmağı bacarmayan xeyli uşaq indi fiziki sağlamlığını bərpa edərək sərbəst yeriyir. Uşaqların müayinə və müalicəsi ilə öz peşəsinin şərəf və məsuliyyətini dərk edən ali təhsilli, təcrübəli həkim və tibb işçiləri məşğul olurlar. Səhiyyə ocağı xaricdə istehsal olunmuş trenajorlar, inventarlar, yataq dəstləri, müasir tibb avadanlığı ilə tam təchiz edilmişdir.

Fondun prezidenti işıq, qaz, su təchizatı ilə maraqlandı, uşaqların çəkdikləri rəsmlərə, ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə dair şəkillərə baxdı, aktiv terapiya, masaj, müayinə, yataq, yemək otaqlarını gəzdi, təmirin, avadanlığın keyfiyyətinə xüsusi diqqət yetirdi, hər uşağa ayrılan yemək norması, tibb ləvazimatları, dərman preparatları ilə təminatın vəziyyətini öyrəndi, burada çalışan insanların əməyini yüksək qiymətləndirdi.

Geniş, bayramsayağı bəzədilmiş salonda müəllim və uşaqların hazırladığı musiqili-ədəbi kompozisiya göstərildi. Vətənə, ulu öndər Heydər Əliyevə həsr olunmuş şeirlər səsləndi, mahnı və rəqslər ifa olundu. Mehriban xanım balacaları Uşaqların Beynəlxalq Müdafiə Günü münasibətilə təbrik etdi, ən xoş arzularını bildirdi, onlarla şəkil çəkdirdi.

Buraya toplaşmış valideynlər Mehriban xanımın respublikamızdakı uşaq evlərinə, internat məktəblərinə əsl analıq qayğısı göstərməsini yüksək qiymətləndirdilər. Onun rəhbərliyi ilə hazırlanmış "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində görülən işlərin əhəmiyyətini vurğulayaraq, bir çox internat məktəblərində kompleks yenidənqurma, əsaslı təmir işləri görüldüyündən xəbərdar olduqlarını, bu qayğı və diqqətdən minlərlə ailənin





təsəlli tapdığını bildirdilər. Valideynlər uşaqların bayramında buraya gəldiyinə, onlara sevinc bəxş etdiyinə görə Mehriban xanıma ürəkdən təşəkkür etdilər.

Mehriban xanım Əliyeva uşaq evinin kollektivinə ümummilli lider Heydər Əliyevin vəsiyyətlərini unutmamağı, xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqəti artırmağı, öz vəzifələrinin necə şərəfli, məsuliyyətli, savab iş olduğunu daim yadda saxlamağı tövsiyə etdi.

*"Azərbaycan" qəzeti,*
*2 iyun 2005-ci il*

## UŞAQLARIN BEYNƏLXALQ BƏDİİ YARADICILIQ FESTİVALI BAŞA ÇATMIŞDIR

2005-ci ilin iyunun 1-də Heydər Əliyev adına Sarayda Azərbaycan Mədəniyyətinin Dostları Fondunun himayəsi ilə uşaq evləri və internat məktəblərində tərbiyə alan kimsəsiz uşaqların 2005-ci ilin mayın 25-dən başlamış "Dan ulduzu" beynəlxalq bədii yaradıcılıq festivalının yekun konserti olmuşdur. Festivalda Qazaxıstandan iki uşaq kollektivi iştirak etmişdir.

Festivalın prezidenti, "Dan" Beynəlmiləlçi Gənclər Birliyinin sədri Gülarə Teymurova Mehriban xanım Əliyevanın festival iştirakçılarına ünvanlanmış məktubunu oxumuşdur.

Məktubda deyilir: "...Əziz balalar, gələcəyimiz olan siz, uşaqlar, daim dövlətin qayğı və diqqətindəsiniz. Biz çalışırıq ki, uşaqlar hər zaman şən və xoşbəxt yaşasınlar. Sizin yaradıcılığınız milli-mənəvi dəyərlərimizlə bağlıdır. Türkdilli xalqların zəngin sənət irsini öyrənmək, inkişaf etdirmək və qorumaq hər bir ölkə vətəndaşının borcudur. Bu festivalın keçirilməsi bir daha göstərdi ki, istedadlı uşaqlarımız çoxdur.

Mən inanıram ki, sizin hər biriniz gələcəkdə doğma Vətəninizin qədim tarixini, zəngin mədəniyyətini öz yüksək istedadınızla dünyada tanıdacaq və şöhrətləndirəcəksiniz. Sizə cansağlığı və sənət uğurları arzulayıram!"

Yekun konsertindən sonra uşaqlar sarayın qarşısındakı parka gəlmiş, ümummilli liderimiz Heydər Əliyevin burada ucaldılmış əzəmətli abidəsinin önünə əklil qoymuş, havaya sülh rəmzi göyərçinlər pərvazlandırmış, burada xatirə şəkli çəkdirmişlər.

***"Azərbaycan" qəzeti,***
***2 iyun 2005-ci il***







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA BAKININ NƏSİMİ RAYONUNDAKI 1 SAYLI KÖRPƏLƏR EVİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

2005-ci ilin sentyabrın 7-də Bakının Nəsimi rayonundakı 1 saylı körpələr evinin Heydər Əliyev Fondunun vəsaiti hesabına aparılmış əsaslı təmir və yenidənqurma işlərindən sonra təntənəli açılış mərasimi olmuşdur. Tərbiyəçilər, ətraf məhəllələrin sakinləri Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanı böyük səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Mehriban xanım ümummilli liderimiz Heydər Əliyevin binanın foyesindəki portreti önünə gül dəstəsi qoydu.

1930-cu ildə tikilmiş bina uzun illər təmir edilmədiyinə görə, əslində, yararsız hala düşmüşdü. Mehriban xanım 2005-ci ilin fevralında binanın vəziyyəti ilə tanış olduqdan sonra Fondun vəsaiti hesabına əsaslı təmir işlərinə başlamağı tövsiyə etdi. Ötən müddətdə bina əslində təzədən tikildi. Damdan tutmuş zirzəmiyədək hər yer təzələndi, yeni istilik, su, qaz, işıq xətləri çəkildi, həyət

abadlaşdı, hətta, ətraf binalarda, yollarda da təmir işləri görüldü. Körpələr evi müasir avadanlıqla da komplektləşdirildi.

Körpələr evinin müdiri Nəhayət Əliyeva bildirdi ki, burada valideyn himayəsindən məhrum, atılmış 3 yaşa qədər 67 uşaq böyüyür. Onlar müntəzəm olaraq tibbi müayinədən keçirilir, hamısı sağlamdır.

Körpələr evinin yataq, ictimai iaşə, tibbi müayinə, laboratoriya, fiziki tərbiyə otaqlarını gəzən Fondun prezidenti təmirin, avadanlığın keyfiyyətinə xüsusi diqqət yetirdi, hər uşağa ayrılan yemək norması, səhiyyə xidmətinin təşkili, ərzaq təminatının vəziyyəti ilə maraqlandı, qaldırılan məsələlərin həllinə lazımi kömək göstəriləcəyini bildirdi.

Mehriban xanım Əliyeva ötən dəfəki gəlişində körpələr evinə təzəcə verilmiş Orxanın o zaman sınmış pəncəsinin indi tam sağaldığını öyrənib xeyli sevindi, əkiz bacılar Fatimə və Zəhranın səhhəti ilə maraqlandı.

İki yaşı tamam olan Günelin ad günü isə əsl bayram şənliyinə çevrildi. Hətta, valideyninin kimliyi də bəlli olmayan bu gözəl balanın şərəfinə hazırlanmış, üzərində qoşa şam yanan tort, şən musiqi altında ifa edilən rəqslər, oxunan mahnılar körpələrin hamısına sevinc bəxş etdi. Fidan balaların sevincinə ürəkdən qoşulan Mehriban xanım, qızı Arzu öz əlləri ilə Günelə və həmyaşıdlarına tortlar, şirniyyatlar yedizdirdilər.

Fondun əməkdaşları uşaqlara üzərində Heydər Əliyev Fondunun loqosu həkk edilmiş hədiyyələr, oyuncaqlar, ərzaq paketləri verdilər. Bu təsirli səhnədən mütəəssir olan tərbiyəçi müəllimlər Mehriban xanıma, ömür-gün yoldaşı, Azərbaycan Prezidenti İlham Əliyevə ən xoş arzu və diləklərini bildirdilər, Fondun prezidentinin respublikamızdakı uşaq evlərinə, internat məktəblərinə əsl analıq qayğısı göstərməsini yüksək qiymətləndirdilər, bu qayğı və diqqətdən minlərlə ailəyə sevinc, təsəlli payı düşdüyünü dedilər. Onlar ürəkdən gələn səmimiyyətlə günün bir hissəsini körpələrlə keçirdiyinə görə Mehriban xanıma dərin təşəkkürlərini çatdırdılar.

Körpələr evinin salonunda qoyulmuş televizorda ulu öndər Heydər Əliyevin üç il əvvəl uşaqlarla keçirdiyi görüşün videolentindən fraqment göstərildi, ümummilli liderimizin bu sözləri səsləndi: "Sizin hamınız mənim balamsınız, sizi öz balam kimi sevirəm, sizi öz balam hesab edirəm. Azərbaycan uşaqları ölkəmizin, xalqımızın milli sərvətidir, gələcəyidir, ümididir".

Mehriban Əliyeva körpələr evinin kollektivinə ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin vəsiyyətlərini, ideyalarını unutmamağı, xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqəti artırmağı, öz vəzifələrinin necə şərəfli, məsuliyyətli, savab iş olduğunu dərk etməyi xahiş və tövsiyə etdi. Eyni zamanda, Heydər Əliyev Fondunun işləyib hazırladığı "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində görülən işlərin bundan sonra da davam edəcəyini vurğuladı.

*"Azərbaycan" qəzeti,*
*8 sentyabr 2005-ci il*







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA BAKININ UŞAQ EVLƏRİNDƏ OLMUŞDUR

Bakının Nizami rayonundakı 1 nömrəli uşaq evində Heydər Əliyev Fondunun vəsaiti hesabına əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bu münasibətlə 2005-ci ilin noyabrın 24-də uşaq evinə gələn Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı, qızları Leyla və Arzunu uşaqlar böyük səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Mehriban xanım ümummilli liderimiz Heydər Əliyevin binanın birinci mərtəbəsinin foyesində qoyulmuş büstü üzərindən örtüyü götürdü, abidənin önünə gül qoydu.

Məktəbin direktoru Nərminə Zöhrabova bildirdi ki, uşaq evinin 1950-ci illərdə tikilmiş binası uzun illər təmir edilmədiyinə görə, əslində, yararsız hala düşmüşdü. Mehriban xanımın təşəbbüsü ilə bu ilin aprelindən aparılan əsaslı təmir və yenidənqurma işləri tam başa çatdırılmış, uşaq evi müasir avadanlıqla da komplektləşdirilmişdir.

Mehriban xanım Əliyeva binanın təmirdən əvvəlki və hazırkı vəziyyətini əks etdirən

fotoguşəyə baxdı. Burada 3-17 yaş arasında 130 uşağın sağlamlığı, təlim-tərbiyəsi ilə 40 tərbiyəçi, tibb işçisi, xidmətçi məşğul olur. Uşaqlar yaxınlıqdakı 220 nömrəli orta məktəbdə təhsil alırlar. Bununla yanaşı, uşaq evində də təcrübəli müəllimlər onlarla xüsusi proqram əsasında məşğul olurlar. Əmək təlimi dərslərinə daha çox üstünlük verilir. Dülgərlik, xalçaçılıq, tikiş, rəssamlıq, rəqs və s. dərnəklər uşaqların müxtəlif peşələrə yiyələnməsinə imkan yaradır. Mehriban xanım uşaqların əl işlərinə tamaşa etdi, Nahid və Natiq Sarıyev qardaşlarının, Rüstəm Məmmədovun "Qarabağ, vətənpərvərlik" mövzusunda rəsmlərini yüksək qiymətləndirdi, ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə, ulu öndərin adını daşıyan Fonda həsr olunmuş fotoguşələrə baxdı. Geniş salonda uşaqların ifasında səslənən şeirlər, şən, oynaq mahnı və rəqslər də xoş təəssürat yaratdı. Kompyuteri öyrənən uşaqlar dahi şəxsiyyət Heydər Əliyevə, Azərbaycan Prezidenti İlham Əliyevə, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanıma öz hörmət və məhəbbətlərini monitorda yazdıqları xoş sözlərlə ifadə etdilər.

Uşaq evində yeni inşa edilmiş hamam, üzgüçülük hovuzu, yay konsert meydançası, stadion, iclas, idman, rəqs salonları, həyətdəki yaşıllıqlar, uşaqların əl işləri muzey-sərgisi burada balacaların fiziki və əqli cəhətdən sağlam böyüməsi üçün hər cür şərait yaradıldığına, Fondun xeyirxah fəaliyyətinin bəhrəsinə əyani sübut idi.

Mehriban Əliyevaya üzərində ulu öndər Heydər Əliyevlə istəkli nəvəsi balaca Heydərin şəkli toxunmuş xalça hədiyyə edildi. Mehriban xanım dahi şəxsiyyətin bu şəkli çox sevdiyini, ona görə də ustalıqla toxunmuş bu hədiyyəni həmişə əziz xatirə kimi saxlayacağını bildirdi.

Sonra Xətai rayonunda 81 nömrəli Ağdam rayon köçkün məktəbi üçün Fondun vəsaiti ilə tikilmiş binaya gələn Mehriban xanım bu tədris ocağının təzə avadanlıqla tam təchiz olunmuş sinif otaqlarını gəzdi, müəllim və şagirdlərlə söhbət etdi, Prezident İlham Əliyevin məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün bütün mümkün tədbirləri gördüyünü, bu səylərin hökmən müsbət nəticə verəcəyini söylədi.

Xətai rayonundakı 3 nömrəli və Suraxanı rayonundakı 2 nömrəli uşaq evlərinin balaca sakinləri də Mehriban xanımı, qızları Leyla və Arzunu sevinclə qarşıladılar. Sonra musiqi səsləndi, şən, oynaq mahnı və rəqslər bir-birini əvəz etdi. Uşaqlar söylədikləri şeirlərlə Vətənə, ulu öndər Heydər Əliyevə, Azərbaycan Prezidentinə məhəbbətlərini ifadə etdilər. Böyük öndər Heydər Əliyevin uşaqlara müraciətlə dediyi sözlər ekrandan səsləndirildi. Fondun əməkdaşları gətirdikləri hədiyyələri uşaqlara verdilər. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində görülən işlərin böyük mənəvi əhəmiyyətini vurğulayan tərbiyəçi müəllimlər Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanı Milli Məclisin deputatı seçilməsi münasibətilə təbrik etdilər. Mehriban xanım uşaqlarla xatirə şəkilləri çəkdirdi.

*Azərbaycan" qəzeti,*
*25 noyabr 2005-ci il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA "GÜLÜSTAN" SARAYINDA UŞAQLAR ÜÇÜN KEÇİRİLƏN BAYRAM ŞƏNLİYİNDƏ İŞTİRAK ETMİŞDİR

Heydər Əliyev Fondu artıq üçüncü ildir ki, "Gülüstan" sarayında Bakının müxtəlif orta məktəblərində təhsildə xüsusilə fərqlənən, uşaq evlərində və internat məktəblərində tərbiyə alan, şəhid, qaçqın və məcburi köçkün ailələrindən olan, yetim və valideyn himayəsindən məhrum uşaqlar üçün Yeni il şənlikləri keçirir. Şənliklərə minlərlə uşaq dəvət olunmuşdur.

2006-cı ilin dekabrın 29-da Fondun prezidenti, Azərbaycan Prezidentinin xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva növbəti bayram şənliyində iştirak edərək bir neçə saat uşaqlarla birlikdə olmuş, qızı Arzu ilə birlikdə onların sevinc və fərəhini bölüşmüşdür. Bayırda əsl qarlı qış havası olmasına baxmayaraq, şənlikdə mindən çox uşaq iştirak edirdi. Bakı teatrlarının aktyorları elə sarayın girişindən uşaqları qarşılayaraq onları öz yerlərinə ötürürdülər.

Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından bəhs edən film nümayiş etdirildi. Fondun uşaq evlərinə, internat məktəblərinə qayğısına həsr olunmuş qısa sənədli film də göstərildi.

Şaxta baba və Qar qızın al-əlvan bəzədilmiş, işıq selinə bürünmüş möhtəşəm saraya gəlişi alqışlarla qarşılandı.

Üç saatdan çox davam edən tədbirdə uşaqları şənləndirmək üçün aktyorlar bütün istedad və bacarıqlarını sərf edirdilər.

Salona toplaşmış uşaqların, onları müşayiət edən böyüklərin çöhrələrində bu gözəl bayram şənliyini onlara ərməğan edən Heydər Əliyev Fonduna, onun prezidenti Mehriban xanıma minnətdarlıq hissləri aydın sezilirdi. Aparıcıların təbrikləri, personajların şən zarafatları bu ovqatı daha da artırırdı. Həmin gün şənlik iştirakçıları arasında məcburi köçkün və qaçqın ailələrindən olan uşaqlar, qayğıya gündəlik ehtiyac duyan, uşaq evlərində və xüsusi məktəblərdə təlim-tərbiyə alan balaca soydaşlarımız əksəriyyət təşkil edirdi.

İncəsənət ustaları, gənc istedadlar öz oynaq, şux mahnıları, rəqsləri ilə bayram tədbirini daha da rövnəqləndirirdilər. Rəqslərə qoşulan, bərbəzəkli yolkalar ətrafında yallı gedən, məharətlərini göstərən, möcüzələrə heyrət edən uşaqların sevinci hədsiz idi. Çünki tanınmış sənətçilərin, klounların, sehrbazların bir-birindən maraqlı çıxışları məhz onlara ünvanlanmışdı.

Fondun əməkdaşlarının tədbir iştirakçılarına münasibəti, hər kəsə qayğı ilə yanaşması, nümayiş etdirdikləri yüksək mədəniyyət də uşaqların və onların müşayiətçilərinin diqqətindən yayınmadı.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bayram şənliyində çıxış edərək dedi:

– Əziz uşaqlar, hörmətli valideynlər və müəllimlər! Mən sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Qurban bayramı və Yeni il münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik və gələcəkdə yeni-yeni uğurlar arzulayıram. Qoy yeni ildə ürəyinizdə olan bütün arzular gerçəkləşsin, həyata keçsin.

Mən çox şadam ki, artıq bir neçə ildir Yeni il bayramlarını biz birlikdə, gözəl "Gülüstan" sarayında keçiririk. Heydər Əliyev Fondunun təşəbbüsü artıq bir ənənəyə çevrilib və mən çox şadam ki, belə gözəl bayramlar keçirilir və bu gün, əziz uşaqlar, sizin sevinciniz bizim Heydər Əliyev Fondunun fəaliyyətinə ən yüksək qiymətdir.

Əziz uşaqlar, siz doğma Azərbaycanımızın gələcəyisiniz, sabahısınız. Azərbaycanın da gələcəyi elm, təhsil və yüksək texnologiyalarla bağlıdır. Ona görə siz gərək çox yaxşı oxuyasınız, hərtərəfli biliyə malik olasınız.

Siz bilirsiniz ki, bizim ölkədə dövlət təhsilə çox böyük diqqətlə yanaşır. Üç il ərzində ölkəmizdə 735 yeni məktəb tikilib, ən müasir avadanlıqla təmin olunub. Hər bir məktəbdə müasir kompyuter sinfi var. Bunlar hamısı ona görədir ki, Azərbaycanın gələcəyini siz təmin edəcəksiniz.

Biz, valideynlər, üçün sizləri savadlı, sağlam, bacarıqlı, ləyaqətli insan görmək ən böyük xoşbəxtlikdir.

Bir daha hamınızın bayramlarını təbrik edirəm, sizə cansağlığı, uğurlar və xoşbəxtlik arzulayıram.

Şənlik iştirakçıları Mehriban xanımın çıxışını sürəkli alqışlarla qarşıladılar.

Şənliyə gəlmiş hər bir uşağa Heydər Əliyev Fondunun bayram hədiyyəsi təqdim edildi.

Yeni il şənliyi bu dəfə də uşaqların qəlbində silinməz xatirəyə çevrildi.

***"Azərbaycan" qəzeti,***
***30 dekabr 2006-cı il***





## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA SABUNÇU VƏ ƏZİZBƏYOV RAYONLARINDA BİR SIRA OBYEKTLƏRİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2007-ci ilin iyunun 14-də Sabunçu rayonunun Bilgəh qəsəbəsində Fondun təşəbbüsü ilə tikilib yenicə istifadəyə verilmiş 231 nömrəli uşaq bağçasında olmuşdur.

Uşaqlar Mehriban xanımı gül-çiçəklə, hərarətli alqışlarla qarşıladılar. Kollektivin, valideynlərin müraciətlərinin araşdırılması nəticəsində müəyyən edilmişdir ki, bağçanın yerləşdiyi bina tam yararsız vəziyyətdədir. Bunu nəzərə alaraq, Heydər Əliyev Fondunun təşəbbüsü ilə burada 80 yerlik yeni uşaq bağçası inşa edildi. Müasir avadanlıqla təchiz olunan bağçanın yeməkxanası, camaşırxanası və yaşıllıqlar salınmış həyətyanı sahəsi də vardır. 2 nömrəli uşaq evinin Fonda çoxsaylı müraciətləri nəzərə alınaraq, uşaqların yay tətilini səmərəli təşkil etmək üçün hazırda bağça müvəqqəti olaraq onların istifadəsinə verilmişdir. İndi burada valideyn himayəsindən məhrum olmuş 3-14 yaşlı 80-dək uşaq dincəlir.

Mehriban xanım bağçanın əvvəlki görkəmini əks etdirən fotoşəkillərə baxdı, görülmüş işlərlə yaxından tanış oldu. Qrup, yataq otaqları, tibb məntəqəsi, tərbiyəçilər kabineti və s. otaqların təzə avadanlıqla təchiz edilməsini, yaradılmış rahat şəraiti yüksək qiymətləndirdi. Foyedəki "Heydər Əliyev Fondu", "Uşaqların əl işləri" foto və rəsm sərgilərinin də zövqlə tərtib edildiyi bildirildi.

Uşaqlarla hal-əhval tutan Mehriban xanım onların yay istirahətinin necə keçməsi ilə maraqlandı. Hər gün avtobuslarla, müəllimlərin nəzarəti ilə Xəzərin sahilinə gəzintiyə getdiklərini həvəslə bildirən uşaqlar buranın təmiz havasının, sərinliyinin onlara xüsusi zövq verdiyini, yeməklərin keyfiyyətindən, çeşidlərindən məmnun qaldıqlarını söylədilər. Növbə ilə digər yoldaşlarının da buraya gəlib dincələcəklərini vurğuladılar, yaradılmış rahatlığa, onlara göstərdiyi diqqət və qayğıya görə Mehriban xanıma səmimi sözlərlə təşəkkür etdilər.

***"Azərbaycan" qəzeti,***
***15 iyun 2007-ci il***

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA BAKIDAKI 268 NÖMRƏLİ XÜSUSİ MƏKTƏBDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva 2007-ci ilin dekabrın 27-də Bakının Nəsimi rayonundakı 268 nömrəli xüsusi məktəbdə olmuşdur.

Uşaqlar və müəllimlər Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Mehriban xanımın şəxsi təşəbbüsü ilə bu məktəb əsaslı təmir olunmuş, maddi-texniki bazası möhkəmləndirilmişdir və hazırda Bakının ən gözəl təhsil ocaqlarından birinə çevrilmişdir.

Mehriban xanım Əliyeva uşaqların əl işlərindən ibarət sərgiyə və kompyuter otağına baxdı, internetə çıxışın təmin olunmasının zəruriliyini bildirdi. Mehriban xanıma hədiyyə təqdim olundu.

Məktəbin əvvəlki və indiki vəziyyətini, Mehriban xanımın məktəbdə keçirdiyi görüşləri, şagirdlərin xarici ölkələrə səfərlərini əks etdirən slaydlar nümayiş olundu, şagirdlərin Türkiyədə keçirilən ənənəvi 23 aprel Uşaq şənliklərində iştirakına dair film göstərildi.

Sonra Fondun prezidenti bayram şənliyində iştirak etdi.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə təşkil edilmiş şənlikdə Mehriban xanımın iştirakı uşaqların böyük sevincinə səbəb oldu. Uşaqlar onlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına və Mehriban xanıma dərin minnətdarlıqlarını bildirdilər.

Xüsusi qayğıya ehtiyacı olan və 700-dək şagirdin təhsil aldığı məktəbin özfəaliyyət dərnəyi üzvlərinin çıxışları, Vətən, ulu öndər Heydər Əliyev, Prezident haqqında söylədikləri şeirlər burada təhsil alan uşaqların nə qədər istedadlı olduqlarını göstərdi.

Mehriban xanım Əliyeva uşaqları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik etdi, çıxışlarını diqqətlə dinlədiyini söylədi, xatirə şəkli çəkdirdi.

Məktəbin rəhbərliyi qayğıya, nəvazişə ehtiyacları olan uşaqlarla növbəti görüşə gəldiyinə, onlara böyük sevinc bəxş etdiyinə görə Mehriban xanıma dərin minnətdarlıq etdi.

Sonra respublikamızın gənc müğənniləri konsert proqramı ilə çıxış etdilər.

*"Azərbaycan" qəzeti,*
*28 dekabr 2007-ci il*





## HEYDƏR ƏLİYEV FONDU "GÜLÜSTAN" SARAYINDA UŞAQLAR ÜÇÜN BAYRAM ŞƏNLİYİ TƏŞKİL ETMİŞDİR

Heydər Əliyev Fondu "Gülüstan" sarayında uşaq evlərində və internat məktəblərində təlim-tərbiyə alan, şəhid, qaçqın və məcburi köçkün ailələrindən olan, yetim və valideyn himayəsindən məhrum olan, təhsildə xüsusilə fərqlənən uşaqlar üçün Yeni il şənlikləri keçirir. Builki şənliklərə, ümumilikdə, 2 mindən çox uşaq dəvət olunmuşdur.

2007-ci ilin dekabrın 28-də Fondun prezidenti, Azərbaycan Prezidentinin xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva növbəti bayram şənliyində iştirak etmiş, qızı Arzu ilə birlikdə uşaqların sevinc və fərəhini bölüşmüşdür. Mehriban xanım və qızı Arzu uşaqlarla səmimi söhbət etdilər, onlarla ayrılıqda şəkil çəkdirdilər. Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından, Fondun uşaq evlərinə, internat məktəblərinə qayğısından bəhs edən film göstərildi.

Şaxta baba və Qar qızın al-əlvan bəzədilmiş möhtəşəm saraya gəlişi alqışlarla qarşılandı. Yolkanı "sehrli çubuğu" ilə işıqlandıran Şaxta baba uşaqlar arasında oyunlar keçirdi, qaliblərə hədiyyələr verdi.

Üç saatdan çox davam edən tədbirdə uşaqları şənləndirmək üçün aktyorlar bütün istedad və bacarıqlarını sərf edirdilər.

Salona toplaşmış uşaqların çöhrələrində bu gözəl bayram şənliyini onlara ərməğan edən Heydər Əliyev Fonduna, onun prezidenti Mehriban xanıma minnətdarlıq hissləri aydın sezilirdi. Həmin gün şənlik iştirakçıları arasında məcburi köçkün və qaçqın ailələrindən olan uşaqlar, qayğıya gündəlik ehtiyac duyan, uşaq evlərində və xüsusi məktəblərdə təlim-tərbiyə alan balaca soydaşlarımız əksəriyyət təşkil edirdi.

Respublikamızın tanınmış estrada müğənniləri, məktəblilərin özfəaliyyət kollektivləri, rəqs qrupları, gənc istedadlar öz oynaq, şux mahnıları, rəqsləri ilə bayram tədbirini daha da rövnəqləndirirdilər.

Rəqslərə qoşulan, bərbəzəkli yolkanın ətrafında yallı gedən, məharətlərini göstərən, möcüzələrə heyrət edən uşaqların sevinci hədsiz idi. Çünki tanınmış sənətçilərin, klounların, sehrbazların bir-birindən maraqlı çıxışları məhz onlara ünvanlanmışdı.

Fondun əməkdaşlarının tədbir iştirakçılarına münasibəti, hər kəsə qayğı ilə yanaşması da uşaqların və onların müşayiətçilərinin diqqətindən yayınmadı.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bayram şənliyində çıxış edərək dedi:

– Əziz uşaqlar, hörmətli valideynlər və müəllimlər! Mən sizi ürəkdən salamlayıram. Bu gün, bayram ərəfəsində sizləri belə gözəl, şən əhval-ruhiyyədə görməyimə çox şadam.

Artıq bir neçə ildir ki, biz Yeni il bayramını bu gözəl "Gülüstan" sarayında birlikdə qeyd

edirik. Siz bilirsiniz ki, Heydər Əliyev Fondu fəaliyyətə başladığı ilk gündən uşaqlara, gənc nəslə böyük diqqət və qayğı göstərir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə yeni məktəblər inşa olunur, internat məktəbləri, uşaq evləri təmir olunur, yay düşərgələri inşa edilir. Hər bir yeni məktəb ən müasir avadanlıqla təmin olunur, kompyuter sinifləri yaradılır. Mən və Heydər Əliyev Fondunun hər bir əməkdaşı çalışırıq ki, sizin gündəlik həyatınızda olan problemlər də öz həllini tapsın. Bizim arzumuz odur ki, siz sağlam, qüvvətli, ağıllı və savadlı böyüyəsiniz. Çünki vaxt gələcək və Azərbaycanın gələcəyini siz təmin edəcəksiniz.

Bu gün Azərbaycan müstəqil, güclü, çox yüksək sürətlə inkişaf edən bir ölkədir. Biz fəxr etməliyik ki, belə Vətənimiz var və bu gün, uşaqlar, mən sizə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təbriklərini və ən xoş arzularını çatdırıram.

Mən sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni ildə cansağlığı, səadət və uğurlar arzulayıram.

Təbrik edirəm sizi. Sağ olun.

*"Azərbaycan" qəzeti,*
*29 dekabr 2007-ci il*







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA UŞAQ EVLƏRİNDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və qızı Arzu 2008-ci ilin fevralın 14-də bir neçə uşaq evində olmuşlar. Xətai rayonundakı 3 nömrəli uşaq evinin sakinləri hörmətli qonaqları böyük səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Uşaq evinin birinci mərtəbəsinin foyesində ümummilli lider Heydər Əliyevin, Mehriban xanım Əliyevanın müxtəlif vaxtlarda bu uşaq evinin sakinləri ilə keçirdiyi görüşləri əks etdirən şəkillər asılmışdı.

Məktəbin direktoru Zöhrə Hüseynova bildirdi ki, 70 ildir fəaliyyət göstərən uşaq evində təxminən 100 uşağın sağlamlığı, təlim-tərbiyəsi ilə 8 tərbiyəçi, 2 əmək müəllimi, 1 psixoloq-həkim, 4 tibb bacısı, 2 dərnək rəhbəri və 1 musiqi müəllimi məşğul olur.

Uşaqlar yaxınlıqdakı 29 nömrəli orta məktəbdə, habelə peşə məktəblərində və texnikumlarda təhsil alırlar. Bununla yanaşı, uşaq evində də təcrübəli müəllimlər onlarla xüsusi proqram əsasında məşğul olurlar. Burada ingilis dili və kompyuter kursları vardır. Həmçinin bildirildi ki, hazırda orta məktəbin 9-cu sinfində oxuyan uşaqların bəziləri təhsillərini davam etdirmək üçün texnikumlara sənəd verəcəklər. Daha yaxşı oxuyanlar isə ali məktəblərə qəbul imtahanına hazırlaşırlar.

Mehriban xanım uşaq evində yaradılmış şəraitlə tanış oldu, problemlərlə maraqlandı. Direktor bildirdi ki, Buzovnadakı yay düşərgəsinin yenidən qurulmasına ehtiyac vardır.

Heydər Əliyev Fondunun prezidenti məsələnin araşdırılması, habelə uşaq evinin nəqliyyat problemlərinin həlli ilə bağlı tapşırıqlarını verdi.

Sonra balacalar musiqi istedadlarını göstərdilər, Azərbaycanın Dövlət himnini və şeirlər söylədilər.

Uşaqlarla xatirə şəkli çəkdirən Heydər Əliyev Fondunun prezidenti onların görüşünə tez-tez gələcəyini vurğuladı.

Növbəti görüş Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsindəki 2 nömrəli uşaq evində oldu. Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində yenidən qurulmuş uşaq evində hər cür şərait yaradılmışdır.

Müdir Sevda Hacıyeva burada 3-16 yaşlarında 140 uşağın təlim-tərbiyəsi ilə 20-yə yaxın pedaqoqun məşğul olduğunu bildirdi. Mehriban xanım Əliyeva uşaqların məişət şəraiti ilə maraqlandı. Özfəaliyyət kollektivinin çıxışı, uşaqların söylədikləri şeirlər maraqla qarşılandı. Mehriban xanım əmək təlimi otağında uşaqların əl işlərinə, o cümlədən onların muncuqdan düzəltdikləri Heydər Əliyev Fondunun loqosuna maraqla baxdı, kompyuter otağı, rəqs otağı və kitabxana ilə tanış oldu. Balaca Aytacla söhbət edən Mehriban xanım onun istəklərini soruşdu. Aytac qırmızı rəngdə ispan milli paltarı istədiyini dedi. Heydər Əliyev Fondunun prezidenti söz verdi ki, ertəsi gün balaca Aytaca ispan milli paltarı göndərəcəkdir.

Uşaqlar Mehriban xanımın onlara hədiyyə etdiyi kompyuterlərə görə minnətdarlıqlarını bildirdilər. Mehriban xanım uşaqlarla xatirə şəkli çəkdirdi.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanı və qızı Arzunu Bakının Nərimanov rayonundakı Psixo-nevroloji uşaq evində səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Uşaq evinin direktoru İradə Musayeva məlumat verdi ki, hazırda 70 uşağın olduğu, lazımi səviyyədə təchiz edilmiş bu müəssisədə heç bir ciddi problem yoxdur, bəzi çətinliklər var, bunlar da il ərzində aradan qaldırılır. Burada uşaqların sağlamlığı ilə 5 həkim və 11 tibb bacısı məşğul olur. Minnətdarlıqla qeyd olundu ki, Heydər Əliyev Fondu və şəxsən Mehriban xanım bu uşaq evinin problemlərini daim diqqətdə saxlayır, bütün bayramlarda uşaqlara hədiyyələr göndərir. Sonuncu hədiyyələr isə televizor, kompyuter və digər avadanlıqlardan ibarətdir.

Fondun prezidenti uşaq evində yaradılmış şəraitlə, müayinə və müalicə prosesi, uşaqlara verilən yeməklərin keyfiyyəti, övladlıq məsələləri ilə maraqlandı. Uşaq evinin təmiri və yeni korpusun inşası üçün müvafiq tədbirlər görüləcəyini bildirdi.

*"Azərbaycan" qəzeti,*
*15 fevral 2008-ci il*







## AZƏRBAYCANIN BİRİNCİ XANIMI VARŞAVADA EŞİTMƏ VƏ DANIŞMA QABİLİYYƏTİNDƏN MƏHRUM OLANLAR ÜÇÜN BEYNƏLXALQ MƏRKƏZLƏ TANIŞ OLMUŞDUR

2008-ci ilin fevralın 26-da Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya rəsmi səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Varşavada eşitmə və danışma qabiliyyətindən məhrum olanlar üçün Beynəlxalq mərkəzlə tanış olmuşdur.

Azərbaycanın birinci xanımına Beynəlxalq mərkəz, burada yaradılan şərait, eşitmə və danışma qabiliyyətini itirən uşaqlarla bağlı görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verildi.

Mərkəzin konfrans zalında burada görülən işlər barədə videomaterial nümayiş etdirildi.

Daha sonra Mehriban xanım Əliyeva Beynəlxalq mərkəzlə yaxından tanış oldu. Qeyd edildi ki, bu mərkəz eşitmənin fiziologiyası və patologiyası üzrə institutun bir bölməsidir. Varşavadan 20 kilometr kənarda yerləşən institutda ildə 11 min nəfər müalicə alır. Onlardan 6 mindən çoxunun üzərində cərrahiyyə əməliyyatı aparılır.

Mərkəzlə tanışlıqdan sonra Mehriban xanım Əliyeva fəxri "Qonaqlar kitabı"na ürək sözlərini yazdı.

*"Azərbaycan" qəzeti,*
*27 fevral 2008-ci il*



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA GƏNCƏ UŞAQ EVİNDƏ OLMUŞDUR

Prezident İlham Əliyevin Gəncəyə səfəri çərçivəsində 2008-ci ilin martın 3-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Gəncə uşaq evində olmuşdur.

Burada uşaqlar Mehriban xanımı səmimiyyətlə qarşılayaraq, qarşıdan gələn 8 Mart "Qadınlar bayramı" münasibətilə onu təbrik etdilər.

1997-ci ildən fəaliyyət göstərən Gəncə uşaq evi ötən il əsaslı təmir olunmuşdur. Hazırda burada 83 uşaq tərbiyə alır.

Mehriban xanım Əliyeva burada yaradılan şəraitlə tanış oldu, uşaqların qida rejimi ilə maraqlandı, kompyuter otağına baxdı. Bildirildi ki, buradakı 10 kompyuterin hamısı internetə qoşulmuşdur.

Azərbaycan Prezidentinin xanımı uşaq evinin "Banuçiçək" ansamblının hazırladığı konsert proqramına, ədəbi-bədii kompozisiyaya baxdı. "O olmasın, bu olsun" musiqili komediyasından fraqment xüsusilə xoş təsir bağışladı.

*"Azərbaycan" qəzeti,*
*4 mart 2008-ci il*







## HEYDƏR ƏLİYEV FONDU "GÜLÜSTAN" SARAYINDA UŞAQLAR ÜÇÜN BAYRAM ŞƏNLİYİ TƏŞKİL ETMİŞDİR

Heydər Əliyev Fondu "Gülüstan" sarayında uşaq evlərində və internat məktəblərində təlim-tərbiyə alan, şəhid, qaçqın və məcburi köçkün ailələrindən olan, yetim və valideyn himayəsindən məhrum, təhsildə xüsusilə fərqlənən uşaqlar üçün Yeni il şənlikləri keçirir.

2008-ci ilin dekabrın 29-da Fondun prezidenti, Azərbaycan Prezidentinin xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva növbəti bayram şənliyində iştirak etmiş, qızı Arzu ilə birlikdə uşaqların sevinc və fərəhini bölüşmüşdür. Mehriban xanım və qızı uşaqlarla səmimi söhbət etdilər, onlarla şəkil çəkdirdilər.

Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından, Fondun uşaq evlərinə, internat məktəblərinə qayğısından bəhs edən film göstərildi.

Şaxta baba və Qar qızın al-əlvan bəzədilmiş möhtəşəm saraya gəlişi alqışlarla qarşılandı. Şaxta baba "sehrli çubuğu" ilə yolkanı işıqlandırdı.

Üç saatdan çox davam edən tədbirdə uşaqları şənləndirmək üçün aktyorlar bütün istedad və

bacarıqlarını sərf edirdilər.

Salona toplaşmış uşaqların çöhrələrində bu gözəl bayram şənliyini onlara bəxş edən Heydər Əliyev Fonduna, onun prezidenti Mehriban xanıma minnətdarlıq hissləri aydın sezilirdi. Həmin gün şənlik iştirakçıları arasında məcburi köçkün və qaçqın ailələrindən olan uşaqlar, qayğıya gündəlik ehtiyac duyan, uşaq evlərində və xüsusi məktəblərdə təlim-tərbiyə alan balaca soydaşlarımız əksəriyyət təşkil edirdi.

Respublikamızın tanınmış estrada müğənniləri, məktəblilərin özfəaliyyət kollektivləri, rəqs qrupları, gənc istedadlar öz oynaq, şux mahnıları, rəqsləri ilə bayram şənliyini daha da rövnəqləndirirdilər.

Rəqslərə qoşulan, al-əlvan yolkalar ətrafında yallı gedən, məharətlərini göstərən, möcüzələrə heyrət edən uşaqların sevinci hədsiz idi. Çünki tanınmış sənətçilərin, klounların, sehrbazların bir-birindən maraqlı çıxışları məhz onlara ünvanlanmışdı.

Fondun əməkdaşlarının tədbir iştirakçılarına münasibəti, hər kəsə qayğı ilə yanaşması da uşaqların və onların müşayiətçilərinin diqqətindən yayınmadı.

Azərbaycanda uşaqlara göstərdiyi diqqət və qayğıya, bu istiqamətdə nəcib və xeyirxah fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanıma Azərbaycan uşaqları adından sevgi və məhəbbətin ifadəsi olaraq mükafat təqdim edildi.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bayram şənliyində çıxış edərək dedi:

– Əziz uşaqlar, hörmətli müəllimlər və valideynlər! Mən sizin hamınızı səmimi qəlbdən salamlayıram. Ənənəvi olaraq biz bu il də "Gülüstan" sarayında ötən illə vidalaşırıq və yeni – 2009-cu ili qarşılayırıq. Yeni il ailəvi bayramdır və mən çox şadam ki, bu bayramı biz birlikdə, böyük, mehriban ailə kimi qeyd edirik.

Ötən ilə nəzər salsaq görərik ki, ölkəmizdə bir çox mühüm hadisələr baş vermiş, bir çox nailiyyətlər əldə olunmuşdur. Ölkəmizin – Azərbaycanın inkişafı davam edir. Şəhərlərimiz, kəndlərimiz abadlaşır, gözəlləşir. Paytaxtımıza nəzər salsaq görərik ki, nə qədər gözəlləşibdir. Yeni yollar, geniş prospektlər, körpülər salınır, yeni parklar açılır, səhiyyə və idman mərkəzləri inşa olunur və istifadəyə verilir, yeni məktəblər, uşaq bağçaları tikilir, mədəniyyət abidələri, tarixi abidələr bərpa olunur. Bir çox yeni mədəniyyət ocaqları inşa olunub, istifadəyə verilib, Heydər Əliyev Sarayı bərpa olunub, Muğam Mərkəzi, Qala Etnoqrafiya Muzeyi yaradılıb və sair.

2008-ci ildə Heydər Əliyev Fondu da öz fəaliyyətini davam etdirmiş, bir çox işlər görmüşdür. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində ölkəmizdə yeni məktəblərin tikintisi davam edir. Bir sıra uşaq bağçası tikilib istifadəyə verilmişdir. Uşaqlar üçün yay düşərgələri tikilir və istifadəyə verilir. Biz həmişə olduğu kimi, uşaq evləri və internat məktəblərində tərbiyə olunan uşaqların problemlərini daim diqqət mərkəzində saxlamağa çalışmışıq. Əgər 5 il bundan əvvəl Heydər Əliyev Fondu öz fəaliyyətinə başlayanda bizim əsas gücümüzün uşaq evlərinin, internat məktəblərinin maddi-texniki bazasının yaxşılaşdırılmasına





yönəlmişdisə, bu gün artıq demək olar ki, bütün məktəblər çox gözəl vəziyyətdədir, yenidən təmir olunmuş, çoxu yenidən qurulmuş, ən müasir avadanlıqla təmin edilmişdir. Bu gün bizim diqqətimiz bu müəssisələrdə təhsilin səviyyəsinə, təhsilin şəraitinə yönələcəkdir. Biz istəyirik ki, uşaqlarımız dünyanın ən yüksək standartlarına cavab verən təhsil alsınlar, biliyə malik olsunlar.

Hesab edirəm ki, uşaqlıq həyatın ən gözəl dövrüdür. Mənim arzum odur ki, Azərbaycanda hər bir uşaq xoşbəxt olsun. Ona görə də biz sizləri – bizim uşaqlarımızı, balalarımızı məhəbbətlə, hörmətlə, mərhəmətlə, diqqətlə böyütməliyik. Aydındır ki, siz hələ həyatınızın başlanğıcındasınız. Hər birinizin qarşısında böyük yol, böyük həyat var. Bu həyatda, bu yolda sevinclə, xoş anlarla, qələbələrlə yanaşı, sizi çətinliklər də, problemlər də gözləyir. Ona görə də bugün biz, böyüklər, sizi elə böyütmək istəyirik ki, sizə elə tərbiyə vermək istəyirik ki, sabah əsl insan, əsl vətəndaş, əsl şəxsiyyət olasınız.

Siz, yəqin, bilirsiniz ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2009-cu il ölkəmizdə "Uşaq ili" elan olunmuşdur. Bu, o deməkdir ki, uşaqlara olan diqqət bir az da artmalıdır. Mən bu gün uşaq problemləri ilə məşğul olan bütün dövlət qurumlarına, qeyri-hökumət təşkilatlarına, cəmiyyətimizin hər bir vətəndaşına üz tutub deyirəm ki, uşaqlara daha da diqqətlə, daha da ürəklə, daha da məhəbbətlə yanaşmalıyıq. Yenə də deyirəm, bu, hər bir insanın borcudur. Çünki bizim uşaqlar bu günümüz, Azərbaycanın sabahıdır, Azərbaycanın gələcəyidir.

Əziz dostlar, mən sizin hamınızı Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə ürəkdən təbrik edirəm, sizə yeni ildə cansağlığı, yeni uğurlar və qələbələr arzulayıram. Çox sağ olun.

Uşaqlar Mehriban xanımla xatirə şəkli çəkdirdilər.

Şənliyə gəlmiş hər bir uşağa Heydər Əliyev Fondunun bayram hədiyyəsi təqdim edildi.

Yeni il şənliyi bu dəfə də uşaqların qəlbində silinməz xatirəyə çevrildi.

*"Azərbaycan" qəzeti,*
*30 dekabr 2008-ci il*



## HEYDƏR ƏLİYEV FONDU "BUTA" SARAYINDA UŞAQLAR ÜÇÜN BAYRAM ŞƏNLİYİ TƏŞKİL ETMİŞDİR

Heydər Əliyev Fondu "Buta" sarayında uşaq evlərində və internat məktəblərində təlim-tərbiyə alan, şəhid, qaçqın və məcburi köçkün ailələrindən olan, yetim və valideyn himayəsindən məhrum, təhsildə xüsusilə fərqlənən uşaqlar üçün Yeni il şənlikləri keçirir.

2009-cu ilin dekabrın 30-da Fondun prezidenti, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva növbəti bayram şənliyində iştirak etmiş, qızı Arzu ilə birlikdə uşaqların sevinc və fərəhini bölüşmüşdür. Mehriban xanım və qızı uşaqlarla səmimi söhbət etdilər, onlarla şəkil çəkdirdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından, Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın uşaqlara qayğısından bəhs edən film göstərildi.

Şaxta babanın al-əlvan bəzədilmiş möhtəşəm saraya gəlişi alqışlarla qarşılandı. Şaxta baba "sehrli çubuğu" ilə yolkanı işıqlandırdı.

Üç saatdan çox davam edən tədbirdə uşaqları şənləndirmək üçün aktyorlar bütün istedad və



MEHRİBAN ƏLİYEVA: TƏRƏQQİ VƏ YÜKSƏLİŞ YOLLARI İLƏ

bacarıqlarını sərf edirdilər. Salona toplaşmış uşaqların çöhrələrində bu gözəl bayram şənliyini onlara bəxş edən Heydər Əliyev Fonduna, onun prezidenti Mehriban xanıma minnətdarlıq hissləri aydın sezilirdi. Həmin gün şənlik iştirakçıları arasında məcburi köçkün və qaçqın ailələrindən olan uşaqlar, qayğıya gündəlik ehtiyac duyan, uşaq evlərində və xüsusi məktəblərdə təlim-tərbiyə alan balaca soydaşlarımız əksəriyyət təşkil edirdi.

Respublikamızın tanınmış estrada müğənniləri, məktəblilərin özfəaliyyət kollektivləri, rəqs qrupları, gənc istedadlar oynaq, şux mahnıları, rəqsləri ilə bayram şənliyini daha da rövnəqləndirirdilər. Rəqqaslara qoşulan, al-əlvan yolkalar ətrafında yallı gedən, məharətlərini göstərən, özlərini möcüzələr aləmində hiss edən uşaqların sevinci hədsiz idi. Çünki tanınmış sənətçilərin, klounların, sehirbazların, cizgi filmləri personajlarının, nağıl qəhrəmanlarının bir-birindən maraqlı çıxışları məhz onlara ünvanlanmışdı.

Fondun əməkdaşlarının tədbir iştirakçılarına münasibəti, hər kəsə qayğı ilə yanaşması da uşaqların və valideynlərin diqqətindən yayınmadı.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bayram şənliyində çıxış edərək dedi:

– Hörmətli qonaqlar!

Hörmətli müəllimlər və valideynlər!

Əziz uşaqlar!

İlk növbədə, mən sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi qəlbdən təbrik edirəm. Yeni ildə sizə möhkəm cansağlığı, gələcək uğurlar, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Biz artıq Yeni ili ənənəvi olaraq birlikdə qarşılayırıq, yeni – 2010-cu ili qarşılayırıq. Amma, eyni zamanda, biz bu gün keçmiş 2009-cu illə vidalaşırıq. Əgər keçmiş ilə nəzər salsaq, görərik ki, bu il bir çox vacib hadisələrlə və nailiyyətlərlə ölkəmizin tarixində qalacaqdır. Baxmayaraq ki, dünyanı maliyyə böhranı bürüyüb, Azərbaycanda iqtisadi artım davam edir. Biz bunu, demək olar ki, həyatımızın bütün sahələrində görə bilərik. Təkcə paytaxtımıza nəzər salsaq, görərik ki, doğma Bakımız gündən-günə necə gözəlləşir, yeni bağçalar, yeni parklar salınır, abidələr, dənizkənarı park bərpa olunur. Ölkəmizdə yeni elm, təhsil, səhiyyə obyektləri inşa olunur, yeni yollar, körpülər tikilir.

Siz hamınız yaxşı bilirsiniz ki, 2009-cu ildə Bakı islam mədəniyyətinin paytaxtı elan olunmuşdu. Bununla əlaqədar Bakıda bir çox beynəlxalq görüşlər, simpoziumlar, festivallar keçirildi. Yəqin ki, xatırlayırsınız, mart ayında Bakıda I Beynəlxalq Muğam Festivalı keçirildi. Yeddi gün həqiqətən böyük bir musiqi bayramına çevrildi və bir daha sübut etdi ki, Azərbaycan muğamı təkcə bizim mədəniyyətimizin yox, bütün dünya musiqi xəzinəsinin incisidir. Eyni zamanda, 2009-cu il "Uşaq ili" elan olunub və bu sahədə də ölkədə bir çox mühüm addımlar atılıb. 2009-cu ildə Azərbaycanda 68 yeni məktəb binası və əlavə korpuslar inşa olunub. 28 məktəbdə əsaslı təmir aparılıb, 10-dan artıq körpələr evi və uşaq bağçası təmir edilib və yenidən qurulub.

Heydər Əliyev Fondu da bu sahədə öz fəaliyyətini davam etdirir. Bu il Ağdaş şəhərində uşaq musiqi məktəbi inşa olunaraq istifadəyə verilib. Şamaxı şəhərində Nəsimi adına uşaq incəsənət məktəbinin təməli qoyulub. Bir çox beynəlxalq görüşlər keçirilib. Oktyabr ayında Azərbaycanda uşaqların müdafiəsi islahatı üzrə milli konfrans, I Uşaq Forumu, olimpiada keçirilib. Bir sözlə, 2009-cu ildə bir çox mühüm, vacib işlər həyata keçirilib və nailiyyətlər əldə edilib.

Mən demək istəyirəm ki, bütün bu işləri birləşdirən bir amil, bir məqsəd var – o da, əziz uşaqlar, sizlərin gələcəyini müstəqil, daha güclü, daha inkişaf etmiş, daha firavan Azərbaycanda görməkdir. Hər bir dövlətin gələcəyi onun uşaqlarıdır. Ona görə bu gün bütün işlər sabah üçün, sizin üçün görülür.

Mən bir daha sizə təhsilinizdə, öz həyatınızda böyük-böyük uğurlar, yaxşı, möhkəm cansağlığı, yaxşı əhval-ruhiyyə arzulayıram. Qeyd etmək istəyirəm ki, bu il Heydər Əliyev Fondu sizin üçün bu bayramı yeni bir məkanda – yenə də bu il, 2009-cu ildə istifadəyə verilmiş "Buta" sarayında keçirir. Əminəm ki, siz bu sarayı, bu şənliyi sevəcəksiniz və yadınızda saxlayacaqsınız.

Sizi bir daha ürəkdən təbrik edirəm, öpürəm, ən xoş arzularımı çatdırıram.

Uşaqlar onlara göstərdiyi diqqət və qayğıya, bu istiqamətdə nəcib və xeyirxah fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya Azərbaycan uşaqları adından təşəkkür etdilər.

Balacalar Mehriban xanımla xatirə şəkli çəkdirdilər. Şənliyə gəlmiş hər bir uşağa Heydər Əliyev Fondunun bayram hədiyyəsi və Azərbaycan bəstəkarlarının 16 populyar və sevilən uşaq mahnısından ibarət yeni disk hədiyyə olundu.

Yeni il şənliyi bu dəfə də uşaqların qəlbində silinməz xatirəyə çevrildi. Fondun Yeni il şənliklərində ümumilikdə 3 min uşaq iştirak edəcəkdir.

*"Azərbaycan" qəzeti,*
*31 dekabr 2009-cu il*







## HEYDƏR ƏLİYEV FONDU UŞAQLAR ÜÇÜN BAYRAM ŞƏNLİYİ TƏŞKİL ETMİŞDİR

Heydər Əliyev Fondu "Buta" sarayında uşaq evlərində və internat məktəblərində təlim-tərbiyə alan, kimsəsiz və valideyn himayəsindən məhrum, təhsildə xüsusilə fərqlənən uşaqlar üçün Yeni il şənlikləri keçirmişdir.

2011-ci ilin dekabrın 30-da Fondun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və nəvələri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva növbəti bayram şənliyində iştirak etmişlər.

Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin müxtəlif illərdə "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" və "Yeni il" bayramlarında uşaqlarla bir yerdə olmasından və onlara qayğısından bəhs edən film göstərildi.

Şaxta babanın al-əlvan bəzədilmiş möhtəşəm saraya gəlişi uşaqların gurultulu alqışları ilə qarşılandı. Şaxta baba və uşaqlar birlikdə yolkanın işıqlarını yandırdılar.

Tədbirdə uşaqları şənləndirmək üçün aktyorlar bütün istedad və bacarıqlarını göstərdilər, balacaların rəqs və səhnəcikləri maraqla müşayiət olundu. Salona toplaşmış uşaqların

çöhrələrində bu gözəl bayram şənliyini onlara bəxş edən Heydər Əliyev Fonduna, onun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlıq hissləri aydın sezilirdi.

Respublikamızın tanınmış estrada müğənniləri, məktəblilərin özfəaliyyət kollektivləri, rəqs qrupları, gənc istedadlar oynaq, şux mahnıları, rəqsləri ilə bayram şənliyini daha da rövnəqləndirirdilər.

Rəqqaslara qoşulan, al-əlvan yolka ətrafında yallı gedən, məharətlərini göstərən, özlərini möcüzələr aləmində hiss edən uşaqların sevinci hədsiz idi.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və oğulları tədbirdə iştirak edən uşaqlarla yolkanın ətrafında şəkillər çəkdirdilər.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva uşaqları bayram münasibətilə təbrik edərək dedi:

– Əziz uşaqlar, hörmətli müəllimlər!

Mən bu bayram günü sizinlə olmaqdan çox şadam. Heydər Əliyev Fondu tərəfindən hazırlanmış bu Yeni il bayramında həmişə olduğu kimi, sizi görməyə çox şadam. Çox şadam ki, uşaqlar belə xoş əhval-ruhiyyədədirlər, sevinirlər, oynayırlar, oxuyurlar.

Başa çatan 2011-ci il ölkəmizin tarixində xüsusi yer tutacaqdır. Əziz uşaqlar, siz hamınız, yəqin, bilirsiniz ki, bu il Azərbaycan müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümünü qeyd edib. Bu 20 il ərzində ölkəmiz çox böyük nailiyyətlər əldə edib. Ölkəmiz bütün sahələrdə inkişaf edir, yeni proqramlar icra olunur, şəhərlərimiz gözəlləşir, yeni yollar, körpülər, məktəblər, xəstəxanalar, idman mərkəzləri tikilir. Ölkəmizdə bütün sahələrdə böyük inkişaf gedir. Bunu hamımız görürük. Hamımız fəxr edirik ki, biz belə bir qüdrətli və gözəl ölkədə – Azərbaycanda yaşayırıq.

Əlbəttə, bütün bu işlərin məqsədi Azərbaycanı güclü, müstəqil, qüdrətli ölkəyə çevirməkdir. Həm də əsas məqsəd ondan ibarətdir ki, siz gələcəkdə belə ölkədə yaşayasınız. Çünki ölkəmizin inkişafını siz davam etdirəcəksiniz. Buna görə də siz bu gün, ilk növbədə, gözəl təhsil almalısınız. Çünki gələcək yalnız və yalnız təhsil, bilik, savad və ağılla bağlıdır. Mən bu bayram axşamı, əlbəttə, sizə ilk növbədə, cansağlığı arzulamaq istəyirəm. İstəyirəm ki, siz sabah müstəqil Azərbaycanın qurucuları olasınız. Əlbəttə, bugünkü nailiyyətlər hamımızı sevindirir. Bu gün hamımız fəxr edirik ki, belə bir gözəl ölkədə yaşayırıq.

Yola saldığımız il bir neçə böyük qələbələrlə də yadda qalacaqdır. Bu gün biz son mahnıda yenə də "Eurovision-2011" müsabiqəsindəki qələbəmizi xatırladıq. Yəqin ki, siz hamınız xatırlayırsınız, biz necə sevinirdik! Bizim iki gənc ifaçımız Azərbaycana bu qələbəni qazandırdı. Bütün Avropa bizə səs verdi. Bu, Azərbaycanın böyük qələbəsidir. Gələn il "Eurovision" mahnı müsabiqəsi ölkəmizdə keçiriləcək və mən əminəm ki, bu, gözəl bir bayrama çevriləcəkdir.

Bundan başqa, ölkənin həm ictimai, həm də siyasi həyatında digər nailiyyətlər də olub. Əlbəttə, bunlar hamısı, ilk növbədə, gənclərimizin, uşaqlarımızın gələcəyinə yönəlmiş addımlardır.





Əziz uşaqlar, əziz valideynlər, hörmətli müəllimlər, ona görə bu gün mən sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibəti ilə bir daha ürəkdən təbrik edirəm. Sizə Yeni ildə, ilk növbədə, cansağlığı, xoşbəxtlik, yeni uğurlar arzulayıram! Çox sağ olun!

Uşaqlar onlara göstərdiyi diqqət və qayğıya, bu istiqamətdə nəcib və xeyirxah fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkür etdilər.

Balacalar Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə xatirə şəkli çəkdirdilər.

Şənlikdə iştirak edən hər bir uşağa Heydər Əliyev Fondunun bayram sovqatı, Yeni ilin rəmzi olan oyuncaq əjdahalar hədiyyə olundu.

Yeni il şənliyi bu dəfə də uşaqların qəlbində silinməz xatirəyə çevrildi. Fondun yeni il şənliklərində ümumilikdə 2 minə yaxın uşaq iştirak etmişdir.

*"Azərbaycan" qəzeti,*
*31 dekabr 2011-ci il*



## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BAKININ YASAMAL RAYONUNDAKI 27 VƏ 325 NÖMRƏLİ UŞAQ BAĞÇALARININ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞ OLMUŞDUR

2012-ci ilin iyulun 10-da Bakı Şəhər İcra Hakimiyyətinin Yasamal rayonundakı 27 və 325 nömrəli uşaq bağçaları əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla xanım Əliyeva təmir və yenidənqurmadan sonra uşaq müəssisələrində olmuş, buradakı şəraitlə maraqlanmışlar.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla xanım Əliyeva əvvəlcə 27 nömrəli uşaq bağçasında oldular. Bildirildi ki, "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən ötən il paytaxtdakı 305 bağçadan 57-si əsaslı surətdə yenidən qurularaq istifadəyə verilmişdir. Bu il isə 61 bağça müasir tələblər səviyyəsində yenilənir. Proqrama əsasən bu iş gələn il tam yekunlaşacaqdır.

Uşaq bağçasının əvvəlki və hazırkı görkəmini əks etdirən fotostendlə tanışlıq zamanı məlumat verildi ki, ötən əsrin əvvələrində yaşayış evi kimi inşa olunan, 1930-cu ildən uşaq müəssisəsi





kimi fəaliyyət göstərən bağçada əsaslı təmir və yenidənqurma işlərinə 7 ay əvvəl başlanılmışdı. Qəzalı və yararsız vəziyyətdə olan binanın özülü qısa zamanda bərkidilmiş, dam örtüyü, fasadı yenilənmişdir.

Bağçanın 750 kvadratmetrlik ərazisi təmizlənmiş, ikimərtəbəli bina tamamilə yenidən qurulmuşdur. Səksən yerlik uşaq bağçasında balacaların təlim-tərbiyəsi və əyləncəsi üçün hər cür şərait yaradılmışdır. Həyətdə yeni attraksionlar, oturacaqlar quraşdırılmış, bağçanın istilik sistemi təzələnmişdir. Burada 3-6 yaş arasında 4 qrup vardır. Uşaqların estetik zövqünü formalaşdırmaq üçün xüsusi musiqi və rəqs zalları yaradılmışdır. Balacalarla 8 tərbiyəçi məşğul olacaqdır.

Mehriban xanım Əliyeva uşaqların qidalanması, onların tibbi müayinəsi ilə maraqlandı. Məlumat verildi ki, burada balacaların keyfiyyətli qidalanması üçün zəruri ərzaq məhsullarından ibarət menyu tərtib olunmuşdur. Bağçadakı yeməkxana, mətbəx, həmçinin tibb otağı, bütün yataq ləvazimatları yenilənmişdir.

Sonra Heydər Əliyev Fondunun hədiyyəsi olan 2 soyuducu, 2 televizor, 2 xalça bağçaya təqdim olundu.

Elə həmin gün Bakı Şəhər İcra Hakimiyyətinin 325 saylı uşaq bağçası da təmir və yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Uşaq bağçasına gələn Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva burada görülən işlərlə tanış oldular.

Məlumat verildi ki, ümumi sahəsi 2100 kvadratmetr olan bağça 1963-cü ildən istifadədir. İkimərtəbəli binada təmir və yenidənqurma işlərinə yeddi ay əvvəl başlanılmış və keyfiyyətlə sona çatdırılmışdır. Bağçanın həyəti abadlaşdırılmış, ərazidə 300-dən çox həmişəyaşıl ağac, 2 mindən çox dekorativ gül kolu əkilmişdir. Eyni zamanda, uşaqların bağçanın həyətində istirahət edib əylənmələri üçün lazımi şərait, müxtəlif oyun guşələri yaradılmış, yelləncəklər quraşdırılmışdır. Bağçada 5 qrupda 100 uşaq məktəbə hazırlıq keçir.

Heydər Əliyev Fondunun prezidenti otaqları gəzdi, burada balacalar üçün yaradılan şəraitlə maraqlandı. Diqqətə çatdırıldı ki, təhsilin ilkin mərhələsinə yiyələnən 3 yaşından 6 yaşınadək olan uşaqlar burada həm də musiqi və idmanla məşğul olacaqlar. Bağça hər cür dərs ləvazimatı ilə təchiz edilmişdir. Binada tibb, mətbəx, kitabxana, dərs, yataq otaqları, yeməkxana vardır. Uşaqların təlim-tərbiyəsi ilə 26 nəfər məşğul olacaqdır.

Mehriban xanım Əliyeva uşaqların qidalanması və istirahəti ilə maraqlandı.

Heydər Əliyev Fondunun hədiyyəsi olan 2 soyuducu, 2 televizor, 2 xalça və elektron piano bağçaya təqdim edildi.

Fondun prezidenti Mehriban xanım Əliyeva görülən işlərdən razılığını bildirdi.

*"Azərbaycan" qəzeti,*
*11 iyul 2012-ci il*



## HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞKİL ETDİYİ YENİ İL ŞƏNLİYİNDƏ UŞAQLAR UNUDULMAZ ANLAR YAŞAMIŞLAR

2012-ci ilin dekabrın 27-dən 29-dək Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Buta" sarayında uşaq evlərində və internat məktəblərində təlim-tərbiyə alan, yetim və valideyn himayəsindən məhrum, o cümlədən Daun Sindromlu Şəxslərin Assosiasiyası, xüsusi qayğıya ehtiyacı olan uşaqların reabilitasiya mərkəzi, A.S.Makarenko adına humanitar fənlər təmayüllü ümumtəhsil internat məktəbi, Psixo-nevroloji Uşaq Evi, kor və zəif görənlər üçün Respublika orta internat məktəbindəki və təhsildə xüsusilə fərqlənən uşaqlar üçün Yeni il şənlikləri keçirilir. Şənliklərə gəlmək üçün Fondun təşəbbüsü ilə xüsusi avtobuslar ayrılmışdır.

Dekabrın 28-də Fondun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bayram şənliyində iştirak etdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından və onlara qayğısından bəhs edən film göstərildi.





Hər il olduğu kimi, bu il də şənlik iştirakçılarına yeni tərtibatda hazırlanmış "Qış nağılı" proqramı təqdim edildi. Həmçinin müxtəlif uşaq qrupları və tanınmış ifaçıların çıxışları tədbirin balaca iştirakçılarında xoş ovqat yaratdı.

Şaxta babanın al-əlvan bəzədilmiş möhtəşəm saraya gəlişi uşaqların gurultulu alqışları ilə qarşılandı. Şaxta baba və uşaqlar birlikdə yolkanın işıqlarını yandırdılar.

Tədbirdə uşaqları şənləndirmək üçün aktyorlar bütün istedad və bacarıqlarını göstərdilər. Rəqqaslara qoşulan, al-əlvan yolkanın ətrafında yallı gedən, məharətlərini göstərən, özlərini möcüzələr aləmində hiss edən uşaqların sevinci hədsiz idi. Körpələrin çöhrələrində bu gözəl bayramı onlara bəxş edən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya məhəbbətlə minnətdarlıq hiss olunurdu.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva uşaqları bayram münasibətilə təbrik edərək dedi:

– Əziz uşaqlar, hörmətli valideynlər, hörmətli müəllimlər!

Mən çox şadam ki, biz bu gün yenə də birlikdəyik. Biz bu gün ötən 2012-ci illə vidalaşırıq və birlikdə yeni – 2013-cü ili qarşılayırıq. Mən ümidvaram ki, 2012-ci il sizin hər biriniz üçün uğurlu olmuşdur. Bu ildə xoş anlar, sevinc dolu hadisələr üstünlük təşkil etmişdir.

Bir daha vurğulayıram ki, hər hansı bir səbəbə görə yola saldığımız ildə reallaşdıra bilmədiyiniz, ürəyinizdə olan arzular, istəklər mütləq qarşıdan gələn 2013-cü ildə həyata keçsin. Siz hələ çox gəncsiniz, sizin ömür yolunuz hələ qarşıdadır. Əlbəttə, hər bir valideynin ən böyük arzusu övladlarını sağlam, güclü, savadlı, Azərbaycanın layiqli vətəndaşı kimi görməkdir. Bu gün dövlətimiz bunun üçün əlindən gələni edir. Bu gün Azərbaycan sürətlə inkişaf edən, gündən-günə müasirləşən, gözəlləşən bir dövlətdir. Əslində bu gün həyata keçirilən bütün işlər, layihələr, təməli qoyulan planlar gələcəkdə sizin güvənli sağlam və xoşbəxt ömür sürməyinizə xidmət edir. Biz ötən ilə nəzər salsaq görərik ki, ölkəmizdə il ərzində bir çox nailiyyətlər əldə edilmişdir. Ölkənin bütün regionları inkişaf edir, paytaxtımız gündən-günə gözəlləşir. Azərbaycanın beynəlxalq arenada nüfuzu ilbəil artır. Ölkəmizin dünyanın ən mötəbər beynəlxalq qurumu olan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi bunun ən əyani təsdiqidir. Ölkəmizi 155 dövlət dəstəklədi və bu da Azərbaycanın təkcə regionda yox, bütün dünyada artan rolunun və nüfuzunun sübutudur. Əgər ötən ilə nəzər salsaq, təbii ki, ən yaddaqalan hadisələrdən biri paytaxtımızda keçirilən beynəlxalq "Eurovision – 2012" musiqi müsabiqəsidir. Yəqin ki, hamınızın yadındadır, həmin günlərdə paytaxtımızda necə bayram ab-havası var idi. Biz bu musiqi bayramını, bu müsabiqəni ən yüksək səviyyədə keçirdik. Bu, bizim növbəti qələbəmiz idi.

Əminəm ki, bizi gələcəkdə daha çox, daha böyük qələbələr gözləyir. Bu qələbələrin önündə bir neçə ildən sonra məhz bizim balalarımız, övladlarımız, gənclərimiz duracaqlar. Biz torpaqlarımızı da qaytaracağıq, biz yeni qələbələrə imza atacağıq. Biz çox güclü müstəqil ölkəyik və gələcəkdə də belə olacağıq.

Mən bu gün sizin hər birinizə bir daha böyük məhəbbətimi çatdırıram. Yeni 2013-cü il münasibətilə sizi ürəkdən təbrik edirəm. Dünya azərbaycanlılarının birlik, həmrəylik günü münasibətilə təbrik edirəm. Ümidvaram ki, gələn il daha uğurlu olacaqdır. Yeni ildə hər biriniz üçün daha xoş, daha sevincli anlar olacaqdır. Mən sizin hər birinizi öpürəm və bir daha təbrik edirəm. Sağ olun!

Uşaqlar onlara göstərdiyi diqqət və qayğıya, bu istiqamətdə nəcib və xeyirxah fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkür etdilər.

Şənlikdə iştirak edən hər bir uşağa Heydər Əliyev Fondunun bayram sovqatı, oyuncaqlar hədiyyə olundu.

***"Azərbaycan" qəzeti,***
***29 dekabr 2012-ci il***








## BAKIDA "BACARIQLI ƏLLƏRİN BÖYÜK İŞLƏRİ" ADLI SƏRGİ AÇILMIŞDIR. AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA SƏRGİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

2013-cü ilin yanvarın 14-də Heydər Əliyev Fondunun və Müasir İncəsənət Muzeyinin birgə layihəsi əsasında Nizami rayon 1 nömrəli uşaq evinin sakinlərinin əl işlərindən ibarət "Bacarıqlı əllərin böyük işləri" adlı sərgi açılmışdır. Sərginin Müasir İncəsənət Muzeyində keçirilən açılış mərasimində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları – Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iştirak etmişlər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan sərgidə 10-18 yaşlı 30 istedadlı uşağın ümumilikdə 140 əl işi nümayiş olunur. Bu sənət nümunələri 300-dən çox işin arasından seçilmişdir. Bu əsərlərin əksəriyyəti xarici ölkələrdə sərgilənmişdir.

Tədbirdə çıxış edən Nizami rayonundakı 1 nömrəli uşaq evinin direktoru Nərminə Zöhrabova sərginin təşkilatçılarına minnətdarlığını bildirmişdir. Ölkəmizdə uşaqlara göstərilən dövlət qayğısından söz açan N.Zöhrabova belə sərgilərin istedadlı uşaqların üzə çıxması baxımından böyük əhəmiyyət daşıdığını vurğulamışdır. Bildirilmişdir ki, Heydər Əliyev Fondu ilə Müasir İncəsənət

Muzeyinin birgə layihəsi əsasında reallaşan belə sərgilər digər uşaq evlərinin istedadlı sakinlərinin də aşkara çıxarılmasına yardımçı olacaqdır.

Xüsusi vurğulanmışdır ki, Azərbaycan Prezidenti İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyeva uşaqların hər cür qayğı ilə əhatə olunması, onların müasir vətəndaş kimi yetişməsi məsələsinə xüsusi diqqət yetirirlər. Heydər Əliyev Fondu tərəfindən Azərbaycanın gələcəyini təmin edəcək sağlam ruhlu, müasir düşüncəli gənclər yetişdirmək üçün uğurlu layihələr həyata keçirilir. Hazırda uşaq evində 140 uşaq və yeniyetmənin yaşadığı diqqətə çatdırılmışdır. Qeyd edilmişdir ki, onların 500-dən çox əl işi vardır.

Sonra sərgiyə baxış keçirilmişdir.

Uşaq evinin istedadlı sakinlərinin yaratdıqları bir-birindən maraqlı əl işlərində Azərbaycanın füsunkar təbiətinin gözəllikləri, xalqımızın başına gətirilmiş faciələr, qədim tarixi abidələrimiz, nağıl qəhrəmanları və digər mövzular öz əksini tapmışdır. Balaca rəssamların Vətənə sevgi dolu bu işləri hər kəsdə böyük maraq doğurmuşdur. Elə bu səbəbdən də sərginin açılış mərasimində iştirak edən qonaqlar nümayiş olunan əsərləri heyranlıqla izləmişlər.

*"Azərbaycan" qəzeti,*
*15 yanvar 2013-cü il*





## BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA BAKIDAKI İKİ KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

2013-cu ilin aprelin 10-da Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonundakı 60 və 77 nömrəli körpələr evi-uşaq bağçalarında əsaslı təmir və yenidənqurmadan sonra yaradılmış şərait ilə tanış olmuşdur.

Azərbaycanın birinci xanımı əvvəlcə 60 nömrəli körpələr evi-uşaq bağçasının əsaslı təmirdən əvvəlki vəziyyətini əks etdirən fotostendlə, daha sonra isə bağçadakı şəraitlə tanış oldu. Məlumat verildi ki, 1961-ci ildə inşa edilmiş binada indiyədək heç vaxt bu cür təmir işləri aparılmamışdır. Qeyd edilmişdir ki, "2011-2013-cü illərdə Bakı şəhərinin və onun ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafına dair" Dövlət Proqramına uyğun olaraq burada yenidənqurma işlərinə 2012-ci ilin martından başlanılmışdır. Bağçada 2-6 yaş arası 75 uşağın təlim-tərbiyəsi ilə 8 tərbiyəçi, 1 musiqi müəllimi məşğul olur.

Müəssisədəki 4 yataq otağı, 4 qrup otağı, musiqi və idman zalı, mətbəx tamamilə yenilənmişdir. Otaqların hamısı Heydər Əliyev Fondunun hədiyyəsi olan zəruri inventarla təchiz olunmuşdur. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın adından bağçaya mebel, soyuducu, televizor, uşaq oyuncaqları və digər zəruri əşyalar hədiyyə edilmişdir.

Daha sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 77 nömrəli körpələr evi-uşaq bağçasına gəlmişdir. Bu məktəbəqədər təhsil müəssisəsi də əsaslı təmirdən sonra öz qapılarını balacaların üzünə açmışdır.

Müəssisənin əvvəlki vəziyyətini əks etdirən fotolara baxan Mehriban xanım Əliyevaya məlumat verildi ki, bu bina 1963-cü ildə inşa olunmuş, ötən illər ərzində tam yararsız vəziyyətə düşmüşdür. Bakının və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafını nəzərdə tutan Dövlət Proqramına uyğun olaraq 2012-ci ildən burada aparılan yenidənqurma işlərindən sonra bağça yeni və müasir görkəm almışdır.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya məlumat verildi ki, ikimərtəbəli binada 5 qrup, 5 yataq, həkim otaqları, musiqi və idman zalları, mətbəx yenilənmişdir. Burada 2-6 yaş arası 95 uşaq tərbiyə alır. Balacaların təlim-tərbiyəsi ilə ümumilikdə 26 nəfər məşğul olur. Bu məktəbəqədər təhsil ocağına da bütün avadanlıq Heydər Əliyev Fondu tərəfindən hədiyyə olunmuşdur.

*"Azərbaycan" qəzeti,*
*11 aprel 2013-cü il*



## *IX fəsil*

# Birinci xanımın köməkəli, xeyriyyəçilik fəaliyyəti

## KAR UŞAQLARIN ŞİFAHİ NİTQİNİN FORMALAŞMASINA KÖMƏK GÖSTƏRİLƏCƏK

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin yanvarın 31-də Bakının Nizami rayonunda yerləşən kar uşaqlar üçün 1 nömrəli respublika internat məktəbində olmuşdur.

Uşaqlar və müəllimlər hörmətli qonağı böyük sevgi və məhəbbətlə qarşıladılar.

Direktor Tanrıverdi Əliyev bildirdi ki, 1967-ci ildən fəaliyyət göstərən məktəbdə ölkəmizin müxtəlif rayon və şəhərlərindən 379 şagird, o cümlədən 165 qız təhsil alır. Onların təlim-tərbiyə işləri ilə 150-dən çox pedaqoji işçi məşğul olur. Məktəbin 200 yerlik yataqxanası da vardır. Məktəbdə dərslər xüsusi təhsil proqramı əsasında keçirilir. Təhsil Nazirliyi və Rayon İcra Hakimiyyəti məktəbə lazımi diqqət göstərirlər. Məktəbdə bir həkim və iki tibb bacısı işləyir, uşaqlar vaxtaşırı tibbi müayinədən keçirlər.

Mehriban xanım Əliyeva müəllimlərin problemləri ilə də maraqlandı. Onlar bildirdilər ki, elə bir ciddi çətinlik yoxdur. İstərdik ki, təmir işlərinə başlanılsın, idman salonu yaradılsın. Azərbaycan və rus bölmələri üçün xüsusi dərsliklər hazırlansa da, riyaziyyat, tarix, coğrafiya fənləri üzrə dərsliklərə ehtiyac vardır.

Mehriban Əliyeva məktəbin fotoguşəsinə, Heydər Əliyev Fondunun ötən ildə təşkil etdiyi "Dan ulduzu" festivalında ikinci yeri tutmuş məktəb şagirdlərinin fəaliyyətindən bəhs edən stendə, yeni tikilmiş yardımçı sinif otaqlarına, tibb kabinetinə baxdı, şagirdlərin təhsil səviyyəsini öyrənmək üçün Azərbaycan dili və ədəbiyyat siniflərində dərs prosesini izlədi.

Fondun prezidentinə məlumat verildi ki, kar uşaqlara dərs keçmək üçün müəllimlər əvvəl Moskva və Leninqradda hazırlanırdı. Ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycan Dövlət Pedaqoji Universitetində yaradılmış fakültədə yüksək ixtisaslı kadrlar hazırlanır. Təəssüf ki, Karlar Cəmiyyətinin maddi bazasının olmaması məktəbi bitirən uşaqların işlə təmin edilməsində çətinliklər yaradır. Bundan əlavə, uşaqların hərb sənətinə marağı böyük olduğu üçün məktəbdə hərbi dərslərin keçirilməsi də yaxşı olardı.

Şagirdlərin tikiş, toxuma, rəsm işlərinə, kulinariya bacarığına diqqət yetirən Mehriban xanım Əliyeva kar uşaqların şifahi nitqinin formalaşmasına kömək edən cihaz və dərsliklərlə təminatın yaxşılaşdırılması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyini vurğuladı.

*"Azərbaycan" qəzeti,*
*1 fevral 2005-ci il*





## XÜSUSİ TƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞƏRAİTİN YAXŞILAŞDIRILMASI ZƏRURİDİR

Bu fikri Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Bakının Nizami rayonundakı əqli cəhətdən qüsurlu uşaqlar üçün 3 nömrəli xüsusi təhsil məktəbində olarkən bildirmişdir.

Azərbaycan və rus bölmələri üzrə 124 şagirdin məktəbdə, 60-dan çoxunun evlərdə təhsil aldığını söyləyən məktəbin direktoru Nüşabə Heydərova vurğuladı ki, yerli İcra Hakimiyyəti və Təhsil Nazirliyi tərəfindən vaxtaşırı onlara kömək göstərilir, dərsliklərlə təmin olunurlar. İstedadlı uşaqların toxuma üzrə əl işlərindən və rəsmlərindən ibarət sərgi yaradılmışdır.

Mehriban xanım Əliyeva sərgi ilə tanış oldu, ayrı-ayrı sinif otaqlarına, emalatxanaya, tibb otağına, yeməkxanaya baxdı, məktəbdə şəraitin yaxşılaşdırılması üçün mühüm işlərin görülməsinin zəruriliyini, 1958-ci ildə tikilmiş binanın təmirə ehtiyacı olduğunu bildirdi.

*"Azərbaycan" qəzeti,*
*1 fevral 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA BAKIDAKI XÜSUSİ İNTERNAT MƏKTƏBLƏRİNDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Fondun hazırladığı Bakı şəhərinin internat məktəblərini və uşaq evləri ilə tanışlıq üzrə dördmərhələli proqramın ikinci mərhələsi çərçivəsində 2005-ci ilin fevralın 1-də paytaxtın Əzizbəyov rayonunun Şüvəlan qəsəbəsindəki zəifeşidən və sonradan karlaşmış uşaqlar üçün respublika xüsusi internat məktəbində olmuşdur.

Adı çəkilən proqrama uyğun olaraq, uşaq evləri və internat məktəbləri haqqında məlumatlar toplanıb Heydər Əliyev Fondunda təhlil edilir və bunların əsasında beşillik "Uşaq evlərinin və internat məktəblərinin inkişafı" proqramı hazırlanacaqdır. Proqram əsasında təhsil, səhiyyə, humanitar və digər sahələri əhatə edən müxtəlif tədbirlər reallaşdırılacaqdır. Əgər resurs mərkəzinə zərurət olsa, onun da yaradılması nəzərdə tutulmuşdur. Orada uşaq evləri və internat məktəblərinin təminat məsələsinə baxılması və kütləvi tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Bütün bunlar Fondun prezidenti Mehriban xanımın şəxsi təşəbbüsüdür.

Uşaqlar və müəllimlər Mehriban xanımı məktəbdə səmimiyyətlə qarşıladılar, ona gül dəstəsi təqdim etdilər. Məktəbin direktoru Akif Yusifzadə məlumat verdi ki, 1962-ci ildən fəaliyyət göstərən xüsusi məktəbdə 180-dən çox şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 66 müəllim məşğul olur. Moskvada yaşayan soydaşımız, xeyriyyəçi Gülağa Qənbərovun təşəbbüsü ilə 2003-cü ildə məktəbin bir korpusu sökülərək yerində smeta dəyəri 3,5 milyard manat olan, Avropa standartlarına cavab verən üçmərtəbəli yeni korpus tikilmiş və avadanlıqla tam təmin edilmişdir. Yeni korpusun təməli xalqımızın ümummilli lideri Heydər Əliyevin ad günü – mayın 10-da qoyulmuş, bir il sonra, 2004-cü il mayın 10-da tikinti başa çatdırılmışdır. Məktəbin ətrafı yaşıllaşdırılmış və idman meydançası tikilmişdir.

Bərbad vəziyyətdə olan tədris korpusu da yaxın vaxtlarda sökülərək və Moskvada yaşayan soydaşımızın adını daşıyan Xeyriyyə Fondu tərəfindən yaraşıqlı bina inşa olunacaqdır. Onun birinci mərtəbəsində idman kompleksi, hovuz inşa ediləcəkdir. Vaxtilə özü internat məktəbində böyümüş Gülağa Qənbərov bütövlükdə məktəbə 1,5 milyon dollar vəsait ayırmağı nəzərdə tutmuşdur.

Görülən işləri yüksək qiymətləndirən Mehriban xanım Əliyeva məktəbin əvvəlki və indiki vəziyyətini göstərən şəkillərə, tikintinin ikinci mərhələsinin layihəsinə, burada yaradılmış "Azərbaycan dünyaya günəş kimi doğacaq" adlı Heydər Əliyev muzeyinə baxdı, müasir tələblərə cavab verən yeməkxana, yataqxana, duş kabinələri ilə tanış oldu, istilik sistemi ilə maraqlandı, tövsiyələrini verdi.

Məktəbin direktoru bildirdi ki, Xeyriyyə Fondu tərəfindən quraşdırılmış istilik sistemi yaxın





vaxtlarda işə düşəcək, yeni yataq dəstləri alınacaqdır.

YUNESKO-nun xoşməramlı səfiri tədris korpusuna da baş çəkdi, burada valideynlərlə görüşdü, qayğıları və problemləri ilə maraqlandı. Onlar xeyirxah təşəbbüsünə görə Mehriban xanıma minnətdarlıqlarını bildirdilər, yeni binada yaradılan şəraitdən, müəllimlərin səviyyəsindən razılıqlarını söylədilər.

Mehriban xanım tədris korpusunda vəziyyətin ağırlığını diqqətə çatdırdı, Azərbaycan və rus bölmələri üzrə ayrı-ayrı siniflərdə şagirdlərin təhsili ilə maraqlandı, dərs prosesini izlədi. Müəllimlər Mehriban xanıma müraciətlə dedilər ki, siz bu gəlişinizlə uşaqlara çox böyük sevinc bəxş etdiniz. Həmişə görürük ki, siz uşaqlara qayğı göstərir, xoş münasibət bəsləyirsiniz.

Səmimi sözlərə görə təşəkkür edən və gördüyü işləri özünün borcu kimi səciyyələndirən Heydər Əliyev Fondunun prezidenti daha sonra şagirdlərlə görüşdü, onlara dərslərində müvəffəqiyyət arzuladı.

*"Azərbaycan" qəzeti,*
*2 fevral 2005-ci il*

# İNTERNAT MƏKTƏBLƏRİNƏ MƏXSUS SAHƏLƏRİN QANUNSUZ ÖZƏLLƏŞDİRİLMƏSİ YOLVERİLMƏZDİR

Bu fikir Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın 2005-ci ilin fevralın 1-də Bakının Əzizbəyov rayonunun Şüvəlan qəsəbəsindəki poliomielit və beyin iflici qalığı olan uşaqlar üçün 16 nömrəli internat məktəbi ilə tanışlığı zamanı söylənmişdir.

Uşaqlar və müəllimlər hörmətli qonağı səmimiyyətlə qarşıladılar. Direktor Allahverdi Vəliyev Fondun prezidentinə məlumat verərək bildirdi ki, məktəbə məxsus olan ərazinin bir hissəsi 1985-ci ildə qanunsuz olaraq bu təhsil ocağının balansından çıxarılmışdır. 1991-1992-ci illərdə ölkədə yaranmış özbaşınalıqdan istifadə edən bəzi şəxslər məktəbin xeyli ərazisini rəsmiləşdirərək özəlləşdirmişlər.

Mehriban Əliyeva: O vaxtdan belə vəziyyət qalıbdır?

Gülağa İslamov (Əzizbəyov Rayon İcra Hakimiyyətinin başçısı):

Bəli, eləcə qalıbdır. Biz onlara tikinti üçün icazə vermirik.

Mehriban Əliyeva: Tikmək istəyirlər?!

Gülağa İslamov: Bəli, ancaq qanunsuz olduğu üçün qoymuruq. Gərək məhkəmənin qərarı ilə onların sənədləri ləğv olunsun. Məktəbin rəhbərliyinin müraciəti əsasında bunu etmək olar.

Allahverdi Vəliyev: 50 ildən çoxdur ki, bu ərazi məktəbə məxsusdur.

Mehriban Əliyeva: Buranı alanda, yəqin ki, qanunsuz alıblar, ancaq qanunla ləğv etmək lazımdır.

Allahverdi Vəliyev: Məktəbin 225 şagird, 63 müəllim heyəti vardır. 190 uşaq burada yaşayır, qalanlarının valideynləri axşamlar evlərinə aparırlar. Burada görülən bütün işlər sizin və hörmətli Prezidentimizin qayğısı nəticəsində mümkün olmuşdur. 2000-ci ildə sizin şəxsi dəstəyinizlə təmir işləri yüksək səviyyədə aparılmış və məktəb avadanlıqla təmin edilmişdir. Hazırda heç bir problemimiz yoxdur.

Mehriban xanım Əliyeva uşaqların əl işlərindən ibarət sərgiyə, məktəbin dünənini və bugününü göstərən, eləcə də "Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir" fotoguşələrinə baxdı, xüsusi qayğıya, kənar köməyə ehtiyacı olan uşaqların dərs keçdikləri qrupları gəzdi, istedadlı uşaqların qabiliyyəti ilə tanış oldu, ibtidai siniflərə baş çəkdi. Fondun prezidenti dedi ki, son günlər mən internat məktəbləri gəzirəm, çox pis şəraitləri vardır. Hara gedirəmsə, pis şərait ilə rastlaşıram. Amma buraya gəldim, heç olmasa, bir az sevinirəm ki, belə gözəl şərait vardır.

Müəllimlər razılıqla söylədilər ki, məktəbin təmirindən, göstərilən qayğıdan sonra uşaqların uğurları çox olmuşdur. Belə ki, iki il əvvəl İrlandiyanın Dublin şəhərində keçirilən xəstə uşaqların idman yarışına göndərdiyimiz 7 şagirdin hamısı qızıl medalla qayıdıbdır. İki aydan sonra Xüsusi Olimpiya Komitəsinin köməyi ilə otüstü xokkey üzrə yarışlarda iştirak etmək üçün 9 nəfər Yaponiyaya yola düşəcəkdir. Biz sizə və hörmətli Prezidentimizə həmişə minnətdar olacağıq.





Mehriban Əliyeva: Bunlar bizim uşaqlardır, mənim üçün çox doğmadırlar. Uşaqlar, gənclər xalqımızın, müstəqil Azərbaycan Respublikasının parlaq gələcəyidir.

YUNESKO-nun xoşməramlı səfiri məktəbin məişət, sinif otaqlarına baxdı, akt salonunda uşaqların ifa etdiyi mahnıya qulaq asdı, onlarla xatirə şəkli çəkdirdi. Sonra yeməklərin keyfiyyəti, ərzaq anbarı ilə maraqlandı, yeməkxananın təmirinin zəruriliyini bildirdi.

*"Azərbaycan" qəzeti,*
*2 fevral 2005-ci il*

## XÜSUSİ İNTERNAT MƏKTƏBLƏRİ YENİ KOMPYUTERLƏRLƏ TƏMİN OLUNACAQ

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin fevralın 1-də Bakının Əzizbəyov rayonunun Şüvəlan qəsəbəsindəki yetim və valideyn himayəsindən məhrum olmuş əqli cəhətdən qüsurlu uşaqlar üçün 1 nömrəli yardımçı internat məktəbə getmişdir. Burada hörmətli qonağa milli geyimli qızlar gül dəstəsi təqdim etdilər.

1990-cı ildə istifadəyə verilən, hazırda 140-a yaxın şagirdi, 19 tərbiyəçisi və 24 müəllim heyəti olan məktəbin direktoru Mübariz Qasımov Fondun prezidentinə məlumat verdi ki, ikimərtəbəli yataqxanada 138 uşaq yaşayır. Tədris korpusunda 14 sinif otağı vardır. Hazırda Avropa Birliyinin qrantı hesabına idman salonu tikilir. "Şevron" Neft Şirkəti məktəbin həyətində tərbiyə otağı inşa etmişdir.

Mehriban xanım Əliyeva yataqxana, istirahət, kompyuter otaqları, yeməkxana və mətbəxlə tanış oldu, ət və digər ərzaq məhsullarının saxlandığı anbara baxdı, yeməyin keyfiyyəti ilə maraqlandı.

Bildirildi ki, Azərbaycan Prezidentinin məlum fərmanına əsasən, 2005-ci ilin martından xüsusi internat məktəblərinə kompyuterlər veriləcəkdir.

Sonra YUNESKO-nun xoşməramlı səfiri tədris korpusunu gəzdi, ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş "Ömürlərdə yaşayan ömür" adlı fotoguşəyə, Prezident İlham Əliyevin fəaliyyətindən bəhs edən "Vətən layiqli oğullarına əmanətdir" adlı stendə, məktəblilərin müxtəlif yarışlarda qazandığı nailiyyətləri əks etdirən "Bizə sülh bəxş edin – biz sizə həyat" guşəsinə baxdı, sinif otaqlarında ana dili və təbiətşünaslıq dərslərinin gedişini izlədi, tədris proqramı ilə maraqlandı. 4-cü sinif şagirdləri Heydər baba şeirini söylədilər, hörmətli qonağı da şeirlə salamladılar.

Mehriban xanım onlara təşəkkür etdi, əmək təlimi dərnəyində uşaqların məşğələsinə, habelə əl işlərinə baxdı.

*"Azərbaycan" qəzeti,*
*2 fevral 2005-ci il*





## XÜSUSİ MƏKTƏBİN ƏSASLI TƏMİRƏ EHTİYACI VARDIR

Bu fikri Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Bakının Əzizbəyov rayonunun Mərdəkan qəsəbəsindəki ciddi tərbiyə şəraitinə ehtiyacı olan oğlanlar üçün xüsusi məktəbdə olarkən bildirmişdir.

124 şagirdin təhsil aldığı, 26 tərbiyəçinin çalışdığı məktəbin direktoru Nadir Əhmədov Mehriban xanıma məlumat verərək dedi ki, 3 korpusdan ibarət bu təhsil ocağı indiyənədək təmir olunmamışdır. Keçən il ayrılan vəsait hesabına yataqxananın bir hissəsi təmir olunsa da, vəsait çadışmadığına görə işlər yarımçıq qalmışdır.

Mehriban xanım Əliyeva II-IX siniflərdə şagirdlərin təhsili ilə maraqlandı, idman salonu, kitabxana, tibb məntəqəsi, yataqxana, yeməkxana və mətbəxlə tanış oldu, yeməyin keyfiyyəti ilə maraqlandı, ərzaq məhsullarının saxlandığı anbara baxdı.

Söhbət zamanı məktəbdə şəraitin yaxşılaşdırılması üçün mühüm işlərin görülməsinin zəruriliyi, binanın əsaslı təmirə ehtiyacının olması xüsusi vurğulandı.

*"Azərbaycan" qəzeti,*
*3 fevral 2005-ci il*

## İNTERNAT MƏKTƏBLƏRİNDƏ ŞƏRAİTİN YAXŞILAŞDIRILMASI ZƏRURİDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin fevralın 2-də Bakının Əzizbəyov rayonunun Mərdəkan qəsəbəsindəki yetim və valideyin himayəsindən məhrum olmuş uşaqlar üçün 2 nömrəli xüsusi internat məktəbinə getmişdir. Uşaqlar hörmətli qonağı məhəbbətlə qarşıladılar.

Məktəbin direktoru Kamran Hacıyev məlumat verdi ki, burada 53 pedaqoji işçi 299 uşağın təlim-tərbiyəsilə məşğul olur. Yerli icra hakimiyyəti tərəfindən vaxtaşırı kömək göstərilsə də, binanın təmirə ehtiyacı vardır, vəsait də azlıq edir. Burada bir uşağa gündəlik 7500 manatlıq yemək verilir ki, bu da azdır. İstilik sistemi bərbad vəziyyətdədir.

Bildirildi ki, ümumiyyətlə, Əzizbəyov rayonunda olan bu tipli 41 məktəbin təmirinə keçən il 600 milyon manat (təqribən hər birinə 15 milyon) vəsait ayrılmışdır. Bununla cari təmir işləri aparılsa da, əsaslı iş görməyə kifayət etmir. Yataqxana binaları darısqallıq edir.

Fondun prezidenti məktəbin xüsusi təhsil proqramı ilə maraqlandı, ayrı-ayrı sinif otaqlarını, yataqxana binalarını, yeməkxana və mətbəxi gəzərək, vəziyyətlə ətraflı tanış oldu.

*"Azərbaycan" qəzeti,*
*3 fevral 2005-ci il*





## BÜTÜN PROBLEMLƏR BİRLİKDƏ HƏLL EDİLƏCƏKDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin fevralın 2-də Əzizbəyov rayonunun Buzovna qəsəbəsində yerləşən sanatoriya tipli 13 nömrəli internat məktəbinə getmiş, 330-a yaxın şagirdin, 56 müəllimin çalışdığı bu təhsil ocağının vəziyyəti, problemləri ilə tanış olmuşdur.

Direktor Nizaməddin Məmmədov və müəllimlər hörmətli qonağı səmimiyyətlə qarşılayaraq, uşaqlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər. Onlar 43 il fəaliyyət göstərən məktəbin əsaslı təmirinə kömək olunmasını xahiş etdilər.

Mehriban xanım dedi ki, Heydər Əliyev Fondu xüsusi proqram hazırlamışdır. Mən bütün internat məktəblərini gəzib tanış oluram və bütün problemləri birlikdə həll edəcəyik. Əlbəttə, heç bir fond bu işlərin öhdəsindən tək gələ bilməz. Təbii ki, dövlət strukturları, ictimaiyyət yardım göstərməlidir. Hər halda, buna ehtiyac var, çünki məktəblərin əksəriyyəti də belə vəziyyətdədir.

Fondun prezidenti dərs prosesini izlədi, müxtəlif siniflərdə oxuyan şagirdlərin bilik səviyyəsinə xüsusi diqqət yetirdi. Sonra istedadlı uşaqların rəsmlərindən ibarət sərgisi, yataqxana və yeməkxana ilə tanış oldu.

Məktəblə tanışlığından sonra Mehriban xanım Əzizbəyov Rayon İcra Hakimiyyətinin və rayon təhsil şöbəsinin rəhbərlərindən müvafiq layihə və təkliflər hazırlanaraq təqdim olunmasını xahiş etdi.

*"Azərbaycan" qəzeti,*
*3 fevral 2005-ci il*

## CƏMİYYƏTDƏ YARDIMA ƏN ÇOX EHTİYACI OLAN İNSANLARA DİQQƏT VƏ QAYĞI HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTİNİN ÖNCÜL İSTİQAMƏTLƏRİNDƏN BİRİDİR

2005-ci ilin fevralın 8-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə talassemiya problemlərinə həsr olunmuş "Talassemiyasız həyat naminə" mövzusunda "Dəyirmi masa" keçirilmişdir.

Tədbirə dəvət olunmuş müxtəlif beynəlxalq səhiyyə təşkilatlarının, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun, iri yerli və xarici şirkətlərin nümayəndələri, beynəlxalq ekspertlər əvvəlcə xalqımızın ümummilli liderinin həyat və fəaliyyətini əks etdirən sərgiyə baxdılar, ulu öndərin nurlu xatirəsini ehtiramla yad etdilər.

Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyeva tədbiri açaraq iştirakçıları, o cümlədən ABŞ-ın Çikaqo Reproduktiv Genetika Elmi-Tədqiqat İnstitutunun direktoru Ənvər Quliyevi salamladı. O, Fond barədə məlumat verərək, bildirdi ki, Heydər Əliyev Fondunun əsas məqsədi ulu öndərimizin vətən, xalq üçün göstərdiyi xidmətləri, onun ümumbəşəri ideyalarını, zəngin irsini təbliğ etmək, gənclər və gələcək nəsillər üçün qoruyub saxlamaqdır. Fondun çoxşaxəli fəaliyyətinin öncül istiqamətlərindən biri cəmiyyətimizdə yardıma ən çox ehtiyacı olan insanlara diqqət və qayğıdır. Bu, ilk növbədə, qaçqın və məcburi köçkün ailələri, uşaq evləri, internat məktəblərində tərbiyə alan uşaqlar və, əlbəttə, müxtəlif xəstəliklərdən əziyyət çəkən insanlardır.

Fond bu istiqamətdə qısa zamanda bir neçə böyük layihə (diabetli uşaqlara ən yüksək qayğı, uşaq evi və internat məktəblərinin inkişafı, "Mən Azərbaycanı sevirəm" rəsm sərgisi, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlarla görüşlər və s.) hazırlayıb həyata keçirmişdir.

Talassemiya xəstəliyinin ölkəmiz üçün çətin problemlərindən biri olduğunu konkret faktlarla diqqətə çatdıran Mehriban xanım xatırlatdı ki, Azərbaycanda talassemiya haqqında ilk məlumatlar keçən əsrin 50-ci illərindən sonra alınmışdır. Azərbaycanın bir sıra rayonlarında talassemiya geninin yayılma tezliyi dünya üzrə rekord göstəriciyə çatır. Talassemiya daşıyıcılarının əhalinin sayına görə orta nisbəti 8 faizə bərabərdir. Yəni, respublikamızın hər 12 sakinindən biri bu patoloji genin daşıyıcısıdır. Hər il 200-ə qədər böyük BETA-talassemiya xəstə uşaq anadan olur. Yaşayan böyük talassemiya xəstələrinin sayı isə 2 mindən artıqdır. Əslində, bu rəqəmlər daha da yüksək ola bilər.

Çünki ölkəmizin bəzi ucqar rayonlarında talassemiya diaqnozu qoyulmur və anadan olan uşaq xüsusi müayinələrdən keçmir, əfsuslar olsun, həyatının ilk illərində vəfat edir və ölümünün səbəbi də bilinmir.

Dünya Səhiyyə Təşkilatının proqnozuna görə, Azərbaycanda talassemiyanın profilaktikası lazımınca təşkil edilməsə, bu xəstəliyə düçar olmuş xəstələrin sayının 45 il ərzində 16 minə çatacağını xatırlayan Mehriban xanım Əliyeva bildirdi ki, hazırda Heydər Əliyev Fondu





talassemiya xəstəliyinin qarşısını almaq məqsədi ilə böyük bir proqram üzərində işləyir. Həmin proqramın əsas istiqamətlərini iştirakçıların diqqətinə çatdıran Fondun prezidenti dedi ki, bunlar ictimaiyyətin, xarici ölkələrin və Beynəlxalq Talassemiya Federasiyasının diqqətini bu problemin həlli yollarının araşdırılmasına cəlb etmək, Azərbaycanda talassemiya xəstəliyinin müalicəsi və diaqnostikası məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən ixtisaslaşdırılmış mərkəzin və qan bankının yaradılması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün könüllü donor xidmətinin inkişaf etdirilməsi, talassemiyanın yayılmasının qarşısının alınmasından ötrü əhalinin maarifləndirilməsi və prenatal diaqnostika üsulu vasitəsilə xəstəliyin proqnozlaşdırılması (xüsusilə bu, yeni ailələrə aiddir), talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsi çərçivəsində ölkəmizdə yüksək ixtisaslı kadrların hazırlanmasıdır. Sonra mövzu ətrafında müzakirələr oldu.

Heydər Əliyev Fondunun bu xeyirxah təşəbbüsünü yüksək qiymətləndirən natiqlər vurğuladılar ki, bu bəlanın aradan qaldırılması üçün hazırda Azərbaycanda bütün imkanlar mövcuddur. Fondun bu problemə xüsusi diqqət yetirməsi də əminlik yaradır ki, ölkəmizdə talassemiyalı uşaqlara xüsusi qayğı göstəriləcək, onların başqa ölkələrdəki kimi tam dəyərli həyat sürə bilmələri və cəmiyyətə inteqrasiya olunmaları üçün əlindən gələni əsirgəməyəcəkdir.

Çıxış edənlər xalqımızın ümummilli lideri Heydər Əliyevin səhiyyəyə göstərdiyi diqqət və qayğını xatırlatdılar, Azərbaycan parlamentində müvafiq qanun layihələrinin hazırlanması və qəbulu ilə bağlı məsələlərdən söz açdılar. Xüsusi vurğulandı ki, Prezident İlham Əliyevin tapşırığı ilə yeni tibbi texnologiyanın tətbiqi və avadanlığın alınması üçün bu il dövlət büdcəsindən ayrılan vəsaitin həcmi 15 qat artırılmışdır.

Mehriban xanım Əliyeva "Dəyirmi masa"ya yekun vuraraq dedi: "Hesab edirəm, çox vacib və dəyərli müzakirələr oldu. Talassemiyadan ən çox uşaqlar əzab çəkir. Xəstəlik böyük-kiçik tanımasa da, uşaqların əzabı daha ağrıdıcıdır. Amma dünyada bu xəstəlikdən tamamilə sağalan insanlar var. Ona görə çox böyük iş görmək lazımdır və bunun öhdəsindən yalnız birlikdə gəlmək olar. Həm dövlət, həm də ictimaiyyət, fondlar, imkanlı insanlar birlikdə bu bəlanın qarşısını ala bilərlər. Heydər Əliyev Fondu üçün isə əsas məsələ ixtisaslaşdırılmış mərkəzin və qan bankının yaradılmasıdır. Beləliklə, biz bu gün bu problemin həlli yolunda birinci addımı birlikdə atdıq. Heydər Əliyev Fondu bu istiqamətdə hər bir yardımı dəstəkləyir və təklifləri gözləyir."

*"Azərbaycan" qəzeti,*
*9 fevral 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNDAN İNTERNAT EVLƏRİ VƏ MƏKTƏBLƏRİNƏ NOVRUZ SOVQATLARI ÇATDIRILMIŞDIR

Heydər Əliyev Fondunun nümayəndələri Novruz bayramı münasibətilə növbəti dəfə bir sıra internat evlərində və məktəblərində olmuş, Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın adından uşaqlara hədiyyələr paylamışlar. Üzərində "Heydər Əliyev Fondundan" sözləri yazılmış xonçalar uşaqların bayram sevincini qat-qat artırmışdır. Bayram şənliklərində uşaqlar öz məharətlərini, bilik və bacarıqlarını nümayiş etdirmiş, ulu öndərimiz Heydər Əliyevə və Novruz bayramına həsr olunmuş şeirlər söyləmişlər. Milli geyimli oğlan və qızların ifa etdikləri rəqslər, Kosanın, Keçəlin, Bahar qızın çıxışları məclis iştirakçılarında xoş ovqat yaratmışdır.

Heydər Əliyev Fondunun nümayəndələri YUNESKO-nun xoşməramlı səfiri, Fondun prezidenti Mehriban xanım Əliyevanın adından uşaqları Novruz bayramının gəlişi münasibətilə təbrik etmiş, onun ən xoş arzularını balacalara yetirmişlər. Bildirilmişdir ki, Mehriban xanımın təşəbbüsü ilə Novruz bayramı günlərində Bakıda və Bakı ətrafında yerləşən 30-dək uşaq evi, internat məktəbi, əlil uşaqların müalicə mərkəzləri və qocalar evinin hamısına – köməyə ehtiyacı olan 10 min nəfərdən çox vətəndaşımıza hədiyyələr çatdırılacaqdır.

Şənliklərdə çıxış edən valideynlər, tərbiyəçi müəllimlər son bir ildə uşaq evlərinin maddi-texniki bazasının yaxşılaşması, ərzaqla təminat, səhiyyə, təhsil, iaşə, kommunal xidmətlər sahəsində müsbət dəyişikliklərdən razılıq hissi ilə danışmış, bu xeyirxah işlərin himayədarı olan Heydər Əliyev Fonduna və onun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

***"Azərbaycan" qəzeti,***
***20 mart 2005-ci il***





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA ŞAMAXIDA İNTERNAT MƏKTƏBLƏRİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Şamaxıya səfər proqramı çərçivəsində dövlət başçısının xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva şəhərdəki internat məktəblərində olmuşdur.

Əvvəlcə Şamaxı şəhər orta internat məktəbinə gələn Mehriban xanım Əliyeva valideyn himayəsindən məhrum olan uşaqlarla görüşdü, tədris prosesi ilə maraqlandı. Direktor Vəlican Güləliyev 2500 şagirdin təlim-tərbiyə aldığı məktəb haqqında məlumat verdi. Məktəbdə müəyyən təmir işlərinin görüldüyünü bildirən direktor bir çox problemlərin olduğunu da diqqətə çatdırdı.

YUNESKO-nun xoşməramlı səfiri internat məktəbində bütün problemlərin həllinə kömək göstəriləcəyini, şagirdlərə yeni dərs ləvazimatlarının veriləcəyini bildirdi.

Şagirdlər məktəbdə təşkil olunan Əlifba bayramında şeirlər söylədilər, mahnılar oxudular. Mehriban xanım Əliyeva məktəbin idman salonunda da oldu, burada təmir işlərinin aparılmasının vacibliyini vurğulayaraq dedi ki, bunun üçün Heydər Əliyev Fondu tərəfindən lazımi kömək göstəriləcəkdir.

Məktəbin müəllimləri uşaqlara və bu təhsil ocağına göstərdiyi diqqətə görə Heydər Əliyev Fondunun prezidentinə minnətdarlıq etdilər.

Prezidentin xanımı məktəbin yaxınlığında məskunlaşmış məcburi köçkün ailələri ilə də görüşdü, onların problemləri ilə maraqlandı.

Sonra Mehriban xanım Əliyeva 1 nömrəli ixtisaslaşdırılmış internata gəldi. Direktor Mübariz Məmmədov 1975-ci ildən fəaliyyət göstərən internatda ruhi-əsəb xəstəliyinə tutulmuş 100 nəfər uşağın müalicəsi, təlim-tərbiyəsi sahəsində görülən işlərdən danışdı, binada təmir aparıldığını bildirdi. İnternatın sinif otaqları, yeməkxanası ilə tanış olan Mehriban xanım bu müalicə-tədris müəssisəsinə lazımi kömək göstəriləcəyini vurğuladı.

***"Azərbaycan" qəzeti,***
***28 aprel 2005-ci il***

# HEYDƏR ƏLİYEV FONDUNDA BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏNİN 60 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ MƏRASİM KEÇİRİLMİŞDİR

2005-ci ilin mayın 7-də Heydər Əliyev Fondunda Böyük Vətən müharibəsində Qələbənin 60 illik yubileyinə həsr olunmuş mərasim keçirilmişdir.

Mərasimə dəvət olunan müharibə veteranları əvvəlcə Fəxri xiyabanı ziyarət etdilər, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarı önünə əklil və gül dəstələri qoydular.

Onlara göstərdiyi diqqət və qayğını heç vaxt unutmayacaqlarını vurğulayan müharibə veteranları ulu öndərin əziz xatirəsini böyük ehtiramla yad etdilər, ona Allahdan rəhmət dilədilər.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva veteranları səmimiyyətlə qarşıladı, bayramlarını təbrik etdi, onlara uzun ömür, cansağlığı arzuladı.

Fondun əməkdaşları Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fond və onun məqsədləri barədə veteranlara məlumat verdilər.

Veteranlar ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlarla, o cümlədən həyatının ən müxtəlif anlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, xalqımızın böyük oğluna həsr edilmiş kitablarla tanış oldular. Nadir fotolar bu dahi insanın olduqca zəngin və mənalı həyat yolu keçdiyini bir daha təsdiqləyir. Onun şəxsən özünün istifadə etdiyi əşyalar nadir və qiymətli eksponat kimi müharibədə çətin yol keçmiş şəxslərin hər birinin diqqətini cəlb etdi.

Veteranlar müstəqil Azərbaycanın qurucusunun respublikamıza rəhbərlik etdiyi təxminən 35 illik bir dövrün fotosalnaməsinə tamaşa etdilər. Son 10 ildə irimiqyaslı layihələrlə təkcə Azərbaycanı deyil, həm də Cənubi Qafqaz regionunu dünyaya bağlayan Heydər Əliyev neft strategiyasının həyata keçirilməsini əks etdirən fotolar, Azərbaycanın dünya ölkələri ilə dostluğunun möhkəmləndirilməsi istiqamətində ümummilli liderimizin xidmələri xüsusi maraq oyatdı.

Sonra Heydər Əliyev Fondunda veteranlarla süfrə arxasında görüş keçirildi.

Veteranlar Azərbaycan Prezidenti İlham Əliyevi və onun xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.

Dövlətimizin başçısı İlham Əliyev Böyük Vətən müharibəsi iştirakçılarının hər biri ilə səmimi görüşdü, onların qayğı və problemləri ilə maraqlandı, veteranlara bundan sonra da daim diqqətlə yanaşılacağını və kömək göstəriləcəyini bildirdi.





Veteranlar ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini yada salaraq, onunla çəkdirdikləri fotoşəkilləri respublikamızın rəhbərinə göstərdilər və dedilər ki, "Cənab Prezident, bu gün xalqımızın, eləcə də bizim xilaskarımız Heydər Əliyevin bizə göstərdiyi diqqət və qayğını unutmuruq. Allah atanıza rəhmət eləsin, Siz onun xəttini bütün sahələrdə uğurla davam etdirirsiniz. Bütün bunlara görə Sizə təşəkkür edirik."

*"Azərbaycan" qəzeti,*
*8 may 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA BAKININ NİZAMİ RAYONUNDAKI 3 NÖMRƏLİ XÜSUSİ TƏHSİL MƏKTƏBİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

2005-ci ilin mayın 10-da Bakının Nizami rayonundakı 3 nömrəli xüsusi təhsil məktəbinin Heydər Əliyev Fondunun vəsaiti hesabına aparılmış əsaslı təmir və yenidənqurma işlərindən sonra təntənəli açılış mərasimi olmuşdur. Məktəbin kollektivi Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı böyük səmimiyyətlə, gül-çiçəklə qarşıladı.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva məktəbin rəmzi açılışını bildirən lenti kəsdi, ümummilli liderimiz Heydər Əliyevin birinci mərtəbənin foyesində qoyulmuş büstü üzərindən örtüyü götürdü, ağ mərmərdən yonulmuş abidənin önünə gül qoydu.

Məktəbin direktoru Nüşabə Heydərova bildirdi ki, 1958-ci ildə tikilmiş məktəb binası uzun illər təmir edilmədiyinə görə, əslində yararsız hala düşmüşdü. Mehriban xanım 2005-ci il yanvarın 31-də məktəbin vəziyyəti ilə tanış olduqdan sonra burada Fondun vəsaiti hesabına əsaslı təmir işlərinə başlamağı tövsiyə etdi. Elə ertəsi gündən burada başlanan əsaslı təmir və yenidənqurma işləri üç aya tam başa çatdırıldı. Məktəb müasir avadanlıqla da komplektləşdirilmişdir.

Mehriban xanım Əliyevaya məlumat verildi ki, məktəbdəki 184 uşaqdan 62-si fərdi təhsilə cəlb olunmuşdur. Burada əmək təlimi dərslərinə üstünlük verilir. Dülgərlik, xalçaçılıq, tikiş və s. dərnəklər uşaqların müxtəlif peşələrə yiyələnməsinə imkan verir.

Mehriban xanım uşaqların əl işlərinə tamaşa etdi, ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə, Azərbaycanın Milli Qəhrəmanlarına, tanınmış ədəbiyyat, incəsənət xadimlərinə həsr olunmuş fotoguşələrə baxdı.

Məktəbin sinif otaqlarını, fənn kabinetlərini gəzən Fondun prezidenti təmirin, avadanlığın keyfiyyətinə xüsusi diqqət yetirdi, hər uşağa ayrılan yemək norması, dərs ləvazimatları ilə təminatın vəziyyəti, məktəb kitabxanasının fondu ilə maraqlandı, qaldırılan məsələlərin həllinə lazımi kömək göstəriləcəyini bildirdi.

Dərs-təlim prosesi ilə yaxından maraqlanan Mehriban xanım Əliyeva uşaqların bacarıqlarını yüksək qiymətləndirdi. Xalça toxuyan qızlar öz hədiyyələrini – qucağında valideyn himayəsindən məhrum olmuş uşaq tutmuş Mehriban xanımın portretinin toxunduğu xalçanı Fondun prezidentinə təqdim etdilər. Bu hədiyyədən çox mütəəssir olan Mehriban xanım onu unudulmaz xatirə kimi saxlayacağını bildirdi.





Kompyuteri öyrənən uşaqlar dahi şəxsiyyət Heydər Əliyevə, Azərbaycan Prezidenti İlham Əliyevə, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanıma öz hörmət və məhəbbətlərini kompyuterdə yazdıqları sözlərlə, musiqi dərsi keçən şagirdlər isə oxuduqları mahnı və şeirlərlə ifadə etdilər.

Uşaqların valideynləri də Mehriban xanımın respublikamızdakı uşaq evlərinə, internat məktəblərinə əsl analıq qayğısı göstərməsini yüksək qiymətləndirdilər, bu qayğı və diqqətdən minnərlə ailəyə sevinc, təsəlli payı düşdüyünü dedilər. Onlar ümummilli liderin doğum günündə məktəbin açılışına gəldiyinə, Fondun yaranma gününü uşaqlarla bir yerdə keçirdiyinə görə Mehriban xanım Əliyevaya dərin təşəkkürlərini bildirdilər.

Mehriban xanım Əliyeva məktəbin kollektivinə ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin vəsiyyətlərini, ideyalarını unutmamağı, xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqəti artırmağı, öz vəzifələrinin necə şərəfli, məsuliyyətli, savab iş olduğunu dərk etməyi xahiş və tövsiyə etdi.

*"Azərbaycan" qəzeti,*
*11 may 2005-ci il*

## METRODA BAŞ VERMİŞ QƏZADA XƏSARƏT ALAN İNSANLARIN MÜALİCƏSİ İLƏ BAĞLI BÜTÜN XƏRCLƏR HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN ÖDƏNİLƏCƏKDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2005-ci ilin iyunun 9-da Musa Nağıyev adına təcili yardım xəstəxanasına gedərək, ötən gün metronun "Bakı Soveti" stansiyasında baş vermiş qəza nəticəsində xəsarət almış insanlara baş çəkmişdir.

Yaralananların hər biri ilə ayrılıqda hal-əhval tutan, vəziyyətləri, müalicələrinin gedişi ilə maraqlanan Fondun prezidenti qəza nəticəsində xəsarət alan vətəndaşlarla görüşməyi özünə borc bildiyini, onların müalicəsi, qısa vaxt ərzində tibbi reabilitasiyası ilə bağlı bütün xərclərin Heydər Əliyev Fondu tərəfindən ödəniləcəyini dedi.

Mehriban xanım bildirdi ki, Fondun əməkdaşları yaralılara müntəzəm olaraq baş çəkəcək, sağlamlıqlarını tam bərpa edib doğma evlərinə qayıtmaları üçün onlara hər cür kömək göstərəcəklər.

Yaralananların aldıqları xəsarətlər barədə həkim və tibb işçilərinin rəyi ilə tanış olan Fondun prezidenti onlara öz tövsiyələrini verdi.

Xəsarət alanların tibbi reabilitasiyası ilə bağlı bütün məsələlərin Heydər Əliyev Fondunun nəzarəti altında olduğunu söyləyən Mehriban Əliyeva yaralıların doğmaları və qohumları ilə də görüşüb söhbət etdi, belə qəzalardan heç kimin sığortalanmadığını bildirərək onlara səbrli, təmkinli olmağı arzuladı.

Qəza nəticəsində xəsarət alanlar, onların ailə üzvləri bu diqqət və qayğısına görə Mehriban xanım Əliyevaya səmimi minnətdarlıqlarını bildirdilər.

*"Azərbaycan" qəzeti,*
*10 iyun 2005-ci il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA LƏNKƏRANDAKI UŞAQ EVİNDƏ VƏ FONDUN VƏSAİTİ İLƏ TİKİLƏN MƏKTƏBDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2005-ci ilin sentyabrın 8-də dövlətimizin başçısının cənub bölgəsinə səfəri çərçivəsində Lənkərandakı Osman Mirzəyev adına qarışıq tipli uşaq evində olmuş, burada tərbiyə alan uşaqların qayğı və problemləri ilə maraqlanmışdır.

Mehriban xanım uşaqların ifasında mahnılara, şeirlərə qulaq asdı, körpələrə qayğı və nəvaziş göstərdi.

Uşaq evindəki şəraitlə yaxından tanış olan Mehriban Əliyeva uzun illər təmir edilməyən binanın əsaslı təmirə ehtiyacı olduğunu, Heydər Əliyev Fondunun vəsaiti ilə yaxın vaxtlarda bu işə başlanacağını bildirdi.

Sonra Mehriban xanım Fondun vəsaiti hesabına tikilən yeni məktəb binasında işlərin gedişi ilə tanış olmaq üçün rayonun Şağlaser kəndinə gəldi. Məktəbin müəllim kollektivi, valideynlər, məktəblilər, inşaatçılar Fondun prezidentini səmimiyyətlə qarşıladılar, xeyirxah işlərinə, uşaqlara diqqət və qayğısına görə minnətdarlıq etdilər.

Mehriban xanım kənd sakinləri ilə söhbət etdi, ulu öndər Heydər Əliyevin adını daşıyan Fondun fəaliyyəti barədə danışdı, özünə göstərilən səmimiyyətə görə razılığını ifadə etdi.

*"Azərbaycan" qəzeti,*
*9 sentyabr 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA ASTARA RAYONUNUN TƏNGƏRUD KƏNDİNDƏ MƏKTƏBİN TİKİNTİSİ İLƏ TANIŞ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva dövlətimizin başçısının cənub bölgəsinə səfəri çərçivəsində, 2005-ci ilin sentyabrın 8-də Astara rayonunun Təngərud kəndində yeni məktəb binasının tikintisi ilə tanış olmuşdur.

Mehriban xanımı gülərüzlə qarşılayan müəllim və valideynlər məktəb barədə ona ətraflı məlumat verdilər. Bildirdilər ki, yaxşı ənənələri olan bu məktəbdə on illərdən bəri təmir işi görülməmişdir. Heydər Əliyev Fondunun vəsaiti hesabına burada 16 sinif otağı olacaq. Yeni binanın tikintisindən son dərəcə razı qalan sakinlər Mehriban xanıma öz təşəkkürlərini bildirdilər.

Mehriban Əliyeva ölkəmizin gələcəyi olan uşaqlara qayğı və diqqətin ifadəsi kimi, "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində Fondun vəsaiti hesabına hazırda respublikamızda 132 məktəbin tikildiyini xatırlatdı və bildirdi ki, Fond gələn ildən daha 500 məktəbin tikintisi üçün geniş proqram hazırlamışdır.

YUNESKO-nun xoşməramlı səfiri kənd sakinləri ilə səmimi söhbət etdi, onlarla xatirə şəkli çəkdirdi.

*"Azərbaycan" qəzeti,*
*9 sentyabr 2005-ci il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA LƏNKƏRAN RAYONUNUN ŞAĞLASER KƏNDİNDƏ FONDUN VƏSAİTİ İLƏ TİKİLƏN MƏKTƏBDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2005-ci ilin sentyabrın 8-də, dövlətimizin başçısının cənub bölgəsinə səfəri çərçivəsində Lənkəran rayonunun Şağlaser kəndində Fondun vəsaiti hesabına tikilən yeni məktəb binasında işlərin gedişi ilə tanış olmuşdur.

Məktəbin müəllim kollektivi, valideynlər, məktəblilər, inşaatçılar Mehriban xanımı böyük səmimiyyətlə qarşıladılar, xeyirxah işlərinə, ölkəmizin gələcəyi olan uşaqların normal şəraitə malik təhsil ocaqlarında təlim-tərbiyə alması üçün göstərdiyi diqqət və qayğıya görə minnətdarlıq etdilər.

Mehriban xanım kənd sakinləri ilə söhbət etdi, ulu öndər Heydər Əliyevin adını daşıyan Fondun fəaliyyəti barədə danışdı, yeni məktəb binasında tikinti işlərinin gedişi ilə tanış oldu, Fondun respublikamızın hər bir bölgəsində təhsil müəssisələri üçün müasir tələblərə cavab verən binaların tikilməsini davam etdirəcəyini bildirdi.

*"Azərbaycan" qəzeti,*
*10 sentyabr 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA MASALLI RAYONUNUN TƏZƏKƏND MƏKTƏBİNDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2005-ci ilin sentyabrın 9-da, dövlətimizin başçısının cənub bölgəsinə səfəri çərçivəsində Masallı rayonunda tikintisi yenicə başa çatmış Təzəkənd məktəbində olmuşdur.

İnşaatçılar, müəllimlər, məktəblilər, valideynlər Mehriban xanımı səmimiyyətlə qarşıladılar. Hörmətli qonağa gül dəstəsi təqdim olundu.

Fondun prezidentinə məlumat verildi ki, 22 sinif otağı olan məktəb binası cəmi 42 günə inşa edilmişdir. Burada 35 müəllim 500-dək şagirdin təlim-tərbiyəsi ilə məşğul olacaqdır.

Heydər Əliyev Fondunun vəsaiti hesabına inşa edilmiş yeni tədris ocağının tikintisindən olduqca razı qalan kənd sakinləri Mehriban xanıma təşəkkürlərini bildirdilər, ona xalqımızın gələcəyi naminə xeyirxah işlərində uğurlar arzuladılar.

Mehriban Əliyeva rəhbərlik etdiyi Fondun vəsaiti hesabına "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində gələn il respublikamızda daha 500 məktəb binasının tikiləcəyini bildirdi.

YUNESKO-nun xoşməramlı səfiri sonra kənd sakinləri ilə səmimi söhbət etdi, onların qayğıları və problemləri ilə maraqlandı, yeni məktəbdə çalışacaq müəllimləri, təhsil alacaq şagirdləri təbrik edərək uğurlar arzuladı.

***"Azərbaycan" qəzeti,***
***10 sentyabr 2005-ci il***





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA KÜRDƏMİR VƏ SABİRABAD RAYONLARINDA MƏKTƏBLƏRLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Kürdəmir və Sabirabad rayonlarına səfəri çərçivəsində onun xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva yerli məktəblərə getmişdir. O, əvvəlcə Kürdəmir rayonunun Karrar kəndindəki 240 yerlik yeni məktəb binası ilə tanış oldu. Heydər Əliyev Fondunun vəsaiti hesabına tikilmiş məktəbin müəllimləri şagirdlərin yaxşı şəraitdə təhsil almasına göstərilən qayğıya görə Mehriban xanıma minnətdarlıqlarını çatdırdılar.

Mehriban Əliyeva həmin gün Sabirabad rayonunun Axtaçı-Muğan kəndində tikintisi başa çatmaqda olan 200 yerlik məktəbdə inşaat işlərinin gedişi ilə də maraqlanmışdır. Uşaqlar Mehriban xanımı gülçiçəklə qarşıladılar.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramına uyğun olaraq 2005-ci ilin iyul ayında tikintisinə başlanmış məktəb binası on gündən sonra istifadəyə veriləcəkdir. Tədris ocağının müasir kommunikasiya və istilik sistemi olacaqdır.

Bildirildi ki, 330 şagirdi olan məktəbin yeni binası istifadəyə verildikdən sonra kənd uşaqları tam orta təhsil almaq üçün ətraf kəndlərə gedib-gəlməyəcəklər.

***"Azərbaycan" qəzeti,***
***7 oktyabr 2005-ci il***

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA BAKININ SABUNÇU RAYONUNDAKI MƏKTƏBLƏRDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin oktyabrın 11-də Bakının Sabunçu rayonunun Bilgəh qəsəbəsindəki 11 nömrəli internat məktəbində Heydər Əliyev Fondunun vəsaiti hesabına aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanış omuşdur.

Fondun prezidenti ümummilli liderimiz Heydər Əliyevin məktəbin foyesindəki büstü önünə tər qərənfillər qoydu.

1961-ci ildə tikilmiş məktəb binası uzun illər təmir edilmədiyinə görə, əslində yararsız hala düşmüşdü. Mehriban xanım 2005-ci ilin fevralında vəziyyətlə tanış olduqdan sonra burada Fondun vəsaiti hesabına əsaslı təmir işləri aparılacağını bildirmişdi. İndi təmir və yenidənqurma işləri tam başa çatmışdır. Məktəbin tədris korpusu, yataqxana binası, yeməkxanası, tibbi yardım kabinələri müasir avadanlıqla da komplektləşdirilmişdir. İdman salonu və meydançaları, üzgüçülük hovuzu, əyləncə mərkəzi, istirahət guşələri də tamamilə yenidən qurulmuşdur. "İnternat keçmişdə və indi" fotoguşəsi əvvəlki və indiki vəziyyəti əyani əks etdirir.

Direktor Mehparə Cəfərova məlumat verdi ki, hazırda məktəbdə 480 uşaq təlim-tərbiyə alır, 53 müəllim və tərbiyəçi, 51 xidmətçi çalışır. Məktəbin 1-5-ci siniflərində əqli cəhətdən zəif inkişaf etmiş uşaqlarla sağlam uşaqlar bir yerdə təhsil alır. Bu pilot layihə öz müsbət nəticəsini verir, uşaqlara xeyirxahlıq, bir-birinə təmənnasız kömək, yardım etmək kimi keyfiyyətlər aşılanır. Burada əmək təlimi dərslərinə xüsusi diqqət yetirilir. Dülgərlik, xalçaçılıq, tikiş və s. dərnəklər uşaqların müxtəlif peşələrə yiyələnməsinə imkan verir.

Mehriban xanım uşaqların əl işlərinə tamaşa etdi, ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə, Azərbaycanın Milli Qəhrəmanlarına, tanınmış ədəbiyyat, incəsənət xadimlərinə həsr olunmuş fotoguşələrə baxdı. Bu məktəbin şagirdlərinin əl işləri, Macarıstan, Yaponiya, Slovakiya, İrlandiya, Türkiyədə müxtəlif idman yarışlarında qazandıqları medallar, diplomlar, fəxri fərmanlar böyük maraq doğurdu.

Məktəblə yaxından tanış olan Fondun prezidenti təlim-tədris prosesinə xüsusi diqqət yetirdi, uşaqların bilik və bacarıqlarını yüksək qiymətləndirdi. Xalça toxuyan qızlar öz hədiyyələrini – Mehriban xanımın portretinin toxunduğu xalçanı ona təqdim etdilər. Bu hədiyyədən çox mütəəssir olan Mehriban xanım onu unudulmaz xatirə kimi saxlayacağını bildirdi.

Kompyuteri öyrənən uşaqlar dahi şəxsiyyət Heydər Əliyevə, Azərbaycan Prezidenti İlham Əliyevə, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanıma öz hörmət və məhəbbətlərini kompyuterdə yazdıqları sözlərlə ifadə etdilər.

Müəllimlər otağında keçirilən qısa görüşdə 45 illik pedaqoji stajı olan Müzafəddin Mirzəbəyov kollektivin yekdil fikrini ifadə edərək dedi ki, bu şəhərcik əslində yeni tikilmiş təhsil və səhiyyə





kompleksidir. Burada hər şey təzədir. Sakinlər, valideynlər, müəllim və uşaqlar yaxşı bilir ki, bütün bunlar Mehriban xanımın şəxsi təşəbbüsü, qayğısı ilə başa gəlmişdir. Hamımız Mehriban xanımın respublikamızdakı uşaq evlərinə, internat məktəblərinə əsl analıq qayğısı göstərməsini yüksək qiymətləndiririk, bu qayğı və diqqətdən minlərlə ailəyə sevinc, təsəlli payı düşdüyünü bilirik. Kollektivin üzvləri yenidən bu məktəbə gəldiyinə, uşaqlara və müəllimlərə sonsuz sevinc bəxş etdiyinə görə Mehriban xanıma dərin təşəkkürlərini bildirdilər.

Mehriban xanım Heydər Əliyev Fondunun işləyib hazırladığı "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı çərçivəsində görülən işlərin bundan sonra da davam etdiriləcəyini bildirdi, deyilən xoş sözlərə görə razılığını ifadə etdi, xeyirxah, savab əməl sahiblərinə ən xoş arzularını yetirdi.

Elə həmin gün Mehriban Əliyeva Fondun vəsaiti hesabına tikilmiş Pirşağı qəsəbəsindəki 112 nömrəli məktəbdə də oldu.

Qəsəbənin bu ilk və yeganə məktəbinin yaşı 100-dən çoxdur. Ona görə də təzə məktəb inşa edilərkən üzbəüzdəki köhnə birmərtəbəli təhsil ocağının binası da saxlanmış və təmir edilmişdir.

Təzə bina ilə tanış olan Fondun prezidentinə məlumat verildi ki, 514 şagirdin təhsil aldığı məktəbin 14 sinif otağı, kompyuter, fənn kabinetləri, geniş idman və akt salonları var və hamısı təzə avadanlıqla təmin edilmişdir. Məktəb kitabxanası ilə yaxından maraqlanan Mehriban xanımın sualına cavab olaraq bildirildi ki, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən latın əlifbası ilə nəşr edilən kitabların əksəriyyətindən kitabxanaya da verilib, şagirdlərə bütün dərsliklər pulsuz paylanır, çatışmayan dərslik yoxdur, kitabxanada qəzet-jurnal nüsxələri də toplanır.

Mehriban xanım tədrisin vəziyyəti, şagirdlərin mənimsəmə səviyyəsi ilə də maraqlandı, müəllim və şagirdlərlə söhbət etdi, müəllimləri peşə bayramları münasibətilə təbrik etdi.

Məktəbin həyətinə toplaşan valideynlər uzun illərdən bəri onları ciddi narahat edən problemin həllinə göstərdiyi qayğıya, təzə məktəb binasının tikintisinə görə Mehriban xanıma minnətdarlıq etdilər.

Heydər Əliyev Fondunun prezidenti Xəzərin sahilində təmiz havası, münbit torpağı, təbii gözəllikləri olan Pirşağının turizm, kurort-sanatoriya imkanlarından indiyədək zəif istifadə edildiyini, bu məsələnin dövlətimizin başçısının da diqqət mərkəzində olduğunu, yaxın vaxtlarda qəsəbədə bu məqsədlə müəyyən tədbirlərin görüləcəyini bildirdi.

"Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində respublikamızda 100-dən çox məktəbin tikilib istifadəyə verildiyini diqqətə çatdıran Mehriban xanım bu işlərin davam edəcəyini, xalqımızın işıqlı gələcəyi, gənc nəslin təlim-tərbiyəsi üçün bütün imkanlardan istifadə olunacağını vurğuladı, təzə məktəbin inşası münasibətilə pirşağılıları təbrik etdi.

*"Azərbaycan" qəzeti,*
*12 oktyabr 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA BAKININ ƏZİZBƏYOV RAYONUNDAKI İNTERNAT MƏKTƏBİNDƏ VƏ PİR HƏSƏN ZİYARƏTGAHINDA OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2005-ci ilin oktyabrın 12-də Bakının Əzizbəyov rayonunun Mərdəkan qəsəbəsindəki 2 nömrəli internat məktəbdə Heydər Əliyev Fondunun vəsaiti hesabına aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.

1985-ci ildə tikilmiş məktəb binası indiyədək təmir edilmədiyinə görə yararsız hala düşmüşdü. Mehriban xanım 2005-ci ilin fevralında vəziyyətlə tanış olduqdan sonra burada Fondun vəsaiti hesabına əsaslı təmir işləri aparılacağını bildirmişdir. İndi təmir və yenidənqurma işləri tam başa çatmışdır. Məktəbin üçmərtəbəli 3 yataqxanası, tədris korpusu, yeməkxanası, yardımçı binaların dam örtüyü, bütün kommunikasiya xətləri təzələnmiş, ilk dəfə olaraq istilik sistemi quraşdırılmışdır. İdman salonu və meydançaları, əyləncə mərkəzi, istirahət guşələri də tamamilə yenidən qurulmuş, həyətə asfalt döşənmiş, tibbi yardım kabinələri müasir avadanlıqda komplektləşdirilmişdir.

Direktor Kamran Hacıyev məlumat verdi ki, hazırda məktəbdə valideyn himayəsindən məhrum olmuş 280 uşaq təlim-tərbiyə alır, 52 müəllim və tərbiyəçi, 42 xidmətçi çalışır. Məktəb 9 illik təhsil verir. Buranı qurtaranlar orta təhsil verən digər məktəblərə köçürülürlər. Məktəbdə əmək təlimi dərslərinə xüsusi diqqət yetirilir, uşaqların müxtəlif peşələrə yiyələnməsinə imkan yaradılır.

Müəllimlərlə keçirilən qısa görüşdə məktəbin veteranı Səbinə Salayeva kollektivin yekdil fikrini ifadə edərək dedi ki, bu şəhərcik, əslində, yeni tikilmiş böyük təhsil kompleksidir. Burada hər şey təzədir. Sakinlər, valideynlər, müəllim və uşaqlar yaxşı bilir ki, bütün bunlar Mehriban xanımın şəxsi təşəbbüsü, qayğısı ilə başa gəlmişdir. Hamımız Mehriban xanımın respublikamızdakı uşaq evlərinə, internat məktəblərinə əsl analıq qayğısı göstərməsini yüksək qiymətləndiririk. Bu qayğı və diqqətdən minlərlə ailə sevinc və təsəlli duyur.

Mehriban xanım Heydər Əliyev Fondunun işləyib hazırladığı "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində görülən işlərin bundan sonra da davam ediləcəyini bildirdi, görülən işlərə, deyilən xoş sözlərə görə razılığını ifadə etdi, xeyirxah, savab əməl sahiblərinə ən xoş arzularını yetirdi.

Geniş, işıqlı, təzə avadanlıqla təmin edilmiş yeməkxanada nahar süfrəsi arxasında uşaqlarla keçirilən görüş də unudulmaz xatirəyə çevrildi. Müxtəlif millətlərdən olan uşaqlar Mehriban xanımı salamladılar, Vətənə, ulu öndər Heydər Əliyevə, Azərbaycan Prezidentinə həsr edilmiş şeirlər ifa etdilər.





Elə həmin gün Mehriban Əliyeva Mərdəkandakı Pir Həsən ziyarətgahını da ziyarət etdi, buraya gələnlərlə hal-əhval tutdu, Fondun vəsaiti hesabına aparılan əsaslı təmir-bərpa işləri ilə tanış oldu. Bu ziyarətgahda axund Hacı Turab ağa, Hacı Zeynalabdin Tağıyev, qızı Sona xanım dəfn edilmişdir. Burada yenidən inşa edilən məqbərə, ibadətgah kompleksi qədim milli, dini ornamentlərlə bəzədilir, artıq son tamamlama işləri görülür.

Ziyarətgaha gələnlər Prezident İlham Əliyevin və xanımının xalqımızın milli mənəvi dəyərlərinə göstərdikləri qayğı, hörmət və ehtiramı yüksək qiymətləndirdilər, öz razılıqlarını bildirdilər, ən xoş arzularını çatdırdılar.

Daha sonra qəsəbədə oğlanlar üçün internat məktəbin tikintisində işlərin gedişi ilə tanış olan Mehriban xanıma məlumat verildi ki, hazırda beşmərtəbəli binada əsas işlər başa çatdırılmış və dam örtüyü vurulmuşdur. Fondun hesabına tikilən bina yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

Heydər Əliyev Fondunun prezidenti Şüvəlan qəsəbəsindəki 10 nömrəli körpələr evi və uşaq bağçasında, mədəniyyət sarayında, qəsəbədəki yeganə xəstəxanada da oldu, 1953-1956-cı illərdə inşa edilmiş bu təhsil, mədəniyyət və səhiyyə ocaqlarının problemləri ilə maraqlandı, şəraitlə tanış oldu. Vaxtilə "Şimal" DRES-in balansında olmuş bu binalar artıq öz görkəmini itirmişdir. Mehriban xanım yararsız vəziyyətdə olan binaların əsaslı təmirinə, yaxud da yenidən tikilməsinə ehtiyac olduğunu bildirdi, mütəxəssislərin rəyindən sonra Fondun lazımi kömək göstərəcəyini vəd etdi.

Buraya toplaşan qəsəbə sakinləri, müəllimlər və tibb işçiləri Şüvəlanın bir sıra problemləri ilə bağlı da xahiş və arzularını çatdırdılar. Mehriban xanım ölkəmizin iqtisadi potensialının gücləndiyini, büdcə gəlirlərinin günbəgün artdığını, dövlət tərəfindən geniş sosial layihələrin işlənib hazırlandığını, ardıcıl həyata keçirildiyini diqqətə çatdırdı, ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Fondun da bu işdə öz köməyini əsirgəmədiyini vurğuladı, qaldırılan məsələlərin hamısının diqqətlə öyrəniləcəyini, imkan daxilində kömək göstərəcəyini bildirdi.

*"Azərbaycan" qəzeti,*
*13 oktyabr 2005-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini anmaq üçün 2006-cı ilin yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət etmişdir.

Azərbaycanın birinci xanımı ölkəmizin müstəqilliyi, torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban vermiş mərd mübarizlərin məzarları üzərinə al qızılgüllər düzdü, şəhidlərə Allahdan rəhmət dilədi.

*"Azərbaycan" qəzeti,*
*22 yanvar 2006-cı il*







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA ASTARADA VƏ LƏNKƏRANDA ORTA MƏKTƏBLƏRLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Astara və Lənkəran rayonlarına səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi üzrə bu rayonlarda inşa edilən məktəblərdə olmuşdur.

Əvvəlcə Astara rayonunun Təngərud kənd orta məktəbinə gələn Fondun prezidentini məktəblilər, pedaqoji kollektivin nümayəndələri böyük hörmətlə, öz doğma və yaxın adamları kimi qarşıladılar.

Mehriban xanıma məlumat verildi ki, Astarada Heydər Əliyev Fondunun təşəbbüsü ilə üç məktəb binası tikilmişdir. Bunlardan ikisi ucqar dağ kəndlərindədir. Məktəblərin hamısı mərkəzləşdirilmiş istilik sistemləri ilə tam təmin edilmişdir.

Fondun prezidenti Təngərud kənd orta məktəbinin yeni binası ilə yaxından tanış oldu, ayrı-

ayrı sinif otaqlarına baxdı, dərs prosesi ilə maraqlandı. Eyni zamanda, kənd məktəbinin köhnə binasına da baxdı, kənd sakinləri ilə görüşdü. O, məktəbin köhnə binasının da bərpası ilə bağlı layihənin nəzərdə tutulduğunu bildirdi.

Elə həmin gün Mehriban xanım Əliyeva Lənkəran rayonunun Şağlaküçə kəndində "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi əsasında tikilmiş yeni məktəb binası ilə də tanış oldu. Hörmətli qonağı burada böyük səmimiyyətlə qarşıladılar. Heydər Əliyev Fondunun Azərbaycanın hər bir guşəsinə maarif və mədəniyyət işığı saçdığını bildirən lənkəranlılar Mehriban xanıma hədsiz minnətdarlıq etdilər.

Mehriban Əliyeva yeni məktəb binasına baxdı, buradakı mövcud şəraitlə və şagirdlərin dərs prosesi ilə maraqlandı, gələcəkdə bu cür layihələrin ardıcıl davam etdiriləcəyini vurğuladı.

Heydər Əliyev Fondu tərəfindən hər iki təhsil ocağına müxtəlif məktəb ləvazimatları təqdim edilmişdir.

*"Azərbaycan" qəzeti,*
*4 fevral 2006-cı il*







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA TƏRTƏR VƏ BƏRDƏ RAYONLARINDA ORTA MƏKTƏBLƏRLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Tərtər və Bərdə rayonlarına səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi üzrə bu rayonlarda inşa edilən məktəblərdə olmuşdur.

Mehriban xanım əvvəlcə Tərtər rayonunun Düyərli kəndinə gəldi, Heydər Əliyev Fondunun vəsaiti ilə tikilmiş 100 yerlik məktəbdə dərs prosesi ilə maraqlandı.

Məktəbin kollektivi kənd uşaqlarının təhsilinə göstərdiyi diqqətə görə Fondun prezidentinə minnətdarlıqlarını ifadə etdilər. Məktəbin ehtiyacları ilə maraqlanan Mehriban xanıma məlumat verildi ki, bu təhsil ocağı kifayət qədər dərslik və müasir avadanlıqlarla təchiz olunmuşdur.

YUNESKO-nun xoşməramlı səfiri məktəbin köhnə sinif otaqlarına da baş çəkdi, tədrisin gedişi ilə tanış oldu. O, Heydər Əliyev Fondu tərəfindən yaxın vaxtlarda bu köhnə tikililərin yerində

yeni tədris korpusunun və kitabxana binasının tikiləcəyini bildirdi.

Heydər Əliyev Fondunun vəsaiti ilə Tərtər rayonunda tikilmiş digər məktəb isə Sarıcalı kəndində yerləşir. Yaradılmış şəraitlə tanışlıq göstərdi ki, məktəb qısa vaxtda tikilsə də, inşaat və tamamlama işləri yüksək səviyyədə görülmüşdür. Məktəb ən müasir tədris avadanlığı ilə təchiz olunmuşdur. Məlumat verildi ki, məktəb 100 yerlikdir. Lakin burada 200 uşaq təhsil alır. Mehriban Əliyeva bildirdi ki, yaranmış çətinliyi aradan qaldırmaq məqsədi ilə Heydər Əliyev Fondu köhnə binaların yerində yeni korpusun tikilməsi barədə qərar qəbul etmişdir.

Sonra Mehriban xanım Bərdə rayonunun Yeni Daşkənd kəndinə gəldi. Milli Qəhrəman Yusif Kərimovun adını daşıyan 240 yerli kənd məktəbi də Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuşdur.

Uzun illər ağır şəraitdə kənd uşaqlarının təlim-tərbiyəsi ilə məşğul olmuş müəllimlər rahat, yaraşıqlı, bütün dərsliklər və tədris ləvazimatları ilə təchiz olunmuş məktəbin tikilməsini Heydər Əliyev Fondunun, onun prezidentinin kənd camaatına çox böyük hədiyyəsi kimi qiymətləndirdilər.

Fondun prezidenti bildirdi ki, yaxın vaxtlarda Bərdə rayonunda daha yeni 3 məktəb tikiləcəkdir Mehriban Əliyeva məktəblə tanışlıqdan sonra kənd sakinləri ilə də görüşüb söhbət etdi.

*"Azərbaycan" qəzeti,*
*3 mart 2006-cı il*








# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA ZAQATALA VƏ ŞƏKİDƏ ORTA MƏKTƏBLƏRLƏ, UŞAQ EVİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin şimal-qərb bölgəsinə səfəri çərçivəsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva məktəblərdə və uşaq evində olmuşdur.

2006-cı ilin aprelin 12-də Zaqatala şəhər 1 nömrəli orta məktəbinə gələn Fondun prezidentini müəllimlər, məktəblilər böyük hörmətlə, doğma və yaxın adamları kimi qarşıladılar.

Mehriban xanıma məlumat verildi ki, 1916-cı ildən fəaliyyət göstərən məktəbdə hazırda 900 şagird təhsil alır. 2005-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə bina əsaslı təmir olunmuşdur.

Fondun prezidenti məktəbin ayrı-ayrı sinif otaqlarına baş çəkdi, dərs prosesi və dərs vəsaiti ilə təminatla maraqlandı. O, xalqımızın ümummilli liderinə həsr olunmuş fotoguşəyə, kitabxana fonduna da baxdı, pedaqoji kollektivə gənc nəslin təlim-tərbiyəsində uğurlar arzuladı.

Müəllimlər Azərbaycan təhsilinə həmişə yüksək qayğı göstərən Heydər Əliyev Fonduna və

onun prezidentinə minnətdarlıqlarını bildirdilər.

2006-cı ilin aprelin 13-də Mehriban xanım Əliyeva Şəki şəhər qarışıq tipli uşaq evində oldu. Hörmətli qonağı burada böyük səmimiyyətlə qarşıladılar. Heydər Əliyev Fondunun təhsil və səhiyyə sahəsində gördüyü işləri yüksək qiymətləndirən pedaqoji kollektiv Mehriban xanıma dərin təşəkkürünü bildirdi.

Mehriban Əliyeva uşaq evinin şəraiti və şagirdlərin dərs prosesi ilə maraqlandı. Məlumat verildi ki, 1936-cı ildə yaradılan və hazırda 80 nəfəri əhatə edən uşaq evində 37 nəfər, o cümlədən 22 pedaqoji işçi çalışır.

Mehriban xanım binanın istilik sistemi ilə maraqlandı, mətbəxi gəzdi, uşaqlara verilən yeməyin keyfiyyətinə, yataq otaqlarına baxdı. Ayrı-ayrı sinif otaqlarının təmiri, lazımi avadanlıqla təmin olunması barədə tədbirlər görüləcəyini vurğuladı, pedaqoji kollektivin tədrislə bağlı toxunduqları məsələlərin öz həllini tapacağını bildirdi.

Burada Heydər Əliyev Fondu tərəfindən uşaqlar üçün bayram süfrəsi də açıldı, onlara müxtəlif hədiyyələr paylandı, uşaqlar hörmətli qonağı Azərbaycanın Dövlət Himni ilə salamladılar. Mehriban xanım uşaqlarla süfrə arxasında səmimi söhbət etdi. Uşaq evinin direktoru Xuraman Qafarova kimsəsiz və valideyn himayəsindən məhrum olmuş uşaqlara göstərdiyi diqqət və qayğıya görə Fondun prezidentinə təşəkkür etdi.

Bütün uşaqların onun üçün əziz olduğunu bildirən Mehriban xanım dedi: "Heydər Əliyev Fondunun hər bir əməkdaşı hər zaman sizin yanınızda olmağa hazırdır. Bizim bütün fəaliyyətimiz sizin üçündür. Sizin çox gözəl, parlaq gələcəyiniz var. Gərək siz yaxşı oxuyasınız, böyüyəsiniz, sonra ali məktəbdə təhsilinizi davam etdirəsiniz. Siz bilməlisiniz ki, ətrafınızda böyük və gözəl dostlarınız var. Mən həmişə sizin yanınızda olmağa, sizi eşitməyə hazıram. Sizə uğurlar arzulayıram."

Həmin gün YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Şəkinin İncə kənd orta məktəbinə gəldi. Burada hörmətli qonağı gül-çiçəklə qarşıladılar. Mehriban xanım şagirdlərlə görüşüb onlara yaxşı oxumağı tövsiyə etdi, dərslərində uğurlar arzuladı və məktəblilərlə xatirə şəkli çəkdirdi.

Sonra Mehriban Əliyeva 1937-ci ildə tikilmiş, Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində əsaslı təmir olunmuş və hazırda 500-dən çox uşağın təhsil aldığı bu məktəbin ayrı-ayrı sinif otaqlarına baş çəkdi, dərslərin gedişi, tədris prosesi ilə maraqlandı, kitabxanaya baxdı. Bildirildi ki, Fond tərəfindən kitabxanaya latın qrafikası ilə nəşr edilmiş dərsliklər, digər ədəbiyyat hədiyyə olunmuşdur.

Müəllimlər Azərbaycanın gələcək nəsillərinin sağlam və savadlı böyüməsi üçün Heydər Əliyev Fondunun və onun prezidentinin gördüyü işləri yüksək qiymətləndirdilər.

*"Azərbaycan" qəzeti,*
*14 aprel 2006-cı il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏNİN 61 İLLİYİ MÜNASİBƏTİLƏ VETERANLARI TƏBRİK ETMİŞDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva İkinci Dünya müharibəsində Qələbənin ildönümü münasibətilə veteranları təbrik etmişdir. Təbrikdə deyilir:

"Əziz veteranlar!

Mən sizin hamınızı İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 61-ci ildönümü münasibətilə ürəkdən təbrik edir, sizə cansağlığı, uzun ömür arzulayıram.

Ümummilli liderimiz Heydər Əliyev həmişə müharibə veteranlarına xüsusi hörmət və ehtiram göstərərək, sizi cəmiyyətimizin ən layiqli insanları hesab edirdi. Bu ənənə indi də davam edir. Ötən il ulu öndərimizin adını daşıyan Fondda Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə keçirilən unudulmaz və səmimi görüş hamımız üçün əlamətdar hadisəyə çevrildi.

Siz bəşər tarixində ən dəhşətli, qanlı müharibə olan İkinci Dünya müharibəsinin od-alovundan keçmiş, hər an ölümlə üz-üzə dayanmısınız. 700 minə yaxın Azərbaycan vətəndaşı bu müharibədə iştirak etmiş, qəhrəmancasına vuruşmuş, onların yarısı geri dönməmiş, həlak olmuşdur. Xalqımız arxa cəbhədə də öz fədakar əməyi ilə Böyük Qələbənin əldə edilməsinə əvəzsiz xidmət göstərmişdir. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Sovet Ordusunun tank və təyyarələrinin 80 faizə qədəri Bakı nefti ilə işləmişdir. Azərbaycan xalqının Qələbəyə bu töhfəsini heç kim və heç zaman unutmamalıdır.

Siz müharibədən sonra da ölkəmizdə quruculuq işlərinin önündə getmiş, müstəqillik illərində Azərbaycanın suverenliyinin möhkəmlənməsi, gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyəsi işinə tükənməz enerjinizlə, ağsaqqal-ağbirçək məsləhəti və tövsiyələrinizlə öz töhfənizi vermisiniz.

Bu əziz gündə sizin hər birinizə ölkəmizin tərəqqisi naminə yeni uğurlar arzulayır, sizə, ailələrinizə xoş günlər diləyirəm."

*"Azərbaycan" qəzeti,*
*9 may 2006-cı il*



## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA ŞAMAXI RAYONUNDA OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva 2006-cı ilin sentyabrın 16-da Şamaxı rayonunda olmuşdur.

Mehriban xanım Heydər Əliyev Fondunun təşəbbüsü ilə rayonda görülmüş işlərlə tanışlığa Şamaxı şəhərindəki internat məktəbdən başladı.

Məktəbin müəllim və şagird kollektivi Mehriban xanımı məktəbin qarşısında hərarətlə, gül-çiçəklə qarşıladılar.

Direktor Vəlican Güləliyev bildirdi ki, 1964-cü ildə tikilmiş bu məktəb uzun illər təmir edilmədiyindən öz görkəmini tamam itirmişdi, tavanı, döşəməsi yağış sularından çürümüş, avadanlığı köhnəlmiş, işıq, su sistemi qəza vəziyyətinə düşmüşdü. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2005-ci ilin aprelində rayonda olarkən bu məktəbə də gəlmiş, vəziyyətlə tanışlıqdan sonra bu təhsil ocağının əsaslı təmirinə kömək edəcəyini vəd etmişdi.





"Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində burada görülən işlər bütün bu problemləri aradan qaldırmışdır. Dam örtüyü, tavan, döşəmə, pəncərə və qapılar tamamilə dəyişdirilmiş, bütün avadanlıq təzələnmiş, kompyuterlər alınmışdır. Həyətə, məktəb yoluna asfalt döşənmiş, bağ sahəsində ağaclar, gül-çiçək kolları əkilmişdir. 31 sinif otağı olan məktəbdə 516 şagird təlim-tərbiyə alır. Onların əksəriyyəti imkansız ailələrin uşaqlarıdır. Şagirdlərə gündə 3 dəfə pulsuz yemək verilir. Builki məzunlardan 17 nəfəri ali və orta ixtisas təhsil məktəblərinə, bir hissəsi isə yaxınlıqdakı texniki peşə məktəbinə daxil olmuşdur.

Mehriban xanım məktəbin sinif otaqlarına, kompyuter, fənn kabinələrinə, idman salonuna, əmək təlimi emalatxanasına, yeməkxana və kitabxanasına baxdı, ayrı-ayrı siniflərdə müəllim və şagirdlərlə söhbət etdi, məktəblilərin bilik səviyyəsi ilə maraqlandı, birinciləri xüsusi təbrik edərək onlara yalnız əla oxumağı tövsiyə etdi. O, ümummilli liderimiz Heydər Əliyevin ömür yoluna həsr edilmiş, Azərbaycan Prezidenti İlham Əliyevin rayonda keçirdiyi görüşləri, Fondun Şamaxıda reallaşdırdığı layihələri, eləcə də məktəbin köhnə və təzə görkəmini əks etdirən fotostendlərə də baxdı.

Görülmüş işlərin keyfiyyətindən razı qalan Mehriban xanım soyuqlar düşənə kimi istilik sisteminin da işə salınmasının vacibliyini vurğuladı.

40 illik pedaqoji stajı olan sinif müəllimi Fəsilə Abbasova Fondun prezidentinə müraciətlə dedi ki, bu məktəbin belə yüksək səviyyədə təmiri, bütün avadanlığın təzələnməsi hamımızı sevindirmiş, daha yaxşı işləməyə ruhlandırmışdır. Bütün görülən işlərə görə çox sağ olun. Şamaxılılar prezident İlham Əliyevin və sizin rayonda keçirdiyiniz görüşləri heç zaman unutmayacaqlar.

Hər belə səfərdən sonra rayonun xeyli problemi həll edilir. Rayon rəhbərliyi də camaatın müraciətlərinə daha diqqətlə yanaşır, geniş quruculuq, abadlıq işləri görülür, kəndlərdə də müsbət yeniliklər çoxdur.

Mehriban xanım indiyədək Fondun təşəbbüsü ilə ölkəmizdə 25 internat məktəbinin və uşaq evinin belə yüksək səviyyədə əsaslı təmir edildiyini, yenidən qurulduğunu, bu işlərin davam etdiriləcəyini bildirərək dedi: "Uşaqları belə məktəblərdə təhsil, tərbiyə alan görəndə, müəllimlər üçün də rahat şəraitin olduğunu hiss edəndə mənim də ürəyim açılır. Bu, həm də Azərbaycan Prezidentinin arzu və istəyidir. Artıq sizdə də belə şərait var, daha yaxşı işləyin, məktəbi də təmiz saxlayın, uşaqları da buna öyrədin."

Sonra Mehriban Əliyeva məktəbin qarşısına toplaşmış müəllim və şagirdlərə, sakinlərə müraciət edərək onları yeni dərs ilinin başlanması münasibətilə təbrik etdi, şagirdlərə təhsildə uğurlar arzuladı, xatirə şəkli çəkdirdi.

Mehriban xanıma Azərbaycan Prezidenti ilə birlikdə Şamaxıya səfərlərini, Fondun rayonda həyata keçirdiyi layihələri əks etdirən, eləcə də bu qədim diyarın mədəni, tarixi abidələrinin fotoşəkillərindən ibarət albom təqdim olundu.

Fondun prezidentinin Şamaxıda keçirdiyi növbəti görüş isə 16 gənc məcburi köçkün

ailəsinə, onların doğma və əzizlərinə sonsuz sevinc bəxş etdi. Şəhərin mərkəzində vaxtilə internat məktəbin yataqxanası olmuş köhnə bina əsaslı şəkildə yenidən qurularaq hər biri 52 kvadrat metr sahəsi olan 2 otaqlı mənzillərə çevrilmiş, mətbəx, yataq mebeli dəstləri, təzə qaz sobaları, soyuducu və digər zəruri avadanlıqla təchiz edilərək, xüsusilə çətin şəraitdə yaşayan gənc məcburi köçkün ailələrinin istifadəsinə verilmişdir.

Bu təşəbbüs və ideyanın müəllifi də Mehriban xanım özü olmuşdur. O, Şamaxıya 2005-ci ildə səfəri zamanı burada olmuş, məcburi köçkünlərin ağır yaşayış şəraitini görmüş, binanın tamamilə təzə görkəmə salınacağını bildirmişdi.

Mehriban xanım mənzilləri gəzdi, daimi qazı, isti və soyuq suyu, etibarlı işıq sistemi ilə təmin edilmiş otaqlara baxdı, burada yaradılmış şəraitdən duyduğu sevinci mənzil sahibləri ilə bölüşdü. Ağdam, Kəlbəcər və Laçından olan ailələrə mənzillərin order və açarlarını təqdim etdi. Əsl bayram əhval-ruhiyyəsində olan ailələr Mehriban xanıma, Azərbaycan Prezidentinə, onların övladlarına ən xoş arzularını, minnətdarlıqlarını çatdırdılar.

Mehriban xanım dövlətimizin başçısının məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıtması üçün bütün, mümkün olan tədbirləri gördüyünü bildirdi, aparılan siyasətin uğuruna inandığını söylədi. Məcburi köçkünlərlə, təzə mənzil sahibləri ilə xatirə şəkli çəkdirən Mehriban xanım daha sonra onu çay süfrəsinə dəvət edən ağdamlı Çiçək Şahməmmədovanın qonağı oldu. Şamaxının səfalı guşəsində yerləşən Sağyan kəndində inşa edilmiş 160 yerlik məktəb də Heydər Əliyev Fondunun yeni dərs ilində kənd sakinlərinə layiqli töhfəsi oldu.

Sürüşmə zonasında tikilmiş köhnə məktəbin binasında çatlar əmələ gəldiyinə, dərs keçmək təhlükəli olduğuna görə Heydər Əliyev Fondu aparılmış monitorinqdən sonra burada yeni bina tikilməsini "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ikinci mərhələsinə daxil etmişdi. Qısa vaxtda kəndin ən mənzərəli guşəsində müasir tələblərə cavab verən təzə məktəb inşa edilmiş, təzə avadanlıqla, kompyuterlərlə, kitabxana isə lazımi ədəbiyyatla təmin olunmuşdur.

Ulu öndər Heydər Əliyevin məktəbin giriş qapısı üstündə yazılmış "Azərbaycanın gələcək tərəqqisi, hərtərəfli inkişafı uşaqların, gənclərin yüksək səviyyədə təhsil almasından çox asılıdır" kəlamı diqqəti cəlb edirdi. Foyedəki lövhədə isə Prezident İlham Əliyevin "Orta məktəbdə oxuyan hər bir gənc yüksək savad almalı, kamil biliyə malik olmalıdır ki, doğma vətənimizə, ölkəmizə səmərəli xidmət göstərsin və Azərbaycanın potensialını gücləndirsin" sözləri yazılmışdı.

Bayramsayağı bəzədilmiş məktəbin həyətində Mehriban xanım gül-çiçəklə qarşılandı. O, əvvəlcə Heydər Əliyev Fondunun Şamaxıda həyata keçirdiyi layihələri, aparılan tikinti işlərini əks etdirən lövhəyə baxdı. Rayon icra hakimiyyətinin başçısı məlumat verdi ki, Çaylı, Quşçu, Qələybuğurd və İkinci Cabanı kəndlərində Fondun təşəbbüsü ilə 200 yerlik təzə məktəblər tikilmiş, bəzilərində isə əsaslı təmir və tikinti işləri davam etdirilir.

Mehriban xanım təzə məktəbdə tikintinin keyfiyyəti, avadanlıqla və müəllim kadrları ilə





təminatla maraqlandı, kitabxanaya, kompyuter otağına baxdı.

Direktor Viktor Əliyev kollektivin ən xoş arzularını Mehriban xanıma yetirdi, təzə məktəbin müəllim və şagirdlərə qol-qanad verdiyini vurğuladı.

Mehriban Əliyeva burada toplaşan müəllimlərə, şagirdlərə, kənd sakinlərinə təzə məktəbin açılışı münasibətilə gözaydınlığı verdi, onların şəxsində bütün şamaxılılara dövlətimizin başçısının salamlarını çatdırdı. Ölkəmizin hər yerində bundan sonra da belə yeni təhsil ocaqlarının tikiləcəyini, Heydər Əliyev Fondunun da bu işlərin önündə gedəcəyini bildirdi.

*"Azərbaycan" qəzeti,*
*17 sentyabr 2006-cı il*

# BİR GÖRÜŞÜN ƏKS-SƏDASI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı ilin noyabr ayında Gədəbəy rayonuna səfəri bu yerlərin sakinlərinin yaddaşında silinməz xatirəyə çevrildi. İndi burada hamı ölkə Prezidentinin və onun xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın insanlarla səmimi görüşündən, isti münasibətlərindən söhbət açmaqdadır. İki yüz il bundan əvvəl Rusiyanın ucqarlarından bu yerlərə köçürülmüş Rus İcmasının nümayəndələri ilə görüşlər daha kövrək notlarla yadda qaldı. Azərbaycan Prezidenti və onun xanımı Slavyanka kəndinin sakini, səksən yaşlı Mariya Vasilenkovanın qonağı oldular. Onunla və Gədəbəydəki Rus İcmasının digər üzvlərilə bir çay süfrəsi arxasında əyləşib söhbət etdilər. İstər ölkə mətbuatı, istər dünya mətbuatı öz səhifələrində bu səfəri kifayət qədər işıqlandırmışdır.

*"Azərbaycan" qəzeti,*
*10 yanvar 2007-ci il*





# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA ƏQLİ VƏ FİZİKİ CƏHƏTDƏN QÜSURLU UŞAQLARIN TƏHSİL ALDIĞI MƏKTƏBLƏRDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva 2007-ci ilin martın 15-də Təhsil Nazirliyinin Bakının Nəsimi rayonundakı 268 nömrəli yardımçı məktəbində olmuşdur.

Uşaqlar Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

1905-ci ildə inşa edilmiş bu binada məktəb 1927-ci ildən fəaliyyət göstərir. Uzun illər təmir olunmayan bina yararsız vəziyyətə düşmüşdü. Mehriban xanım 2003-cü ildə ilk dəfə buraya gələrkən vəziyyətlə yerində tanış olmuş, onun təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində əsaslı şəkildə təmiri və yenidən qurulmasına başlanmışdır. 2005-ci ilin yanvarında işlər başa çatdırılmışdır. Burada ayrıca daimi istilik sistemi qurulmuş, yeməkxana, idman kompleksi də tikilmişdir. Məktəb təzə avadanlıqla tam komplektləşdirilmişdir, burada tibb otağı, loqopediya və s. kabinetlər vardır.

Azərbaycanın birinci xanımının buraya ilk gəlişindən sonra məktəbin fəaliyyətində də əsl canlanma yaranmışdır. İndi burada əvvəlkindən 3 dəfə çox, əqli və fiziki cəhətdən zəif inkişaf etmiş 130 uşaq təhsil alır. Bundan iki dəfə çox uşağa isə ailələrdə xüsusi tədris proqramı keçirilir. 15 sinif və 6 qrupda uşaqların təlim-tərbiyəsi ilə 140 müəllim və tərbiyəçi məşğul olur. Uşaqlara gündə 2 dəfə yemək verilir. Valideynlər iş gününün sonunda onları evlərinə aparırlar.

Məktəbin əvvəlki və hazırkı vəziyyətini əks etdirən fotoguşə, ümummilli lider Heydər Əliyevin uşaqlarla unudulmaz görüşlərinə, Fondun həyata keçirdiyi layihələrə, Mehriban xanımın bu məktəbdə keçirdiyi görüşlərə həsr olunmuş fotoşəkillər, dəhlizləri və sinif otaqlarını bəzəyən gül-çiçək dibçəkləri, göz oxşayan səliqə-sahman diqqəti cəlb edir.

Mehriban xanım məktəbin bayramsayağı bəzədilmiş salonunda uşaqların Novruz bayramı münasibətilə hazırladığı musiqili-əyləncəli kompozisiyaya tamaşa etdi, onların sevincinə qoşularaq uşaqlarla birlikdə rəqs etdi. Uşaqların məharətlə ifa etdiyi yumoristik səhnələr, oynaq, şux rəqslər hörmətli qonağa, valideynlərə xoş ovqat bəxş etdi.

Mehriban Əliyeva məktəbin kompyuter otağına da baxdı. Burada uşaqlar kompyuterlərdə sərbəst işləyirdilər. Onlar Mehriban xanımın suallarını, verdiyi tapşırıqları bacarıqla yerinə yetirdilər.

Uşaqların əmək təlimi dərsində əldə etdiyi uğurlar emalatxanada nümayiş etdirilən əl işlərində özünü göstərirdi.

Yardımçı məktəbin yeməkxanasında açılmış bayram süfrəsi də uşaqların ürəyincə oldu. Şəkərbura, paxlava, meyvə-tərəvəz, şərbətlər düzülmüş bol süfrə arxasında uşaqlarla birlikdə əyləşən Mehriban xanımdan qızı Arzu və Leylanı soruşdular, ötən dəfə onlarla birlikdə rəqs etdiklərini, birgə şəkil çəkdirdiklərini xatırlatdılar, hətta onların harada və hansı uşaqlarla yanaşı oturduqlarını da yada saldılar. Mehriban xanım uşaqların bu diqqət və yaddaşından mütəəssir oldu, növbəti görüşlərində mütləq onları da gətirəcəyini bildirdi. Buraya toplaşan valideynlər bu qayğıkeşliyinə görə Mehriban xanıma minnətdarlıq etdilər, onun artıq bu uşaqların sevimlisinə çevrildiyini vurğuladılar.

Valideyn Nisə Abbasova Fondun prezidentinə müraciətlə dedi ki, qızı Sevda hər dəfə Sizi televizorda görəndə "Mehriban xala, Mehriban xala" deyərək hamını Sizə baxmağa, söhbətinizi dinləməyə çağırır, onu öpdüyünüzü yada salır.

Mehriban xanım Heydər Əliyev Fondunun əqli və fiziki cəhətdən zəif inkişaf etmiş, xüsusi qayğıya ehtiyacı olan uşaqların problemlərinin həllinə, onların valideynlərinin, doğma və əzizlərinin mənəvi ağrılarına şərik olmağı özünün borcu hesab etdiyini, bunun üçün mümkün olan tədbirləri görməyə çalışdığını bildirdi.

Əziz qonağı səmimiyyətlə yola salan uşaqların əhval-ruhiyyəsindən bu görüşün də onların qəlbində şirin xatirəyə çevriləcəyi hiss olunurdu.

Nərimanov rayonundakı kor və zəif görən uşaqlar üçün respublika internat məktəbinin qarşısında Mehriban xanıma gül-çiçək dəstəsi təqdim edən uşaqlar bu məktəbin əsaslı şəkildə təmirinə, yenidən qurulmasına, təzə avadanlıqla təmin olunmasına göstərdiyi qayğıya görə minnətdarlıqlarını bildirdilər, indi burada onların rahatlığı üçün hər cür şərait yaradıldığını söylədilər.

"Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulmuşdur", "Xüsusi qayğıya ehtiyacı olan uşaqlar tək deyil" sözləri yazılmış lövhələrin də asıldığı foyedə bu təhsil ocağının bərpadan əvvəlki acınacaqlı görkəmini və hazırkı vəziyyətini əks etdirən stend, ulu öndər Heydər Əliyevin uşaqlara diqqət və qayğısından bəhs edən, habelə Fondun prezidenti Mehriban xanımın bu təhsil ocağında keçirdiyi görüşlərə dair fotoguşələr yaradılmışdır.

Direktor məlumat verdi ki, 61 ildir fəaliyyət göstərən məktəbdə hazırda 300 uşaq təlim-tərbiyə alır. Onların yarısı tamamilə görmür, 27-si 1-ci qrup əlildir. Burada 100 müəllim və tərbiyəçi çalışır, onların da əksəriyyətinin görmə qabiliyyəti zəifdir.

Mehriban xanımın bu məktəbə ilk gəlişindən sonra Heydər Əliyev Fondunun həyata keçirdiyi "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində 2005-ci ilin sonunda məktəbin əsaslı təmiri və yenidən qurulmasına başlanmışdır. İşlər qısa vaxtda keyfiyyətlə başa çatdırılmış, daimi istilik sistemi quraşdırılmış, yeməkxana, idman kompleksi də tikilmişdir. Uşaqların bədii-estetik zövqlərinin formalaşması, asudə vaxtlarının təşkili üçün nümunəvi şərait var. Məktəbin həyətində geniş abadlıq işləri görülmüş, yaşıllıqlar salınmış, istirahət guşələri yaradılmışdır. Uşaqlar açıq havada gəzməyi, burada istirahət etməyi, idman oyunları ilə məşğul olmağı çox sevirlər. Məktəb təzə avadanlıqla tam komplektləşdirilmiş, uşaqların müayinə, müalicəsinə kömək məqsədilə müasir avadanlıqla təchiz olunmuş tibb kabinetləri təşkil edilmişdir.

12 illik təhsil proqramından sonra attestat alan məzunlar test imtahanları ilə ali məktəblərə daxil ola bilirlər. 2006-cı ilin 14 nəfər məzundan 4-ü ali, 2-si isə orta ixtisas məktəblərinə daxil olmuşdur. Məzunlar arasından xeyli istedadlı adamlar çıxmışdır. Onlardan biri də bəstəkar İsrail Kərimov idi.

Sinif, yataq otaqları, fənn kabinetləri ilə ətraflı tanış olan Mehriban xanım proqram və dərsliklərlə təminat, kadrların ixtisas hazırlığı ilə maraqlandı.

Uşaqlar Azərbaycanın birinci xanımını Novruz bayramı münasibətilə xüsusi olaraq bəzədilmiş yeməkxanada təşkil edilmiş şənliyə dəvət etdilər. Süfrədə müxtəlif yeməklər, səməni, bol şirniyyat, meyvə-tərəvəz vardı. Məktəbin şagirdi Əsgər Əliyevin ifa etdiyi şən, oynaq mahnı və Kosa, Keçəl, Bahar qızın göstərdiyi səhnəciklər, şən, şux zarafatlar, rəqslər uşaqlarda hədsiz sevinc doğurdu. Mehriban xanım uşaqlarla birlikdə süfrə arxasında bayram plovundan daddı, yumurta döyüşdürdü, buraya tez-tez gələcəyini bildirdi.

Şagirdlərdən Zeynəb Nəcəfova, Ləman Abdullayeva, Leyla Mərdanlı, Hüseyn Əliyev Fondun prezidenti Mehriban xanım Əliyevanın məktəblilərin sevimlisi olduğunu bildirərək ona, Azərbaycan Prezidenti İlham Əliyevə və ailə üzvlərinə ən xoş Novruz arzularını çatdırdılar.

Mehriban Əliyeva Fondun BMT-nin inkişaf Proqramı ilə birgə həyata keçirilən "Kor və görmə qabiliyyəti zəif olan insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi" layihəsi çərçivəsində bu məktəbdə görülmüş işlərlə də tanış oldu.

Respublikamızda kor və ya görmə qabiliyyəti zəif olan şəxslərin sayı təxminən 40 min nəfərdir. Fond onlara informasiya toplamaq və məşğulluğunu artırmaq üçün əlavə imkanlar yaratmaq mexanizmi kimi, İKT-dən istifadənin təşkilini zəruri saymış, BMT-nin İnkişaf Proqramı ilə birgə Milli Strategiya hazırlanmışdır.

Məktəbin kompyuter mütəxəssisləri bildirdilər ki, geniş zal elektron kitabxana üçün uyğunlaşdırılmış, Almaniya istehsalı olan 2 kompyuter dəsti alınıb quraşdırılmışdır. Bu kompyuterlər xüsusi olaraq kor və görmə qabiliyyəti zəif uşaqlar üçün hazırlanmış ən son model texnologiyadır. Uşaqlar üçün model İKT sinifləri yaradılmış, proqram təminatı lokallaşdırılmış,

internetə çıxışın təmin olunması və tədris-təlim proqramlarının hazırlanması, audio studiya və kitabxananın fəaliyyəti təmin edilmişdir.

Texnologiyanın işləmə mexanizmi əyani şəkildə göstərildi. Bildirildi ki, Brayl əlifbası ilə Azərbaycan, rus və ingilis dillərində olan istənilən kitabı kompyuterin yaddaşına köçürüb oxumaq, səsləndirib dinləmək mümkündür. Musiqiyə qulaq asmaq, internetə girmək, məktublaşmaq, 100 min səhifəlik materialı yaddaşda saxlamaq, surətini çıxarmaq, SMS göndərmək, o cümlədən mobil telefonlara da mesaj göndərmək olur. Burada dərsliklər əldə edilib çap olunur. Gözdən əlil insanlar artıq bu texnologiyadan evlərinə də alıb fərdi qaydada istifadə etmək arzusundadırlar. Burada onlarla işləməyi öyrədən bacarıqlı mütəxəssislər vardır. Fondun köməyi ilə xaricdən mütəxəssislər dəvət olunmuş, məşğələlər keçirilmişdir, bizim mütəxəssislər də Almaniyada olmuşlar. Respublika Korlar Cəmiyyəti ilə də birgə işlər aparılır.

Fondun icraçı direktoru Anar Ələkbərov əlavə etdi ki, layihədə nəzərdə tutulmasa da, Mehriban xanımın təşəbbüsü ilə 2006-cı il bizim nümayəndələr bu avadanlığı alıb gətirmək üçün Almaniyanın Frankfurt şəhərində keçirilən beynəlxalq sərgidə olarkən alman mütəxəssislər ölkəmizdə belə layihənin həyata keçirildiyini eşidəndə təəccüblənmişdilər. Bildirmişdilər ki, belə layihə MDB-də birinci olaraq sizin respublikanızda həyata keçirilir, hətta Avropanın bir çox qabaqcıl dövlətlərində də onun reallaşmasına girişməyə cəsarət etmirlər. BMT İnkişaf Proqramının ölkəmizdəki missiyasının rəhbərliyi də yaxın vaxtlarda bu məktəbdəki elektron kitabxana ilə tanış olmaq istədiklərini bildirdilər.

Görmə qabiliyyəti olmayan, yaxud zəif görən hər bir uşağa dəstək vermək, onların həyatının çətinliyini azaltmağı Fondun prioritet fəaliyyət sahəsi hesab etdiyini bildirən Mehriban xanım layihənin birinci mərhələsi çərçivəsində həyata keçirilən tədbirləri müsbət dəyərləndirdi, bundan sonra görüləcək işlərə dair tövsiyələrini verdi, layihənin perspektivləri barədə fikirlərini açıqladı.

Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, BMT İnkişaf Proqramının da belə bir layihəyə dəstək verməsi həm ölkəmizdə gedən uğurlu islahatlara inamın, həm də Fondun indiyədək qarşıya qoyduğu məqsədlərə çatmaq üçün iradə nümayiş etdirməsinin nəticəsidir.

*"Azərbaycan" qəzeti,*
*16 mart 2007-ci il*





## HEYDƏR ƏLİYEV FONDUNUN TƏLİM-TƏDRİS MƏRKƏZİNİN AÇILIŞI OLMUŞDUR

2007-ci ilin martın 16-da Bakının Nizami rayonunda Heydər Əliyev Fondunun Təlim-Tədris Mərkəzinin açılışı olmuşdur. Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva mərasimdə iştirak etmişdir.

Uşaqlar Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

2005-ci ilin noyabrında inşasına başlanmış, 1500 kvadratmetr sahəsi olan üçmərtəbəli bina bütün fənlər üzrə ali məktəblərə, eləcə də ondan sonrakı mərhələlər üçün hazırlıq kurslarının təşkili məqsədilə tikilmişdir. Burada hər növbədə 100 nəfər olmaqla gündə 3 növbədə 300 nəfərin məşğul olması üçün rahat şərait yaradılmışdır. Fənlərdən və uşaqların sayından asılı olaraq, 3, 4, 8 nəfərlik otaqlar təzə, rahat avadanlıqla təchiz olunmuşdur. Valideynlər üçün gözləmə otağı da var. Hər mərtəbənin foyesində ümummilli lider Heydər Əliyevin uşaqlara sonsuz məhəbbətini, diqqət və qayğısını əks etdirən fotostendlər, rəsm əsərləri asılmış, divan-kreslolar, jurnal stolları qoyulmuşdur. Ayrıca istilik sistemi, sanitar qovşağı olan mərkəzin konfrans salonunda müxtəlif tədbirlərin keçirilməsi üçün elektron avadanlıq quraşdırılmışdır. Burada paytaxtın bütün məktəbləri tədbirlərini keçirə biləcək, uşaqlar üçün tanınmış alim və mütəxəssislərin mühazirələri, onlarla görüşlər təşkil olunacaqdır. Fondun balansında olan mərkəzin imkanlarından heç bir məhdudiyyət qoyulmadan arzu edən bütün məktəblilər, gənclər istifadə edəcəklər. Özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərəcək mərkəzdə imkansız ailələrin uşaqları üçün güzəştlər nəzərdə tutulacaq, uşaq evlərindən və internat məktəblərindən gələnlər isə pulsuz məşğul olacaqlar. Mərkəzin həyətində istirahət guşələri yaradılmış, yaşıl xiyaban salınmışdır.

Mərkəzin xidməti və sinif otaqları ilə tanış olan Mehriban xanım yüksək sürətli internetə qoşulu kompyuterlərin alınıb quraşdırılmasından, kompyuter salonunun zövqlə tərtib edilməsindən, bütövlükdə görülən işin keyfiyyətindən razı qaldığını bildirdi.

Mehriban xanım sonra Nizami rayonundakı 1 nömrəli uşaq evində Heydər Əliyev Fondunun təşkil etdiyi Novruz şənliyində iştirak etdi.

Uşaq evinin sakinləri Azərbaycanın birinci xanımını böyük səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Bayramsayağı bəzədilmiş foyedə uşaqların ifa etdikləri oynaq mahnılar və rəqslər görüşə xoş ovqat bəxş etdi. Milli geyimli oğlan və qızların xalı, geyim, bəzək əşyalarını bacarıqla toxuması, onların əl işlərinin sərgisi Mehriban xanımda xüsusi maraq doğurdu.

Mehriban xanım uşaq tərbiyə müəssisəsinin bahar rəngləri ilə bəzədilmiş yeməkxanasında Novruz bayramı münasibətilə hazırlanmış musiqili-əyləncəli kompozisiyaya da tamaşa etdi. Fondun əməkdaşları masalar üstünə hər cür bayram şirniyyatı, meyvə-tərəvəz düzərək, xidmətçilərlə birlikdə uşaqlara qulluq edirdilər.

2003-cü ildən fəaliyyətə başlayan, dəfələrlə respublika müsabiqələrinin qalibi olmuş, xarici ölkələrə səfərlər etmiş "Azəri" mahnı və rəqs ansamblının çıxışları hərarətlə qarşılandı. Ansamblın bədii rəhbəri Rövşən Məmmədov, baletmeysteri Nazim Abdullayevdir. Kollektiv İstanbulda keçiriləcək ənənəvi uşaq bayramında iştirak etmək üçün apreldə Fondun maliyyə dəstəyi ilə qardaş Türkiyəyə gedəcəkdir. Təravət və İbrahimin oynadığı müasir bal rəqsi, Yasəmən və Yalçının "Naz eləmə" rəqsi, ansamblın ifa etdiyi "Çobanlar", "Arpa çay", "Azərbaycanım" mahnı-rəqsləri, balaca aktyorların Novruz personajlı yumoristik səhnələri, şənlik iştirakçılarının hamılıqla "Yallı" getməsi əsl bayram ovqatından xəbər verirdi.

Fondun Prezidenti özü ilə bir masa arxasında oturmuş uşaqlara bayram plovu çəkdi, onlarla birlikdə əyləndi, xatirə şəkilləri çəkdirdi.

Hər dəfə bu uşaq evində yeniliklər gördüyünü bildirən Mehriban xanım yeni təşkil olunmuş oxu zalına da baxdı, uşaqların asudə vaxtlarını səmərəli keçirməsi üçün yaradılmış nümunəvi şəraitdən razı qaldı.

Direktor Nərminə Zöhrabova xalqımızın əziz bayramı münasibətilə Mehriban xanımı uşaq evinin sakinləri adından təbrik etdi. Minnətdarlıqla bildirdi ki, dəfələrlə buraya gələn Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində əsaslı təmir edilən və yenidən qurulan bu təlim-tərbiyə ocağında uşaqların bədii-estetik zövqlərinin formalaşması, asudə vaxtlarının təşkili üçün hər cür şərait var. Həyətdə geniş abadlıq işləri görülmüş, yaşıllıqlar salınmış, istirahət guşələri yaradılmışdır. Uşaqlar açıq havada gəzməyi, istirahət etməyi, idman oyunları ilə məşğul olmağı çox sevirlər. Uşaq evi təzə avadanlıqla tam komplektləşdirilmiş, müasir səviyyədə təchiz olunmuş tibb kabinetləri təşkil edilmişdir. Hazırda burada 107 uşaq vardır, xidmətçi heyət də daxil olmaqla, onların təlim-tərbiyəsi ilə 44 nəfər məşğul olur. Bu uşaq evinin yetirmələri dəfələrlə müxtəlif idman, rəsm, musiqi müsabiqələrində qalib gəlmiş, diplom və fəxri fərmanlar almışdır.

Mehriban xanım uşaqlara və tərbiyəçi müəllimlərə Novruz bayramı münasibətilə xoş arzularını çatdırdı.

Mehriban Əliyevanın həmin gün Novruz bayramı münasibətilə daha bir görüşü Suraxanı rayonundakı 2 nömrəli uşaq evində oldu.

Ötən il buraya gələndə Mehriban xanım bu təlim-tərbiyə müəssisəsinə mikroavtobus





bağışlamışdı. O vaxt burada yeməkxana olmadığına görə uşaqlara yeməyin otaqlarda verildiyini bildikdə, yeməkxana tikilməsinə təşəbbüs göstərmişdi.

Mehriban xanım uşaq evinin yataq otaqlarına, tibb məntəqəsinə baxdıqdan sonra təzə tikilmiş, 380 kvadrat metr sahəsi olan yeməkxanaya gəldi. Ərazinin əvvəlki vəziyyətini və indiki görünüşünü əks etdirən fotolara baxdı, yeməkxananın ərzaq anbarında, mətbəxində oldu, ərzaq ehtiyatı, normaları, sanitariya vəziyyəti ilə maraqlandı.

Buranın ən yaşlı xidmətçisi olan Həqiqət Sultanova yaradılan belə gözəl şəraitə görə hamının razılığını Mehriban xanıma çatdırdı. Eyni zamanda dedi ki, Xocalı qırğını haqqında əsl həqiqətin dünyaya yayılması üçün gördüyü işlərə görə xüsusi minnətdarlıq etməyi özünə borc bilir.

Bayram süfrəsi arxasında hər kəs öz yerini tutduqdan sonra uşaq evində təlim-tərbiyə işinin təşkilindən, uşaqların müxtəlif sahələrdə əldə etdiyi uğurlardan bəhs edən film göstərildi.

4 yaşlı Aytac isə əsl körpə məhəbbəti ilə Mehriban xanımın boynuna sarılıb ondan aralanmırdı.

Bütün uşaqlar bir səslə Mehriban xanımı salamladılar. Sonra şənliyin aparıcıları Mehriban xanıma müraciətlə dedilər: "Əziz Mehriban xanım, bizimlə Novruz bayramı sevincini bölüşməyə xoş gəlmisiniz. Biz Sizi əziz bayramımız münasibətilə ürəkdən təbrik edirik.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində görülən işlər xalqımızın minlərlə ailəsinə rahatlıq, sevinc bəxş etmiş, yaxşı təhsil imkanı yaratmışdır.

Digər 28 belə uşaq evi, internat məktəbi kimi, bizim müəssisə də Sizin təşəbbüsünüzlə həyata keçirilən "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində təmir edilərək, təzə avadanlıqla tam təchiz olunmuş, rahatlığımız üçün hər cür şərait yaradılmışdır. Söz veririk ki, bizə göstərdiyiniz qayğıya cavab olaraq səylə oxuyacaq, Vətənimizə, xalqımıza gərəkli insanlar olacağıq.

Sizə və hörmətli Prezidentimizə gördüyünüz böyük işlərdə müvəffəqiyyətlər arzulayırıq. Bu bayram günündə Sizə öz sevgi və məhəbbətimizi bildiririk."

Mahnı və rəqslər bir-birini əvəz etdi, uşaqlar Novruz səhnəcikləri göstərdilər, yeyib-içib şənləndilər.

Fondun prezidenti buradan ayrılarkən bir daha hamını bayram münasibətilə təbrik etdi, tərbiyəçilərdən onların əməyinin ən böyük savab iş olduğunu unutmamağı, uşaqlara öz balaları kimi baxmağı xahiş etdi.

***"Azərbaycan" qəzeti,***
***17 mart 2007-ci il***

## HEYDƏR ƏLİYEV FONDU ZİRƏ QƏSƏBƏSİNDƏ ZİYAFƏT TƏŞKİL ETMİŞDİR

2008-ci ilin mayın 10-da ulu öndər Heydər Əliyevin 85 illik yubileyi ilə əlaqədar Zirə qəsəbəsində yeni istifadəyə verilmiş şadlıq sarayında Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın adından Əzizbəyov rayonunun ağsaqqalları, ziyalıları, ictimaiyyət nümayəndələri üçün ziyafət təşkil edilmişdir.

Bu Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən qurulmuş və ümummilli liderin yubileyi ərəfəsində istifadəyə verilmiş park kompleksində yerləşən şadlıq sarayında keçirilən ilk tədbir idi.

Tədbirdə çıxış edən Heydər Əliyev Fondunun nümayəndəsi rayon sakinlərini Mehriban xanımın adından salamlamışdır. O, rayonda son illər geniş abadlıq-quruculuq işlərinin getdiyini, əhalinin sosial rifahının yaxşılaşması üçün tədbirlər görüldüyünü vurğulamışdır.

Heydər Əliyev Fondunun dəstəyi ilə Zirə qəsəbəsində tamamilə yenidən qurulmuş və açılışında Prezident İlham Əliyevin iştirak etdiyi park kompleksi, uşaq bağçası, Müalicə-Diaqnostika Mərkəzinin istifadəyə verilməsi, kabel və elektrik avadanlıqları istehsal edən müasir zavodun tikilib işə salınması Əzizbəyov rayonunun sakinlərinə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bütün bu işlərdə Heydər Əliyev Fondu və onun prezidenti Mehriban Əliyeva daim böyük təşəbbüskarlıq göstərir.

Ziyafətdə Azərbaycanın tanınmış incəsənət ustaları maraqlı konsert proqramı ilə çıxış etmişlər.

*"Azərbaycan" qəzeti,*
*11 may 2008-ci il*







## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA BAKININ SABUNÇU, NİZAMİ VƏ NƏRİMANOV RAYONLARINDA BİR SIRA OBYEKTLƏRİN AÇILIŞINDA OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində Bakının Sabunçu, Nizami və Nərimanov rayonlarında bir neçə obyektin açılışında iştirak etmişdir.

Fondun prezidenti əvvəlcə Maştağa qəsəbəsindəki "Təbəssüm" Uşaq sanatoriyasına gəldi. Mehriban xanım Əliyeva sanatoriyanın açılışını bildirən rəmzi qırmızı lenti kəsdi, foyedə ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstəsi qoydu.

"Sanatoriyamızın dünəni və bu günü" stendi ilə tanış olan Mehriban xanıma məlumat verildi ki, əsaslı yenidənqurmadan sonra istifadəyə verilən Uşaq sanatoriyasının binası 1936-cı ildə inşa olunmuşdu.

1989-cu ildə yeni binaya köçürülsə də, son illərdə hər 3 korpusda əsaslı təmirə və yenidənqurmaya ehtiyac var idi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2007-ci ildə sanatoriyada başlanan təmir və yenidənqurma işləri artıq başa çatdırılmış, bütün korpuslar, o cümlədən kabinetlər, müalicə otaqları müasir üslubda əsaslı təmir olunmuş, qapı və pəncərələr, döşəmə, dam örtüyü, sanitoriya qovşaqları təzələnmiş, müasir tipli qazanxana tikilib istifadəyə verilmiş, 110 kvt gücündə generator quraşdırılmışdır. Həyətyanı sahədə yaşıllaşdırma və abadlıq işləri aparılmış, istirahət üçün kölgəliklər quraşdırılmış, uşaqların əylənməsi üçün attraksionlar qoyulmuşdur. Hazırda sanatoriyada müalicə bədən tərbiyəsi, idman, musiqi salonları, manipulyasiya, fizioterapiya, ordinator, elektrokardioqram və masaj otaqları, laboratoriya, yaradıcılıq studiyası fəaliyyət göstərir.

225 çarpayılıq tibb ocağı qastroenteroloji və pulmonoloji profillidir.

Sanatoriya poliklinikalardan göndərişlə yaş yarımdan 7 yaşınadək uşaqları qəbul edir. Həmin göndəriş əsasında uşaqlar burada 2 ay pulsuz müalicə olunur və sağlamlıqlarını bərpa edirlər. Hazırda sanatoriyada 56 uşaq müalicəsini davam etdirir, onlara 8 həkim, 45 tibb bacısı, 14 tərbiyəçi müəllim xidmət göstərir.

Heydər Əliyev Fondunun prezidenti idman zalında balacaların bədən tərbiyəsi ilə məşğul olduqlarını müşahidə etdi.

Sanatoriyadakı uşaqlar ölkənin birinci xanımını onlara məxsus səmimiyyətlə qarşıladılar.

Balacaların əhatəsində olan Mehriban xanım onlarla şirin söhbət etdi. Yaradıcılıq studiyasında uşaqların ifasında mahnıya maraqla qulaq asan Heydər Əliyev Fondunun prezidenti onlara tezliklə sağalmağı, vətənimizin layiqli övladları kimi böyüməyi arzuladı.

Ölkənin birinci xanımı uşaqların yataq otaqlarına da baxdı. Sanatoriyada gözəl yeməkxana və geniş mətbəx də tikilmişdir.

Azərbaycanın birinci xanımı uşaq sanatoriyasında yaradılmış şəraitdən məmnun qaldı. Bu müəssisənin uğurla fəaliyyət göstərəcəyinə əminliyini bildirdi.

Sonra Nizami rayonundakı 1 nömrəli uşaq evinə gələn Mehriban xanım Əliyeva ulu öndər Heydər Əliyevin foyedəki büstü önünə gül dəstəsi qoydu, burada görülmüş işlərlə tanış oldu.

Uşaqların asudə vaxtını səmərəli təşkil etmək məqsədi ilə binada əlavə mərtəbə tikilmişdir. Bundan başqa, əsaslı təmir işləri aparılmış, yeni avadanlıq alınmış, istilik sistemi istifadəyə verilmişdir. Yeni inşa olunmuş mərtəbədə kompyuter, tikiş, toxuculuq, rəssamlıq otaqları, yaradıcılıq studiyası fəaliyyət göstərir.

Studiyada Mehriban xanıma uşaqların toxuduğu xalça hədiyyə olundu. Hədiyyələrə görə təşəkkürünü bildirən Mehriban xanım uşaqlara yeni yaradıcılıq uğurları arzuladı.

Həyətdə aparılmış yaşıllaşdırma və abadlıq işləri ilə tanış olan Mehriban xanım Heydər Əliyev Fondunun hədiyyəsi olan "Hyundai" markalı avtobusun açarlarını Uşaq evinin direktoruna təqdim etdi, uşaqlarla xatirə şəkli çəkdirdi. Sonra Heydər Əliyev Fondunun təşəbbüsü ilə uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün inşa edilmiş 50





mənzillik, 100 nəfərlik yaşayış binasının açılışı oldu. Mehriban xanım Əliyeva rəmzi qırmızı lenti kəsdikdən sonra binadakı otaqlarda yaradılmış şəraitlə tanış oldu. Bildirildi ki, bu binanın istifadəyə verilməsi çoxdan bəri ictimai narahatlığa səbəb olan ciddi bir problemin həllinə yönəlmişdir. Əvvəllər uşaq evlərini tərk edən qızlar taleyin hökmünə buraxıldığından onların sonrakı həyatını izləmək bir çox hallarda mümkün deyildi. Yeni yaşayış binası bu problemin həllinə xidmət edəcəkdir. Gənclərin təhlükəsizliyi də unudulmamış, burada müşahidə kameraları qoyulmuşdur.

Binadakı bütün mənzillər müvafiq mebel, televizor, paltaryuyan maşın və digər məişət avadanlığı ilə təmin olunmuşdur.

Fondun prezidenti həmin gün Nərimov rayonundakı 38 nömrəli musiqi məktəbinin açılışında da iştirak etdi.

Rəmzi qırmızı lenti kəsdikdən sonra Mehriban xanım Əliyevaya məlumat verildi ki, 30 ilə yaxındır bu məktəbdə kor və zəif görən uşaqlar fortepiano, kamança, nağara və xanəndəlik kurslarında təhsil alırlar.

2008-ci ilin avqust ayında musiqi məktəbində Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir işlərinə başlanmış, bir neçə yeni sinif otağı inşa olunmuş, istilik, qaz, su və işıq sistemləri təzələnmişdir. Musiqi məktəbi Fond tərəfindən yeni musiqi alətləri və avadanlıqla təmin olunmuşdur. Hazırda 14 sinif otağı olan musiqi məktəbində 50 müəllim 200-dək uşağa musiqi sənətinin incəliklərini öyrədir.

Mehriban xanım bildirdi ki, Heydər Əliyev Fondu bu qəbildən olan uşaqlar üçün nəzərdə tutulan layihələrə xüsusi diqqət yetirir. "Kor və zəif görən uşaqların İKT-yə çıxışının təmin olunması layihəsi"ni həyata keçirir. Həmin layihə çərçivəsində Gəncədə xüsusi məktəb tikiləcəkdir. İndi Azərbaycan uşaqlarının ən müasir texnologiyalara yiyələnmələri üçün dünyanın hər yerindən avadanlıq gətirilir.

Məktəbin nağaraçalanlar qrupunun ifasında milli ritmləri, fortepiano sinfində uşaqların səsləndirdikləri musiqi parçalarını maraqla dinləyən Mehriban xanım buradakı uşaqların xüsusi istedada malik olduğunu bildirdi və beynəlxalq festivallarda onların iştirakının təmin edilməsi üçün müvafiq tövsiyələrini verdi.

Məktəbin şagirdləri göstərilən qayğı və diqqətə görə Mehriban xanıma minnətdarlıqlarını bildirdilər.

*"Azərbaycan" qəzeti,*
*23 yanvar 2009-cu il*



*· X fəsil ·*

# Mehriban xanım Əliyeva və Azərbaycan idmanı

## BAKIDA BƏDİİ GİMNASTİKA ÜZRƏ AGF KUBOKU YARIŞLARI BAŞLANMIŞDIR

2005-ci ilin mayın 13-də Bakıda, Heydər Əliyev adına İdman-Konsert Kompleksində Azərbaycan Gimnastika Federasiyasının bədii gimnastika üzrə ilk kubok yarışları start götürmüşdür. Dünya Kubokunun mərhələsi statusu olan turnirdə 24 ölkənin 105 gimnastı iştirak edir. Üç gün ərzində onlar fərdi proqram üzrə və qrup hərəkətlərində yarışacaqlar.

Açılış mərasimində Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva, Beynəlxalq Gimnastika Federasiyasının (BGF) nümayəndələri və digər rəsmi şəxslər iştirak etmişlər.

BGF-in bədii gimnastika üzrə Texniki Komitəsinin prezidenti Eqle Abruzini qonaqpərvərliyə görə, 2005-ci ilin oktyabrın 3-9-da Bakıda keçiriləcək Bədii gimnastika üzrə XXVII dünya çempionatına test xarakteri daşıyan AGF kuboku yarışlarının yüksək səviyyədə təşkilinə görə təşkilatçılara təşəkkürünü bildirmişdir.

Azərbaycan Respublikasının Dövlət Himni səslənmişdir. Sonra konsert proqramı olmuşdur.

Turnirin birinci günü iştirakçılar ip və topla hərəkətlərdə fərdi proqram üzrə mübarizə aparmışlar.

*"Azərbaycan" qəzeti,*
*14 may 2005-ci il*





## QUBA OLİMPİYA İDMAN KOMPLEKSİNDƏ BEYNƏLXALQ VOLEYBOL FEDERASİYASININ DÜNYA "QRAN-PRİ" TURNİRİNİN AVROPA TƏSNİFAT MƏRHƏLƏSİ YARIŞLARININ TƏNTƏNƏLİ AÇILIŞI

2005-ci ilin iyulun 25-də Azərbaycanın gözəl guşələrindən birində yerləşən Quba Olimpiya İdman Kompleksində 2006-cı il Beynəlxalq Voleybol Federasiyasının dünya "Qran-pri" turnirinin Avropa təsnifat mərhələsi yarışlarının təntənəli açılış mərasimi olmuşdur.

Yarışlarda Avropanın 8 ən güclü komandası – Azərbaycan, Rusiya, Türkiyə, Almaniya, Rumıniya, Bolqarıstan, Niderland və Polşanın qadın voleybolçuları öz güclərini sınayacaqlar. İyulun 31-nə qədər davam edəcək yarışda ilk üç yeri tutan komandalar finala vəsiqə qazanacaqdır.

Prezident İlham Əliyev mərasimdə iştirak etmək üçün Olimpiya kompleksinin stadionuna gəldi. Stadiona toplaşan çoxsaylı tamaşaçılar dövlətimizin başçısını, xanımı Mehriban Əliyevanı və ailə üzvlərini hərarətli alqışlarla qarşıladılar.

*"Azərbaycan" qəzeti,*
*26 iyul 2005-ci il*



## YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, RESPUBLİKA GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ MEHRİBAN ƏLİYEVA AZƏRBAYCAN PARALİMPİYA KOMİTƏSİNİN 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ FOTOSƏRGİYƏ BAXMIŞDIR

YUNESKO-nun xoşməramlı səfiri, Respublika Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyeva 2005-ci ilin oktyabrın 3-də Heydər Əliyev adına İdman-Konsert Kompleksinin foyesində açılmış və Azərbaycan Paralimpiya Komitəsinin 10 illiyinə həsr olunmuş fotosərgi ilə tanış olmuşdur.

Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov Mehriban xanıma məlumat verərək dedi ki, Komitənin yaradılmasının 10 illiyi ilə bağlı bu sərgidən əlavə, bir sıra digər tədbirlər – kitab və jurnal buraxılması, film çəkilməsi də nəzərdə tutulmuşdur.

O bildirdi ki, ekspozisiyada AzərTAc-ın fotomüxbiri İlqar Cəfərovun təxminən 140 işi toplanmışdır. Fotomüxbir Afinada keçirilən son Paralimpiya Oyunlarında idmançılarımızın çıxışlarını da lentə almışdır.

Fotoşəkillərlə tanış olan Mehriban xanım Əliyeva belə gözəl ekspozisiyanın təşkilinə görə minnətdarlığını bildirdi, Paralimpiya Komitəsinin rəhbərliyi və idmançılarla xatirə şəkli çəkdirdi.

*"Azərbaycan" qəzeti,*
*4 oktyabr 2005-ci il*





## BAKIDA BƏDİİ GİMNASTİKA ÜZRƏ 27-Cİ DÜNYA ÇEMPİONATI BAŞA ÇATDI

Bakıda Heydər Əliyev adına İdman-Konsert Kompleksində bədii gimnastika üzrə 27-ci Dünya çempionatı başa çatmışdır. 2005-ci ilin oktyabrın 9-da yarışların axırıncı günü komandaların lent, habelə üç halqa və iki gürzlə qrup təmrinlərində final yarışları keçirilmişdir.

Lentlə təmrinlərdə birinci yeri Bolqarıstan komandası tutmuşdur. İkinci yerə İtaliya, üçüncü yerə isə Rusiya komandaları çıxmışdır. Üç halqa və iki gürzlə təmrinlərin yekunlarına görə, İtaliya komandası birinci olmuşdur. Rusiya komandası gümüş, Belarus idmançıları isə bürünc medala layiq görülmüşdür.

Qaliblərə medalları Azərbaycan Gimnastika Federasiyasının prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva təqdim etmişdir.

Respublika Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov çempionatın bağlanış mərasimində bildirmişdir ki, son illər Azərbaycanda dəfələrlə Avropa və dünya səviyyəli idman yarışları keçirilmişdir. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin apardığı və ölkəmizin iqtisadi-sosial inkişafına, idman və bədən tərbiyəsi hərəkatına diqqət yetirilməsinə yönəlmiş siyasətin qanunauyğun nəticəsidir. Dünyanın idman ictimaiyyətinin diqqəti bir neçə gün idi ki, idmanın Olimpiya növü üzrə Dünya çempionatının keçirildiyi və planetimizin ən güclü gimnastlarının toplaşdığı Bakıya yönəlmişdi. Bu yarışın çox yüksək səviyyədə keçirilməsi Federasiyanın prezidenti Mehriban Əliyevanın göstərdiyi daimi qayğının sayəsində mümkün olmuşdur. A.Həsənov gimnastikanın inkişafına daha böyük təkan verəcək bu çempionatın ölkəmizdə keçirilməsi üçün Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Azərbaycana göstərdiyi etimadı da yüksək qiymətləndirdi.

FIG-in prezidenti Bruno Qrandi gözəllik və zəriflik bayramına çevrilən çempionatı yüksək səviyyədə keçirildiyinə görə Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə, Respublika Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya, Gənclər, İdman və Turizm Nazirliyinə minnətdarlığını bildirmişdir. O, Mehriban xanım Əliyevaya Beynəlxalq Federasiyasının vımpelini və xüsusi medalını təqdim etmişdir.

*"Azərbaycan" qəzeti,*
*11 oktyabr 2005-ci il*



## AZƏRBAYCAN GİMNASTLARI KOMANDA YARIŞLARINDA AVROPA ÇEMPİONATININ BÜRÜNC MEDALINI QAZANMIŞLAR

Azərbaycanın bədii gimnastika üzrə yığma komandası öz tarixində ilk dəfə olaraq Avropa çempionatının bürünc medalını qazanmışdır. Bədii gimnastika üzrə Bakıda keçirilən 23-cü Avropa çempionatının ikinci günü – 2007-ci ilin iyunun 30-dakı yarışlarda dörd hərəkətin (halqa, lent, gürz, ip) cəmində Dinara Gimatova, Aliyə Qarayeva və Anna Qurbanovadan ibarət Azərbaycan yığması 133,425 xalla qitə çempionatında üçüncü yeri tutmuşdur.

Qaliblərə medalları Azərbaycan Gimnastika Federasiyasının (AGF) prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva, Avropa Gimnastika İttifaqının (UEG) prezidenti Dimitrios Dimitropoulos, UEG-nin Bədii Gimnastika üzrə Texniki Komitəsinin prezidenti Hayde Bruneder, AGF-nin vitse-prezidenti Altay Həsənov təqdim etmişlər.

*"Azərbaycan" qəzeti,*
*1 iyul 2007-ci il*





## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, AZƏRBAYCAN GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA BƏDİİ GİMNASTİKA ÜZRƏ 23-cü AVROPA ÇEMPİONATINDA UĞURLA ÇIXIŞ ETMİŞ AZƏRBAYCAN İDMANÇILARI İLƏ GÖRÜŞMÜŞDÜR

2007-ci ilin iyulun 2-də Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyeva Bakıda keçirilən bədii gimnastika üzrə 23-cü Avropa çempionatında uğurla çıxış etmiş Azərbaycan idmançıları Aliyə Qarayeva, Dinara Gimatova və Anna Qurbanova ilə görüşmüşdür.

Belə bir möhtəşəm idman tədbirinin Bakıda keçirilməsinin Azərbaycan üçün əhəmiyyətini qeyd edən Mehriban Əliyeva, komanda yarışlarında Azərbaycan yığmasının bürünc medala layiq görülməsinin, habelə şəxsi birincilikdə Aliyə Qarayevanın Avropa çempionu adının qazanmasının böyük uğur olduğunu demişdir.

Yarışın yüksək səviyyədə təşkilinə toxunan Mehriban xanım Əliyeva demişdir ki, ölkəmizdə ilk dəfə təşkil olunan Avropa çempionatında 33 ölkədən 200-dən çox gimnast mübarizə aparmışdır. Sevindirici haldır ki, Azərbaycan komandası bu yarışda böyük uğurlar qazanmışdır.

Mehriban xanım Əliyeva idmançılarımıza yeni-yeni nailiyyətlər arzulamışdır.

*"Azərbaycan" qəzeti,*
*3 iyul 2007-ci il*



# OLİMPİYA OYUNLARINDA MEDAL QAZANMIŞ İDMANÇILAR HEYDƏR ƏLİYEV FONDUNUN AYLIQ TƏQAÜDLƏRİNƏ LAYİQ GÖRÜLMÜŞLƏR

Müstəqillik illərində Olimpiya oyunlarında medal qazanmış Azərbaycan idmançıları Heydər Əliyev Fondunun aylıq təqaüdlərinə və diplomlarına layiq görülmüşlər.

Fəaliyyətində ictimai həyatın digər sahələri kimi, idmana da daim diqqət və qayğı göstərən Heydər Əliyev Fondunun təşəbbüsü ilə indiyədək tikilən 237 məktəbin əksəriyyətində idman meydançaları, lazımi avadanlıqla təchiz olunmuş idman salonları yaradılmışdır. Uşaqlar və gənclər arasında idmanın təbliğini diqqətdə saxlayan Fond Azərbaycanda keçirilmiş bir çox yarışlara hamilik etmişdir. 2007-ci və 2008-ci illərdə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Prezident Kuboku" Beynəlxalq şahmat festivalı da Fondun dəstəyi ilə keçirilmişdir.

Müxtəlif vaxtlarda keçirilmiş Barselona, Atlanta, Sidney, Afina, Pekin Yay Olimpiya oyunlarında medal qazanmış idmançılar 2008-ci ilin sentyabrın 2-də Heydər Əliyev Fondunda olmuşlar.

İdmançılara ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verildi.





Olimpiyaçılar ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlara, fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və tariximizin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan sənədlərə maraqla tamaşa etdilər. Görkəmli siyasi xadim Heydər Əliyevin genişmiqyaslı fəaliyyətini əks etdirən fotostendlərə xüsusi maraq göstərən idmançılara məlumat verildi ki, ümummilli liderimiz idmanın inkişafına hər zaman böyük diqqət yetirmişdir.

Sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva olimpiyaçılarla görüşdü.

Mehriban Əliyeva idmançılara müraciətlə dedi:

- Hörmətli idmançılar!

Mən, ilk növbədə, sizi Heydər Əliyev Fondunda salamlayıram. Sizin hər birinizi burada görməyə çox şadam və Pekin Yay Olimpiya oyunlarında çox uğurlu çıxışınız münasibətilə, medallar əldə etməyiniz münasibəti ilə ürəkdən təbrik edirəm.

DeməK olar ki, bu Olimpiya oyunları ölkəmiz üçün çox uğurlu oldu. Yığma komandamız çox gözəl nəticələr göstərdi. Himnimiz səsləndi, bayrağımız ucaldı, idmançılarımız fəxri kürsüyə qalxdılar. Mən heç şübhə etmirəm ki, bu anlarda hər bir azərbaycanlı çox böyük qürur, sevinc hissi keçirirdi. Heç kim üçün sirr deyil ki, Olimpiya oyunlarında zəif idmançı iştirak etmir. Dünyanın ən güclü idmançıları bu yarışlarda iştirak edir və, əlbəttə, belə olan halda bütün yarışlar çox ciddi rəqabət şəraitində keçir. Belə şəraitdə qələbə qazanmaq üçün çox yaxşı fiziki hazırlıq və bacarıq lazımdır. Bununla yanaşı, böyük mənəvi qüvvə də lazımdır.

Mən çox şadam ki, Azərbaycan idmançıları bütün dünyaya həm fiziki, həm mənəvi qüvvələrini nümayiş etdirdilər və ölkəmizi çox ləyaqətlə təmsil etdilər. Buna görə bir daha mən sizi ürəkdən təbrik edirəm. Əminəm ki, qarşıda sizin hələ çox-çox qələbələriniz olacaqdır.

Siz, yəqin, yaxşı bilirsiniz ki, son on ildə dövlət ölkəmizdə idmanın inkişafına böyük diqqət və qayğı göstərir. Dövlət başçısı şəxsən bu sahəyə çox böyük diqqət yetirir və, demək olar ki, idmanın inkişafı Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Mən sizin diqqətinizə çatdırmaq istəyirəm ki, biz Pekində olarkən bir çox yarışları seyr edirdik. Orada dünyanın müxtəlif ölkələrinin idman ictimaiyyətinin nümayəndələri bizimlə ünsiyyətdə olurdu və, demək olar ki, hər biri Azərbaycanda idmana göstərilən diqqətdən danışırdı. Onlar həm də Azərbaycanda idmanın inkişafından danışır və deyirdilər ki, bu gün Azərbaycan dünyanın bir çox ölkəsi üçün nümunə olmalıdır. Bu, əlbəttə, bizi çox şad edirdi. Çünki bunu həm ərazisi, həm də əhalisi Azərbaycandan qat-qat çox olan ölkələrin nümayəndələri də vurğulayırdılar.

Ona görə də bugünkü nəticələr belə yüksəkdir. Biz əgər baxsaq, Sidney Olimpiadasından başlayaraq hər Yay Olimpiya oyunlarında bizim uğurlarımız daha yüksəkdir, medallarımız daha çoxdur. Ümidvaram ki, gələcəkdə bundan da böyük nailiyyətlər əldə edəcəyik.

Artıq bir həftədən çoxdur ki, Olimpiya oyunları sona çatıbdır. Amma, yəqin, siz də, biz də – hamımız hələ də o hisslərlə yaşayırıq, o anları yadımıza salırıq. Bir daha demək istəyirəm, çox şadıq ki, Azərbaycanın belə idmançıları var.

Siz qələbələrinizə, medal qazanmağınıza görə həm dövlət tərəfindən, həm də Milli Olimpiya Komitəsi tərəfindən mükafatlandırılmısınız. Yəqin ki, bir sıra özəl şirkətlər, təşkilatlar, sponsorlar da sizə öz mükafatlarını çatdıracaqlar.

Biz, Heydər Əliyev Fondu olaraq, belə qərara almışıq ki, Olimpiya oyunlarında iştirak edib medal qazanan hər bir idmançıya Heydər Əliyev Fondunun təqaüdçüsü adını verək və hər aylıq pulla mükafatlandıraq. Bu, təkcə Pekin Yay Olimpiya oyunlarında medal qazanan idmançılara aid deyildir. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra bütün Olimpiya oyunlarında iştirak edən və medal qazanan idmançılar Heydər Əliyev Fondunun təqaüdçüsü elan olunur. Mən sizi bu münasibətlə də ürəkdən təbrik edirəm.

Yəqin ki, Heydər Əliyev Fondu haqqında sizin kifayət qədər bilginiz var. Bizim Fond 2004-cü ildən fəaliyyət göstərir və əsas məqsədi Azərbaycan xalqının ən layiqli və ən böyük övladlarından biri olan Heydər Əliyevin irsini qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaqdan ibarətdir. Biz fəaliyyətimizə başladığımız ilk gündən konkret layihələr həyata keçiririk, konkret işlər görürük. Fondun fəaliyyəti çoxşaxəlidir – mədəniyyət, təhsil, elm, ətraf mühitin qorunması, sosial problemlərin həlli və sair.

Yəqin bilirsiniz ki, bu son 2-3 il ərzində Fondun dəstəyi ilə ölkəmizdə 200-dən çox yeni məktəb tikilib, müasir avadanlıqla təchiz edilmişdir. Otuzdan çox uşaq evləri və internat məktəbləri əsaslı təmir olunubdur. Bir sıra mədəni və tarixi abidələr bərpa olunur və s.

Əlbəttə, bizim fəaliyyətimizin əsas istiqamətlərindən biri də istedadlı gəncləri dəstəkləməkdir. Bu baxımdan da biz belə bir qərar qəbul etmişik ki, bu gündən etibarən siz hamınız Heydər Əliyev Fondunun təqaüdçüsü elan olunursunuz. Mən bir daha sizi təbrik etmək istəyirəm və sizə gələcəkdə çoxlu uğurlar arzu edirəm.

Sidney Yay Olimpiya oyunlarının qalibi Zemfira Mehtahətdinova və Pekin Yay Olimpiya oyunlarının qalibi Elnur Məmmədli idmanın inkişafına göstərdikləri diqqətə görə Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya olimpiyaçılar adından minnətdarlıq etdilər.

Qeyd olundu ki, son illərdə dövlət səviyyəsində göstərilən qayğının sayəsində Azərbaycanda idman sürətlə inkişaf edir. İdmançılarımızın Olimpiya oyunlarında, Dünya və Avropa çempionatlarında, Beynəlxalq yarışlarda qazandıqları qələbələr bunun nəticəsidir.

Olimpiya oyunlarında medal qazanmış idmançıların uşaqlar və gənclər üçün nümunə olduğunu vurğulayan Mehriban xanım Əliyeva olimpiyaçılarımızın uşaq evləri və internat məktəblərində məskunlaşmış uşaqlara görüşlərinin təşkilinə dair təklif irəli sürdü. Fondun prezidenti bildirdi ki, bu cür görüşlər uşaqların idmana olan marağını artıracaqdır.

*"Azərbaycan" qəzeti,*
*3 sentyabr 2008-ci il*







## PARALİMPİYA OYUNLARINDA MEDAL QAZANMIŞ İDMANÇILAR HEYDƏR ƏLİYEV FONDUNUN AYLIQ TƏQAÜDLƏRİNƏ LAYİQ GÖRÜLMÜŞLƏR

Müstəqillik illərində Paralimpiya oyunlarından medal qazanmış Azərbaycan idmançıları Heydər Əliyev Fondunun aylıq təqaüdlərinə və diplomlarına layiq görülmüşlər.

Müxtəlif vaxtlarda keçirilmiş Sidney, Afina və Pekin Paralimpiya oyunlarında medal qazanmış idmançılar 2008-ci ilin sentyabrın 26-da Heydər Əliyev Fondunda olmuşlar.

İdmançılara ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verildi.

Paralimpiyaçılar ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlara, fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və tariximizin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan sənədlərə maraqla tamaşa etdilər. Görkəmli siyasi xadim Heydər Əliyevin genişmiqyaslı fəaliyyətini əks etdirən fotosənədlərə xüsusi maraq göstərən idmançılara məlumat verildi ki, ümummilli lider idmanın inkişafına hər zaman böyük diqqət yetirmişdir.

Sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva paralimpiyaçılarla görüşdü.

Mehriban Əliyeva idmançılara müraciətlə dedi:

– Əziz qonaqlar, mən sizi Heydər Əliyev Fondunda salamlayıram. Sizi görməyə çox şadam. İlk növbədə, Pekin yay Paralimpiya oyunlarında əldə etdiyiniz müvəffəqiyyətlər, uğurlar münasibətilə sizi ürəkdən təbrik edirəm.

Hesab edirəm ki, idmançılarımız, yığma komandamız bu Paralimpiya oyunlarında çox uğurlu çıxış edibdir. 10 medal əldə etmisizin. Bununla da bütün Azərbaycan xalqına siz çox böyük sevinc hissi, qürur hissi gətirmisiniz. Bizim himnimiz səslənib, bayrağımız qaldırılıb, idmançılarımız kürsiyə qalxıblar. Əminəm ki, bu anlarda hər bir azərbaycanlı ürəyində çox böyük fəxr hissi keçirib.

Bildiyimiz kimi, ölkəmizdə son illər idman çox yüksək sürətlə inkişaf edir. İdmana dövlət tərəfindən, ölkə başçısı tərəfindən çox böyük diqqət var. Bu gün Azərbaycan, demək olar ki, bütün dünyada idman ölkəsi kimi tanınıbdır. Əlbəttə, bu istiqamətdə sizin də çox böyük xidmətləriniz var, çox böyük uğurlarınız var. Mən xatırlayıram, biz sizi Paralimpiya oyunlarına yola salanda cənab Prezidentlə bərabər görüş keçirdik. Orada o, fikirlərini bölüşdü, sizə uğurlar arzu etdi. Əlbəttə, sizin böyük uğurlar əldə etməyiniz hamımız üçün böyük sevincdir. Biz hamımız sizinlə fəxr edirik.

Bu il həm Olimpiya, həm də Paralimpiya oyunları ölkəmiz üçün çox uğurlu oldu. Olimpiya oyunlarında 7, Paralimpiya oyunlarında 10 medal qazanmışıq. Hamı bilir ki, Olimpiya, həmçinin Paralimpiya oyunlarından medal qazanmaq heç də asan iş deyildir. Çünki bütün dünyanın ən güclü idmançıları bu oyunlarda iştirak edirlər, buna 4 il ərzində hazırlıq gedir. Azərbaycanın belə yüksək səviyyədə təmsil olunması, belə yüksək pilləyə qalxması, bizi, əlbəttə, çox sevindirir. Buna görə də mən sizə öz dərin minnətdarlığımı bildirirəm. Sizi bir daha ürəkdən təbrik edirəm.

Biz bu gün Heydər Əliyev Fondunda görüşürük. Siz, yəqin, Heydər Əliyev Fondu haqqında kifayət qədər bilirsiniz, bizim fəaliyyətimizlə tanışsınız. Bilirsiniz ki, biz fəaliyyətimizin ilk günündən ölkəmizdə təhsilin, mədəniyyətin, gənclərin problemləri ilə məşğul oluruq. Sosial problemlərin həllinə yardım etməyə çalışırıq. Gənc, istedadlı insanlara dəstək verməyi özümüzə borc hesab edirik.

Məhz buna görə də bu gün Heydər Əliyev Fondu qərara alıb ki, sizin hər birinizi Heydər Əliyev Fondunun təqaüdçüsü elan etsin və hər ay pulla mükafatlandırsın. Əlbəttə, Heydər Əliyev Fondunun təqaüdçüsü olmaq çox şərəflidir. Bu təqaüdü xalqımızın, ölkəmizin müxtəlif sahələrində xidməti olan insanlar alırlar. Mən çox şadam ki, artıq siz də Heydər Əliyev Fondunun təqaüdçüsünüz.

Mən sizi bu münasibətlə də bir daha ürəkdən təbrik edirəm. Sizə gələcəkdə uğurlar, cansağlığı arzulayıram. Qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə də təbrik edirəm və sizə ən xoş arzularımı çatdırıram. Sağ olun.





Gənclər və İdman naziri Azad Rəhimov idmanın inkişafına göstərdikləri diqqətə görə Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya idmançılar adından minnətdarlıq etdi.

O dedi ki, son illərdə dövlət səviyyəsində göstərilən qayğı sayəsində Azərbaycanda idman sürətlə inkişaf edir. İdmançılarımızın Olimpiya və Paralimpiya oyunlarında, Dünya və Avropa çempionatlarında, Beynəlxalq yarışlarda qazandıqları qələbələr bunun nəticəsidir. MDB məkanında ilk dəfə Azərbaycanda əlil idmançılar üçün xüsusi kompleks tikilmişdir.

Olimpiya və Paralimpiya oyunlarında medal qazanmış idmançıların uşaqlar və gənclər üçün nümunə olduğunu vurğulayan Mehriban xanım Əliyeva bölgələrdə də idmanın inkişafına böyük diqqət yetirildiyini, bütün regionlarda olimpiya-idman komplekslərinin tikildiyini xatırlatdı.

Mehriban xanım Əliyeva rəhbərlik etdiyi Fondun idmançılara hər zaman diqqət göstərəcəyini bildirdi.

*"Azərbaycan" qəzeti,*
*27 sentyabr 2008-ci il*



# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA AZƏRBAYCANIN BƏDİİ GİMNASTİKA ÜZRƏ YIĞMA KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

2009-cu ilin mayın 20-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyeva bədii gimnastika üzrə 25-ci Avropa çempionatında Azərbaycanı təmsil etmiş yığma komandanın üzvləri ilə görüşmüşdür.

Gimnastları Avropa çempionatındakı uğurlu çıxışları münasibətilə ürəkdən təbrik edən Mehriban xanım Əliyeva onların çıxışlarının ölkəmizdə həyəcanla izlənildiyini demiş, idmançılarımızın göstərilən etimadı doğrultduqlarını bildirmişdir. Çempionatın yüksək səviyyədə təşkilini qeyd edən Mehriban xanım Əliyeva Azərbaycanın Qitə yarışında böyük uğur qazanmasının sevindirici hal olduğunu bildirmiş və vurğulamışdır ki, komandamız bu çempionatda bədii gimnastika ənənələri ilə məşhur olan ölkələri belə geridə qoymuşdur.

Azərbaycan Gimnastika Federasiyasının böyük işlər gördüyünü vurğulayan Mehriban





xanım Əliyeva idmançılarımızın 25-ci Avropa çempionatında çox yaxşı çıxış etdiklərini və gözəl göründüklərini bildirmişdir.

Yarışla bağlı təəssüratlarını bildirən gimnastlar çempionatın yüksək səviyyədə təşkil edildiyini, onlara göstərilən etimadı doğrultmağa çalışdıqlarını söyləmişlər.

Göstərilən qayğıya və dəstəyə görə minnətdarlıq edən idmançılar Azərbaycan Gimnastika Federasiyasının onlar üçün bir ailə olduğunu vurğulamışlar.

*"Azərbaycan" qəzeti,*
*21 may 2009-cu il*



## BAKIDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ ATÇILIQ TURNİRİ BAŞA ÇATMIŞDIR

Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş atçılığın konkur növü üzrə 4 günlük beynəlxalq turnir 2011-ci ilin aprelin 24-də Binə Atçılıq Mərkəzində Qran-Pri final yarışları ilə başa çatmışdır.

Final yarışlarını Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Beynəlxalq Atçılıq Federasiyasının prezidenti Ülyahəzrətləri Haya Bint Əl Hüseyn izləmişlər.

Yarış başa çatdıqdan sonra mükafatları Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Ülyahəzrətləri Haya Bint Əl Hüseyn təqdim etdilər.

Mərasim Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başa çatdı.

***"Azərbaycan" qəzeti,***
***26 aprel 2011-ci il***







## MOSKVADA BAKI-2020 LAYİHƏSİNİN TƏQDİMATI OLMUŞDUR

Moskvada Milli Olimpiya Komitələri Assosiasiyasının XVIII Baş Assambleyası keçirilmişdir.

Assambleya çərçivəsində 2020-ci il Olimpiya Oyunlarının keçirilməsinə iddiaçı şəhərlərin, o cümlədən Bakının təqdimat mərasimi olmuşdur. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tədbirdə iştirak etmişdir.

Assambleyada tarixdə ilk dəfə olaraq dünyanın bütün qitələrindəki ölkələrdən olimpiya hərəkatının mindən artıq lideri, idman nazirləri və idman ictimaiyyətinin nümayəndələri Rusiya paytaxtında toplaşmışdır. Tədbirin məqsədi Milli Olimpiya komitələrinə informasiya və təcrübə mübadiləsi aparmaq imkanı yaratmaqdır. Bu təşkilatın hər iki ildən bir keçirilən Baş Assambleyalarında Milli Olimpiya komitələrinin olimpiya hərəkatında rolu, dopinqlə mübarizə, idmanda marketinqin əhəmiyyəti və digər məsələlər müzakirə olunur. Azərbaycanın isə 2020-ci ildə Olimpiya Oyunlarına ev sahibliyi üçün iddia ərizəsi ilə müraciət etməsi sürətlə inkişaf edən ölkəmizin artan nüfuzundan, irimiqyaslı layihələrlə yanaşı, mötəbər beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirilməsinə qadir olmasından xəbər verir.

Milli Olimpiya Komitələri Assosiasiyasının XVIII Baş Assambleyasını təşkilatın prezidenti səlahiyyətlərini icra edən Şeyx Əhməd əl-Fəhad əl-Sabah açdı. Sonra 2020-ci il Olimpiya Oyunlarının keçirilməsinə iddiaçı şəhərlərin təqdimat mərasimi başladı. Hər bir şəhərə 10 dəqiqə vaxt verildi. İstanbul və Tokionun iddia komitələrinin üzvləri Türkiyənin və Yaponiyanın iri şəhərlərinin dünyanın ən mötəbər idman tədbirinə ev sahibliyi etməyə hazır olduqları və Olimpiada üçün nəzərdə tutulan infrastruktur, idman qurğuları və Olimpiya şəhərcikləri barədə ətraflı məlumat verdilər. Azərbaycan paytaxtının təqdimat mərasimi Bakıya həsr olunan videoçarxın nümayişi ilə başladı.

Bakının İddia komitəsi Kommunikasiya Departamentinin müdiri Nərgiz Birk-Petersen Azərbaycan paytaxtının Olimpiya Oyunları üçün özəlliyindən danışdı. Bildirdi ki, Bakı Olimpiya Oyunları üçün xüsusi məkandır. "Əsrlər boyu Bakı insanların bir araya gəldiyi, mədəniyyətlərin qovuşduğu bir şəhər olub" – deyən Nərgiz Birk-Petersen Azərbaycanın 2020-ci il Olimpiya Oyunlarına layiqincə ev sahibliyi edəcəyinə, bununla da gələcəkdə Olimpiya Oyunlarının keçirilməsi baxımından davamlı modelin yaradıcılığına əmin olduğunu vurğuladı.

Azərbaycanın sürətlə inkişafından danışan Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) Baş katibi Elxan Məmmədov isə Bakının idman üçün çox əlverişli şəhər olduğunu diqqətə çatdırdı. Bildirdi ki, 2020-ci ildə Bakıda Olimpiya Oyunlarının keçirilməsi xeyli müsbət nəticələr verəcək və Azərbaycanın Beynəlxalq Olimpiya Komitəsi ilə sıx əməkdaşlığı "Biz birlikdə bacararıq" şüarının reallaşmasına şərait yaradacaqdır. "Olimpiya Oyunlarına ev sahibliyi edən ölkənin məqsədi təkcə gözəl oyunlar keçirmək deyil, həmçinin hərəkata davamlı olaraq töhfəsini verməkdir" – deyən Elxan Məmmədov Bakının Olimpiya hərəkatı tarixində yeni bir səhifə açacağına əminliyini vurğuladı. AFFA-nın Baş katibi Azərbaycanın Avropa ilə Asiyanın kəsişməsində yerləşməsinin Beynəlxalq Olimpiya Komitəsi və onun tərəfdaşları üçün yeni bazarlar açacağını da qeyd etdi və dedi ki, Bakı Olimpiadası tikiləcək olimpiya qurğularının oyunlar bitdikdən sonra yerli və qonşu ölkələrdən olan idmançılara xidmət etməsi ilə də yadda qala bilər.

Bakı 2020 Olimpiya Oyunlarının planını hazırlamaq üçün istedadlı gənclərdən ibarət Azərbaycan komandası ilə işləməkdən qürur hissi duyduğunu deyən Bakının İddia komitəsinin məsləhətçisi, Olimpiya Oyunları veteranı Bab Elfinston bu günə qədər görülən böyük işlərlə fəxr etdiklərini bildirdi və iştirakçılara təqdim olunan videoçarxın onlarda böyük təəssürat yaradacağına əminliyini ifadə etdi.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə çıxış edərək dedi:

– Hörmətli cənab prezident!

Hörmətli Beynəlxalq Olimpiya Komitəsinin üzvləri!

Hörmətli qonaqlar!

Mən bu gün 2020-ci ildə Bakının Olimpiya və Paralimpiya oyunlarına ev sahibliyi etmək





üçün namizədliyini təqdim etməkdən şərəf hissi duyuram. Biz bu oyunların uğurlu olması işinə sadiqik və bu oyunları ölkəmizdə keçirmək arzumuz hökumətin, Bakı şəhərinin, Milli Olimpiya Komitəsinin, Azərbaycan xalqının güclü dəstəyinə və ictimaiyyətin 95 faizinin razılığına arxalanır. Azərbaycan bütün dünyanı Xəzərin sahillərində salamlamağı çox istəyir, dünyanın hər yanından minlərlə idmançı və milyonlarla iştirakçıya xidmət göstərməyə hazırdır.

Paytaxtımız Bakı özündə qədimliyin və müasirliyin harmoniya təşkil etdiyi kosmopolit şəhərdir. Şəhərimiz qədim tarixə və zəngin mədəni irsə malikdir. Bura Şərq ilə Qərbin qovuşduğu nadir bir məkandır. Uzun illər burada mövcud olan sülh, müxtəliflik, tolerantlıq və çoxmədəniyyətlilik bizim identifikasiyamızın özəyini təşkil etmişdir.

Bizim idman ənənələrimiz uzun tarixə söykənir. Qobustandakı qayaüstü rəsmlər bizim ulu babalarımızın idmanda bir-birləri ilə rəqabət apardığını, yarışdığını əks etdirir. Əfsanələr onu sübut edir ki, bir çox gənclər hazırda da məşhur olan müxtəlif idman yarışlarında öz qüvvələrini sınamadan özlərinə ad əldə edə bilmirmişlər. Bizim dünya olimpiya ailəsinə yeni üzv olmağımıza baxmayaraq, Azərbaycan idmançılarının beynəlxalq arenalardakı qələbələri getdikcə daha da çoxalır, eyni zamanda, ölkədə idman infrastrukturunun yaradılmasına qoyulan güclü sərmayə bizim idmana və Olimpiya hərəkatına olan həvəsimizi sübut edir.

Biz idman oyunlarının keçirilməsi üçün siyasi və maliyyə öhdəliklərini başa düşürük. İcazə verin sizi əmin edim ki, biz hazırıq. Biz hazırıq ona görə ki, həmin oyunların ölkəmizdə keçirilməsini istəyirik.

Son səkkiz ildə ümumdaxili məhsulumuzun nəzərəçarpacaq 300 faiz artımı, çoxsaylı iqtisadi, sosial, ətraf mühit layihələrinin həyata keçirilməsi bizim 9 milyonluq əhalimizin hər birinin həyat şəraitinin yaxşılaşdırılmasına yönəlib.

Mən Beynəlxalq Olimpiya Komitəsinin üzvlərinə Olimpiya və Paralimpiya hərəkatlarına diqqət və qayğılarına, onları qiymətləndirdiklərinə görə minnətdarlığımı bildirmək istərdim. Biz Azərbaycanda bu dəyərləri tam bölüşürük.

Əgər Bakı 2020-ci ildə Olimpiya Oyunlarına ev sahibliyi etmək şərəfinə nail olarsa, biz bütün dünyanı təmiz, ədalətli rəqabətdə və yarışlarda bir araya gətirəcəyik. Biz sülh və dostluq naminə humanist amallarımızı bölüşəcəyik. Bizim şəhərimizin qədim simvolu olan Bakının əbədi məşəli Olimpiyanın sülh və ümid məşəlini salamlayanda bütün xalqımız böyük zəhmət və səylərimiz nəticəsində həyata keçəcək birgə arzularımızı qeyd edəcəkdir. Biz bu arzularımızı Bakıdakı bütün qonaqlarımızla birgə bölüşəcəyimizə ümid edirik.

Diqqətinizə görə təşəkkür edirəm və sizə ən xoş arzularımı çatdırıram.

*"Azərbaycan" qəzeti,*
*15 aprel 2012-ci il*



## "BAKI-2015" AVROPA OYUNLARI KOORDİNASİYA KOMİTƏSİNİN BİRİNCİ TOPLANTISI OLMUŞDUR

2015-ci ildə Bakıda keçiriləcək Avropa Oyunları Koordinasiya Komitəsinin 2013-cü ilin aprelin 30-da birinci toplantısı olmuşdur. Toplantıda birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva iştirak etmişdir.

Tədbirdən əvvəl Mehriban xanım Əliyeva Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki və Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos ilə görüşdü.

Görüşdə Avropa Oyunlarının yüksək səviyyədə təşkili üçün Azərbaycanda böyük potensialın olduğu vurğulandı. Bildirildi ki, Avropa Oyunlarına hazırlıq üçün Bakıda əzmkarlıqla çalışan güclü komanda fəaliyyət göstərir.

Sonra toplantı işə başladı.

Toplantıya sədrlik edən Mehriban xanım Əliyeva onun işinə uğurlar arzulayaraq dedi:

- Biz Azərbaycanda ilk Avropa Oyunlarına ev sahibliyi etməkdən qürur duyuruq. Avropa Olimpiya Komitəsinin bu qərarının ölkəmizin son illər müxtəlif sahələrdə, o cümlədən idmanda qazandığı uğurların tanınması kimi qəbul edirik. Qeyd etməliyəm ki, Azərbaycan hökuməti





və xalqı bu oyunları dəstəkləyir. Biz ölkəmizin Avropa Olimpiya ailəsinin tarixində əsas rol oynayacağından çox həyəcanlıyıq. Biz üzərimizə düşən məsuliyyəti anlayırıq. Bu da öz növbəsində, bizdən ilk təcrübənin uğurlu olmasının təminatını tələb edir. Öz tərəfimizdən sizi əmin edə bilərik ki, bu məqsədə nail olmaq üçün Azərbaycan əlindən gələni etməyə hazırdır. Bu səbəbdən biz ötən illərdə keçirilən Olimpiya və regional oyunların təşkilatçılarının təcrübəsindən bəhrələnməyə hazırıq.

Azərbaycanın birinci xanımı ilkin mərhələdə Koordinasiya Komitəsinin qarşısında duran müxtəlif məsələlərə toxundu. Təşkilat Komitəsinin sədri Olimpiya kəndi də daxil olmaqla lazımi infrastrukturun hazırlıq səviyyəsinin, məlumatın ötürülmə, oyunlara hazırlıq və keçirilməsini işıqlandıracaq kütləvi informasiya vasitələri ilə iş strategiyası, idman proqramının təsdiqlənməsi və tamamlanmasının xüsusi diqqət tələb etdiyini dedi.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki bildirdi ki, Azərbaycan Gimnastika Federasiyasının prezidenti olan Mehriban xanım Əliyevanın Avropa Oyunlarının təşkilat komitəsinə sədrlik etməsi bu oyunların lazımi səviyyədə təşkilinə zəmin yaradır.

Toplantıda xarici ekspertlərin Avropa Oyunlarının keçirilməsi ilə bağlı təqdimatları oldu. Təqdimatlarda təşkil olunacaq mərasim və mədəni proqramlar, yayım, media strategiyaları, əlaqələr, işçi və tikinti planları haqda fikir mübadiləsi aparıldı.

Sonra müzakirələrə başlayan Avropa Olimpiya Komitəsinin üzvləri bu oyunların yüksək səviyyədə keçirilməsi üçün əllərindən gələni edəcəklərini bildirdilər.

Təkliflərə görə təşəkkürünü bildirən Mehriban xanım Əliyeva Avropa Oyunlarının ölkəmiz üçün ilk belə təcrübə olduğunu dedi. Bu oyunlarının böyük uğur kimi Olimpiya ailəsi tarixinə düşəcəyinə ümidvar olduğunu bildirən Azərbaycanın birinci xanımı Koordinasiya Komitəsinin iclasında səslənən fikirlərin Avropa Oyunlarına hazırlıq işlərinə yeni nəfəs gətirəcəyini qeyd etdi.

Mehriban xanım Əliyevaya Avropa Olimpiya Komitəsinin xatirə hədiyyəsi təqdim edildi.

*"Azərbaycan" qəzeti,*
*1 may 2013-cü il*



## BAKI BİRİNCİ AVROPA OYUNLARINA CİDDİ HAZIRLAŞIR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva 2013-cü ilin mayın 3-də "Olimpiya kəndi"ndə aparılan hazırlıq işləri ilə tanış olmuşdur.

Bakının Nizami rayonunda yerləşən, Birinci Avropa Oyunlarının keçirilməsi zamanı istifadə olunacaq "Olimpiya kəndi" 382 min 397 kvadrat metr sahəni əhatə edir. "Olimpiya kəndi" Avropa oyunlarının keçiriləcəyi əsas idman komplekslərinə – Olimpiya stadionuna, Su idmanı növləri mərkəzinə, gimnastika kompleksinə və hava limanına yaxın olmaqla yanaşı, şəhərin müxtəlif istiqamətlərinə gediş-gəlişin rahat və sərfəli olduğu bir ərazidə yerləşir. On üç yaşayış binası, yardımçı binalardan ibarət kompleksdə iki, üç və dördotaqlı 1161 mənzil vardır. Burada həmçinin elektrik yarımstansiyaları, qazanxana, yeraltı su anbarı, nasosxana, hər binanın maşın parkı mövcuddur. Kompleksdə 3520 otaqdan əlavə 42 min kvadratmetr sahəni əhatə edən dupleks evlərin salınması üçün də hazırlıq işləri görülmüşdür.

Ərazidəki 1100 şagird yerlik yeni məktəb binası isə Bakı Avropa Oyunları Koordinasiya Komitəsinin fəaliyyəti üçün ayrılmışdır.

Xanım Mehriban Əliyevaya məlumat verildi ki, koordinasiya komitəsinin fəaliyyəti, burada





çalışan yerli və beynəlxalq ekspertlər üçün bütün lazımi şərait yaradılmışdır. Binada müxtəlif toplantıların keçirilməsi üçün böyük və kiçik zallar, müxtəlif kabinələr vardır. Kompleksdə voleybol, basketbol meydançaları yaradılmışdır, qapalı üzgüçülük hovuzu, trenajor zalı inşa olunur. Həmçinin kütləvi informasiya vasitələri təmsilçilərinin fəaliyyəti də nəzərə alınmışdır. Bütünlükdə kompleksdəki hazırlıq işləri 2014-cü ilin sonunadək başa çatdırılacaqdır.

Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva yarışlar zamanı ölkəmizə gələcək idmançıların və nümayəndə heyətlərinin qalması üçün hazırlanan mənzillərdəki şəraitlə tanış oldu.

Görülən işlərdən razılığını bildirən Mehriban xanım Əliyeva tövsiyələrini verdi.

*"Azərbaycan" qəzeti,*
*4 may 2013-cü il*



# · *XI fəsil* ·

# Mehriban xanım Əliyeva haqqında yazılan məqalələrin bir qismi

dominantası onun fəaliyyətinin prioritetinə çevrilmişdi. Başqa sözlə desək, o, öz qüvvəsini və Fondun əməkdaşlarının səylərini əhalinin ən zəif, müdafiə olunmamış təbəqələrinə, ilk növbədə, xəstə uşaqlara, eləcə də dünyada ən qiymətli nemətdən – valideyn məhəbbətindən və qayğısından məhrum olmuş ən kiçik balalarımıza kömək göstərilməsinə yönəltməyi özünün vətəndaşlıq borcu hesab edirdi.

Son illərdə Heydər Əliyev Fondunun himayəsi altında həyata keçirilmiş bütün aksiyaları sadalamaqla qurtarmaz: qaçqın ailələrindən olan uşaqlara kömək, diabet və talassemiya xəstəliklərindən əziyyət çəkən balacalara yardım, respublikadakı uşaq evlərinin və internat məktəblərinin əsaslı şəkildə yenidən qurulmasına dair möhtəşəm proqram, Azərbaycanda, əsasən kənd yerlərində 200-ə yaxın yeni məktəb binasının tikilməsi, Mehriban xanımın özünün hökmən iştirak etdiyi müxtəlif xeyriyyəçilik aksiyalarının keçirilməsi... Fondun prezidentinin və onun məsləkdaşlarının nail olduqları əsas məqsəd – cəmiyyətin, ilk növbədə, dövlət qurumlarının, imkanlı adamların diqqətini millətin genetik fondunun qorunması kimi son dərəcə mühüm problemə cəlb etmək, XIX əsrin axırları XX əsrin əvvəllərində Azərbaycanın tanınmış mesenatları tərəfindən təməli qoyulmuş xeyriyyəçilik ənənələrini dirçəltmək olmuşdur.

Onun uşaq evlərindəki körpələrlə necə təbii, əsl ana nəvazişi və qayğısı ilə rəftar etdiyini, onlarla birlikdə uşaq albomlarını rənglədiyini, onlara qoşulub yallı getdiyini müşahidə edəndə, mənə elə gəlir ki, bu tərbiyə müəssisələrinə və internatlara hər dəfə baş çəkəndə onun qəlbində kədərli duyğular baş qaldırır. Bəlkə də elə buna görədir ki, Mehriban xanımın təşəbbüsü ilə Azərbaycanda uşaq evlərinin ləğv edilməsi və yetim uşaqların tamdəyərli ailələrə verilməsi hərəkatı başlanmışdır.

Onun rəhbərliyi altında uğurla fəaliyyət göstərən Fond tariximizdəki çoxsaylı "ağ ləkələr"in aradan qaldırılmasına yönəlmiş kitabların nəşrini davam etdirir, yeni jurnallar təsis edir, Azərbaycanın tarixi memarlıq abidələrinin qorunub saxlanmasında fəal iştrak edir. Mehriban xanımın öz sözləri ilə desək, "Fondun qapıları Azərbaycanı dünya birliyində layiqincə təmsil etməyə qabil olan bütün təşəbbüslər, bütün təkliflər və layihələr üçün həmişə açıqdır". Ölkəyə xeyr gətirə biləcək, respublikanın və onun xalqının mənafelərinə xidmət edə biləcək bütün təşəbbüsləri dəstəkləmək – budur, Fondun fəaliyyətinin əsas qayəsi, onun "şah damarı".

"Birinci ledi"nin fəaliyyət göstərdiyi daha bir sahə beş il bundan əvvəl ölkənin idman ictimaiyyətinin xahişi ilə rəhbərliyə gəldiyi Gimnastika Federasiyasıdır. Nəticədə idmanın bu sahəsində ciddi keyfiyyət yüksəlişi baş vermiş, bədii gimnastika üzrə Avropa və Dünya çempionatlarının Bakıda keçirilməsi respublikamızın yüksək idman intellektual əmsalına malik bir ölkə kimi müsbət imicini formalaşmasına çox güclü təsir göstərmişdir. Yeri gəlmişkən, 23-cü Avropa çempionatında Azərbaycanın gimnast qızları komanda hesabında üçüncü yeri tutmuşlar.

Mehriban xanım Əliyevanın fəaliyyətinin bir sahəsi də Milli Məclisin deputatı kimi gördüyü işlərdir. O, cəmi iki il ərzində Bakı rayonlarından birini nümunəvi rayona çevirmiş, genişmiqyaslı





amnistiya aktı keçirilməsi barədə təşəbbüslə Milli Məclisə müraciət etmiş, Azərbaycan – ABŞ Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupunun rəhbəri kimi Şimali Amerikaya uğurlu səfər etmiş, daha neçə-neçə təşəbbüsü öz deputat aktivinə yazmışdır. Bəzən, mənə elə gəlir ki, mən başqa-başqa insanlar haqqında yazıram, çünki bu qədər müxtəlif istiqamətli işin öhdəsindən gəlməyə sadəcə olaraq bir insanın gücü çatmaz.

Əlbəttə, "birinci ledi"nin öz ətrafında formalaşdırmağa nail olduğu gözəl məsləkdaşlar komandası bu uğurların çox sanballı tərkib hissəsidir. Yaxşı deyiblər ki, kralı kral edən onun yaxınlarıdır. Bir də ki, səmimi deyək: "birinci ledi" statusu elə bir sirli açardır ki, başqalarından ötrü əlçatmaz olan bir çox qapıları açır, bürokratik  maneələri daha sürətlə aradan qaldırır, Azərbaycanın biznes elitasının kapitallarını nəcib məqsədlər güdən məsələlərin həllinə cəlb edir. Bu gün Mehriban xanım Əliyevanın sayəsində Azərbaycanda xeyriyyəçilik tədbirlərinə pul xərcləmək, gənc istedadların xaricdə təhsil almalarına kömək etmək, doğma kəndində yeni məktəb binası tikdirmək bir növ dəb düşmüşdür. Bəziləri bunu təmənnasız, digərləri özünü göstərmək və ya Prezidentin xanımına xoş gəlmək üçün edirlər. Özləri bilər, əsas odur ki, "birinci ledi" bu insanların şöhrətpərəstliyini bacarıqla ümummilli məsələlərin həllinə, məsələn, səhiyyənin inkişafına və ya təhsilin təkmilləşdirilməsinə yönəldir. Mən hələ onu demirəm ki, bu təşəbbüs varlılarla yoxsullar arasında, sürətlə inkişaf etməkdə olan kapitalist Bakısı ilə yaxın vaxtlara qədər Azərbaycanın miskin ucqar əyalətləri sayılan bölgələr arasında fərqi azaltmaqla cəmiyyətdə mənəvi ab-havanı sağlamlaşdırmağa imkan vermişdir. Hazırda paytaxtdan başlamış ən ucqar dağ kəndinə qədər –bütün respublika nəhəng inşaat meydançasını xatırladır. Bu, təkcə Azərbaycan Prezidentinin deyil, həm də birinci ledinin xidmətidir.

Mehriban xanım YUNESKO-nun xoşməramlı səfiri  seçiləndən sonra onun fəaliyyəti, bu təşkilatın Baş direktoru Koişiro Matsuuranın haqlı olaraq qeyd etdiyi kimi, təkcə regional miqyasla məhdudlaşmayıb, qlobal miqyas kəsb etmişdir. Heydər Əliyev Fondunun uğurla nəticələnmiş son təşəbbüslərini – Azərbaycan muğamının və Yer kürəsində ən qədim tarix-arxeologiya qoruğu olan Qobustanın Dünya Mədəni İrs siyahısına daxil edilməsini məhz bu cür qiymətləndirmək olar. Bu yaxınlarda Mehriban xanım Əliyeva Dünya Səhiyyə Təşkilatının (DST) ali orqanı – Dünya Səhiyyə Assambleyasının – 60-cı sessiyasında çıxış etmiş, bu təşkilatın Baş direktoru ilə danışıqlar zamanı DST-nin bir sıra proqramların həyata keçirilməsində, xüsusən "quş qripi" ilə mübarizədə Azərbaycanla daha sıx qarşılıqlı fəaliyyəti barədə razılıq əldə etmişdir. Mehriban Əliyeva tez-tez dünya şöhrətli xadimlərlə, humanitar təşkilatların rəhbərləri ilə görüşür, öz doğma respublikasında baş verən hadisələrə onlarda maraq oyadır, onları çox əhəmiyyətli layihələrin həyata keçirilməsinə sövq edir.

Azərbaycanın "birinci ledisi"nin  fəaliyyəti son dövrlərdə nüfuzlu beynəlxalq mükafatlarla, təltiflərlə və fəxri adlarla qeyd edilmişdir. Bunlardan yalnız ikisinin adını çəkəcəyəm: 2005-ci il oktyabrın 13-də Heydər Əliyev Fondunda "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondu tərəfindən təşkil edilmiş "Yaqut xaç" ordeninin Mehriban Əliyevaya təqdim edilməsi mərasimi

keçirilmiş, lap yaxın vaxtlarda – 2007-ci il mayın 27-də isə Mehriban xanım bəşəriyyətin ali ideallarına xidmətdə qazandığı görkəmli nailiyyətlərə görə Moskvada beynəlxalq "Qızıl ürək" mükafatı ilə təltif olunmuşdur. Rusiya və Moskva hökumətləri, həmçinin RF-nin YUNESKO işləri üzrə komissiyası tərəfindən dəstəklənmiş bu nüfuzlu mükafatın təsisçiləri arasında İTAR-TASS Agentliyi və Rusiya Qızıl Xaç Cəmiyyəti də vardır.

Bu iki beynəlxalq mükafatın, necə deyərlər, "Rusiya qeydiyyatında olması" heç də təsadüfi deyildir. Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu üçün Rusiyanın ən iri mədəni və elm-təhsil mərkəzləri ilə əlaqələrin tənzimlənməsi, iki ölkənin mədəniyyət xadimlərinin qarşılıqlı yaradıcı əlaqələrinin və ünsiyyətinin bərpa olunması prioritet istiqamətlərdir. Məsələn, keçən il biz hamımız Heydər Əliyev Fonduna Rusiyanın Puşkin kitabxanasından külli miqdarda kitab verilməsi; "Drujba narodov" jurnalının bütünlüklə Azərbaycan ədəbiyyatına həsr edilmiş, Mehriban xanım Əliyevanın ön söz yazdığı xüsusi nömrəsinin buraxılması; Bakıda ilk beynəlxalq "Rus kitabı" festivalının keçirilməsi kimi sanballı aksiyaların şahidi olduq. Rus yazıçısı, tarixçi-publisist Rudolf İvanovun dəstəyini də qeyd etməyə bilmərəm. O, Heydər Əliyev Fondunun köməyi ilə Azərbaycanın şanlı hərbi sərkərdələr sülaləsinin – "Naxçıvanski xanlarının üç nəslinin rəşadəti və igidliyi" haqqında nadir trilogiya hazırlamış və Moskvada nəşr etdirmişdir.

Mehriban xanım özü də istər postsovet məkanında, istərsə də uzaq xaric deyilən ölkələrdə birinci ledilərlə şəxsi münasibətlər və dostluq əlaqələri yaratmaqla nümunə göstərir. Bütün dünyada, o cümlədən keçmiş SSRİ ərazisində dövlət başçılarının xanımları get-gedə daha cəsarətlə ictimai-mədəni, siyasi həyatın ön səhnəsinə çıxır, müxtəlif sahələrdə öz sözlərini deyirlər. Bax, bu məqamda mən elə bir məsələyə yaxınlaşıram ki, əslində bu qeydlər məhz onun xatirinə qələmə alınıb. Mən əminəm ki, postsovet məkanında formalaşmış "birinci ledi" institutu vaxtilə mövcud olmuş vahid dövlətin xalqlarının mənəvimədəni baxımdan bir-birinə yaxınlaşmasında, MDB ərazisində siyasi ab-havanın mülayimləşməsində, sosial-humanitar yönümlü bir sıra məsələlərin həllində indikindən qat-qat fəal rol oynaya bilər…

Birinci ledilər öz yüksək status potensialından və təşkilatçılıq imkanlarından bəzən siyasətçi kişilərin macal tapmadığı problemlərin həlli üçün daha tam şəkildə istifadə edə bilərlər və etməlidirlər: mədəni və humanitar əlaqələrin inkişafı, bu və ya digər millətin qonşu ölkədə müsbət obrazının formalaşmasına yönəlmiş müştərək imic layihələri, xaricdəki soydaşların hüquqlarının müdafiəsi, istedadlı gənclərin təhsili və yad mühitə uyğunlaşması məsələlərinin...

Bu gün birinci ledilər bütün bu məsələlərlə bu və ya digər şəkildə məşğul olurlar. Lakin onlar bu məsələlərlə birgə məşğul olsalar, problemlər qat-qat sürətlə həll olunar.

Qadın-siyasətçi, qadın-ictimai xadim və ya dövlət xadimi fenomeni Qərb adamının nəzərində artıq kifayət qədər adiləşmişdir. Lakin MDB məkanında qadınlar öz ölkələrinin ictimai və siyasi-sosial həyatında layiq olduqları yeri hələ tuta bilməyiblər. Əminəm ki, birinci ledilərin ünsiyyətlərinin fəallaşması, onların qeyri-formal birliyinin yaradılması bu istiqamətdə





də irəliləyişə nail olmaq üçün güclü stimula çevriləcəkdir.

Mehriban Əliyeva Azərbaycan üçün çox işlər görmüşdür, lakin əsas məsələ hələ irəlidədir. Çünki onun malik olduğu çox böyük siyasətçi, ictimai xadim, təşkilatçı potensialının reallaşması hələ başlanğıc mərhələdədir. İnanıram ki, o, özünün yeni layihələri və ideyaları ilə bizi hələ çox heyrətləndirəcəkdir. Bu layihələrin və ideyaların əks-sədası respublika hüdudlarından uzaqlarda eşidiləcəkdir. Ölkə daxilində Mehriban Əliyevanın hər bir addımının dəstəklənəcəyini isə onun "bütün xalqın sevimlisi" adını qazanması faktı təsdiqləyir. O, özü üçün çətin yol seçmişdir, lakin yalnız bu yol onu qarşıya qoyduğu ülvi məqsədlərə çatdıra bilər.

*"Azərbaycan" qəzeti,*
*26 avqust 2007-ci il*

## FRANSA MƏTBUATI HEYDƏR ƏLİYEV FONDUNUN STRASBURQDAKI KİLSƏNİN TƏMİRİNƏ MALİYYƏ DƏSTƏYİNİ YÜKSƏK QİYMƏTLƏNDİRİR

Fransanın bir çox nüfuzlu mətbu orqanı Heydər Əliyev Fondunun Strasburqdakı Notr-Dam kilsəsinin təmirinə maliyyə dəstəyini yüksək qiymətləndirir.

Alzas bölgəsinin mərkəzi hesab edilən Strasburqda gündəlik nəşr edilən "Alzasın son xəbərləri" qəzetində dərc olunmuş "Azərbaycan xeyirxahlığı" sərlövhəli məqalədə ölkənin ən qədim kilsələrindən olan Notr-Damın təmirinə yardım edilməsi üçün Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərdiyi təşəbbüs yüksək qiymətləndirilmiş, Avropa Şurasının böyük dostu olan Azərbaycanın bu istiqamətdəki addımı təqdir olunmuşdur.

Məqalədə Heydər Əliyev Fondunun bir müddət əvvəl Versal sarayında iki abidənin təmirinə yardım göstərdiyi xatırlanmış, Fondun başqa ölkələrdə həyata keçirdiyi xeyirxah missiyalarından söhbət açılmış, qurumun xalqımızın tələbi ilə yenidən hakimiyyətə gəlmiş və 1993-2003-cü illərdə ölkəyə rəhbərlik etmiş ulu öndər Heydər Əliyevin adını daşıdığı vurğulanmışdır.

"Alzas", "L'Express", "20 dəqiqə" ("20 minutes") və digər nəşrlərdə də kilsədə keçirilmiş mərasimdən ətraflı söhbət açılmış, Azərbaycanın Cənubi Qafqaz regionunda iqtisadi cəhətdən inkişaf etmiş aparıcı dövlət olması xüsusi vurğulanmışdır. Heydər Əliyev Fondunun Fransada iki abidənin və qədim kilsənin təmirinə yardım etməsinin öz mədəni irsinə hörmətlə yanaşan, onların qorunmasına çalışan iki xalq arasındakı dostluğun bariz nümunəsi olduğu bildirilmiş, Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə səhiyyə və təhsil sahəsində də bir çox layihələrin həyata keçirildiyi qeyd edilmişdir.

Qəzetlərdə Notr-Dam kilsəsinin təmiri ilə əlaqədar Heydər Əliyev Fondunun təşəbbüsü ilə göstərilən maliyyə yardımının təqdimat mərasimindən bəhs edən şəkillər də verilmişdir.

Ölkənin "Frans-3" televiziya kanalının tədbirdən hazırladığı verilişdə Heydər Əliyev Fondunun Azərbaycandan çox-çox uzaqlarda, Fransada iki abidənin və bir kilsənin təmirinə yardım etməsinin Fondun prezidenti Mehriban xanım Əliyevanın tarixi abidələrə qayğısından irəli gəldiyi vurğulanmışdır. Bildirilmişdir ki, xeyirxah əməllər sahibi olan Mehriban xanım Əliyevanın təşəbbüsü hamıya bir nümunədir.

***"Azərbaycan" qəzeti,***
***28 iyul 2009-cu il***





## AMERİKANIN MTV KANALININ AVRASİYA REGİONU ÜZRƏ DİREKTORU ÖLKƏMİZ BARƏDƏ TƏƏSSÜRATLARINI BÖLÜŞÜB

MTV rəhbərliyi məni bu regionun imkanları və perspektivini qiymətləndirmək üçün ezamiyyətə göndərdi. Mən kanalın əsl Amerika variantını istənilən ölkədə aça bilərəm – Rusiya, Qazaxıstan, Ukrayna və s. Bu ölkələrin nazirləri bizim kanalı öz teleməkanında görməyə çox şad oldular, analoji təkliflərlə dolu xeyli məktub almışam. Ancaq başqa qərara gəldim. Bakını seçdim. Bu şəhərin adı özündə müəyyən obraz daşıyır: bu sivilizasiyanın qovuşduğu yerdir, ekzotika, istirahət məkanı, bir sözlə, yaxşı və maraqlı. Digər ölkələrin paytaxtlarının adı məndə belə emosiya yaratmamışdı. Bundan başqa, Azərbaycan zəngin və inkişaf edən ölkə kimi məşhurdur.

Bakıda hər şey xoşuma gəldi. Buranın insanları olduqca ürəyiaçıq, mehribandırlar. Rusiya, Ukrayna, Mərkəzi Asiya dövlətləri, Belarus, Moldova, hətta Baltikyanı ölkələrdən dövlətin və cəmiyyətin potensialı daha çoxdur.

Ancaq hər şeydən çox məni başqa bir fakt heyrətləndirdi. Əgər yuxarıda adı çəkilən ölkələrin vətəndaşları öz liderlərini mədh edirlərsə, bunu daha çox tamahkar fikirlə edirlər. Azərbaycanda isə mən heç yerdə görmədiyim bir məqamla rastlaşdım: gənclər indiki və keçmiş prezidentlərini sevirlər. Ukraynada belə həmrəyliyə rast gəlmək mümkün deyil. Rusiyada da eynilə. Başa düşdüm ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin böyük xidmətləri olub. Onun böyük xidməti ondan ibarət oldu ki, Sovet İttifaqından ayrılan respublika tam şəkildə suveren dövlət olmaqla yanaşı, həm də postsovet məkanında bir çox ölkələrin, məsələn, Türkmənistan və ya Ermənistanın nail olmadığı müasir demokratiyanın dəyərlərini qazandı. Heydər Əliyevi keçmiş İttifaqın heç bir lideri ilə müqayisə etmək olmaz. O, çoxlarının bilmədiyini bilirdi. Dəqiq bilirdi ki, nə etmək olar və bunu necə etmək olar. O, həyatını xalqına həsr etdi və xalqı da qəlbən minnətdarlığını və sevgisini ondan əsirgəmədi, indi də əsirgəmir.

Azərbaycanın indiki lideri öz atasının siyasətini davam etdirir. Dövlət başçısı bilir ki, xalqın firavanlığını qaldırmadan heç nəyə nail olmaq mümkün deyil. Ona görə də Prezident İlham Əliyevə həm intellektual elita, həm də sadə vətəndaşlar dəstək olurlar. İnsanlar, həqiqətən, inanırlar ki, onların fəaliyyəti və biznesləri bu ölkənin inkişafı və gələcəyi üçün xərcinədir.

Bundan başqa, mən xalqın birinci lediyə olan böyük sevgisini, hörmət və pərəstişini gördüm. Mehriban xanım Əliyeva Heydər Əliyev Fonduna rəhbərlik edir. Həqiqətən, sizin birinci ledinin xidmətləri böyükdür. Mehriban xanım özündə üç nadir keyfiyyəti birləşdirir – gözəllik, ağıl və səmimi nəcibliyi. Mən indiyə kimi çox birinci ledilərin fəaliyyəti ilə maraqlanmışam və açıq etiraf edirəm ki, onların ölkənin ictimai-siyasi həyatında iştirakı həyat yoldaşlarının seçkiqabağı kampaniyası zamanı bir neçə dəfə çıxış etməklə məhdudlaşır. Görünür, onlar belə düşünürlər: əgər sənin hakimiyyətin varsa, nə isə etmək çox asandır, amma bu o demək deyil ki, sən nəyi isə etməyə borclusan.

Mehriban xanım Əliyeva öz xalqını sevir və bacardığı qədər onun həyatında yaxından iştirak edir. Sizin bütün vətəndaşlarınız yaxşı bilirlər ki, Heydər Əliyev Fondu neçə-neçə xeyriyyə layihələri və proqramları həyata keçirir. Məktəb və internatların açılması, idman kompleksləri və xəstəxanaların tikilib istifadəyə verilməsi, yetim və kimsəsizlərə ünvanlı yardımların göstərilməsi. Həmçinin ölkə vətəndaşlarının mədəni səviyyəsinin artırılması, ölkənin mədəni sərvətlərini, tarixi mirasını qorumaq və artırmaq istiqamətində Heydər Əliyev Fondunun və onun prezidentinin rolunu və fəaliyyətini qiymətləndirməmək çətindir. Tək bircə Muğam Teatrı nəyə desən dəyər... Çox möhtəşəm bir tikilidir! Bu, Azərbaycan xalqına gözəl hədiyyədir. Mən muğam musiqisinə valeh olmuşam. Mehriban xanım Əliyevanın dünyada imici çox yüksəkdir.

MTV-nin regional direktoru kimi deyə bilərəm ki, bizi Heydər Əliyev Fondu ilə birləşdirən ümumi cəhətlər çoxdur. MTV-nin nə qədər xeyriyyə aksiyaları keçirdiyi və bu kimi proqramları dəstəklədiyi barədə çoxlarının adi təsəvvürü yoxdur. Məsələ bundadır ki, siz burada MTV-nin Rusiya, ya da Türkiyə versiyasının proqramlarını izləyirsiniz, amma əsl MTV haqqında məlumatınız azdır. Biz indi həmin versiyaları ləğv etmək istəyirik ki, kanalımızın gerçək fəaliyyəti haqqında təsəvvür yaradaq. Əsl MTV tamamilə fərqlidir. Bu, xəstələrə və kimsəsizlərə yardım proqramlarının dəstəklənməsi, təbiətin və ekologiyanın qorunmasına yardımın təşkilidir. Məsələn, MTV tanınmış aktyor Eşton Kutçeri bu işə cəlb edib. E.Kutçer nəinki özü Azərbaycana gələcək, eləcə də həyat yoldaşı, Hollivud ulduzu Demi Muru da buraya gətirəcək. Mən bir qədər əvvəl onunla danışmışam. Kutçer BMT-nin xoşməramlı səfiridir. Əgər o, Azərbaycana gələrsə, keçirəcəyi mətbuat konfransında Dağlıq Qarabağ məsələsi ilə bağlı fikirlərini açıqlayacaq. Onun kimi tanınmış insanlar ölkənizə gəlsələr, bir çox başqa amerikalılar da bunu etmək istəyəcəklər. Bu isə sonda Azərbaycan haqqında müsbət imici formalaşdıracaq.

Biz Heydər Əliyev Fondu ilə sıx əməkdaşlıq etməyi, müştərək proqramlar işləyib hazırlamağı və onları həyata keçirməyi planlaşdırırıq. Bizim kanalın açılışı sentyabr ayının üçüncü həftəsinə təsadüf edəcək. Amma kanalımızın açılışından əvvəl Heydər Əliyev Fondu ilə birgə Heydər Əliyevin xatirəsinə həsr olunmuş "The MTV Pasha Music Festival" adlı musiqi tədbirini gerçəkləşdirmək fikrindəyik. Azərbaycanda ilk dəfə bu səviyyədə festival keçiriləcək. Həmin festivalda bir çox musiqi ulduzları iştirak edəcəklər. MTV-nin keçirdiyi sorğudan sonra iştirakçıları müəyyən etmişik. Bunlar Pussycat Dolls, Stinq, Roxett, Merayya Kerri, Rianna, Ledi Qaqa və Beyonsdur. Eminemin də iştirakı ilə bağlı danışıqlar gedir. Amma bu, sizin rəhbərliyin icazəsi ilə mümkündür. Festivalın hər bir iştirakçısı Heydər Əliyev Fondu üçün müəyyən məbləğdə vəsait ayıracaq, bilet satışından əldə ediləcək vəsait də Fonda keçəcək və sözsüz ki, həmin vəsaitlər sizin vətəndaşların maddi vəziyyətlərinin yaxşılaşdırılmasına yönəldiləcək.

*"Azərbaycan" qəzeti,*
*3 iyun 2010-cu il*





# HEYDƏR ƏLİYEV FONDUNUN ULYANOVSKLU UŞAQLARA HƏDİYYƏSİ RUSİYA KİV-də BÖYÜK ƏKS-SƏDA DOĞURMUŞDUR

Ulyanovsk şəhərindəki 78 nömrəli orta məktəbin Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir edilərək istifadəyə verilməsi Rusiya KİV-də geniş işıqlandırılmışdır.

Mətbuatda bu əlamətdar hadisə ilə əlaqədar silsilə materiallar dərc olunmuşdur. Rusiyanın "İzvestiya", "Nezavisimaya qazeta" kimi nəşrlərinin ardınca "Rossiyskaya qazeta", "Tribuna" qəzetləri də maraqlı məqalələr dərc etmişlər.

Mətbuat səhifələrində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti yüksək qiymətləndirilmişdir.

"Rossiyskaya qazeta"da "Ulyanovsklu uşaqlara Azərbaycan hədiyyəsi" sərlövhəli material təqdim olunmuşdur. Məqalədə deyilir: "Azərbaycanın Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ulyanovskda məktəbin bərpasına 25 milyon rubl sərf edilmişdir. Layihə Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın şəxsi nəzarəti altında həyata keçirilmişdir... Azərbaycanın özündə Fondun dəstəyi ilə əsasən kənd rayonlarında 300-dən çox məktəb təmir və inşa edilmişdir, indi Heydər Əliyev Fondunun bu strategiyası ilə Rusiya regionlarında da tanış olurlar".

Ulyanovsk vilayətinin qubernatoru Sergey Moroz demişdir: "Vilayətimiz Azərbaycanla çoxdan və səmərəli əməkdaşlıq edir. Vilayətin sakinləri 2009-cu ildə Volqa üzərində körpünün birinci növbəsinin açılışında Rusiya Prezidenti Dmitri Medvedevlə yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyini yaxşı xatırlayırlar. Biz bilirik ki, körpünün tikintisi barədə qərar hələ ötən əsrin 80-ci illərinin əvvəllərində o zaman SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləmiş Heydər Əliyev tərəfindən qəbul edilmişdi".

Qəzet yazır: "Bu gün Azərbaycanın Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan digər sosial layihələr də Ulyanovsk və Bakı arasında özünəməxsus körpüyə çevrilmişdir. Vilayət mərkəzində görkəmli dövlət xadimi Heydər Əliyevin abidəsi ucaldılmış, "Bazar günü" məktəbi açılmışdır. Yerli Azərbaycan icması Ulyanovsk vilayətində bir neçə uşaq evinə himayədarlıq edir".

Rusiyanın "Tribuna" qəzetində isə "Mənəvi əlaqə" adlı məqalə yer almışdır.

Məqalədə deyilir: "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı Ulyanovsku və Bakını möhkəm mənəvi qardaşlıq telləri ilə bir-birinə bağlayır. Hələ sovet dönəmində SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev dəfələrlə Volqa üzərindəki şəhərə gəlmiş, 1983-cü ildə o, "Aleksandr Suvorov" teploxodunun qəzaya uğraması ilə əlaqədar yaradılmış hökumət komissiyasına başçılıq etmişdir. Ulyanovskda Heydər Əliyevin ən qısa müddətdə bu faciə ilə bağlı problemlərin həll olunması üçün bütün

zəruri tədbirləri görməsini yaxşı xatırlayırlar".

Rusiya qəzeti daha sonra yazır: "2008-ci ildə Rusiya Prezidenti Dmitri Medvedev və Azərbaycan Prezidenti İlham Əliyev şəhərdə Heydər Əliyevin abidəsinin açılışında iştirak etmişlər. Abidə Azərbaycan xalqının liderinin adını daşıyan bağçanın yaraşığıdır.

2010-cu il sentyabrın 1-də Bakı ilə Ulyanovsk arasında mənəvi əlaqə daha da möhkəmlənmişdir. Bu dəfə də XX əsrin görkəmli siyasi xadimi Heydər Əliyevin adını daşıyan Fondun köməyi ilə, 2004-cü ildə yaradılmış Heydər Əliyev Fondu "Təhsilin inkişafı" proqramı çərçivəsində artıq dünyanın müxtəlif guşələrində məktəblər açmaqla Azərbaycan, Rumıniya, Misir, Niderland, Pakistan, Rusiya və digər ölkələrdə 100 mindən çox uşaq üçün təhsil almaq imkanı yaratmışdır. Həqiqətən, böyük göstəricidir. Fonda Azərbaycanın birinci xanımı Mehriban Əliyeva rəhbərlik edir. Prezidentin xanımı Milli Məclisin deputatı, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, Gimnastika Federasiyanın prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiridir. İşinin çox olmasına baxmayaraq, Heydər Əliyev Fondunun himayədarlıq etdiyi təhsil ocaqlarına şəxsən nəzarət edir. Ulyanovskdakı 78 nömrəli məktəbdə təmirdən əvvəl də bir neçə muzey – diyarşünaslıq muzeyi, təhsil muzeyi, Azərbaycan mədəniyyəti və tarixi muzeyi fəaliyyət göstərirdi. İndi yenilənmiş məktəb Rusiya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Bu münasibətlərin qurulmasında Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyeva yaxından iştirak edirlər".

***"Azərbaycan" qəzeti,***
***5 sentyabr 2010-cu il***





## "SON DƏRƏCƏ AĞIL VƏ NƏZAKƏT NÜMAYİŞ ETDİRƏN AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA ÖZ ÇIXIŞI İLƏ BİZ FRANSIZLARI HEYRAN QOYDU"

Bu fikir Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə ölkəmizin müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümü ilə bağlı 2011-ci ilin fevralın 17-də Parisin möhtəşəm Gavo zalında keçirilmiş mərasimlə əlaqədar Fransanın nüfuzlu və geniş oxucu auditoriyası olan www.toutelaculture.com <http://www.toutelaculture.com/> saytında verilmiş "Azərbaycanın kəşfi" sərlövhəli yazıda öz əksini tapmışdır.

Yazının əvvəlində qeyd olunur ki, Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümü ilə əlaqədar Parisin möhtəşəm Gavo zalında keçirilən mərasimdə birinci xanım Mehriban Əliyeva iştirakçılara öz gözəl ölkəsinə sehrli, mədəni səyahət bəxş etmişdir.

Bir ölkəni, onun mədəniyyətini kəşf etmək həmişə insanda yaxşı ovqat yaradır. Fevralın 17-də döşəmədən tavana qədər bəzədilmiş Gavo zalı əsl sarayı xatırladırdı. Son dərəcə ağıl və nəzakət nümayiş etdirən Azərbaycanın birinci xanımı Mehriban Əliyeva öz çıxışı ilə biz fransızları heyran qoydu. O, qonaqlara Azərbaycanın müstəqilliyinin bərpa edilməsinin 20 illiyi barədə iftixar hissi ilə geniş məlumat verdi. Mərasim iştirakçıları Azərbaycanı xəyalən də olsa kəşf etdilər.

Yazıda mərasimin bədii hissəsi barədə də ətraflı söhbət açılmışdır. Xalq artisti Teymur Göyçayevin dirijorluq məharətindən, onun rəhbərliyi altında Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin ifasında Üzeyir Hacıbəylinin "Koroğlu" operasının uvertürasının səsləndirilməsi ilə konsertin başlandığı bildirilən məqalədə Şirzad Fətəliyevin balabanda orkestri məharətlə müşayiət etməsinin bütün zalı vəcdə gətirdiyindən söhbət açılmışdır.

Musiqi proqramları ilə eyni vaxtda nümayiş etdirilən sənədli filmin Azərbaycanın ecazkar və əsrarəngiz təbiəti, qədim tarixi, zəngin mədəniyyəti və musiqisi, başıqarlı dağları ilə fransızlarda müəyyən təsəvvür oyatmasından bəhs edilən yazıda gənc solist Mirpaşa Şükürovun ifasında mahnının, gənc skripkaçı Elvin Qəniyevin ifasında Vivaldinin "Dörd fəsli"nin səslənməsi, Dinarə Əliyevanın əvvəlcə Azərbaycan musiqisini, sonra isə fransız bəstəkarı Fransis Pulengin "Məhəbbət yolları" əsərini ifa etməsi tamaşaçılarda xoş ovqat yaratmışdır. İfaçıların dəfələrlə səhnəyə dəvət edilmələri fransızların və qonaqların Azərbaycan musiqisinə valeh olmalarından xəbər verirdi. Konsert çevik və sürətli rəqslə başa çatmışdır.

Yazıda mərasimin göz oxşadığı, yaddaqalan sehirli bir gecə təsiri bağışladığı diqqətə çatdırılmışdır. Fransızlar bir maraqlı ölkə və onun mədəniyyəti ilə tanışlıqdan aldıqları xoş duyğularla evlərinə qayıtmışlar.

Məqalədə deyilir ki, mərasim yalnız bunlardan ibarət olmamışdır. Tədbir iştirakçılarını daha bir möcüzə – Azərbaycan mətbəxi ilə tanışlıq gözləyirdi. Aşpazların balıqlardan hazırladıqları dadlı yeməklər, tədbir iştirakçılarının indiyə qədər duymadıqları və iyi ətrafı bürümüş kabablar, bol tərəvəz məhsulları, ətri ilə insanı özünə cəlb edən meyvələr və digər nemətlər Azərbaycan mətbəxinin zənginliyindən, məhsul bolluğundan xəbər verməklə yanaşı, hamını əməlli-başlı heyrətə salmışdır.

Yazının sonunda qeyd olunmuşdur ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu təşkil olunmuş belə maraqlı gecə ilə iftixar hissi keçirə bilər. Fransızlar və digər qonaqlar düşüncələrində tezliklə bu ecazkar ölkəyə səfər etmək, onun mədəniyyəti ilə yaxından tanışlıq fikri ilə sehrli gecəni – yaddaşlarda əbədi iz salan gecəni tərk etmişlər.

*"Azərbaycan" qəzeti,*
*5 mart 2011-ci il*





## "TÜRK DÜNYASINA XİDMƏT" MÜKAFATI MEHRİBAN XANIM ƏLİYEVANIN XEYRİYYƏÇİLİK VƏ HAMİLİK MİSSİYASINA VERİLƏN ÖNƏMLİ BEYNƏLXALQ QİYMƏTDİR

Ölkəmizin inkişafı ilə yanaşı onun beynəlxalq miqyasda yüksək imiclə tanınması üçün hər bir azərbaycanlı, ilk növbədə, Vətənin təəssübkeşi olmağı özünə müqəddəs borc bilməlidir. Bu baxımdan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizin beynəlxaq miqyasda təbliği və daha yaxından tanıdılması istiqamətində həyata keçirilən tədbirlər böyük fərəh və qürur hissləri doğurur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik ideallarına tapınaraq siyasi-ictimai, sosial-iqtisadi, mədəni və digər sahələrdə uğurlarını sürətlə artırır. Ulu öndərin müəllifi olduğu müasir Azərbaycanın inkişaf siyasəti Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla, yeni dünya nizamının tələblərinə uyğun tərzdə həyata keçirilir. Dövlət başçısı ümummilli liderin dühasından, onun müqayisəyə gəlməz siyasi və dövlətçilik təcrübəsindən qədərincə bəhrələnərək xalqımızı inamla gələcəyə doğru aparır.

Bu mənada ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi, onun ölməz ideyalarının geniş təbliğ olunaraq praktik tətbiqi və gələcək nəsillərə çatdırılması müasir və sürətlə dəyişən qloballaşma dövründə xüsusən aktualdır. Məhz bu zərurətdən yaranmış Heydər Əliyev Fondu ulu öndərin ideyalarının gerçəkləşdirilməsi prosesində fəal iştirak edir. Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi mədəni-ictimai tədbirlər məhz xalqımızın, ölkəmizin inkişafına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutmasına doğru istiqamətlənib. Azərbaycanın müstəqilliyinin yenidən bərpa olunmasından 20 il ötür. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ölkəmizdə yüksək səviyyədə, təntənəli surətdə qeyd olunacaq. Fərəhli haldır ki, Azərbaycanın dövlət müstəqilliyinin iyirminci ildönümü xarici dövlətlərdə də təntənəli şəkildə qeyd edilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən tədbirlər təqdirə layiqdir. 2011-ci ilin fevralın 17-də Fransanın paytaxtı Parisdə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə respublikamızın dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümünə və "Azərbaycan" kitabının təqdimatına həsr olunmuş möhtəşəm mərasimin keçirilməsi olduqca mühüm hadisə idi. Bu, müstəqilliyimizin bərpasının qeyd olunması ilə bağlı ilk mərasim idi. Azərbaycan mədəniyyətinin təntənəsi dünyanın mədəniyyət paytaxtı hesab olunan Parisdə yaşandı. Mərasimdəki nitqində Mehriban xanım Əliyevanın "Azərbaycan bu il müstəqilliyinin

bərpa olunmasının 20-ci ildönümünü qeyd edir və mən çox şadam ki, bu hadisəyə həsr olunmuş ilk tədbir Fransada keçirilir. Dünyanın ən möhtəşəm, ən gözəl və ən zövqlü şəhərlərindən biri olan Parisdə ölkəmizi, Azərbaycanı təqdim etmək mənim üçün böyük şərəfdir" - deməsi ölkəmizin birinci xanımının dövlətimizin dünyada təbliği və tanınması işinə əsl vətəndaşlıq mövqeyindən yanaşdığından xəbər verirdi.

Bu mərasim onu da təsdiq etdi ki, indi doğma Azərbaycanımızın və mədəniyyətimizin incilərinin sorağı mötəbər siyasi və mədəni mərkəzlərdən gəlir. Bununla bağlı Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən tədbirlər isə əvəzolunmazdır. Parisdəki mərasim həm də Mehriban xanım Əliyevanın mədəni irsimizə olan münasibətinin bariz nümunəsi idi.

Bundan iki ay sonra Azərbaycan yenə də Fransanın gündəmində idi. 2011-ci ilin aprelin 18-20-də Parisdə "Odlar yurdu Azərbaycanın müasir əsərləri", o cümlədən YUNESKO-da Azərbaycan xalçalarının sərgisinin keçirilməsi ilə milli mədəniyyətimiz bir daha Fransa ictimaiyyətinə yüksək səviyyədə təqdim olundu. Bu sərgilər qədim tarixə və zəngin milli mədəni dəyərlərə malik olan ölkəmizin tanıdılması və təbliği baxımından mühüm addım oldu, həmçinin dünya mədəniyyətinin ən böyük hamisi qismində çıxış edən YUNESKO-da Azərbaycana verilən önəmi nümayiş etdirdi. Həmin tədbirlərdə Mehriban xanım Əliyevaya göstərilən yüksək diqqət isə bir daha təsdiqlədi ki, ölkəmizin birinci xanımının Azərbaycanın və onun mədəniyyətinin təbliğinə yönəlmiş fəaliyyəti hər zaman təqdir olunur və buna beynəlxalq miqyasda kifayət qədər ciddi maraq var.

2011-ci ilin mayın 17-də isə mədəniyyətimiz Rusiya paytaxtını fəth etdi. Həmin gün Moskvada Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən müstəqilliyimizin yenidən bərpa edilməsinin 20-ci ildönümünə həsr olunmuş "Azərbaycan gecəsi" adlı təntənəli mərasim əsl mədəniyyət hadisəsinə çevrilərək diqqəti bir daha ölkəmizə yönəltdi. Dövlət Kreml Sarayında keçirilən mərasimdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Rusiyanın birinci xanımı Svetlana Medvedeva iştirak etdilər.

"Azərbaycan gecəsi" çərçivəsində Heydər Əliyev Fondunun ən uğurlu layihələrindən olan "Azərbaycan" nəşrinin rus dilindəki versiyasının təqdimatı maraqla qarşılandı. Qarabağ xalçaçılıq məktəbinin nümunələri isə Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bir daha hamının diqqətinə çatdırdı. Azərbaycan incəsənətinin məşhur simalarının konsert proqramı da janr müxtəlifliyi və zəngin improvizasiyaların mövcudluğu ilə auditoriyanın alqışlarına səbəb oldu. Mərasimdəki nitqi zamanı "Mədəni müxtəliflik qədim mədəniyyət və tarixə malik Azərbaycan xalqı üçün ənənəvidir" – deyən Mehriban xanım Əliyeva müstəqil dövlət kimi ölkəmizin 20 illik tarixində böyük uğurların qazanıldığını diqqətə çatdırdı.

Azərbaycan təmsilçilərinin "Eurovision-2011" mahnı müsabiqəsində qazandıqları qələbə ölkəmizin və mədəniyyətimizin dünyada yaxından tanınması üçün böyük hadisəyə çevrildi. Bu qalibiyyətlə Azərbaycan zəngin irsin və musiqi mədəniyyətinin təmsilçisi olduğunu bir





daha nümayiş etdirdi. Ölkəmizin qatıldığı bu mötəbər mahnı yarışmasında qazandığı böyük uğurda Heydər Əliyev Fondunun və şəxsən Mehriban xanım Əliyevanın böyük xidmətləri var. Prezident İlham Əliyev bunu qiymətləndirərək deyib: "Eurovision"da iştirakımızın təşəbbüskarı Heydər Əliyev Fondu, Mehriban xanım olmuşdur. Biz bu yarışa onun təşəbbüsü ilə qoşulduq".

"Eurovision-2011" mahnı müsabiqəsi Azərbaycanın qələbəsi ilə başa çatdığı üçün ölkəmiz növbəti ildə yarışmaya ev sahibliyi etmək hüququnu qazanıb. Bununla bağlı Prezident İlham Əliyevin sərəncamına əsasən Mehriban Əliyevanın rəhbərliyi ilə Təşkilat Komitəsi yaradılıb. Mehriban xanım Əliyevanın rəhbəri olduğu Təşkilat Komitəsi, sözsüz ki, müsabiqənin layiqincə keçirilməsini təmin edəcək və, beləliklə, növbəti mahnı yarışması Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu daha da artıracaq.

Ölkəmizin birinci xanımı Mehriban Əliyeva indiyə qədər çoxsaylı mükafatlara, təltiflərə layiq görülüb. Bütün bunlar ölkəmizin birinci xanımının nəcib əməllərinə, geniş miqyaslı xeyriyyəçilik fəaliyyətinə verilən yüksək qiymətlərdir. YUNESKO və İSESKO-nun xoşməramlı səfiri olan Mehriban xanım Əliyeva xeyriyyəçilik fəaliyyətinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsində ki töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeni ilə təltif edilib. Mehriban xanım Əliyeva 2005-ci ildə ölkəmizdə "İlin qadını" adına, xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində əldə etdiyi yüksək nailiyyətlərinə görə "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülüb.

Dövlət başçısı İlham Əliyevin 2009-cu ilin 5 may tarixli sərəncamı ilə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın "Heydər Əliyev mükafatı"na layiq görülməsi də onun əzmkar fəaliyyətinə verilən layiqli qiymətdir. Mehriban xanım Əliyeva 2009-cu ildə Polşanın "Xidmətlərə görə" "Böyük Komandor Xaçı" ordeni, 2010-cu ildə isə Fransanın "Şərəf Legionu" ordeni və YUNESKO-nun "Qızıl Motsart" medalı ilə təltif olunub.

Ermənistanın işğal etdiyi ərazilərdən qaçqın və məcburi köçkün düşmüş insanlar üçün Heydər Əliyev Fondunun həyata keçirdiyi humanitar proqramlar, habelə türk dünyası mədəni irsinin zəngin parçası olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəniyyət abidələrinin qorunması və təbliği sahəsində böyük xidmətlərinə görə Mehriban xanım Əliyeva Türk Dünyası Yazarlar və Sənətçilər Vəqfinin (TÜRKSAV) "Türk dünyasına xidmət" mükafatına da layiq görülüb. Bu mükafatın 6 ölkəni təmsil edən şəxslərə və qurumlara verildiyini bildirən TÜRKSAV-ın başqanı Yəhya Akengin Mehriban Əliyevaya "Türk dünyasına xidmət" mükafatını təqdim etməkdən qürur duyduğunu qeyd edib. "Türk dünyasına xidmət" mükafatı vaxtilə xalqımızın ulu öndəri Heydər Əliyevə, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə və digər tanınmış simalara verilib.

Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri sayəsində Azərbaycan mədəniyyəti yeni-yeni zirvələr fəth etməkdədir. Dövlətimizin və

mədəniyyətimizin təbliğ olunmasına xidmət edən bütün bu xoş niyyətlər ulu öndər Heydər Əliyevin ölməz ideyalarından ilham alır. Bu ideyaları layiqincə yaşatdığı üçün həm Heydər Əliyev Fondu, həm də onun prezidenti Mehriban xanım Əliyeva hər birimizin fəxridir.

*"Azərbaycan" qəzeti,*
*5 iyun 2011-ci il*





# "PAKİSTAN OBSERVER" QƏZETİNDƏ HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVANIN FƏALİYYƏTİNDƏN BƏHS EDƏN GENİŞ MƏQALƏ DƏRC OLUNMUŞDUR

Pakistanın nüfuzlu ingilisdilli "Pakistan Observer" qəzetinin 2011-ci il 13 avqust tarixli nömrəsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın fəaliyyətindən bəhs edən geniş məqalə dərc olunmuşdur.

Tanınmış jurnalist Ehasanullah Xanın müəllifi olduğu bu məqalədə Mehriban xanım Əliyevanın Azərbaycanın məşhur ziyalı ailəsinə mənsub olduğu qeyd edilmişdir. Yazıda Azərbaycanın birinci xanımının 1995-ci ildən Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və 2004-cü ildən Heydər Əliyev Fondunun prezidenti kimi xeyriyyəçilik fəaliyyətindən bəhs olunmuşdur.

Müəllif Mehriban xanımın uşaqlara və ahıllara göstərdiyi xüsusi qayğıdan, onlar üçün tikdirdiyi və təmir etdirdiyi çoxsaylı məktəb, səhiyyə ocaqları, musiqi liseyləri və uşaq evlərindən söz açmış, talassemiya və diabetdən əziyyət çəkən uşaqlara xüsusi qayğı göstərildiyini oxucuların diqqətinə çatdırmışdır.

Pakistanlı jurnalist 2005-ci ildə zəlzələ nəticəsində Müzəffərabad şəhərində dağılmış məktəbin yerində Mehriban xanımın təşəbbüsü ilə yeni qızlar məktəbinin tikilməsindən də yazmış, bu addımı Azərbaycan ilə Pakistan arasında dostluq münasibətlərinin təzahürü kimi qiymətləndirmişdir.

E.Xan Heydər Əliyev Fondunun dünya mədəniyyətinə və Azərbaycanın milli mədəni irsinin dirçəlməsinə, habelə muğamın Azərbaycanda inkişafına yönəlmiş fəaliyyətini də xüsusi vurğulamışdır. Məqalədə Mehriban xanım Əliyevanın Azərbaycan Gimnastika Federasiyasının prezidenti olması, bu vəzifədə onun gördüyü işlər və bütövlükdə Azərbaycan idmanının inkişafı istiqamətində atdığı addımlar barədə də ətraflı məlumat verilmişdir.

Qəzetdə xüsusi qeyd olunmuşdur ki, çoxşaxəli fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bir sıra beynəlxalq mükafat və ordenlərlə təltif edilmişdir.

*"Azərbaycan" qəzeti,*
*14 avqust 2011-ci il*

## BİŞKEKDƏ NƏŞR OLUNAN "TÜRKEL" QƏZETİNDƏ AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN FƏALİYYƏTİ HAQQINDA GENİŞ MATERİAL DƏRC EDİLMİŞDİR

Bişkekdə Azərbaycan, qırğız, türk və rus dillərində nəşr olunan Türkiyə, Qazağıstan, Özbəkistan və digər ölkələrdə yayılan "Türkel" qəzetinin bu günlərdə çapdan çıxmış nömrəsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın fəaliyyətinə dair türk və rus dillərində geniş material dərc olunmuşdur.

Məqalədə Mehriban Əliyevanın Azərbaycan mədəniyyətinin dünyada təbliği, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətindəki fəaliyyəti, ölkəmizdə səhiyyənin və təhsilin inkişafına verdiyi töhfələr və s. haqqında ətraflı məlumat verilir.

"Türkel" qəzetinin baş redaktoru, filologiya elmləri namizədi Ramiz Məşədihəsənli bildirmişdir ki, Türkiyə Prezidenti Abdullah Gülün himayəsi və dəstəyi ilə nəşr edilən "Altın Köprü" jurnalının növbəti nömrəsində də Mehriban xanım Əliyevanın fəaliyyətinə dair geniş məqalə veriləcəkdir. İlin sonunadək isə Bişkekdə "Türkel" Beynəlxalq İctimai Təşkilatı tərəfindən Azərbaycanın birinci xanımının fəaliyyətinə həsr olunmuş "Mehriban Əliyeva və Azərbaycan mədəniyyəti" mövzusunda "dəyirmi masa" keçirilməsi nəzərdə tutulmuşdur.

*"Azərbaycan" qəzeti,*
*25 sentyabr 2011-ci il*





## "CRONACA Dİ ROMA": "İNCƏSƏNƏT, MUSİQİ, TƏAMLAR - AZƏRBAYCANIN BİRİNCİ XANIMI ÖLKƏSİNİ BELƏ TƏQDİM EDİR"

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2011-ci ilin noyabrın 28-dən dekabrın 2-dək Vatikanda və Romada səfərdə olmuş, ölkəmizin müstəqilliyinin bərpa edilməsinin 20 illiyi ilə bağlı təntənəli tədbirlərdə iştirak etmiş, bir sıra görüşlər keçirmişdir. Azərbaycanın birinci xanımının səfəri və ölkəmizlə bağlı tədbirlər yerli mətbuatda geniş işıqlandırılmışdır.

"Romanın Opera Teatrının yeni mövsümünü açan Verdinin "Maqbet"i səhnəni uzaqdan gələn musiqiçilərin ixtiyarına verdi. Bir neçə gün teatrın foyesi Avropanın son hüdudları hesab olunan ölkənin bayram tədbirlərinin məkanına çevrildi". Bu, İtaliyanın nüfuzlu "Cronaca di Roma" qəzetinin "Azərbaycanın birinci xanımı Mehriban Əliyeva. Azərbaycanın operada uğuru" sərlövhəli yazısının ilk cümlələridir.

Məqalədə deyilir: "İncəsənət, musiqi, təamlar – Azərbaycanın birinci xanımı ölkəsini İtaliyada belə təqdim edir". Bəli, İtaliya cəmiyyəti bu təqdimatı uzun illər unutmayacaqdır. Çünki Heydər Əliyev Fondunun təşəbbüsü ilə İtaliyanın paytaxtında keçirilmiş təntənəli tədbir rəngarəngliyi, məzmun və forma gözəlliyi, təkrarolunmazlığı ilə qəlblərdə dərin iz buraxdı.

Azərbaycanın birinci xanımının həm Vatikan, həm də İtaliyada görüşləri, həmçinin təntənəli tədbirlər paytaxt Romanın ictimai və mədəni həyatının ən önəmli hadisələri kimi işıqlandırıldı.

"Giornalistica İtalia" agentliyi 2011-ci ilin noyabrın 30-da Azərbaycanın müstəqilliyinin bərpasının 20-ci ildönümü ilə bağlı opera teatrında təşkil olunacaq böyük tədbir barədə anons vermişdir. Yazıda bu tədbirin ölkələrimiz arasında dostluq münasibətlərini daha da möhkəmlədəcəyini bildirilmişdir. "Cronaca di Roma" qəzetinin 2011-ci ilin 2 dekabr tarixli nömrəsində də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın İtaliyaya səfəri və ölkənin Baş nazirinin xanımı Elza Monti ilə görüşü barədə məqalə dərc olunmuşdur. Məqalədə qeyd olunur ki, ölkəsinin müstəqilliyinin bərpasının 20-ci ildönümünün təbliğinin məqsədi ilə İtaliyada səfərdə olan birinci xanım Mehriban Əliyeva Elza Monti ilə görüşmüş, təhsil sahəsində əhəmiyyətli danışıqlar aparmışdır.

Ölkənin ən çox izlənən "roma.repubblica.it" saytında isə Azərbaycanın birinci xanımının İtaliya və Vatikana səfəri ilə bağlı xülasə yerləşdirilmişdir. Xülasədə Mehriban xanım Əliyevanın İtaliyanın Prezidenti Ciorcio Napolitano, kardinal Can-Franko Ravasi və İtaliya Baş nazirinin xanımı Elza Monti ilə görüşləri və aparılan danışıqlar barədə ətraflı məlumat verilmişdir. Sayt yazır: "Azərbaycanın gözəl birinci xanımı Mehriban Əliyeva bir neçə gündür ki, Romada ölkəsinin müstəqilliyinin 20-ci ildönümünü və İtaliya ilə əlaqəli bir sıra dostluq

tədbirlərində iştirak edir. İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. YUNESKO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyeva keçirdiyi bir sıra rəsmi görüşlərdə də iki ölkə arasındakı əməkdaşlığın inkişafı məsələlərindən söhbət açmışdır".

Romanın Opera Teatrında Azərbaycanın müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş tədbir də ölkənin "Tutta Roma" qəzetində ətraflı işıqlandırılmışdır. Məqalədə Azərbaycan mədəniyyətinin kiçik bir parçasının Roma ictimaiyyətində doğurduğu təəssürat öz əksini tapmışdır. Yazıda həmçinin Mehriban xanım Əliyevanın çıxışının xülasəsi də verilmişdir. Qeyd olunmuşdur ki, tədbir İtaliyanın görkəmli insanlarının diqqətini cəlb etmişdir. Ölkənin məşhurlarının da iştirak etdiyi mədəni tədbir böyük maraq yaratmışdır.

"Corriere della Sera" qəzeti isə "Milli Musiqi nümunələri və Vivaldini ifa edən dövlət orkestrinin konserti. Operanın "Azərbaycan gecəsi"" başlıqlı məqaləsində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Roma şəhərində mühüm tarixi abidələrdən birinin bərpası üçün 100 min avro yardım edəcəyini bəyan etdiyi yazılır. Məqalədə, həmçinin İtaliyanın Baş nazirinin xanımı Elza Montinin ilk beynəlxalq səviyyəli görüşünü məhz Azərbaycanın birinci xanımı ilə keçirdiyi vurğulanır.

Vatikanın rəsmisi kardinal Ravazi ilə görüşün şərhində isə Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasındakı əlaqələrdən söhbət açılır. Yazıda deyilir: "Tədbirdə Vatikan kitabxanasında Azərbaycana aid 40-a yaxın əlyazmanın bərpasına başlanıldığı barədə məlumat verildi. Bunların arasında qədim Quranın da olduğu 15 əlyazmanın bərpası artıq tamamlanmışdır. Kardinal Ravazi iki ölkə arasındakı dostluğa əsaslanaraq, Azərbaycan hökumətindən və ölkənin birinci xanımından Müqəddəs Pietro və Marçellinonun Romadakı katakombalarının bərpasına himayədarlıq etməyi xahiş etdi".

İtaliyanın daha bir nüfuzlu qəzeti "la Repubblica" 2011-ci il 2 dekabr tarixli nömrəsində yer almış "Bu gün operada Azərbaycan gecəsi" sərlövhəli məqaləsində yazır: "İtaliya Azərbaycanı bağrına basır. Keçmiş Sovet respublikasının müstəqilliyinin 20 illiyi münasibətilə bu gün opera teatrında təntənəli tədbir keçiriləcəkdir. Musiqili gecənin əsas məqsədi İtaliya ilə yüksək səviyyəli iqtisadi əlaqələrə malik olan Azərbaycan mədəniyyətinin təqdim edilməsidir. Gecənin sahibi Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır".

İtaliya mətbuatının yazdığı kimi, Azərbaycanla bağlı tədbirlər çox geniş əks-səda doğurmuşdur. Bu heç də təsadüfi deyildir. Birinci xanım Mehriban Əliyevanın Azərbaycanın müstəqillik illərində əldə etdiyi uğurlar barədə zəngin faktlara əsaslanan dolğun çıxışları, dahi bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" operasının ürəkləri riqqətə gətirən uvertürası, xalqımızın qədim mədəni irsinin əvəzsiz inciləri olan xalçalarımız, misgərlik nümunələri, milli musiqi alətləri, xalq mahnılarımız, zəngin mətbəximiz italiyalıların da ürəyini ovsunladı. Bu unudulmaz tədbirlərin mahiyyətini Mehriban xanım Əliyeva çox dəqiq ifadə edərək demişdir: "Biz bu axşam mədəniyyətimizin kiçik bir hissəsini sizin diqqətinizə təqdim edəcəyik və ümidvaram ki, sizin ürəyinizdə bizim ölkəyə olan maraq və hörmət daha da artacaqdır.





Ümidvaram ki, bu gün birgə keçirdiyimiz axşam dövlətlərimizi və xalqlarımızı bir-birinə daha yaxın və bağlı edəcəkdir". Mehriban xanım Əliyevanın bu fikirləri İtaliya mətbuatında Azərbaycanla bağlı geniş yer almış yazılarda da təsdiqini tapmışdır. Müstəqilliyimizin bərpasının 20 illiyinin Avropanın qədim mədəniyyət beşiyi olan Romada təntənəli surətdə qeyd edilməsi hələ uzun müddət yaddaşlarda yaşayacaqdır.

*"Azərbaycan" qəzeti,*
*4 dekabr 2011-ci il*

## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA MOSKVA DÖVLƏT TİBB UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADINA LAYİQ GÖRÜLMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Rusiya Federasiyasının dünya şöhrətli İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru adına layiq görülmüşdür.

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Tibb Elmləri Akademiyasının müxbir üzvü, tibb elmləri doktoru, professor Pyotr Qlıboçkonun bu barədə məktubunda deyilir: "İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rəhbərliyi Azərbaycanın birinci xanımı Mehriban Arif qızı Əliyevanın xüsusi xidmətlərinin etirafı əlaməti və onun səhiyyə, ətraf mühitin, sülhün və humanizmin qorunması ilə bağlı qlobal problemlərin həllinə sanballı töhfəsinə görə ona İ.M.Seçenov adına Birinçi Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru adı verilməsi haqqında qərar qəbul etmişdir. Xanım Əliyevanın xeyriyyəçilik fəaliyyəti Rusiya Federasiyasında yüksək qiymətləndirilir. Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyi Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı ilə birlikdə bir sıra mühüm layihələr, o cümlədən "Xərçəng xəstəliyinin milləti yoxdur", "Gənclər QİÇS-in və narkomaniyanın əleyhinədir", "Sağlam olmağını yəqin et" kimi layihələr, habelə xəstəxanalarda, uşaq evlərində və veteranlar üçün evlərdə digər xeyriyyə aksiyaları həyata keçirir. Xanım Əliyevanın ana və uşaqların mühafizəsinə, talassemiya, uşaq diabeti və digər xəstəliklərə qarşı mübarizəyə yönəlmiş həyati əhəmiyyətli proqramlarda iştirakı olduqca qiymətlidir. Bizim üçün xüsusilə əhəmiyyətli və xoşdur ki, ali məktəbimizin məzunu olan xanım Mehriban Arif qızı Əliyeva öz fəaliyyəti ilə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetini beynəlxalq miqyasda tanıdır və onun nüfuzunu artırır".

Qeyd edək ki, tibb aləmində böyük nüfuz sahibi olan alim və ictimai xadim məzunları ilə beynəlxalq miqyasda tanınan İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru adına bu vaxtadək yalnız iki nəfər – dünya şöhrətli kardioloq, Rusiya Elmlər Akademiyasının akademiki Yevgeni Çazov və dünya şöhrətli ürək cərrahı, Rusiya Elmlər Akademiyasının akademiki Leo Bokeriya layiq görülmüşlər.

***"Azərbaycan" qəzeti,***
***14 fevral-2012-ci il***





## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA "İLİN BİRİNCİ XANIMI" MÜKAFATI İLƏ TƏLTİF EDİLMİŞDİR

Türkiyənin nüfuzlu iqtisadiyyat və iş dünyası nəşri olan "Ekovitrin" jurnalının keçirdiyi sorğunun nəticələrinə görə, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2011-ci ilin yekunları üzrə "İlin birinci xanımı" nominasiyasının qalibi olmuşdur.

İstanbuldakı "Green Park" hotelində mükafatın təqdim olunması mərasimini "Ekovitrin" jurnalının sahibi Kamran Abaçıoğlu açaraq, laureatları və qonaqları salamlamış, jurnalın keçirdiyi sorğu haqqında ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, sorğu iki ay davam etmiş, 34 nominasiya üzrə 102 siyasət, biznes, incəsənət və elm xadiminə 251 min 562 səs verilmişdir. İki ay davam edən səsvermədən sonra ilin ulduzları müəyyən olunmuşdur.

Salona toplaşan nazirlər, beynəlxalq təşkilatların nümayəndələri, millət vəkilləri, Türkiyənin və dünyanın nüfuzlu iş adamlarının sürəkli alqışları altında Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın layiq görüldüyü "İlin birinci xanımı" mükafatını İslam Əməkdaşlıq Təşkilatının baş katibi Ekmələddin İhsanoğlu və Kamran Abaçıoğludan qəbul etmişdir.

***"Azərbaycan" qəzeti,***
***13 iyun 2012-ci il***

## ANA ADI AZƏRBAYCANDA ƏN UCA ADDIR

Ana adı Azərbaycanda ən uca addır və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva bu şərəfli missiyanın parlaq təcəssümüdür. Almaniyanın Potsdam şəhərində yaşayan həmvətənimiz Günel Qurbanın aşağıda mətni təqdim olunan məktubunda bu barədə bəhs edilir.

"Dekabrın 28-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva cəmiyyətin himayəsinə və diqqətinə ehtiyacı olan uşaqlarla birlikdə Yeni il şənliklərində iştirak etdiyi gündən müxtəlif hisslər keçirirəm. Buradan, Almaniyadan Azərbaycanda baş verən hadisələrin çoxu daha qabarıq görünür.

Mən Vətənimdə hər gün baş verən proseslərdə özümün də müəyyən qədər iştirakımı duymaq üçün dövri nəşrləri diqqətlə izləyirəm. İqtidar, müxalifət, siyasət, mənasız mübahisələr – bütün bunlar arxa plana keçir. Gözlər və ürək nə isə başqa, daha əhəmiyyətli xəbərlər axtarır və belə anlarda insan öz qəlbinin səsinə, özünəməxsus mənəvi qanunlara qulaq asmağa başlayır. Heydər Əliyev Fondunun fəaliyyətindən bəhs edən saytda oxuyuram: Azərbaycanda yüzlərlə məktəb tikilməsi, qaçqın və məcburi köçkünlərin, Qarabağ müharibəsi əlillərinin və şəhidlərin ailələrinə daimi qayğı göstərilməsi və bu fəaliyyətin bir sıra başqa aspektləri olduqca təsirli və diqqətçəkəndir. Lakin bunlar yalnız quru statistikadır. Statistika insanın ürəyi ilə deyil, ağlı ilə qəbul edilir.

Yuxarıda adını çəkdiyim bayramla əlaqədar fotoşəkillərə baxanda məndə belə bir duyğu yarandı. Böyük məhəbbət və şəfqət hissi ilə dolu gözlər sanki bütün Kainata car çəkir: "Mən bu uşaqların taleyini dəyişəcəyəm, onlar özlərini tənha hiss etməyəcəklər, mən onların ağrı-acısına şərik olacaq, onlara ehtiyac duyduqları hərarəti verəcəyəm". Bu məqamda anlamağa başlayırsan – qarşımızdakı Mehriban Anadır.

Gözlər qəlbin aynasıdır. Bu gözlər isə deyir ki, başqasının kədərini duymağı, onun dərdinə şərik olmağı bacaran, zərif, incə qəlbli bir insan olan Mehriban Ana son dərəcə nəcib işlə məşğuldur. Mən Mehriban Ana ilə eyni dövrdə yaşamağıma görə fəxr edirəm. Vaxt gələcək, onu haqlı olaraq xalqın Anası və Vicdanı adlandıracaqlar. Bu gün o, cəmiyyətin mənəvi təkamülünün rəmzi və ruporudur, onun bütün fəaliyyəti yaxşılığa, şəfqətə, mənəvi-əxlaqi dəyərləri ucaltmağa çağırışdır. Onun həyatı və fəaliyyəti yüksək mənəviyyata əsaslanan cəmiyyətin mümkünlüyünə inanmayanlara örnəkdir.

Mehriban Ananın çıxışlarında, məqalələrində bəşər cəmiyyətinin mahiyyətini bir ana kimi anlamağa əsaslanan cəmiyyət qurmaq hədəfi aşkar görünür. Mehriban Ananın rəhbərlik etdiyi Fondun Gürcüstanda, Pakistanda məktəblər tikməsi, Paris Notr-Dam kilsəsini bərpa etməsi, Strasburqdakı kilsənin təmirində iştirakı və digər beynəlxalq layihələri şəfqət hissini bəşəriyyə-





ti birləşdirə biləcək ideyaya çevirmək arzusunun təcəssümüdür. Bu, bir daha sübut edir ki, biz azərbaycanlılar milli eqoizm hissindən uzağıq. Onun bütün beynəlxalq layihələri planetar Zəka və Vicdanın təntənəsidir.

Muğam sənətinin dirçəldilməsi ilə bağlı layihəni xüsusi vurğulamaq istərdim, çünki burada o, Azərbaycan incəsənətini təbliğ edən prinsipcə yeni, adi seyrçilik, məmnunluq çərçivəsindən kənara çıxan, ictimai məna kəsb edən anlamın təməlini qoya bilmişdir. İndi muğam beynəlxalq səviyyədə Azərbaycan xalqının mentaliteti, onun kökləri ilə assosiasiya edilir".

*"Azərbaycan" qəzeti,*
*13 yanvar 2013-cü il*



MÜNDƏRİCAT


VI FƏSİL. Azərbaycan qadınının diplomatik fəaliyyətinin bəzi cizgiləri........................................ 5

VII FƏSİL. Birinci xanımın Azərbaycan xalqının mədəniyyəti və incəsənətinin inkişafında və təbliğində rolu .................................. 117

VIII FƏSİL. Körpələrə analıq qayğısı........................................ 223

IX FƏSİL. Birinci xanımın kömək əli, xeyriyyəçilik fəaliyyəti........................................ 273

X FƏSİL. Mehriban xanım Əliyeva və Azərbaycan idmanı........................................ 329

XI FƏSİL. Mehriban xanım Əliyeva haqqında yazılan məqalələrin bir qismi........................................ 355